Malik Bədri

Peyğəmbərlərin həyatının emosional aspektləri: psixoloji düşüncələr

Peyğəmbərlərin həyatının emosional aspektləri: psixoloji düşüncələr

Malik Bədri

Beynəlxalq İslam Fikri İnstitutu

“İdrak” İctimai Birliyi

Peyğəmbərlərin həyatının emosional aspektləri: psixoloji düşüncələr (Azeri)
Malik Bədri

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1445 (hicri) / 2023 (miladi)
Paperback ISBN: 978-9952-559-39-2

Al-jawānib al-`āṭifiyya fī hayāt al-anbiyā`: kashf wa taā`mmulā`t nafsiyya (Azeri)
Mālik Badrī

© The International Institute of Islamic Thought (IIIT)
1442 AH / 2021 CE
ISBN 978-605-06675-6-1 *paperback*
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
fəlsəfə üzrə fəlsəfə doktoru
Elvüsal Məmmədov
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (3-32/2-322/2023, 1 mart 2023-cü il)

Bütün hüquqlar qorunur.

Giriş

İslam prizmasından psixologiya elminin əsasının qoyulması problemi ilə keçən əsrin altmışıncı illərindən maraqlanmağa başlamışdım. Bu mövzuda ilk mühazirəmi 1963-cü ildə – İordaniya universiteti Psixologiya şöbəsinin müdiri olarkən oxumuşdum. Mühazirə tələbələr, eləcə də psixologiya və sosial elmlərin mütəxəssisi olmayan dinləyicilər tərəfindən rəğbət və yüksək coşqunluqla qarşılanmışdı. Müəllim həmkarlarım isə məni tənqid atəşinə tutaraq bildirmişdilər ki, fizika və kimya kimi psixologiya da təcrübi elm olub, din və fəlsəfədən uzaqdır.

Yadımdadır, onlardan biri məni bərk azarlamışdı: "Bizi geriyəmi aparmaq istəyirsən? "Mömin" fizika, yaxud "kafir" kimyadanmı söz açırsan? Onda Freydə, onun psixoanaliz təliminə nə üçün islam prizmasından yanaşırsan?" Eyni mühaziräni yetmişinci illərin ortasında Ər-Riyad universitetində yenidən oxuduğumda səhnənin təkrarlanmağına baxmayaraq, xüsusən Malayziya Beynəlxalq İslam Universitetində işləməyə başladıqdan sonra islam prizmasından psixologiya elminin əsasının qoyulmasına olan həvəsim daha da artmışdı.

Tələbələrimə Qərb psixologiya elminin təcrübə ilə isbatlanmış müddəalarını qərbli psixoloqların insan təbiəti və həyatı haqqında materialist nöqteyi-nəzərə söykənən, bəzən də şəxsi mövqeyi ifadə edən əsassız dünyəvi iddiaları və sapqın fikirlərindən, anormal təsəvvürlərindən fərqləndirməyi öyrədirdim. Onlara müsəlman psixoloji

fikrinin üstünlüyündən danışır, Peyğəmbərin həyatı və nəcib keyfiyyətlərindən, səhabələrin ömür yolundan, klassik alimlərimizin kitablarından misallar gətirirdim. Səksəninci illərdə fikirlərimi xülasə ilə "Təfəkkür: idrakdan qavrayışa doğru" kitabında toplamışdım. Kitab Qahirədə işıq üzü görmüşdü.

Keçən əsr geridə qaldığında məni Məhəmməd peyğəmbərin nəcib keyfiyyətlərini islam psixologiyası baxımından izah edən ayrıca kitab yazmaq istəyi bürümüşdü. Kitabda əsas diqqətimi onun şərəfli həyatının emosional aspektlərinə, çıxarılacaq psixoloji və mənəvi dərslərə vermək istəyirdim.

Kitabıma diqqətəlayiq ad da seçmişdim: "Peyğəmbərlərin böyüyünün həyatında emosiya və riqqət". Məhəmməd peyğəmbərin həyatı və nəcib keyfiyyətlərinə dair ən mühüm mənbələri toplayıb yazmağa başladım. Emosiya və həyəcanlanmanın mahiyyətindən bəhs edən birinci fəsli qurtarıb ana mövzuya giriş etdikdən sonra qərara gəldim ki, Həzrət Məhəmmədin hisslərinə (emosiyaları) dair düşüncə və fikirlərimi Quranda əhvalatları bir qədər müfəssəl verilmiş Musa və Yusif kimi digər peyğəmbərlər haqqında deyilənlərlə zənginləşdirim.

Qərara gəldim ki, kitabım ümumi şəkildə peyğəmbərlərin həyatının emosional aspektlərindən bəhs etsin. Bu, mövzu ilə əlaqəli ilk kitab olacaqdı. Allah qoysa, bundan sonra Məhəmməd peyğəmbərin həyatının emosional tərəflərindən söz açan növbəti kitabı hazırlayacağam. Bu kitabı islam psixologiyası sahəsində tələbələrimin istifadə edəcəkləri mənbə olaraq hazırladığımdan mühazirələrimdə olduğu kimi üslubun asan olmağına diqqət yetirmişəm. Quru akademik tədqiqatlara xas mürəkkəb və qəliz üslubdan uzaq durmuşam. Bu səbəbdən hisslərimi, düşüncələ-

rimi ifadə etməyə üstünlük vermişəm. Bu, kitabın adının seçilməsində də özünü göstərir. Bəlkə də, belə üslub kitabın məzmununu psixologiya sahəsinin mütəxəssisi olmayan adi oxucu üçün asan və anlaqlı etmişdir. Həmçinin peyğəmbərlərin həyatından iqtibaslar gətirərkən onların bioloji, psixoloji və mənəvi cəhətdən formalaşdırmasındakı ilahi hikmətə dair mülahizələrimi Allahın onlara göndərdiyi sınaqları izah edəcək şəkildə açıqlamağa çalışmışam.

Bu tədqiqatın ərsəyə gəlməsində mənə kömək etmiş hər kəsə dərindən minnətdarlığımı bildirirəm. Hər şeydən əvvəl, Malayziya Beynəlxalq İslam Universitetinin keçmiş şöbə müdiri, professor-doktor Züleyxa Qəmərəddinə, Universitetdə İbn Xəldun Elmi Araşdırma kafedrasına müdir seçilməyimi təmin edən Universitet Şurasına təşəkkür edirəm. Həmin kafedrada işləmək imkan vermişdi ki, digər işlərdən ayrılaraq sözügedən kitabın ilk fəslini əmələ gətirən müddəaları araşdırım.

Malayziya Beynəlxalq İslam Universitetində ikən mənə baş çəkən, rəhbərlik etdiyi universitetdə mühazirə oxumağımı xahiş edən İstanbul Səbahəddin Zəim Universitetinin rektoru, professor Mehmet Buluda, kitabımı universitetə təqdim etdiyinə görə həmin universitetin İslamşünaslıq kafedrasının müdiri, professor Həsən Kamil Yılmaza, kitabın mövzusu ilə əlaqədar məni televiziya kanallarında silsiləvi verilişlərə dəvət etdiyi üçün Mərmərə universitetinin təsəvvüf professoru Süleyman Dərinə, kitabın üslubu və məzmununda apardığı redaktə işinə görə Xalid Dağıma, mənim yerimə tədris və inzibati işləri yerinə yetirmiş köməkçim İsa Şakirə, nəhayət, kitabımın akademik nəşrində pay sahibi olan Beynəlxalq İslam Fikri İnstitutuna öz dərin minnətdarlığımı bildirirəm. Mənə bu işdə kömək

edən, amma adlarını çəkmədiyim şəxslərdən üzrxahlığımı qəbul etmələrini xahiş edirəm.

Hər şey həmişə Allahın ixtiyarındadır! Böyüyümüz Məhəmmədə xeyir-dua olsun!

Malik Bədri
İstanbul, iyun 2020.

Ön söz

Bu gün ərəb psixoloqlar "emosiya" sözünün ərəbcə qarşılığı kimi yekdilliklə "infial"[1] sözünü göstərirlər. Amma biz peyğəmbərlərdən danışarkən "atifə"[2] sözünə üstünlük veririk. Bunun üç səbəbi vardır: birincisi, "infial" sözü mənfi məzmun ifadə edir, çünki modern psixologiya, əsasən, insandakı patoloji hallara köklənir. Həmçinin bu sözü insanlar daha çox havalılığı bildirən qəzəb halı üçün işlədirlər. Məsələn, "Filankəs həyəcan keçirir" dediyimizdə ətrafımızdakılar başa düşürlər ki, həmin şəxs hirslənib, kiminsə tövsiyəsinə, ağlının səsinə qulaq asacaq halda deyildir. Bu səbəbdən biz psixoloqların qəbul etməsinə baxmayaraq, bu termini peyğəmbərlərin və onların böyüyü Həzrət Məhəmmədin duyğularının təsviri zamanı istifadə edilməsini münasib saymırıq.

İkinci səbəb ərəb dilində bu terminin qeyri-dəqiq olmağı ilə əlaqəlidir. Qorxu, narahatlıq, qəzəb, xoşbəxtlik və digər emosiyalar müxtəlif fiziki, hormonal və psixoloji dəyişikliklərlə müşayiət olunur. Həyəcanlanma fərdin hansı isə qıcıqlandırıcıya (stimula) reaksiyası nəticəsində fiziki dəyişikliklərlə müşayiət olunan mürəkkəb emosional vəziyyətdir. Bu baxımdan həyəcanlanma müsbət və mənfi ola bilir. Həyəcanlanma sözünün ərəbcə qarşılığı sayılan "infial" sözü keçmiş zaman "fəələ" felindən törəyib. Ərəb

[1] həyəcan keçirmə, həyəcanlanma
[2] hiss, həssaslıq, duyğulanma

dilində "fel"[1], İbn Mənzurun dediyi kimi[2], təsirli və təsirli olmayan hər növ hərəkəti bildirir və emosional aspektinin olmağı şərt deyildir. Qurani-Kərimdə Allah İbrahim peyğəmbər və ailəsi haqqında buyurur:

"Biz onlara xeyirli işlər görməyi vəhy etdik" (əl-Ənbiya, 73).

Möminlərin təsvirində oxuyuruq:

"O kəslər ki, zəkat verərlər" (əl-Muminun, 4).

Həmçinin Quranda Fironun dili ilə Musaya deyilir:

"Axırda elədiyini də elədin" (əş-Şüəra, 19).

Üçüncü səbəbə gəlincə, "atifə" sözündə psixoloqların "infial" sözünə yüklədikləri mənaya müvafiq məzmun mövcuddur. "Atifə" sözü son dövrlərdə "mərhəmət", "şəfqət" sözlərinin sinonimi kimi işlədilsə də, "əymə, qatlama" mənalı "ə-t-f" kökündən törəyib. İbn Mənzur özünün "Lisan əl-ərəb" kitabında belə bir nümunə göstərir: "ataftu ra`səl-xaşəbəti fənatafə, əy, hənəytuhu fənhənə" (budağın başını əydim (qatladım), əyildi). Həmçinin belə deyilir: "munataf əl-vadi", yəni vadinin dönən hissəsi"[3].

Qurani-Kərimdə Uca və Pak Allah təkəbbürlü kafirləri təsvir edərkən buyurur:

"O, boynunu (təkəbbürlə sağa-sola) əyərək (insanları) Allahın yolundan çıxarmaq məqsədilə bunu edər" (əl-Həcc, 9).

Fikrimcə, bu vəziyyət ərəb dilinin ifadə və sözyaratma potensialına dəlalət edir. Ərəblər insandakı psixoloji tələ-

[1] görmə, etmə; iş, əməl

[2] Əbülfəzl Cəmaləddin Məhəmməd Mükərrəm ibn Mənzur. Lisan əl-ərəb. Beyrut: "Dar sadir", (çap tarixi göstərilməyib), XI cild, səh. 528-529.

[3] Əbülfəzl Cəmaləddin Məhəmməd Mükərrəm ibn Mənzur. Lisan əl-ərəb. Beyrut: "Dar sadir", (çap tarixi göstərilməyib), IX cild, səh. 248-252.

tümləri (“əyilib-qalxma”ları) ifadə etmək üçün bu sözdən istifadə etmişlər.

Müasir psixologiyada “infial” (həyəcanlanma) fərdin psixoloji, üzvi və əməli davranışlarında “dolaşıqlığ”ı ifadə edir. Şüurda pozulma qəzəb, kədər, qorxu və narahatlıqla baş verir. Üzvi-fiziki pozğunluq dedikdə üz cizgilərinin dəyişilməsi, sinir və hormonal sistemdə oyanma nəzərdə tutulur. Davranış pozğunluğuna isə söyən, vuran, yaxud əsəbiləşdirən şəxsə qışqırma, qorxudan şəxsdən qaçma, kədər və məyusluq anında ağlama daxildir.

Bir sözlə, İbn Mənzur “ətəfə” sözünü fərdin xoşlamadığı, yaxud xoşladığı hər şeyə şamil etmişdir. Elə isə biz tədqiqatımızda peyğəmbərlərdən danışarkən emosiya sözünün tərcüməsi kimi “atifə” sözündən istifadə edəcəyik. Digər yerlərdə isə “infial” sözünə müraciət ediləcəkdir.

Kitabın üslubu: ciddi akademik üslub, yoxsa emosional düşüncə tərzi?

“Emosiya” sözünün seçilmə səbəbini izah etdikdən sonra oxucuma demək istəyirəm ki, bu kitabda ağır akademik üsluba üstünlük verməmişəm. Düşüncələrimlə söhbət aparmışam və bu söhbətlərin bir hissəsi şəxsi təcrübədən, mətn və hadisələrə dair düşüncələrimlə əlaqəli ilhamdan irəli gəlir. Düşüncə və hadisələrə münasibətdə belə dəsti-xəttin seçilməsini mövzunun özü şərtləndirir. Odur ki kitabın adına “psixoloji düşüncələr” ifadəsini daxil etmişəm. Məqsəd obyektivliklə subyektivlik, elmlə hikmət (müdriklik), qaydalarla düşüncələr arasında balans yaratmaqdır.

Bu tədqiqatı aparmaqda məqsədim etiqad və peyğəmbərlərin həyatının başlıca məsələlərini öyrənən islam bilik sahələri ilə psixologiyanın əlaqəsinə dair bir sıra anlayış-

ların redaktə edilməsində pay sahibi olmaqdır. Həmçinin mühitə uyğun olaraq peyğəmbərlərin seçilməsində ilahi hikməti izah etməyə cəhd göstərmişəm. Psixologiya elmi bu hikmətin bəzi gizli tərəflərini aşkara çıxara bilər. Ümid-varam ki, tədqiqatımız tələbələrin karına gələcəkdir.

Bu araşdırma peyğəmbərlərin emosiyalarına dair şəxsi mülahizələrdən ibarət olduğu üçün dinin hökmlərindən, fiqh məsələlərindən bəhs etmir. Burada nəcib xüsusiyyətlər (***şəmail***), üstün əməllər (***fəzail***) və xeyirxahlıq, ürəyiyumşaqlıq (***rəqaiq***) haqqında danışılır. Bu baxımdan səhih hədislərə üstünlük versəm də, yerinə görə "zəif" hədislərə də müraciət etmişəm. Deyilənə görə, İmam Əhməd və başqaları onları "zəif" hədis hədislərdən istifadə etdikləri üçün qınayanlara deyirlərmiş: "Halal və haram (məsələlərində) Peyğəmbərdən (hədis) rəvayət etdiyimizdə istinadlarda tələbkar davranırdıq. Amma əməllərin fəziləti (məsələsində), hökm qoymayan, yaxud onu ləğv etməyən (işlərdə) Peyğəmbərdən (hədis) danışdığımızda istinadlarda güzəştə gedirdik"[1].

Qeyd edək ki, "zəif" hədis dedikdə puç, yaxud uydurma hədis nəzərdə tutulmur. Söhbət hədis alimlərinin təsis etdikləri dəqiq və qəti şərtlərin hamısına cavab verməyən hədis növündən gedir.

[1] Əbubəkr Əhməd ibn Əli ibn Sabit əl-Xətib əl-Bağdadi. Əl-Came li-əxlaq ər-ravi və adab əs-same / araşdırıb çapa hazırlayan: Məhəmməd Üccac əl-Xətib. Beyrut: "Risalə", 1989, II cild, səh. 122. Yuxarıdakı fikir Əhməd ibn Hənbəllə yanaşı, həm də Əbdürrəhman ibn Mehdi və İbn əl-Mübarəkə aiddir.

Birinci fəsil

Müasir psixologiya peyğəmbərlərin məziyyətlərinin öyrənilməsində işə yarayırmı?

Bəzi qərbli alimlər XX əsri psixologiya əsri adlandırırlar. Çünki psixologiya elmi Qərbin dünyəvi anlayışlarının formalaşmasına böyük təsir göstərməklə yanaşı, həm də qərblilərin özlərinə, yaşadıqları mühit və gələcək həyatlarına baxışlarını böyük ölçüdə müəyyənləşdirir. Bəzi müəlliflər göstərir ki, psixologiya Qərbin yeni dini halına gəlməklə Kilsənin yerini tutmuşdur; psixoloqlar isə "fərdin özünə tapınması və dünyəvilik məbədləri"nin keşişlərinə çevriliblər[1]. Bu ona görədir ki, Qərbdə digər elmlər kimi psixologiya da materialist-dünyəvi insan təsəvvürünü mənimsəyib. Elm sahələri arasında təkcə psixologiya qərbliləri bu təsəvvürün qəbul edilməsinə daha çox inandıra bilib. Beləliklə, həmin təsəvvür Kilsənin geri çəkilməsi və dindən imtina nəticəsində yaranmış boşluğu dolduran ideologiya halına gəlib. İnsan təbiəti və davranışlarını öyrənən müasir psixologiya dünyəvilik fikrini ateizm inqilabının bütün dəlil-sübutları ilə təmin etmişdir. Dünyəvilik insanı özünün ağası halına gətirmiş, vaxtı ilə Kilsəyə aid bütün etik-hüquqi səlahiyyətləri ona ötürmüşdür. Dünyəvi insan dinin təlimlərini inkar edərək, sağlam insan təbiətinə zidd olan əksər davranışları özü üçün məqbul sayır. Elə isə belə bir ixtisas peyğəmbərlərin nəcib keyfiyyətlərinin öy-

[1] Vitz. P. (1977) Psychology as a religion: The cult of self worship. London: William Eerdmans Publishing

rənilməsində işə yaraya bilərmi? Cavab sual ünvanlanan, yaxud soruşan şəxsin seçəcəyi psixologiya sahəsindən asılı olaraq dəyişir.

Peyğəmbərlərin emosiyalarının öyrənilməsində qeyri-məqbul sayılan, yaxud müəyyən redaktə tələb edən ən mühüm psixoloji nəzəriyyələr

Qərb psixologiyası məzmunca daha konkret hesab olunan ictimai elmlərdən (tarix...) fərqlənən yeganə sahədir. O, müasir təcrübi elmlərin bir sıra cəhətləri ilə əksəriyyəti elmi sübutlara söykənməyən müxtəlif təsəvvürlərin dünyəvicəsinə qarışığından ibarətdir. Həmin təsəvvürlərin bir hissəsinə anormal materialist şişirtmə və uydurmalar daxildir. Psixologiya ixtisası üzrə kurrikulumlara məhz bu təsəvvürlərlə əlaqəli mövzular daxil edilib. Qeyd edək ki, Qərbdə psixologiya kitablarının səhifələrini müxtəlif psixologiya məktəblərinin aparıcı təmsilçilərinin insan təbiətinə dair şəxsi təsəvvür və ideyalarına söykənən informasiya doldurur.

Elmilikdən danışsalar da, bu alimlər nə laboratoriyalarda, monitorinqlərdə vaxt keçirmiş, nə də müxtəlif eksperimentlər aparmışlar. Onların dediklərinin böyük hissəsi subyektiv fikirlərdir; bu fikirlər ya şəxsi həyatlarının, yaşadıqları mədəni mühitin, ya valideyn tərbiyəsinin, ya da psixoloji problemlərinin təsiri altında meydana çıxmışdır. Amma müəyyən hissəsi məntiqə sığmayan, əxlaq prinsipləri ilə üst-üstə düşməyən bu təsəvvürlər[1] psixologiya məktəbləri davamçılarının çoxsaylı tədqiqatlarının başlıca mənbəyini əmələ gətirir. Hər qrup aid olduğu psixoloji

[1] İnsan təbiətinə dair təsəvvürlər nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

məktəbin banisinin ideyalarını isbatlamağa çalışır. Çünki bu təsəvvürlərin hər biri nəzəri-əməli psixoloji iddianın əsaslandığı baza rolunu oynayır. Odur ki insan təbiətinin mahiyyətinə dair hər növ təhrif psixoloji iddianın əsaslandığı bazada aşınmaya səbəb olmuş, bu iddiaya söykənən nəzəriyyələr – tərəfdarlarının nəzərində elmi hesab olunsa da – saxta elmə çevrilmişdir.

Psixologiyanın bir elm kimi yaranmasından yüz il keçdikdə Amerika Psixoloqları Assosiasiyası ABŞ-ın ən məşhur psixoloq və mütəfəkkirlərindən birinə elmi statusu və məhsuldarlığı baxımından bu ixtisası qiymətləndirməyi tapşırmışdı. Bu, Boston universitetinin professoru Ziqmund Kox idi[1]. Kox psixoloq olmaqla yanaşı, fəlsəfə və tənqid elmini də yaxşı bilirdi. Vəzifəsinin öhdəsindən bacarıqla gələn Kox sanballı hesabat hazırlayır. Hesabatdakı ən mühüm hissənin tərcüməsi aşağıda ixtisarla verilmişdir: "Təşəkkül tapması üçün çəkilən zəhmətdən tam yüz il ötməsinə baxmayaraq, psixologiya elmində cüzi gerçəklik və məhdud yaradıcı fikirlərin şahidi oluruq. Çünki bu ixtisasda elmi olduğu iddia edilən, amma elmi olmayan məlumatlar dominantlıq edir. Bu məlumatlar psevdobiliklərdən başqa bir şey deyildir"[2].

Psixologiyada dominantlıq edən bu saxta biliklərin insanlara təsiri böyükdür. Psixologiya insan təbiətinə dair müxtəlif sadəlövh təsəvvürlərlə doludur. Bu təsəvvürlərin doğruluğunu göstərmək üçün bir çox nəzəriyyə və metod irəli sürülüb. Əgər bir psixoloq insanın tarakan və ya siçan, yaxud it olduğuna inansaydı, belə əcaib insan təsəvvürünü əsaslandırmaq üçün nəzəriyyə də irəli sürəcəkdi. Həmçinin müxtəlif məktəblərin əsas təmsilçiləri insanı "telefon

[1] Koch, Sigmund in Brown, S.C. ed. (1979) Philosophy of psychology. London: The Macmillan Press Ltd.
[2] Yenə orada.

danışıqlarının ötürücüsü" (biopsixologiya), "tərif və mükafat hərisi, yaxud stimulla reaksiya arasına qoyulan tire" (biheviorizm), "kompüter" (koqnitiv psixologiya), "cinsi enerji transformatoru" (psixoanaliz) hesab etdiklərindən müvafiq saxta nəzəriyyələr meydana çıxmışdı.

Təsəvvürlər və düşüncə məktəbləri, saxta biliklərə söykənən nəzəriyyələr çoxdur. Amma biz psixologiyanın təşəkkül tapmasında əsas rol oynamış üç məktəb haqqında danışmaqla kifayətlənəcəyik. Ərəb və Asiya ölkələrinin universitetlərində psixologiya kurrikulumlarında məhz bu üç məktəbdən daha çox danışılır. Bunlar Freydin psixoanalizi, biheviorizm və biopsixologiyadır.

Psixoanaliz

Psixologiya elminin formalaşmasına çox böyük təsiri göstərmiş ən klassik təsəvvürlə mövzuya giriş edək. Söhbət banisi Freyd olan psixoanalizdən gedir. Freydə və psixoanalitiklərə görə insan təbiət etibarı ilə cinsi (seksual) instinktlərin hakim kəsildiyi eqoist heyvandır. İnsanın heyvantəbiətli olduğunu bildirməklə Freyd xristian inancını alt-üst etmişdi. Xristianlığa görə, bir insan vaxtı ilə Adəmin qadağan olunmuş ağacdan yeyərək törətdiyi ilk günahla doğulur və din ona yaxşı işlər etməklə, günahlarına görə peşman olub bağışlanma diləməklə bu genetik günahı yumağı, seksə ən böyük günah kimi baxmağı əmr edir.

Freyd insanlara müraciətlə deyirdi: "Siz anadangəlmə eqoistsiniz, sizi cinsi və təcavüzkar şıltaqlıqlarınız idarə edir. Bu darvinçi heyvani təbiəti dəyişmək mümkün deyildir. Siz icazə verilən və təmiz yolla seksdən həzz aldığınızda, heç şübhəsiz, heyvani təbiətinizin tələblərinə əməl etmiş olursunuz, buna görə kimsə sizi qınaya bilməz. Yox,

imtina etsəniz, şüur dünyasına çıxmaq üçün mübarizə aparan bu boğulmuş cinsi istək sizi rahat buraxmayacaqdır. Siz imtina etməklə özünüzü özünüzlə aldadırsınız. Cinsi istək sizə şüurlu və təhtəlşüur fəaliyyətlərinizdə, yuxularınızda simvolik və dolaşıq yollarla hakim kəsiləcəkdir. Belə məhrumiyyət, yaxud cinsi istəyi boğma üzündən özünüzü müxtəlif psixoloji pozğunluqlara məruz qoyacaqsınız. Bu psixoloji pozuntular isə təhtəlşüurunuzun qaranlıqlarında gizlətdiyiniz şeyləri şüur dünyasına çıxaran psixoanaliz vasitəsilə müalicə olunur"[1].

İnsana bu cür anormal və sapqın yanaşma uzun illər psixologiya, ictimai elmlər və incəsənətdə hakim olmuşdur. Həmçinin o, psixoanalizə altmış ildən çoxdur ki, xüsusi şəkildə hakimdir. Freyd və davamçıları insan həyatının hər aspektinin anormal psixoloji izahını verirdilər. Onlar insanın beşikdən qəbirədək bütün fəaliyyətinə süni və anormal izahlardan süzülüb gələn seksual don geydirirdilər. Freyd öz dövrü ilə kifayətlənməmiş, bəşəriyyətin tarixini də anormal şəkildə şərh etmişdir. Məsələn, şəxsi seksual təsəvvürləri əsasında bəşər tarixinin görkəmli şəxsiyyətlərinin həyatını təhlil etmiş, peyğəmbərlərə, dini təlimlərinə sayğısızlıq etmişdir. İstəyən onun məşhur rəssam Leonardo da Vinçi haqqında yazdığı kitabı oxuya bilər.

Rəssamın əsərlərini psixoanaliz əsasında öyrəndiyini deyən Freyd bildirirdi ki, Lenardo da Vinçi cinsi istəklərini təhtəlşüurunda "boğmuş", homoseksuallığa meyl etmiş, kişilərlə cinsi əlaqədə olmağa üstünlük vermişdir. Halbuki

[1] Bax: Malik Bədri. İslam universitetlərində psixologiya üsullarının islamcasına əsaslandırılması məsələləri və Əbu Zeyd Bəlxi ilə düşünərkən // "Təcdid" jurnalı, XXXIX cild, 2016; Thornton, Elizabeth M., Freud and Cocaine: The Freudian Fallacy (London: Blond & Briggs Publishers, 1983).

məşhur rəssam Freydin doğulmasından 350 il əvvəl vəfat etmişdir! Freyd peyğəmbərlərə dair psixoanalitik fikirlərini "Musa və monoteizm" kitabında toplamışdı. O, iddia edirdi ki, Musa israilli olmayıb, misirli idi, monoteizmi müdafiə etməmiş, qədim misirlilərin inancına tapınmışdır.

Məşhur şəxsiyyətlərə və peyğəmbərlərə qarşı belə əndazəsiz münasibət bir sıra ərəb-müsəlman psixoloqları da yoldan çıxarmış, onlar da Freydin dəsti-xəttini davam etdirmişdilər.

Vəfatından sonra onun yolunu davam etdirən psixoanalitiklər formaca fərqlənsə də, mahiyyətcə çox da seçilməyən nəzəriyyələr irəli sürmüşlər. Bu səbəbdən Freydin psixoanaliz təlimi, xüsusən üçüncü dünya ölkələrində dinamik psixoloji fikirdə dominant təlim olaraq qalmışdır. Qərbdə isə öz nəzəriyyələri və terapiya üsullarını əməli-təcrübi yoxlama ilə sınaqdan keçirmiş tədqiqatçıların tənqidlərinə tuş gəldiyi üçün bu təlim öz təsirini böyük ölçüdə itirmişdir.

Biheviorizm

Biheviorizm yarım əsr ərzində Qərb psixologiya elmində dominantlıq etmiş inqilab idi. Hələ də onun bəzi müddəaları aktuallığı və təsir gücünü itirməyib. Biheviorizm psixologiyanı təcrübi ixtisasa çevirmək məqsədi güdürdü. Bihevioristlər Freydin psixoanaliz təlimini, təhtəlşüur və cinsi instinktlə əlaqəli iddialarını lağa qoyurdular. Amma bu təlim də freydizmdə olduğu kimi insan təbiətinə dünyəvicəsinə yanaşırdı. Bihevioristlər Qərb dinsizliyini fərqli dillə müdafiə edərək deyirdilər: "İnsan təbiəti (xarakteri) olmayan heyvandır, onun xarakteri yaşadığı mühitə görə formalaşır. İnsan yaşadığı mühitdə ora-bura uçan lələk kimidir". Onlar insan xarakterinin formalaşmasında

fitrətin, yaxud nəsildən-nəslə ötürülən davranışların rolunu heçə sayırdılar. Onlara görə, dəyişməz əxlaq yoxdur, hər şey insanın yetişdiyi, tərbiyə aldığı mühitdən asılıdır. Bu səbəbdən fərdlər və qrupların davranışlarını qiymətləndirərkən dini, yaxud əxlaqi meyarları əsas götürmək düzgün deyildir. Yaxşı və yaman, halal və haram deyilən şey yoxdur. Hər bir cəmiyyət öz qanunlarını özünə uyğun gələn, mədəniyyəti ilə üst-üstə düşən qaydada təsis edir[1].

Göründüyü kimi, əxlaq korluğuna tutulmuş bu yanaşma tərzi nəinki peyğəmbərlərin emosiyalarını, heç adi bəşəri duyğuları belə öyrənməyə yaramır.

Fəlsəfi təlimlərində təhrif olsa da, bihevioristlərə təşəkkürümüzü bildiririk. Çünki psixoanaliz və onun qeyri-şüuri və təcavüzkar seksuallığa söykənən nəzəri müddəalarını, terapiya üsullarını aradan qaldırmış biheviorizm üsulunu inkişaf etdirmişdilər. Onlar faydalı davranışların öyrənilməsində, zərərli və faydalı vərdişlərdən imtinada təlim (məşq, öyrətmə) məntiqini əsas götürürdülər. Bu üsul hələ qədimdən uşaqları tərbiyədə, ov quşları və köpəklərin öyrədilməsində bəşəriyyətə məlum idi. Oxucuya sadə misal çəkmək istəyirəm:

Davranış psixoterapiyası təlim nəzəriyyəsinin tətbiqinə əsaslanır. Sağlam insan iyirminci mərtəbədəki mənzilinə getmək üçün liftdən istifadə edirsə, mənzilinin eyvanından şəxslər və maşınların hərəkətinə baxıb həzz ala bilirsə, həyəcanlı şəxs isə hündür yerlərdə olarkən bərk qorxu keçirir, liftə minməkdən, hündür yerə çıxmaqdan imtina edir. Belə şəxslər liftə mindikdə, hündürə çıxdıqda bərk qorxur, həyəcan keçirirlər.

Freyd və davamçıları iddia edirdilər ki, hündürlük qorxusu seksual xarakterli, yaxud seksual istəyin boğul-

[1] Bax: Con Karl Flügel. İnsan, əxlaq və cəmiyyət: psixoanalitik araşdırma. Beyrut: "Dar əl-fikir əl-ərəbi", 1966.

masının unutdurduğu uşaqlıq təcrübələrinin səbəb olduğu təhtəlşüur mübarizədən irəli gəlir. Uşaqlıq xatirələri, yaxud təhtəlşüur mübarizənin dəf edilməsi üçün xəstə aylarla, hətta illərlə sürən kurs keçməlidir. Davranış psixoterapiyasında isə göstərilir ki, təhtəlşüur mübarizə və seksual pozuntu deyilən şey mövcud deyildir; hündürlük qorxusunun özü bir xəstəlikdir. Bu xəstəliyi müalicə etmək üçün hündür yerlərə tədricən çıxarmaqla xəstədə əmin-amanlıq və arxayınlıq hissi yaratmaq lazımdır. Nəticədə xəstə bu qorxu hissindən tədricən xilas olacaqdır. Davranış psixoterapiyasının tətbiqinin nəticəsi heyrətamiz idi. Bu terapiya növünü kəşf etmiş Jozef Volpenin müalicə etdiyi bütün xəstələr bir neçə həftə ərzində sağalmışdılar. Onların bir hissəsi əvvəllər illərlə psixoanaliz terapiyası keçmiş xəstələr idi[1].

Davranış psixoterapiyası fərdin yaşadığı mühitlə əlaqəli adi emosional pozğunluqların (qorxu və s.) müalicəsində böyük uğur qazanmışdı. Tədrici məşqlərlə, yaradıcı üsullarla həmin halları aradan qaldırmaq olurdu. Amma bu üsul xəstənin yanlış düşüncə və təsəvvürlərindən meydana çıxan mürəkkəb emosional pozğunluqlarda (depressiya və s.) istənilən nəticəni verməmişdi. Odur ki yeni növ terapiyada – koqnitiv-davranış psixoterapiyasında xəstənin özü və yaşadığı mühitlə əlaqəli təsəvvürlərini dəyişdirmək qarşıya məqsəd qoyulmuşdu. Hər iki üsulun vəhdətdə götürüldüyü koqnitiv-davranış psixoterapiyası Qərbin və dünyanın psixoanaliz ağalığından xilas olmuş bütün xəstəxanalarında başlıca terapiya növünə çevrilib.

Bihevioristlər psixoanalizi alt-üst etməklə ona dair fikirlərin ziddiyyətli olduğunu, müalicə üsullarının müvəffəqiyyətsizliyini aşkara çıxardılar. Freyd nüfuzunu itirdik-

[1] Wolpe, J. (1958). Psychotherapy by reciprocal inhibition.Stanford: Stanford Univ. Press.

cə tənqidçiləri çoxalırdı. Psixoloq və tarixçilər onun pis cəhətlərini, üslubunun müalicəvi olmadığını dilə gətirməyə başladılar. Nümunə olaraq britaniyalı məşhur psixoloq Hanz Eyzenkin yeddi mindən çox amerikalı psixi xəstə üzərində apardığı araşdırmanı göstərə bilərik. Eyzenk psixoanaliz müalicə kursu keçmiş xəstələrlə ümumiyyətlə müalicə almamış xəstələri müqayisə etdikdə görmüşdü ki, müalicə olunmamış xəstələrin 72 faizinin vəziyyəti eksperimentdən bir il sonra yaxşılaşdığı halda, psixoanaliz müalicə kursu keçmiş xəstələr arasında bu rəqəm 44-dür[1]. Bu eksperiment psixoanaliz üçün zəlzələ effekti yaratmışdı. Ən azından, məlum olmuşdu ki, psixoanaliz psixoloji terapiya üsulu kimi faydasızdır. Eləcə də sonralar aparılmış digər araşdırmalar göstərmişdi ki, psixoanaliz müalicə kursu keçmiş bəzi xəstələrin vəziyyəti daha da ağırlaşıb[2].

Keçən əsrin 80-ci illərində Freydin obyektivliyinə şübhə ilə yanaşan, psixoanalizin ənənəvi formasının səmərəsizliyini bildirən daha dəqiq araşdırmalar aparılmışdı. Avropalı tədqiqatçı Elizabet Tornton özünün qiymətli tədqiqatında göstərmişdi ki, Freyd bütün davranışları cinsi instinktlərlə əlaqələndirdiyi əcaib nəzəriyyəsini işləyib-hazırlayarkən sağlam psixoloji-rasional vəziyyətdə olmayıb. O, ağız boşluğu xərçənginin ağrılarına dözmək üçün qəbul etdiyi və aludəçisinə çevrildiyi kokainin təsiri altında hərəkət edirdi. Axırda, həddindən artıq doza qəbul etməklə intihar etmişdi.

Həmçinin Tornton sağaltdığını Freydin iddia etdiyi psixi xəstələrə dair apardığı müfəssəl təhqiqatla isbatlamışdı ki, onlar əslində sağalmayıblar; onların bir hissəsi

[1] Eysenck (1952). The effects of psychotherapy: an evaluation, Journal of Consult. Psychol. 16, 319-324.

[2] Schmiderberg, Melitta. (1970). Psychotherapy with failures of psychoanalysis.British Journal of psychiatry. 116, 195-200.

psixoloji deyil, fiziki xəstəliklərdən əziyyət çəkirmiş. Freydin özünün "parlaq" uğurları barədə yazdıqları yalan və iddiadan başqa bir şey deyildir. Tornton öz tədqiqatlarını "Freyd və kokain" adlı kitabda toplamışdı[1]. Bu araşdırma və digər tədqiqatlar nəticəsində Freyd və nəzəriyyəsi Qərbin bir çox universitetində başlıca mövzu olmaqdan çıxaraq psixologiya tarixinin daxilində öyrənilən statistik fakta çevrilib.

Freydin psixoanaliz təlimini tənqid etməklə oxucuya göstəririk ki, psixologiya elminin peyğəmbərlərin emosiyalarını, hətta adi bəşəri davranışları düzgün izah edə bilməyən təlimləri vardır. Həmçinin bəzi ərəb və müsəlman psixoloqların Tübbə xalqı təcrübəsinə dair iddiaları barədə əziz oxucunun diqqətli olmağı üçün bu təfərrüata varmışıq. Yuxarıda qeyd etdiyimiz araşdırmalar həmin ərəb və müsəlman psixoloqların problemə münasibətində nəzərə alınmayıb. Hələ də klassik freydçi psixoanaliz bəzi ərəb və müsəlman ölkələrin hospitallarında əsas üsul kimi seçilib; bu ölkələrdə bir çox psixoloq freydçi psixoanaliz əleyhinə heç bir tənqidi qəbul etmir, əksinə, yerli ictimai problemləri həll məqsədilə Freydin nəzəriyyəsinə müraciət edirlər. Kim istəyirsə, ərəb psixologiya mütəxəssislərinin Freydi tərifləyən yazılarını oxuya bilər. Bu yazılarda Freyd bəşəriyyətin həm özünə baxışını, həm də dünyaya münasibətini dəyişmiş üç şəxsiyyətdən biri hesab olunur. "Arabpsynet" elektron jurnalının 2008-ci il buraxılışının 19-cu sayında psixoloq Əbdülhadi əl-Fəqir "Psixoanaliz və ərəb kimliyi: nəzəriyyədən təcrübəyə" adlı məqaləsində yazırdı: "Üç düşüncə inqilabı bəşəriyyəti möhkəm silkələmiş, ondakı narsist yekəxanalıq və inadkarlığa sərt zərbələr endirmişdir. Birincisi Yeri göylərdəki mərkəzdən

[1] Thornton, Elizabeth M., Freud and Cocaine: The Freudian Fallacy London: Blond & Briggs Publishers, 1983.

aşağı endirmiş Kopernik inqilabıdır. İkincisi insanın əlindən onun digər canlılardan uydurma üstünlüyünü dartıb almış Darvin inqilabıdır. Üçüncüsü Super Eqonun (fövqəlmən) özünəinamını sarsıtmış[1] Freyd inqilabıdır. Bu "Mən" düşüncə nailiyyətinin bütün formaları və tərzlərində özünün şüurlu və ali suverenliyini necə də iddia edir! Halbuki o, insan düşüncəsi və davranışları dünyasında təhtəlşüurun – bu böyük və əzəmətli ağanın quludur! ... Düşüncə və davranışa istiqamət verən təhtəlşüur mexanizmləri və qanunlarını Freydin kəşf etməsi bəşəriyyət qarşısında aydın qapılar açmışdır. Bu da imkan vermişdir ki, bəşəriyyətin antropoloji tərkibi dəqiq şəkildə öyrənilib, intellektual və yaradıcı imkanları geniş miqyasda üzə çıxarılsın"[2].

Müəllif daha sonra qeyd edir ki, ərəb dünyasında Freydə bugünkü ehtiyac avropalıların keçmişdə onun xidmətlərinə olan ehtiyacından çox böyükdür.

Xəstəxanalarda bu cür psixoloqlar gənc müsəlman pasientləri inandırmağa çalışırlar ki, psixoloji pozuntularının səbəbi təhtəlşüurdur, çünki cinsi meyllərini boğmuşlar. Onlar bu gəncləri təhtəlşüurdan cinsi stimulları "çıxarsınlar" deyə davamlı psixoanaliz terapiyasına yazırlar. Bu gənclərin bir hissəsinin vəziyyəti pisləşmiş, müalicə etmək istədikləri pozuntulardan daha ağır ruhi vəziyyətə düşmüşlər. Mənim bu gəncləri saxta psixoanalizin mənfi nəticələrindən müalicə etməklə bağlı acı təcrübəm vardır.

Freydin düşüncələrindən təsirlənmiş bəzi müsəlman şəxslər onu addımbaaddım izləyərək məşhur tarixi insanların, hətta peyğəmbərlərin şəxsiyyətinin psixoana-

[1] yəni, insanın hörmətli-izzətli, üstün varlıq olmağı inancını alt-üst etmiş – ***tərcüməçinin qeydi.***

[2] Əbdülhadi əl-Fəqir. Psixoanaliz və ərəb kimliyi: nəzəriyyədən təcrübəyə // "Arabpsynet" jurnalı, 2008, № XIX. http//:elfakir-arabnafs.blogspot.com/p/blog-page.25_html

liz baxımından təhlil olunduğu məqalə və kitablar yazmışlar. Misirli müəllif Abdullah Kamalın qələmə aldığı "Peyğəmbərlərin psixoloji təhlili" kitabı buna misaldır. Kitab oxucuların çoxunda qəzəb oyatmışdı, bəziləri müəllifi "peyğəmbərlərin əsil-nəcabətinə küfrdə" təqsirləndirmişdilər[1]. Abdullah Kamal Freydə təriflər yağdırmış, peyğəmbərləri və göndərildikləri xalqları onun bəzi nəzəriyyələri əsasında öyrənməyə cəhd göstərmişdi. Həyəcan halına Freydin verdiyi tərifi hərfbəhərf təkrarlamışdır: "həqiqi təhlükənin doğurduğu obyektiv həyəcan və daxili instinktiv təhlükənin meydana çıxardığı nevrotik həyəcan". Abdullah Kamal Freydin təhlillərindən istifadə etsə də, bu instinktiv təhlükənin nə olmağı haqqında oxucunu məlumatlandırmır. Freyd iddia edirdi ki: a) təhtəlşüurda boğulan və özünüifadə üçün mübarizə aparan cinsi istəklərlə b) gerçəklikdə yaşayan, qeyri-əxlaqi davranışlara görə insanı hesaba çəkən vicdan, yaxud ictimai əxlaq formalaşdıran şüur arasındakı bişüur psixoloji çəkişmə nevrotik həyəcana səbəb olur. Əgər müəllif peyğəmbərlərin həyəcanı mövzusuna həsr etdiyi kitabında Freydin seksual və təcavüzkar instinktlərə dair anlayışlarının izahını versəydi, görün onu peyğəmbərlərin əsil-nəcabətini küfrdə ittiham edən oxucuların reaksiyası necə olardı?!

Kitabın müəllifi həyasızcasına iddia edir ki, alternativ siyasi sistem qurmağa çalışdığı üçün xalq peyğəmbərə qarşı çıxır. Nəticədə peyğəmbər siyasi liderə, təlimi də siyasi layihəyə çevrilir. Hətta bəzi peyğəmbərlər davamlı şəkildə siyasi və taktiki hiylələrə əl atmışlar. Məsələn, İbrahim peyğəmbər bəzi situasiyalarda həqiqi olmayan

[1] Abdullah Kamal. Peyğəmbərlərin psixoloji təhlili. Qahirə: "Dar əl-xəyal", 1996, səh. 12.

şeylər danışmış, Məhəmməd peyğəmbər də: "Müharibə fəndgirlikdir", – demişdir[1].

Abdullah Kamal İbrahim peyğəmbər haqqında danışarkən onu "ilk qiyamçı, qiyamın atası" adlandırmışdı: "Bu baş qiyamçının üsyanı əsasən atasına, ...atasının hakimiyyətinə qarşı idi"[2]. Ola bilsin ki, müəllif burada Freydin Edib kompleksi iddiasına eyham vurur. Bu kompleksə görə, oğul uşaqlığında atasına nifrət etdiyi və onu qısqandığı üçün anasına meyl göstərir. Əgər o, təhtəlşüurundakı bu mübarizənin psixoloji həllini tapmazsa, yeniyetmə ikən onda psixoloji pozuntular meydana çıxacaqdır. Qəribədir ki, Abdullah Kamal bu kitabı 1996-cı ildə – psixoanaliz günəşi Avropada qurub etdikdən sonra yazmışdır. Ərəb ölkələrinin çoxunda psixoloq-mütəxəssislər Qərb psixologiyasına dair köhnəlmiş ədəbiyyatın ərəbcə tərcüməsi ilə kifayətlənir, ya əcnəbi dilləri bilmədiklərindən, ya da kitabxanalarında yeni mənbələr olmadığından ixtisas yeniliklərini izləmirlər.

İnsan təbiətinə dair ifrat biopsixoloji təsəvvürlər

Psixoanalitik və bihevioristlərin insan təsəvvüründən danışdıq. İndi isə insan təbiətini bütünlükdə bioloji-üzvi hesab edən üçüncü istiqamətə toxunaq. Bu təlimin qurucuları Darvinin Təkamül nəzəriyyəsinə mötəbərliyində şübhə olmayan "din", yaxud düşüncə gözü ilə baxırdılar. Onlar belə bir puç əsas üzərində seçim azadlığını sərfnəzər edən insan təsəvvürü təsis etmişdilər. Psixoanalitiklər insanı təhtəlşüur stimulların köləsi, bihevioristlər təbii mühit çevrilmələrinin əsiri hesab etdikləri kimi biopsixo-

[1] Yenə orada, səh. 17.
[2] Yenə orada, səh. 43.

loji nöqteyi-nəzərin tərəfdarları da iddia edirdilər ki, insanı bioloji amillər – hormonal və sinir sistemi, genlər idarə edir. Hətta onlardan biri bildirmişdi ki, ağıla gələn hər bir ideyanın arxasında beyin hüceyrələrində baş verən qeyri-ixtiyarı dəyişiklik dayanır.

Bu cərəyanın tərəfdarları iddia edirlər ki, biokimya elmləri inkişaf etdikcə mütəxəssislər insanın sosial-psixoloji tərəfinə nəzarət edə biləcəklər. Sələflərinin determinizm təliminə söykənən bu nöqteyi-nəzəri müdafiə etməyə onları təbabətlə əlaqəli son kəşflər cəsarətləndirmişdi. Bu kəşflər göstərmişdir ki, bəzi xəstəliklər, dəlilik, parkinson kimi bır sıra əqli-bioloji çatışmazlıqların meydana çıxmasında genlərin, xromosom və irsi-bioloji birləşmələrin təsiri vardır. İnsan beyninin kompüter tomoqrafiyası neyropsixologiyada böyük dəyişiklik yaratmış heyrətamiz nəticələrə imza atmışdır. Biopsixologiya elminin tərəfdarları sözügedən nailiyyətləri insanın sosial-psixoloji təbiətinin bütün tərəfləri üçün ümumiləşdirmişdilər. Uilyam Ceymsin əsərləri deyilənlərə bariz misaldır. Küveytin "Bilik dünyası" nəşriyyatı bu mövzuda "İnsan və psixologiya" adlı kitab çap etmişdir, elmi müzakirələr üçün ona müraciət etmək mümkündür[1].

Biopsixologiyaya dair bu paraqrafla kifayətlənirik, növbəti fəsildə mövzuya bir daha qayıdacağıq.

Peyğəmbərlərin emosiyalarının öyrənilməsində istifadə edilməsi mümkün psixoloji nəzəriyyə və təcrübələr

Qeyd etmişdik ki, psixologiya elmi bir-biri ilə birbaşa əlaqəsi olmayan müxtəlif mövzuların dünyəvicəsinə qarı-

[1] Əbdüssəttar İbrahim. İnsan və psixologiya. Küveyt: "Bilik dünyası", 1985.

şığından ibarətdir. Çünki hər psixologiya məktəbinin əsas təmsilçiləri öz maraq dairəsinə köklənir, insan davranışının bütün aspektlərini öz nöqteyi-nəzərləri əsasında izah etməyə çalışırlar. Onlar geniş əraziyə dar borudan baxanları xatırladırlar. Nəticədə psixologiya elmi müxtəlif təsəvvür və düşüncələrin qarışığına çevrilib. Qərbdə bəzi psixoloqlar bildirirlər ki, psixologiya ixtisası müxtəlif göyərtilərdən ibarət "salat" halına gəlib. Amma mənə görə, psixologiya xalq bazarına oxşayır. Çünki salat çox vaxt uyğun komponentlərin qarışığından ibarət olur. Amma xalq bazarında əlaqəsiz şeylər bir yerdə, məsələn: ətin yanında saat, kompüter disklərinin yanında paltar satılır.

Buna görə də ümumi psixologiya kitabları yazılarkən fəsillərin ardıcıllığında müəlliflər eyni prinsipdən çıxış etmirlər. Görürsən ki, bir müəllif ixtisasa ümumi giriş etdikdən sonra fəsillərin ardıcıllığını belə qurur: öyrənmə → statistika → hissi idrak və s. Başqa birisində isə ardıcıllıq belədir: biopsixologiya → uşaq psixologiyası və s. Tədqiqatçı bu fəsillərdən hər hansı birini digəri olmadan oxuyub başa düşə bilir. Bu üzdən görürük ki, psixologiya müəllimləri tədris etdikləri kitablardakı fəsil və mövzu ardıcıllığına riayət etmirlər. Hər müəllim müəllifin mövzu ardıcıllığını istədiyi kimi dəyişir. Bu hal dəqiq elmlərə xas deyildir. Bu, Koxun dediyi kimi, psevdobiliklərin kortəbii "topalanması"na görədir.

Dəqiq elmlərə aid kitablarda fəsillər bir-biri ilə əlaqəlidir. Məsələn, fiziologiya kitablarında əvvəlcə hüceyrələr, sonra toxumalar, sonra üzvlər, daha sonra həzm, sinir... sistemi öyrənilir. Tələbə əvvəlki fəsli oxuyub başa düşmədən sonrakını mənimsəyib öyrənə bilmir.

Mümkündür ki, yaradıcı təfəkkürə sahib tədqiqatçı psixologiya "salat"ı çöküntüsündən nəyisə taparaq yusun və islam "ədviyyat"ı ilə qarışdırsın. Onun ümumiyyət-

lə insan, xüsusilə peyğəmbərlərin emosiyalarına dair tədqiqatlarda həmin faydalı "elementlər"dən istifadə etməsi mümkündür. Çünki psixologiyanın ayrı-ayrı ixtisasları və sahələri arasında dərin fikir ayrılıqları mövcuddur. Təcrübi elmi müddəalara söykəndikdə psixologiyaya aid hər hansı materialın əsaslandırılması da asanlaşır.

Bu yerdə, oxucu soruşa bilər: psixologiya elminin istiqamətləri elmi-təcrübi sübutlara söykənmirsə, bu sahə peyğəmbərlərin nəcib keyfiyyətlərinin öyrənilməsi üçün münasib sayıla bilərmi? Bəli, sayıla bilər, çünki biz bu sahədə elə alimlərin şahidi oluruq ki, özlərini müxtəlif psixoloji məktəb və metodların natamamlığından kənar saxlayıblar. Onlar mötəbər müqayisə və statistika üsullarının tətbiq edildiyi təcrübi və monitorinq araşdırmalarına üstünlük vermiş, müxtəlif yaş mərhələlərində insan davranışlarının arxasındakı stimul və amillərin gizli tərəflərini üzə çıxarmış, ardıcıl nəsillərin davranışlarının formalaşmasına bu amillərin təsiri ilə əlaqəli suallara cavab verməyə cəhd göstərmişdilər. Psixoloji və əqli pozğunluğa irsiyyət və ətraf mühitin təsirini öyrənmək üçün aparılan monitorinq tədqiqatları buna misaldır. Mövzunu psixologiya ixtisası olmayanlara sadə dillə izah edək:

Alimlər şizofreniyaya tutulmaqla əlaqəli bu suala dəqiq şəkildə cavab vermək üçün biryumurta əkizlərini müxtəlif yumurta əkizləri ilə müqayisə etmişlər. Məlumdur ki, yumurta hüceyrə spermatozoidlə mayalandıqdan sonra iki hüceyrəyə bölünərsə, ana eyni irsi xüsusiyyətlərə sahib biryumurta əkizləri dünyaya gətirir. Yox, qadında eyni vaxtda iki yumurta hüceyrə olarsa və iki müxtəlif spermatozoidlə mayalanarsa, müxtəlif yumurta əkizləri dünyaya gələcəkdir; belə əkizlərin oxşarlığı bacı və qardaşın oxşarlığı kimidir. Mütəxəssislər müşahidə etmişdilər ki, biryumurta əkizləri müxtəlif yumurta əkizlərindən daha

çox şizofreniya xəstəliyinə tutulurlar. Bu da şizofreniyaya tutulmada irsiyyətin böyük rol oynadığını göstərir. Bu cür tədqiqatlar insan xarakteri haqqında hansı isə fəlsəfi düşüncəyə, yaxud təhrif olunmuş təsəvvürə əsaslanmır. Belə yaradıcı elmi-statistik üsullardan, elmi təcrübədən istifadə etməklə alimlər öyrənmə və öyrətmənin, əzbərin ən yaxşı yollarını, psixoloji təzyiqin mənfi təsirlərini, müalicə üsullarını üzə çıxarmışlar.

Həmçinin bu alimlər, növbəti fəsildə izah edəcəyimiz kimi, psixologiya ilə dəqiq-təcrübi elmlərin (biokimya, nevrologiya, genetika, farmakologiya və s.) uyğunluğu faktından ötən əsrlər boyu gizli qalmış məsələləri üzə çıxarmaq üçün istifadə etmişlər. Öyrənmə probleminə, eşitmə, görmə və yaddaşda psixoloji və nevroloji fəaliyyətin iç-içə olmağı məsələsinin detallarına dair araşdırmalar bizi Allahın yaratdıqları barədə düşünməyə çağırır:

"Sizin özünüzdə əlamətlər vardır. Məgər görmürsünüz?" (əz-Zariyat, 21).

Psixologiya elminin gələcəyinə nikbin yanaşırıq. Çünki o, son dövrlərdə özünün ifrat dünyəvi üslubunda düzəliş etməyə, psixoloji təzyiqin azaldılması və pozuntuların müalicəsində mənəvi və dini aspektə sərt münasibətini yüngülləşdirməyə başlayıb. Nəticədə təcrübi araşdırmalarda təsdiqini tapan dini ideya və təcrübənin mənimsənilməsi üçün qapılar açılıb. Məsələn, buddizmdən qeyri-dini məzmunlu meditasiya üsulu əxz olunub. Həmçinin başlarına gələn müsibətləri qəbul etməkdə çətinlik çəkənlərə kömək məqsədilə koqnitiv-davranış terapiyasının üçüncü dalğasında ***(mindfulness and acceptance therapy – şüurluluq və öhdəlik terapiyası)*** buddist meditasiyasından istifadə olunur

Qərb psixologiyası anlayışlarının dəyişdirilməsində ən böyük rolu gələcək illərdə pozitiv psixologiya oynayacaq-

dır. Pozitiv psixologiya ənənəvi psixologiya əleyhinə inqilab hesab olunur. Ənənəvi psixologiya fərdin neqativ və xəstə (patoloji) hallarına köklənir, onun müsbət (pozitiv) cəhətlərini nəzərə almadan neqativ halları müalicə etməyə çalışır. Pozitiv psixologiya isə buna qarşı çıxır, simptomları müalicə etmək yerinə, psixoloji problemlərin müalicəsində pozitiv cəhətlərdən istifadə edir. Ənənəvi qaydada müalicə alan pasientdə psixoloji simptomlar keçsə də, o özünü xoşbəxt, rahat (məmnun) hiss etmir, gələcək problemlərlə mübarizədə özünə inanmır. Deməli, pozitiv psixologiya psixoloji pozğunluq hallarının müalicəsi məqsədilə fərdin şəxsiyyətindəki potensialı üzə çıxarmağa cəhd göstərir.

Keçən əsrin sonlarında bu ixtisasın meydana çıxması ilə ənənəvi psixologiyanın etinasız qaldığı "xoşbəxtlik", "məmnunluq", "başqalarına kömək" kimi ifadələri eşitməyə başladıq. Dini aspekti olduğundan, yaxud eqoist və bioloji insan təsəvvürü ilə üst-üstə düşmədiyindən bu anlayışlara ənənəvi psixologiyada laqeyd münasibət mövcuddur. Siz müasir psixologiya kitablarının indeksinə baxsanız, xoşbəxtlik, yaxud əminlik kimi ifadələrə rast gələ bilməzsiniz. Pozitiv psixologiyanın təcrübi araşdırmaları göstərmişdir ki, ehtiyacı olanlara kömək əlini uzatmaq xəstələrdə psixoloji pozğunluq hallarının yaxşılaşmasına müsbət təsir göstərir. Bu yerdə, "Bəlanı dəf etmək üçün sədəqə verin" hədisini xatırlayırıq. Elə isə peyğəmbərlərin həyatının öyrənilməsində, peyğəmbərliyin tapşırılması və uyğun mühitin seçilməsindəki ilahi hikmətin üzə çıxarılmasında bu kimi sahə araşdırmalarından, psixologiya ilə dəqiq-təcrübi elmlərin inteqrasiyasının məhsulu sayılan tədqiqatlardan istifadə etmək mümkündür.

Dedik ki, bəzi müəlliflər psixologiya elminin saxta nəzəriyyələrinə aşiq olmuş, insan təbiətinə dair əsassız təsəvvürlərdən çıxış edərək peyğəmbərlərin psixikası haqqında

əsərlər yazmağa cəsarət göstərmişdilər. Buna "Peyğəmbərlərin psixoloji təhlili" kitabının müəllifi Abdullah Kamalı misal göstərmişdik. Sual veririk: müsəlman alimlər peyğəmbərlərin emosiyalarını öyrənərkən psixologiya elminin təcrübi-statistik araşdırmaların təsdiqlədiyi müddəalarına, yaxud ümumi psixoloji-bəşəri təcrübəyə istinad ediblərmi? Cavabımız müsbətdir, amma istinadlar "təfsir"[1], "sirət"[2], "şəmail"[3] kitablarındakı qısa paraqraflardan oyana keçmir. İbrahim Əbdürrəhim Mustafanın doktorluq dissertasiyası olaraq yazdığı "Peyğəmbərlərin psixoloji həyəcanları" kitabı bundan istisnadır[4].

İbrahim Əbdürrəhim islamın prinsiplərinə əməl edib peyğəmbərlərə ehtiram göstərməklə kollektiv psixoloji həyəcan mövzusuna dair müasir araşdırmalardan istifadə etmişdir. O, elmin və sağlam məntiqin təsdiqləmədiyi dünyəvi-psixoloji yozumlardan uzaq qalmağı bacarmışdır. Doktor İbrahim Quranda aşkar şəkildə göstərilmiş həyəcan formalarını: qorxu, qəzəb, hüzn, peşmanlıq, ümidsizlik, təbəssüm və qaşqabaqlılığı öyrənmişdir. Amma onun bəzi emosiyalardan bəhs edən Quran ifadələrinin formal məzmunundan kənara çıxa bilməməsi nəticəsində oxucuya öyüd-nəsihət ayələri, yaxud peyğəmbərlərin əhvalatları kontekstində Quranın dolayısı ilə demək istədiyi mətləblər qaranlıq qalmışdır. Həmçinin kitabda sevgi, şəfqət və narahatlıq kimi mühüm emosiyalar öyrənilməmişdir. Bununla yanaşı, müəllif Allah qorxusu, Allah sevgisi və Allaha itaətin vəhdəti hesab olunan "xüşu" haqqında da-

[1] Quranın izahı

[2] Peyğəmbərin həyatı, avtobioqrafiyası

[3] Peyğəmbərin məziyyətləri, nəcib keyfiyyətləri

[4] Bax: İbrahim Əbdürrəhim Mustafa. Qurani-Kərimdə peyğəmbərlərin psixoloji həyəcanları // doktorluq dissertasiyası, Milli Nəcah Universiteti, Nablus, Fələstin, 2009.

nışmamışdır. Halbuki bütün bunlar təqva sahiblərini tərif kontekstində Quranın bəhs etdiyi emosiyalardır.

Müəllif təbəssüm və qaşqabaqlılığı emosiya hesab edir, halbuki bunları həyəcan, yaxud emosiya kimi qəbul etmək mümkün deyildir. Bunlar üz ifadələri, yaxud mimika hesab olunur. Belə ki qəzəb emosiyası qaşqabaqlılığa aparıb çıxardığı kimi təbəssüm də sevinc və fərəhdən doğur. Amma mən müəllifi mövzu ilə əlaqəli ayə və hədisləri bacardığı qədər öyrəndiyinə, peyğəmbərlərin həyatındakı həyəcan motivlərini araşdırdığına görə təbrik edirəm.

Peyğəmbərlərin, xüsusən Həzrət Məhəmmədin emosiyalarından danışarkən həyəcanlanmamaq mümkün deyildir. Amma biz doktor İbrahimi "quru üslub"una görə üzrlü sayırıq, çünki əsərini doktorluq dissertasiyası kimi yazmışdır. Doktorluq dissertasiyalarının Qərbdən əxz edilmiş meyar və qaydaları vardır. Bu qaydalara görə tədqiqatçının emosiyalarını ifadə etməsi arqumentlərinin zəifliyini göstərə bilir. Qərbli müəlliflər elmi bitərəflik adı altında emosiyalarını gizlətməklə məqsədlərinə çatmağı bacarırlar. Bu səbəbdən biz məqsədli şəkildə kitabımızın adına "psixoloji düşüncələr" ifadəsini əlavə etmişik. İstəmişik ki, peyğəmbərlərin, o cümlədən Həzrət Məhəmmədin emosiyalarını qiymətləndirərkən keçirdiyimiz hisslərə oxucu da şərik olsun.

İslam mövqeyindən yazılmış əsərlərdən biri də Ser Əhməd Süleymanın müəllifi olduğu "Qurani-Kərimdə mimikanın psixoloji aspektləri" kitabıdır[1]. Kitaba ön söz yazmaq bizə qismət olmuşdur. Yazmışdım: "Kitab ənənə, dəqiq araşdırma və Quran ayələrinin dərin psixoloji izahından ibarətdir". Arzu edirəm ki, bu əsər və Doktor İbra-

[1] Bax: Ser Əhməd Süleyman. Qurani-Kərimdə mimikanın psixoloji aspektləri. Ər-Riyad: "Məktəbə ər-rüşd", 2017.

him Əbdürrəhim Mustafanın məlum kitabı hər bir psixoloqun kitabxanasını bəzəsin.

Onu da deyim ki, peyğəmbərlərin emosiyaları mövzusuna ilk dəfə psixoloji aspektdən psixologiya mütəxəssisləri deyil, ədib və ilahiyyatçılar toxunmuşlar. Onlardan biri də professor Seyyid Qütbdür. O özünün ədəbi bacarığından istifadə edərək "Quranın kölgəsində" adlı mövzulu təfsir yazmışdır. Oxucu kitabda tez-tez psixoloji-emosional motivlərə rast gəlir. Amma müəllifin ədəbi dühası bütün aydınlığı ilə onun digər kitabında – "Qurani-Kərimdə bədii təsvir" kitabında öz əksini tapıb. Fəsillərin birində Musa, Yusif və İbrahim kimi peyğəmbərlərin həyatının psixoloji-emosional tərəflərindən danışılır. Sətirləri oxuduqca görürsən ki, Musa peyğəmbərin şəxsiyyəti haqqında, sanki, bir müsəlman psixoloq danışır. Seyyid Qütbün "Əhvalatlarda şəxsiyyət-obrazların yaradılması" adlı yazısını[1] onun peyğəmbəri təsvirdə ayələrlə bütünləşmək bacarığını göstərmək üçün aşağıda dərc edirik:

"Bu, coşqun və əsəbi lider obrazıdır. Budur o, sarayda, Fironun nəzarəti altında tərbiyə almış, güclü gənc kimi böyümüşdür:

"(Musa) şəhərə əhalisi xəbərsiz ikən (günorta istirahət vaxtı) girdi. Orada iki nəfərin vuruşduğunu gördü. Onlardan biri öz adamlarından (yəhudilərdən), digəri isə düşmənlərindən (qibtilərdən) idi. (Musanın) adamlarından olan kəs düşməninə qarşı ondan imdad istədi. Musa onu (əli, yaxud əsası ilə) vurub öldürdü..." (əl-Qəsəs, 15).

Burada milli təəssübkeşliklə yanaşı, əsəbilik də hiss olunur. Tezliklə bu əsəbi təkan yox olub gedir, digər əsəbi insanlar kimi (Musa da) özünə gəlir:

[1] Bax: Seyyid Qütb. İslam təsəvvürünün xüsusiyyətləri. Beyrut: "Dar əş-şüruq", 2000, səh. 25.

"...dedi: "Bu, Şeytan əməlindəndir. Həqiqətən, o, açıq-aşkar bir düşməndir, (insanı haqq yoldan) azdırandır!"

(Musa) dedi: "Ey rəbbim! Şübhəsiz ki, mən (bu qibtini vurub öldürməklə) özüm-özümə zülm etdim. Buna görə məni bağışla!" (Allah Musanı) bağışladı. Həqiqətən, O, (bəndələrini) bağışlayandır, rəhm edəndir!

(Musa) dedi: "Ey rəbbim! Mənə bəxş etdiyin nemət haqqı (günahımı bağışlamağına and içirəm ki) mən əsla günahkarlara arxa olmayacağam!" (əl-Qəsəs, 15-17).

"Beləliklə, (Musa qibtini öldürdüyündən) qorxaraq səhəri şəhərdə nigaranlıq içində qarşıladı" ayəsi məlum görünüşün təsviri ifadəsidir. Hər hərəkətində nə isə yamanlıq gözləyən, ətrafa (tez-tez) boylanan, bərk qorxan şəxsin görünüşüdür bu! Bu həm də əsəbi şəxslərə xas vəziyyətdir. Buna baxmayaraq, söz verir ki, günahkarlara əsla arxa olmayacaqdır. Onun nə edəcəyinə baxaq. Musa gördü ki: "...dünən ondan imdad diləyən kəs (bu gün də başqa bir qibti ilə vuruşaraq) fəryad çəkib yenə onu köməyə çağırdı. Musa ona dedi: "Sən (gündə biri ilə vuruşduğun üçün), doğrudan da, açıq-aşkar bir azğınsan!"[1] Yəhudi dünən olduğu kimi bu gün də Musanı təhrik etmək istəyirdi, amma Allahdan bağışlanma diləməyi, peşmanlığı, qorxusu və nigaranlığı Musaya təəssübkeşlik və qızğınlığını unutdurmuşdu. Yəhudi əməli ilə Musanın yadına dünən etdiyini salmış, Musa da xatırlayaraq qorxmuşdu:

"(Musa) onların hər ikisinin (həm özünün, həm də onu köməyə səsləyən yəhudinin) düşməni (olan bu ikinci qibtini) yaxalamaq istədikdə (həmin yəhudi Musanın ona hücum etmək istədiyini zənn edərək) dedi: "Ya Musa! Sən dünən birini vurub öldürdüyün kimi, məni də mi öldür-

[1] "əl-Qəsəs" surəsi, 18-ci ayə.

mək istəyirsən? Sən yer üzündə (Misir torpağında) ancaq bir zalım olmaq istəyirsən! Sən xeyirxahlıq (insanları islah) edənlərdən olmaq istəmirsən!" (əl-Qəsəs, 19)[1].

Seyyid Qütbün şəxsiyyətini yüksək qiymətləndiririk, amma peyğəmbərlər haqqında danışarkən işlətdiyi üslubla razılaşmırıq. O, peyğəmbərlər haqqında sanki öz həmyaşıdları, yaxud tanışları kimi danışır. Məsələn, yuxarıda da göstərdiyimiz kimi, Musa peyğəmbər haqqında "coşqun, əsəbi, millətçi" ifadələrini işlədir. Bugün bizim peyğəmbərlər haqqında həmyaşıdlarımız, yaxud tanışlarımız kimi danışmağımız düzgün deyildir. Vaxtı ilə səhabələrə də Peyğəmbərlə öz aralarında olduğu kimi danışmaq qadağan edilmişdi. Həmçinin Allah onlara Peyğəmbərin yanında səslərini qaldırmağı qadağan etmişdi:

"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən əməlləriniz puç olar" (əl-Hucurat, 2).

Elə isə təfsirçi, yaxud şərhçi bu hadisə haqqında özünə aşağıdakı sualları verməlidir: "Musa qibtini qəsdən öldürüb, yoxsa yumruğu ölümə səbəb olacaq nahiyəyə dəyib? Yaxud Seyyid Qütbün dediyi kimi Musa qibtini itələmək istəmişdirmi? Bəlkə, hadisə Musanı Fironun sarayındakı qaynar həyatdan ayırıb peyğəmbərlik və əmin-amanlığın olduğu başqa həyata daşımaq məqsədi güdən ilahi təqdirlə əlaqəlidir? Musanın bu dərəcədə qəzəblənməsi Seyyid Qütbün dediyi kimi milli-irqi motivə görə idimi? Mümkündürmü ki, həmin yəhudi təhqirə, yaxud fiziki işgəncəyə məruz qaldığı üçün Musadan kömək istəsin? Xalqının ən ağır işgəncələrə məruz qaldığı, uşaqların öldürülüb

[1] Seyyid Qütb. Quranın kölgəsində. Qahirə: "Dar əş-şüruq", V cild, səh. 2883.

qadınların köləlik məqsədilə sağ buraxıldığı bir peyğəmbəri şovinizmdə ittiham etmək nə qədər doğrudur?"

Deyə bilərik ki, Allah Təala Musanı özünə peyğəmbər seçmiş[1], istənilən zalım qarşısında dilsiz-ağızsız dayanmağına imkan verməyəcək sinir sistemi və psixika bəxş etməklə onu Fironla mübarizəyə hazırlamışdır. Musa gözlərinin önündə kiməsə zülm olunmasına dözə bilməzdi. Həmçinin bildirmişdi ki, ürəyi sıxılıb dili tutulur, amma daxilində məzluma kömək üçün qüvvətli istək vardır.

Bu kitabda peyğəmbərlərin emosiyalarından danışmışıq. Allah qoysa, növbəti kitabımızı Həzrət Məhəmmədin emosiyaları mövzusuna həsr edəcəyik. Həzrət Məhəmmədin hiss və emosiyaları bütün dəqiqliyi ilə tarix və sirət kitablarında göstərilmişdir. Onun emosiya dünyası peyğəmbərliyinə dəlalət edən ən böyük ecazkarlıqlardan biridir. Fikrimcə, emosiyalar peyğəmbərliyin arqumentləri haqqında kitab yazmış müəlliflərin köklənəcəyi maddi möcüzələrin ən böyüyüdür. Amma yenimötəzililik ideyalarından təsirlənmiş bəzi müəlliflər hətta maddi möcüzələri az əhəmiyyətli hesab edirlər.

[1] Bax: "Taha" surəsi, 41-ci ayə.

İkinci fəsil

Yeni psixonevroloji tədqiqatlarda emosionallıq problemi

Həyəcan formaları hər yerdə eynidir

Psixoloqlar arasında həyəcanın mahiyyəti və funksionallığına dair aşkar fikir ayrılıqlarına baxmayaraq, diqqətli tədqiqatçı onların araşdırmalarında mühüm töhfələrlə yanaşı, həm də mənsub olduqları məktəblərin tərəfdarı sayılan alimlərin qəribə nəzəriyyə və mühakimələrinə rast gəlir. Töhfələrdən biri budur ki, sahə araşdırmaları müxtəlif həyəcanlarla əlaqəli mimika dəyişikliklərinin irsi və anadangəlmə olduğunu sübut etmişdir. Biz şəkil və filmləri göstərməklə müxtəlif ölkə və mədəniyyətlərdə, hətta ibtidai qəbilələrdə, Avstraliya səhralarının aborigenlərində eyni həyəcan formalarına rast gəlirik.

Qəzəbdən boyun damarlarının şişməsi, gözlərin qızarması, qorxudan çöhrənin avazıması, əllər və ayaqların əsməsi, dilin dolaşması, səsin dəyişməsi, təəccüb zamanı qaşların yuxarıya dartılması, gözlərin bərəlməsi, pis iy və dad hiss etdikdə, iyrənc bir şey gördükdə üst dodağın büzülüb yuxarıya doğru dartılması, burunun yüngülcə büzüşməsi, gözlərin xırdalaşması – bütün bu dəyişikliklər dünyanın hər yerində eynidir.

Yeni psixologiya elminin mühüm nailiyyətləri

Bütün müsbət və mənfi emosiyaları ümumi başlıq altında təsnif etmək psixologiya elminin mühüm nailiyyətidir. Əvvəllər tədqiqatçılar hər həyəcan forması və emosiyadan ayrıca söz açırdılar. Məsələn, klassik mərhələdə ərəb dilində bütün emosional həyəcanlanma hallarını ifadə edən ümummənalı söz olmamışdır. Emosiyaları ümumi başlıq altında təsnif etmək emosiya və həyəcanlanma arasında psixoloji və üzvi oxşarlıq üzə çıxarıldıqdan sonra baş vermişdir. Bu oxşarlıq şüurun həyəcanlanması, bədən fiziologiyasının pozulması və davranışların dəyişilməsi zamanı özünü göstərir.

Araşdırmalardan məlum olmuşdur ki, qəzəb və qorxu kimi fərqli həyəcan formaları insan şüuruna müxtəlif şəkildə təsir göstərir, ayrı-ayrı mimika və koqnitiv-şüur dəyişiklikləri ilə müşayiət olunur. Amma bu vaxt özünün göstərən üzvi dəyişikliklər eynidir. Məsələn, istər qəzəbləndikdə, istərsə də qorxduqda hər kəsdə ürək döyüntüləri artır.

Psixoloqlar təsdiqləyirlər ki, həyəcanlanma zamanı üç dəyişiklik forması özünü göstərir. Belə ki həyəcan zamanı əvvəlcə duyğulanma (qorxu, qəzəb, sevinc hiss etmə) baş verir, sonra ani daxili və xarici fiziki dəyişikliklər (üz cizgilərinin dəyişilməsi, əsəbilik, hormonal təbəddülat) meydana çıxır, daha sonra həyəcanlanmış fərd bu psixoloji və üzvi-fiziki stimullara reaksiya verərək, ya onu qorxudandan qaçır, ya onu əsəbiləşdirənlə döyüşür, ya sevdiyini bağrına basır, ya da sevindiyi şeyə və kəsə görə fərəhlənir, gülür.

Həyəcanlanma haqqında yeni nəzəriyyələr

Sözügedən ardıcıllıq ümumi olaraq qəbul edilib, çünki məntiqə uyğun görünür. Həm Riçard Lazarus kimi alimlər tərəfindən, həm də koqnitiv psixologiya araşdırmalarında məlum üç dəyişikliyin bu sayaq ardıcıllığı təsdiqlənmişdir. Amma Kannon apardığı tədqiqatlarda göstərməyə çalışmışdır ki, bu üç dəyişiklik ardıcıllıqla deyil, eyni vaxtda baş verir. Başqa bir amerikalı – ümumiyyətlə, ən böyük psixoloq hesab olunan Uilyam Ceyms isə qəribə mövqedən çıxış edir. O, biheviorist nöqteyi-nəzəri təsdiqləyərək düşüncəni və koqnitiv aspekti az əhəmiyyətli sayır, stimul və ani reaksiyaların rolunu şişirdir.

Ceyms deyirdi ki, insanlar emosiya və həyəcanın fərdin onda vicdani halət doğuran stimulu dərk etməsi ilə baş verdiyini iddia edirlər. Nəticədə belə dərketmədən həyəcan adlandırdığımız şey meydana çıxır. Ceyms isə əksini iddia edirdi: fərdin yaxınlıqdakı heyvanın yırtıcı şir olduğunu görməsi (dərk etməsi), qorxması və xilas olmaq üçün qaçmağa üz tutması ardıcıllığı səhvdir. Onun bihevioristləri həvəsə gətirən nəzəriyyəsinə görə, düz versiya belədir: biz şiri gördükdə bədən buna qaçmaq və əsmək kimi fiziki hərəkətlərlə, nevroloji, kimyəvi-hormonal dəyişikliklərlə, təngnəfəsliklə (ürək döyüntülərinin artması...) reaksiya verir. Bundan sonra(!) bütün bu dəyişikliklər qorxu hissinə səbəb olur. Yəni, biz hansı isə əzizimizin vəfatı xəbərini eşitdikdə kədərlənib ağlamırıq; əksinə, Ceymsin dediyi kimi məşum xəbəri eşitdikdə əvvəlcə ağlayır, daha sonra kədərlənirik. Yaxud filankəsi bizi yamanlığı ilə

əsəbiləşdirdiyi üçün vurmuruq; əksinə, yamanlıq edənə vurur, daha sonra əsəbiləşirik[1].

Bu nəzəriyyədən irəli gələn təhlükəli emosiya məsələləri barədə danışmazdan əvvəl sözügedən nəzəriyyənin tənqid olunduğu tədqiqatlardan söz salmaqla, bəlkə də, bir qədər tələskənlik göstərmiş oluruq. Üzvi tədqiqatlar meydanında tərəqqi baş verməzdən qabaq bu nəzəriyyənin təkzib edilməsi nəzərdə tutulmamışdı. Halbuki üzvi tədqiqatları təsdiqləmək məqsədilə həmin nəzəriyyə ortaya atılmışdı. Əgər orqanizmdəki daxili dəyişikliklər müəyyən həyəcan forması ilə əlaqəlidirsə, onda həyəcan yaradan hər bir emosiyanın özünəməxsus daxili dəyişikliyi olmalıdır. Amma təcrübə göstərir ki, məsələn, ürək döyüntülərinin artması təkcə bir həyəcanlanma forması ilə əlaqəli deyildir. Qəzəblənərkən, qorxarkən, sevərkən (aşiq olarkən) ürək bərk döyünür. Həmçinin idmanla məşğul olarkən heç bir həyəcanlanma baş vermir, amma ürək döyüntülərinin sayı artır. O da məlum olmuşdur ki, fərqli stimullar (qıcıqlar) eyni hormonun ifrazına və oxşar əsəbi dəyişikliklərə səbəb olur.

Təcrübə göstərir ki, xəbəri olmadan adrenalin, yaxud noradrenalin[2] vurulmuş şəxslər qorxu, yaxud qəzəb hiss etmirlər, amma qeyri-müəyyən həyəcan hissi onları bürüyür. Qəzəbli kütlə arasına düşdüklərində bərk əsəbiləşir, vahiməli situasiya ilə qarşılaşdıqlarında qorxurlar. Deməli, qıcıq yaradan vəziyyəti dərk etməklə həyəcanlanmaq lazımdır ki, daxili və kimyəvi-hormonal dəyişiklik özünü göstərsin, fiziki hərəkətlənmə baş versin. Məhz qıcıq yaradan vəziyyəti dərk etmək həyəcanın təbiətini müəyyənləşdirir, kimyəvi dəyişikliklərə səbəb olur. Bu nəzəriyyə

[1] James ,William**.** The Varieties of Religious Experience: a study in Human Nature, Penguin American Library,1982.

[2] Qorxduqda və ya qəzəbləndikdə ifraz olunan hormon

şiddətli həyəcanlanma situasiyalarına ani reaksiyanın verildiyi azsaylı hallar üçün işə yarayır. Buraya tələş (vahimə) pozğunluğu, gözlənilməz irsi qıcıqlara son dərəcə həyəcanla reaksiya vermə halları daxildir. Belə vəziyyətlərdə koqnitiv idrak siçanın pişikdən, insanın zəlzələdən qorxması kimi instinktiv reaksiya formaları ilə "toqquşur".

Ceymsin bu nəzəriyyəni yaratmaqda məqsədi nə idi? O bir daşla dörd quş vurmaq istəyirdi. Birincisi, emosional reaksiyaları fiziki-üzvi dəyişikliklərin doğurduğunu isbatlamağa çalışırdı. Bu ki materialist yanaşmadır! İkincisi, Ceyms insan və heyvanların emosional reaksiyalarını bir-biri ilə əlaqələndirməyə cəhd göstərmişdi. Bununla da o, Darvinin emosiyaların təkamülü iddiasını təsdiqləmiş olurdu. Darvin bununla əlaqəli fikirlərini sonuncu kitabı – "İnsan və heyvanlarda emosiyaların ifadəsi" kitabında toplamışdı[1].

Şübhə yox ki, insanla heyvanın sinir, həzm və ürək-damar sistemlərində, bəzi daxili orqanlarında, müəyyən emosiyalarında oxşarlıq vardır. Bu oxşarlığa görə keçmiş dövr alimləri insanı "danışan heyvan" adlandırmışdılar. Həmçinin Təbii seçmə qanununun düzgünlüyünə şübhə etmirik. Təbii seçmə sayəsində həm daha yararlı olan canlılar yaşayır, həm də ətraf mühitə uyğunlaşma baş verir. Amma Darvin bu qanundan düzgün istifadə etməmişdir.

Bu ona görədir ki, bizimlə heyvanların oxşar olduğunu təsdiqləmək, ətraf mühitə uyğunlaşmaq qanununu qəbul etmək tısbağanın quşa, meymunun da insana çevriləcəyini deməyi zəruri etmir. Taleyin işidir ki, biokimya, molekulyar kimya və genetika elmlərindəki son əlli ilin heyrətamiz inkişafı Təkamül nəzəriyyəsinin "taxt"ını silkələmiş, çatışmayan tərəflərini ortaya çıxarmışdır. Bu barədə ətraflı

[1] Charles Darwin (9 April 1998). The Expression of the Emotions in Man and Animals.Oxford University Press. Retrieved 4 August 2013

danışmaq fikrimiz yoxdur. Bu məsələdə son olaraq demək istəyirik ki, ali heyvanlarla aramızdakı oxşarlıq bizi təkcə insana xas düşünmə və həyəcanlanma bacarığının Allah tərəfindən yaradılması barədə fikirləşməyə çağırır. Həmçinin bütün bunlar Allahın təkliyini təsdiqləməyimizi zəruri edir. Canlılardakı oxşarlıq göstərir ki, onları yaradan varlıq təkdir, ortağı yoxdur. Yer üzündəki hər şeyin eyni hissəcik və tərkib hissələrindən ibarət olmağı dəlalət edir ki, hər şeyi Uca Allah yaratmışdır.

Üçüncüsü, Ceyms öz nəzəriyyəsi ilə stimul və reaksiyalardan ibarət mexaniki insan təsəvvürünü möhkəmləndirmək istəyirdi. Bu təsəvvür iç düşüncənin əhəmiyyətini azaltmaqla müşahidə edilib ölçülməsi mümkün stimul və reaksiyaların rolunu qabardır. Bununla da müşahidə edilib ölçülməsi asan olduğundan fiziki reaksiyalara maraq artır.

Dördüncüsü, Ceyms yeni psixologiya elmində qəbul edilmiş fəlsəfi nöqteyi-nəzəri təsdiqləmək fikrinə düşmüşdü. Söhbət xeyirxahlıq və bədxahlıq anlayışlarını, iradi əməllərə görə cavabdehliyi rədd edən nöqteyi-nəzərdən gedir. Bu nöqteyi-nəzərə görə, insan mühit amilləri və irsiyyətin köləsidir, davranış və fəaliyyətində azad deyildir. Belə kortəbii təsəvvür dünyəvilik ideologiyasının möhkəmlənməsinə xidmət edir.

Ağıl və beyin

Yuxarıda göstərilmiş nöqteyi-nəzər insan təbiətinə dair dini təsəvvürləri Qərb psixologiyasının ateist-materialist bazası ilə üz-üzə qoyur. Dinə görə, ağıla sahib olduğumuz üçün öhdəlik daşıyır və düşünürük, seçimlərimiz xoşumuza gəlməsə də, yaxşı olana üstünlük verib pisdən uzaq dururuq. Heyvandan fərqli olaraq, insan bəzi emosiyaları-

na (həyəcanlarına) dözür, canının çəkdiyi şeylərdən həzz almağı müəyyən vaxtadək təxirə sala bilir. Bu cür davranmazsa, məruz qalacağı zərərə görə özü məsuliyyət daşıyır.

Emosional davranışlarında heyvan kimi hərəkət etməkdə insana nə mane olur? Bu, meymunlardan təkamül yolu ilə yaranmış beyin, yoxsa fiziki qanunlara tabe olmayan, beynimizdə tənzimlənən ağıldırmı? "Beyin, yoxsa ağıl?" problemi aidiyyəti bütün psixoloji nəzəriyyə, ideya və təcrübələrin əsasını təşkil edir. Odur ki bir qədər təfərrüatlı şəkildə həvəskar oxucuya mövzunu sadə dillə izah edəcəyik.

Əvvəla deyək ki, materializmin materiya qanunlarına tabe olmayan ruh təbiətli ağılın (qəlbin) mövcudluğunu qəbul etməməsi təbiidir. Əks halda, materializm və darvinizm deyilən şey qalmaz. Materializm və darvinizmin əsas müddəasına görə insanla heyvan arasındakı yeganə fərq inkişaf etmiş beyindir. Modern Qərb elmində belədir. Bu müddəa Qərb psixologiya elminin tapındığı ehkam halına gəlib.

Əslində bihevioristlər və materialistlər insanın "heyvan" təbiətini – bioloji aspektini çox şişirdiblər. Onlara görə, "ağıl" terminini qəbul etmək mümkün deyildir. Ağıl dedikdə beyin nəzərdə tutulursa, bu başqa məsələ! Bunu qəbul etmək olar. Can, ruh, qəlb, yaxud maddi olmayan şeylər, onlara görə, obyektiv surətdə mövcud deyildir; bütün bunlar bədənin təzahürləridir. Onlar sübut olaraq göstərirlər ki, fiziki zərbə, xəstəlik, insult nəticəsində beynin bir hissəsi sıradan çıxdığı üçün fərdin emosiyaları, hətta şəxsiyyəti bütünlükdə dəyişikliyə uğrayır. Məsələn, emosional davranışları dəyişilir, sakit təbiətli ikən adi hərəkətdən əsəbiləşən sərt birisinə çevrilir; iflic olur, danışıq qabiliyyətini itirir.

Yuxarıdakı nöqteyi-nəzər beyni beyin qabığı ilə birlikdə bioloji və əqli fəaliyyətin idarəedicisi hesab edir. Əgər belədirsə, onda fərdin psixoloji və bioloji fəaliyyətini tənzimləyən digər ruhi, "həlməşik" varlığın mövcudluğuna nə ehtiyac var?

Sevindirici haldır ki, ateist elmi təəssübkeşliyi yamsılamağı rədd edən alimlərin nevrologiya sahəsində apardığı son tədqiqatlar, eləcə də parapsixologiya araşdırmaları insan təbiəti və emosiyalarına dair materialist şişirtmə və birtərəfli təsəvvürlərə yox deyir. Psixologiya elmindəki bilik inqilabı nevrologiya mütəxəssislərinə emosional davranışların formalaşmasında ağılın rolu və şüurun əhəmiyyəti üzərində yenidən durmaq imkanı vermişdir. Sinir sisteminə dair araşdırmalarına görə Nobel mükafatı almış neyrofizioloq Con Eklez (1903-1997) qeyd edirdi ki, insanın maddi olmayan ağlı, yaxud dərk edən canı vardır. Sinir sistemini və insanın özünü dərk etməsini ağıl, yaxud beyində tənzimlənən varlıq olmadan izah etmək mümkün deyildir[1]. Bu müddəa Eklezi fərdin ruh təbiətini təsdiqləyən alimlərə yaxınlaşdırmışdır.

Bu alimlər beyni televizora, ağılı isə ötürücü stansiyaya oxşadırlar. Televizor xarab olarsa, yaxud təsvir korlanarsa, ötürücü stansiya ilə əlaqə işə yaramır. Bu vaxt televizorun sahibi ötürücü stansiya ilə əlaqə saxlamır, əksinə, problemin televizorda olduğunu bildiyindən düzəltməsi üçün ustaya aparır. Ağıl ötürücü qurğu kimi işləyir; məhz o, göndərdiyi görünməz mesajlar vasitəsi ilə beynin görəcəyi işi müəyyənləşdirir. Beyin bu və ya digər şəkildə zədələndikdə funksionallığı pozulur, ağılın göndərdiyi mesajları qəbul edə bilmir, "ötürücü stansiya"nın dalğalarını "tuta" bilməyən "xarab televizor"a çevrilir.

[1] Eccles, J. Evolution of the brain: Creation of the self. London: Routledge Publishers ,1991.

Elə isə davranışların formalaşmasında ağıl və ruhi aspektin rolunu inkar etmək üçün beynin zədələnməsi ilə yaranan fiziki-emosional dəyişiklikləri arqument göstərmək düzgün deyildir. Ağılı danmaqla beyni başlıca tənzimləyici hesab edən kimsə verilişlərdəki obrazların televizor qutusunun içindəki real-fiziki obrazlar olmağı gümanına düşən sadəlövh uşaq kimidir. Eklez və onunla həmfikir olan alimlər tədqiqatlarını dini nöqteyi-nəzəri təsdiqləmək üçün aparmamışdılar. Amma onların araşdırmalarının nəticələri materialistlərin şişirtmələrini puça çıxarmış, insanda spiritual aspektin olduğunu təsdiqləmişdi. İslam prizmasından emosiya və həyəcan formalarını öyrənən tədqiqatımız üçün bu məsələnin əhəmiyyəti vardır.

Onlar tutarlı məntiqi arqumentlərlə kifayətlənməmiş, beynin davranışların mütləq tənzimləyicisi olduğunu iddia edən nöqteyi-nəzəri puça çıxaran təcrübələr aparmışdılar. Təcrübələrdə beynin elektriklə stimullaşdırılması üsulundan istifadə olunmuşdu. Nəticədə sübut etmişdilər ki, beyin, məsələn, əl qaldırmağı əmr edir, amma əlin sahibi onu qaldırmaq istəmir. Yəni, beyinlə yanaşı, beynin diktə etdiyini qəbul etməyən ağıl, yaxud şüur mövcuddur. Əgər beyin davranış, düşüncə və emosiyaların yeganə tənzimləyicisi olsaydı, onda onun bir şeyi əmr etməsi, şüurun da buna qarşı çıxmağı qeyri-mümkün idi. Onlar maraqlı təcrübə ilə fərziyyələrini sübut etmişdilər. Belə ki könüllü pasientlərin birinin beynində müəyyən nahiyəni qıcıqlandırmaq üçün elektrodlardan istifadə edilmişdi. Həmin nahiyə qıcıqlandıqda pasient kəskin hərəkətlə əlini qaldırmışdı. Stimullaşdırılan nahiyə beyin qabığının əzələlərə siqnal göndərən hissəsində yerləşirdi. Daha sonra pasientə deyilmişdi ki, əlini qaldırmasın, o da razılaşmışdı. Həmin nahiyə yenidən stimullaşdırıldıqda xəstə əlini qaldırmışdı. Eksperimentator soruşmuşdu: "Razılaşmışdın ki, əlini

qaldırmayacaqsan, amma qaldırdın. Nə üçün?" Xəstə demişdi: "Onu mən qaldırmadım." Həkim təəccüblənmişdi: "Sən qaldırmadınsa, kim qaldırdı?"

Deməli, beyin qaldırmaq, şüur, yaxud ağıl isə qaldırmamaq istəyir. Təcrübə təkrarlandıqda pasient əlinin qalxmaması üçün digər əlindən istifadə etməli olur. Yəni, ağıl əlin qalxmaması üçün beynə mane olmağa çalışır. Elə isə beyin hakimi-mütləq deyildir!

Düşüncə, emosiyalar və şəxsiyyətin formalaşmasında beynin yeganə tənzimləyici olmadığını göstərən tutarlı arqumentlərdən biri də biryumurta və siam əkizləri ilə əlaqəlidir. Bundan əvvəl demişdik ki, biryumurta əkizlər spermatozoidin mayalandırdığı eyni yumurta hüceyrənin sonradan ikiyə bölünməsi ilə meydana çıxır. Bu vaxt həmin hüceyrələrin hər biri eyni genetik xüsusiyyətlərlə böyüyür. Belə demək mümkündür ki, bu vəziyyətdə əkizlər eyni beyin xüsusiyyətləri ilə doğulur və yaşayırlar. Belə əkizlər üzərində aparılan tədqiqatlar göstərir ki, onlar fiziki-üzvi baxımdan, məsələn, üz cizgilərində, boyda, bəzi psixoloji xüsusiyyətlərdə (zəkalılıq...) oxşar olsalar da, xaraktercə çox vaxt bir-birindən fərqlənirlər; biri sözəbaxan, sakit təbiətli olsa da, digəri cinayət törədəcək qədər nadinc ola bilir. Oxşar xarakter və əxlaq üçün mühit və irsiyyətin eyniliyi kifayət etmir. Elə isə biryumurta hüceyrədən meydana gələn iki beyin necə olur ki, belə fərqlərə sahibdir?!

Daha inandırıcı arqument siam əkizləri ilə əlaqəlidir. Siam əkizləri bitişik doğulan əkizlərdir. Bəzən cərrahlar onları ayıra bilsələr də, çox vaxt bu, mümkün olmur. Çünki əməliyyat onlardan biri, yaxud ikisinin ölümünə səbəb olur. Oxucuya məşhur bir hadisə haqqında danışmaq istəyirəm. 1961-ci ildə Amerikada bədənləri ayrı, başları (deməli, beyinləri də!) bitişik əkiz uşaqlar doğulmuşdu. Qəribədir ki, xarakter və emosional davranışlarına görə

bir-birindən tamamilə fərqlənirdilər. Onlardan biri xoş əhval-ruhiyyəli olub, musiqiyə həvəs göstərirdi, hətta hobbisinə görə mükafat da almışdı; digəri isə qapalı olub, xəstəxanaların birində yuyucu işləyirdi. Eyni beyin bu cür fərqliliyə necə səbəb olmuşdu? Hindistanda isə ikibaşlı (həm də iki beyinli) uşaq doğulub. Əgər yaşayarsa, böyüdüyündə bu iki beyin onun emosional davranışlarını necə tənzimləyəcəkdir?

Parapsixologiya sahəsində aparılmış təcrübələr də emosional davranışlara dair materialist izahların inandırıcı olmadığını göstərir.

Əgər beyin və onu stimullaşdıran qıcıqlar bilmə və həyəcanın yeganə üsuludursa, onda bəzi şəxslərin materialist nöqteyi-nəzərin aydınlıq gətirə bilmədiyi vasitələrlə informasiya əldə etməsini necə izah etmək olar? Buraya, məsələn, yüzlərlə, hətta minlərlə kilometr uzaqlıqdakı şəxsə başqa birisindən fikir və hisslərin keçməsi, yaxud telepatiya adlandırılan hadisə daxildir. Telepatiya insanlar və heyvanlar üzərində dəqiq üsullarla aparılmış təcrübələrdə elmin isbatladığı məsələdir. Amma ya bu təcrübələrin əhəmiyyəti akademik "məzəmmət", yaxud ört-basdır etmə ilə azaldılır, ya da materialist-dünyəvi düşüncə ilə üst-üstə düşmədiyindən elmi görüşlərdə belə təcrübələrin üstündən sükutla keçilir.

İslam tarixində belə bir hadisə baş veribmiş: həzrət Ömər Mədinədə cümə xütbəsi verərkən: "Sariyə, dağa tərəf!" – deyə qışqırmış, Fars diyarındakı islam ordusunun sərkərdəsi Sariyə ibn Zənim əd-Düəli də onun səsini duymuş, ordunu dağa tərəf çəkərək mühasirədən xilas olmuş, qələbə qazanmışdı[1].

[1] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Peyğəmbərlər və hökmdarların tarixi / araşdırıb çapa hazırlayan: Məhəmməd Əbülfəzl İbrahim. Misir: "Dar əl-məarif", II cild, səh. 533.

Materialist nöqteyi-nəzərin tərəfdarları bəsirət ***(gələcəyi görmə; ясновидение; clairvoyance)*** hadisəsinə də izah gətirə bilmirlər. Bəsirətli şəxs ondan gizlədilmiş şeylərin yerini deyə bilir. Buraya gələcəyi xəbər verən yuxular da aiddir. Belə yuxular vasitəsilə hansı isə qeyri-məlum şeyi, hadisəni aydın şəkildə müəyyənləşdirmək mümkündür. Nevrologiya mütəxəssisi Culiya Mossbric Amerikanın Norzvestern universitetində ayrı-ayrı qruplar üzərində apardığı on beşillik araşdırmalardan sonra bu qənaətə gəlmişdi ki, yuxular vasitəsilə gələcəyi görmək bacarığı mübahisə doğurmayan məsələdir. Bununla yanaşı, müəyyən alim və ixtiraçılar bildirmişdilər ki, gördükləri yuxuların yolgöstərənliyi olmadan tarixi kəşflərini edə bilməzdilər. Bunların başında Albert Eynşteyn gəlir. O, cavanlığında elektrikli məftillərdən qaçan inəklər haqqında gördüyü yuxudan ilhamlanaraq nisbilik nəzəriyyəsini kəşf etmişdir. DNT-nin spiralvarı quruluşunu kəşf etdiyinə görə 1962-ci ildə Nobel mükafatı almış Ceyms Vatson həmin formanı yuxusunda görmüşdü. Digər ixtiraçı Elias Hou yuxuda gördüyü forma əsasında paltartikən maşını icad etmişdi.

Həmçinin bəzi şəxslərin əşyaları uzaqdan hərəkət etdirməsi (***telekinez***) hadisəsinin, labüd ölüm ***(ölümyanı; околосмертный; near-death experience)*** təcrübəsinin materialist izahı yoxdur. Bu təcrübəyə dair ən məşhur hadisə anadangəlmə kor qızla əlaqəlidir. Qız həddi-buluğ yaşına çatdıqda xəstələnərək komaya düşür, həkimi assistentləri ilə çox çalışır, axırda, onu xilas etməkdən əlini üzür. Amma qız həyata qayıdır, baş verənləri, həkimin assistentləri ilə nə danışdığını dəqiqliyi ilə onlara nəql edir. Həmçinin qız özünü, otaqdakı ailəsini, ətrafı kənardan necə gördüyünü xüsusi emosionallıqla, olduğu kimi təsvir edir.

Qəzada beyni silkələnənə qədər bilmədiyi dildə fərdin danışmağı da parapsixologiyanın ən əcaib fenomenlərindən biridir. Video və audio sübutlar göstərir ki, bəzi şəxslər belə qəzalardan sonra onlara yad dildə danışmağa başlamışlar. Tədqiqatçılar Avropa, Amerika, Koreya və Cənub-şərqi Asiya ölkələrində bu kimi halları qeydə almışlar. Yaşadığı qəsəbədən kənara bir addım da atmayan amerikalı qadının qəzadan sonra rus dilində sərbəst danışmağı ən məşhur hadisələrdən biridir. Alimlər belə halları "əcnəbi dildə danışma" sindromu (***foreign accent syndrome***) adlandırırlar. Psixologiya elminin materialist nöqteyi-nəzərdən izah edə bilmədiyi bu hadisənin müəyyən terminlə adlandırılması problemin həll edilməsi mənasına gəlmir!

İslam tarixi materialistcəsinə izah edilməsi qeyri-mümkün olan, Quran və hədislərin təsdiqlədiyi bu cür hadisələrlə zəngindir. Amma bizi Qərb insanının şahidi olduğu hadisələr daha çox maraqlandırır.

Müsəlman tədqiqatçı dinindən asılı olmayaraq hər kəsin başına gələ biləcək bu cür hadisələri peyğəmbərlərin möcüzələri və Allah dostlarının kəramətindən fərqləndirməlidir. Ayrı-ayrı şəxslərin başına gələn bu cür hadisələr insan oğlunun spiritual aspekti, ilahi ruhun üfürülməsi, yaxud mahiyyətini bilmədiyimiz mənəvi aləmlərlə iç-içə olmağı ilə əlaqəlidir. Bizim Ümumdünya Səhiyyə Təşkilatı üçün Efiopiya və Sudanda ənənəvi psixoterapiya mövzusunda apardığımız sahə tədqiqatlarımız vardır. Həmin araşdırmalardan məlum olmuşdu ki, biz bu dünyada tək deyilik. Söhbət özünü dünyanın materialistcəsinə izahı dustaqxanasına həbs etmiş təfəkkürün təsdiqləmədiyi təcrübələrdən gedir.

Bu tədqiqatlar bədənə ruhun üfürülməsi inancını təsdiqləyir. Məhz bu spiritual varlıq (ruh – ***mütərcim***) bey-

nimizə, düşüncə və hisslərimizə hökm edir, bizi şüurlu canlıya çevirir. Biz Quranın "qəlb", insanların isə "ağıl" adlandırdıqları bu zərif və qeyri-maddi varlığın mahiyyəti haqqında uzun-uzadı müzakirə aparmaq fikrində deyilik. Belə müzakirə bizi əsas mövzudan uzaqlaşdıra bilər. Biz ağıl məfhumundan danışarkən psixoloqların "ağıl" (***mind***) terminindən istifadə edir, dinin "qəlb" anlayışına isə iman gətiririk.

Məlum olur ki, davranışlarımızın, fiziki, emosional və psixoloji fəaliyyətimizin formalaşmasında beyin yeganə "oyunçu" olmayıb, qeyri-maddi ağılın, yaxud qəlbin sözəbaxan xidmətçisidir. Bundan sonra ağılın diktə etdiyi proseslərin, xüsusən emosiyaların beyin və sinir sistemi vasitəsilə necə gerçəkləşməsi məsələsini izah etmək qalır. Beyin maddi-üzvi orqan olsa da, fəaliyyəti baxımından Allahın yaratdığı ən mürəkkəb sistemlərdən biridir.

Beyin və sinir sisteminin yaradılması möcüzəsi

Bu kitabda sinir və hormonal sistemin fiziologiyası, həyəcanlanma zamanı necə fəaliyyət göstərməsi haqqında danışmaq fikrində deyilik. Amma biz sadələşdirilmiş məlumatlarla kifayətlənəcəyik. Qoy oxucu insan beyninin, sinir və hormonal sistemin yaradılmasındakı ilahi əzəməti görsün. İnsan beyninin yaradılmasındakı möcüzəvilik, həqiqətən də, insanı düşünməyə vadar edir. Sinir sisteminin anatomiyası və fiziologiyası mütəxəssisləri bildirirlər ki, bu geniş kainatda ən mübhəm şey bizdən yüzlərlə, minlərlə işıq ili uzaqlıqda yerləşən planetlər, ulduzlar, yaxud elmin çarə tapa bilmədiyi viruslar deyildir; əksinə, kainatdakı ən məchul, ən mürəkkəb şey möhkəm kəllə sümüyü daxilində yerləşən, çəkisi 1300 qram olan beyindir.

Amerikalı neyrobioloq Devid İglmən özünün 2012-ci ildə ən çox satılan "Beynin sirləri" kitabında[1] yazırdı ki, insan beyni ən mürəkkəb canlıdır. Onu əmələ gətirən yüz milyardlarla hüceyrə (neyron) bir-biri ilə möcüzəvi şəkildə əlaqədədir. Bir kvadrat millimetr beyin toxumasına düşən sinir əlaqələrinin sayı yüz milyardlarla ulduzu olan Ağ yol qalaktikasındakı ulduzların sayı qədərdir.

Həcminin kiçik olmağına baxmayaraq, beyin orqanizmdəki bütün üzvi, psixoloji, sosial, emosional və mənəvi proseslərə nəzarət və icra funksiyasını həyata keçirir, hərəkəti, görməni, eşitməni, düşünməni, təxəyyülü tənzimləyir, problemləri həll edir, informasiyanı heyrətamiz şəkildə yaddaşda saxlayır. Modern elm beynin mahiyyətini, gözəllikdən necə həzz aldığını, sevgi, qorxu, qəzəb və sevinc zamanı necə həyəcanlandığını öyrənə bilməyib. Beynin həcmi orqanizmin ümumi həcminin 2 faizini təşkil etsə də, bədən üçün lazım olan qlükoza və oksigenin 20 faizini istehlak edir. Neyronlar gecə-gündüz, orqanizm yatdıqda da, ayıq olduqda da işləyir.

Xüsusən yaxşı və pis qərarların qəbul edilməsində ağılın beyin üzərində hegemon olduğunu düşünməyimizə baxmayaraq, bundan sonrakı söhbətimizdə beynin fiziki fəaliyyəti üzərində duracağıq.

Elektron hesablama maşınları inqilabından sonra alimlər kompüter vasitəsilə beynin fəaliyyət "dərinliy"ini ölçməyə cəhd göstərdilər. Sensor fiziologiyası mütəxəssisi Devid Ottosona görə, hazırda və gələcəkdə nevroloqların insan beyninin sirlərini dəqiq şəkildə öyrənməsi mümkün deyildir, çünki insan beyni özü-özünü öyrənə bilməz[2]. Elə-

[1] Bax: Eagleman, David.(2012). Incognito: The secret lives of the brain. Amazon.com.

[2] Ottoson, David. Challenges and Perspectives in Neuroscience, Pergamon Pr; 1st edition, 1995.

cə də kompüter mütəxəssisləri nə indi, nə də gələcəkdə insan beyni ilə müqayisə ediləcək kompüter hazırlamağı bacarmayacaqlar. Çünki insan beyninin effektivliyinə nail olmaq üçün eyni vaxtda işləyən, yüz min amper şiddəti tələb edən bir milyon mürəkkəb kompüter lazımdır. İnsan beyni isə cəmi-cümlətanı bir amperin onda biri qədər enerji tələb edir. Əgər elm insan beyni qarşısında mat-məəttəl qalıbsa, onda bu möcüzəvi beynə hökm edən spiritual ağıl, yaxud "qəlb" qarşısında hansı hala düşər?! Bu yerdə, insan özünü bağlı qapı qarşısında tapır:

"De: "Ruh rəbbimin əmrindədir. Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!" (əl-İsra, 85).

Biz bu qeyri-maddi varlığın beyinlə necə əlaqə yaratdığını bilmirik. Həmçinin bu əlaqədə qəlbin rolunun olub-olmadığı bizə məlum deyildir. Amma qəribəlikləri bitməz bu möcüzəvi orqan haqqında hər gün yeni məlumatların, kəşflərin şahidi oluruq. Orqan nəqli tədqiqatları göstərir ki, ürək təkcə "qan nasosu" rolunu oynamır, onun həm də öz sinir sistemi və yaddaşı vardır, emosional davranışlarla əlaqəli xüsusi funksiya icra edir. Bu səbəbdən başqasının ürəyi köçürülmüş şəxsin emosiyaları ürək donorunun emosiyalarından təsirlənir. Allah beyin vasitəsilə şüur və hissləri tənzimləyən bu qeyri-maddi varlığın necə bir şey olduğunu gizli saxlasa da, bizə qəribəlikləri bitməyən beynin sirlərini öyrənməyə icazə verib. Mövzumuzla əlaqəli olduğu üçün bu qəribəliklər haqqında danışaq.

Beyin bədən üzvlərindən, hiss orqanlarından, ətraf mühitdən, özünün xəyal aləmi və yaddaşından milyardlarla siqnal və impuls alır. Daha sonra bu siqnalları təhlil edib sistemləşdirir, orqanizmi qoruyan, biokimyəvi balansı təmin edən təlimatlar göndərir. Bu təlimatlar həzm, tənəffüs, ifrazat sistemini, qan dövranını, ürək döyüntülərini tənzimləyir. Bununla yanaşı, beyin problemlərin həlli ilə

məşğul olur, keçmiş təcrübələrlə əlaqəli məntiqi təfəkkürü tənzimləyir, gələcəkdə baş verəcək şeyləri təxmin edərək xəyal aləminə dalır, təhlükə, təcavüz, qaçış anında ani qərarlar çıxarır, həyəcan reaksiyaları verir, gözəl sözə, ifaya, poeziyaya vurğunluq, sevgi ifadə edir və s.

Bütün bu proseslər "hər şeyi bilən" tənzimləyicinin mövcudluğunu zəruri edir. Həmçinin sinir sistemi bu tənzimləyicinin əmri altında məsuliyyət və ixtisas bölgüsü aparmalıdır. Alimlərə görə, beynin 70 faizini təşkil edən baş beyin (***cerebrum***) bütün bu proseslərin əsas tənzimləyicisidir. Çünki onun qırışlı və şırımlı qabığı, yaxud boz maddə beynin digər funksiyalarını da tənzimləyir. Fenomenal araşdırmalar göstərir ki, baş beyin sinir və hormonal sistemin fəaliyyətini həyata keçirir, bütün fiziki və əqli fəaliyyəti icra edir. O, həyəcan zamanı qərargahdakı komandiri xatırladır; ona ordunun bütün hissələrindən informasiya gəlir və o buna uyğun əmrlər çıxarır; əzələlərə hərəkət etmək, vəzilərə hormon ifraz etmək əmri verir. Digər tərəfdən, beyin universitet müəlliminə oxşayır: bizə oxumaq, yazmaq, düşünmək, yaratmaq, problemləri həll etmək bacarığı aşılayır. Beyin və sinir sistemi daxilindəki "ixtisas" bölgüsü, möhkəm koordinasiya qarşısında boyunlar bükülür və ağıllı başlar Allahın aşağıdakı sözü haqqında düşünməyə başlayır:

"Bu (gördüklərinizi) Allahın yaratdıqlarıdır. İndi siz də Mənə (Allahdan) başqalarının nə yaratdığını göstərin" (Loğman, 11).

Son 20 ildə aparılmış tədqiqatlar bu möcüzəviliyin başqa bir tərəfini üzə çıxarmışdır. Alimlər ilk dəfə olaraq düşünmə, öyrənmə və təxəyyül prosesində, yaxud ayıqlıq və yuxu zamanı, müxtəlif həyəcan formalarında beyin hüceyrələrində nəyin baş verdiyini öz gözləri ilə görə bilmişdilər. Həmçinin fiziki, əqli, emosional və bədii fəaliyyət

üçün beynin müxtəlif komponentlərinin dəqiq bölüşdürülməsi faktı alimlərə məlum olmuşdu.

Tədqiqatçılar bu heyrətamiz kəşflərə maqnit rezonans tomoqrafiyası və funksional maqnit rezonans tomoqrafiyası sayəsində imza atmışdılar. Müxtəlif emosiyalara görə məsuliyyət daşıyan beyin nahiyələrini müəyyənləşdirmək, depressiya əleyhinə dərmanlardan istifadə edərkən beyində baş verən dəyişiklikləri müşahidə etmək məqsədilə ABŞ-ın Ayova universitetinin alimləri tərəfindən maqnit rezonansından istifadə edilməklə aparılan tədqiqatlar elmi ictimaiyyətdə maraq doğurmuşdu[1].

Qeyd etmək məqsədəuyğundur ki, müşahidəyə əsaslanan tədqiqatlar boz maddədə bizi Allahın yer üzündəki xəlifəsinə çevirmiş ali əqli-koqnitiv proseslərin getdiyini göstərmişdir. Bu proseslərin getdiyi nahiyə beynin alın payıdır. Məhz bu hissədə kənardan gələn, keçmiş təcrübələrdən hasil olan informasiya emal olunur. Alın payı insanın məntiqi təfəkkür bacarığını tənzimləyir, seçimlərin müqayisəsini aparır, yaxşı və ya pis qərarlar verir. Bu səbəbdən Qurani-Kərimi şərh edən bəzi müəlliflər bildirmişlər ki, Allahın Əbucəhlin alnını (yaxud kəkilini) "yalançı və günahkar" adlandırmasında açıq-aşkar elmi ecazkarlıq vardır. Çünki beynin alın payı alının arxasında yerləşir. Quran bu nahiyəni "nasiyə" (alın, kəkil) adlandırır. Toronto universitetinin (Kanada) anatomiya professoru Keyt Mur qeyd edir ki, 1842-ci ilədək həkimlər beynin alın payının funksiyasından xəbərsiz idilər. Bu da Qurandakı elmi ecazkarlığı göstərir. 1842-ci ildə ABŞ-da belə bir hadisə baş vermişdi: dəmiryolu tikintisində dəmir ling fəhlələrdən birinin alın nahiyəsinə batır. Qəzadan sonra fəhlənin əqli qabiliyyəti korlanır, qərar qəbul etmək bacarığı zəif-

[1] Driscoll, David Matthew. "The effects of prefrontal cortex damage on the regulation of emotion." University of Iowa, 2009. vii, p101

ləyir, xarakter cizgiləri dəyişilir, amma digər orqanların funksionallığı və fitri davranışları olduğu kimi qalır[1].

Bilməyimiz mühümdür ki, böyrəküstü vəzinin adrenalin ifraz etməklə orqanizmi stimullaşdırması üçün beyin qabığından saniyədən də az müddət ərzində emosional reaksiyalardan məsuliyyət daşıyan beyin nahiyələrinə impuls göndərilir. Elə ki böyrəküstü vəzilərdə adrenalin, yaxud noradrenalin ifraz olundu, orqanizmdə bizi qorxudan, qəzəbləndirən, mövcudluğumuzu təhdid etməklə həyəcanlandıran, gizli instinktləri oyadan fövqəladə vəziyyətlə mübarizə aparmaq üçün fors-major vəziyyət yaranır. Qan damarlarına qaraciyərdən şəkər yayılır, tənəffüsün intensivləşməsi, ağciyərlərin həcminin böyüməsi ilə qanda oksigen nisbəti artır. Bütün bunlar emosional həyəcanlanma zamanı orqanizmin enerjiyə tələbatının artmasına görədir.

Bu enerji qanda oksigenlə şəkərin reaksiyasından, yaxud daxili tənəffüs nəticəsində əmələ gəlir. Reaksiya zamanı şəkərdən enerji alınır. Həyəcanlanmış şəxs intensiv tənəffüs hesabına karbon qazı və su buxarından azad olur. Daha dəqiq görmək üçün göz hədəqəsi genişlənir, eşitmə güclənir, ürək döyüntüləri və qan axını artır, bütün enerji əzələlərə və beynə sərf olunur, həyəcan yaradan fors-major halla əlaqəsi olmayan adi fiziki proseslər (həzm və s.) dayanır. Eləcə də qanın laxtalanmasını sürətləndirən kimyəvi maddələr ifraz olunur. Bu, məsələn, orqanizm yaralanarsa, qanaxmanı azaltmaq üçündür. Bir sözlə, həyəcanlanmış şəxs döyüşmək, qaçmaq, müdafiə olunmaq... üçün yüksək hazırlıq vəziyyətinə gətirilir.

Bu qeyri-iradi və ani dəyişikliklər avtonom sinir sisteminin, dəqiq desək, onun bir hissəsinin – simpatik sinir

[1] http://neurophilosophy.wordpress.com/2006/12/04/the-incredible-case-of-phineas-gage/

sisteminin dövrəyə girməsi ilə baş verir. Simpatik sinir sistemi fövqəladə hallarda orqanizmdəki prosesləri tənzimləyir. Həyəcanlanma zamanı həzm prosesi dayanır, çünki əsəbi vəziyyətlərdə belə üzvi proseslərə ehtiyac qalmır. Fövqəladə vəziyyət keçdikdə parasimpatik sinir sistemi orqanizmi əvvəlki təbii vəziyyətinə qaytarır. Hər iki sinir sisteminin qarşılıqlı fəaliyyəti sayəsində avtonom sinim sistemi orqanizmdə kimyəvi və psixoloji balansı qoruyur. Simpatik sinir sistemi qorxu və qəzəb, parasimpatik sinir sistemi isə sevinc, sakitlik (rahatlıq) və cinsi istək zamanı fəallaşır.

Fərd həyəcanlandıqda bu cür dəyişikliklər qeyri-iradi baş verir. Bu dəyişikliklərə nəzarət edə bilmirik, amma onlar hərəkətlərimizdə özünü göstərir. Məsələn, ürək döyüntülərinin sürətləndiyini hiss edirik, bədənimiz tərləyir və əsir və s. Emosional reaksiyaları hiss etsək də, onları dayandıra bilmirik. Alimlər yalanı aşkara çıxaran qurğularda məhz bundan istifadə edirlər. Belə ki psixoloq cinayətlə əlaqəli və əlaqəsiz məlumatları "müttəhim"ə təqdim edir. Törətdiyi cinayətə dair dəqiq faktlar hər dəfə səsləndirildikdə müttəhimin ürəyinin döyüntüləri sürətlənir və o, dərindən nəfəs almağa başlayır. Cinayətlə əlaqəsi olmayan məlumatları dinlədikdə isə bu hallar baş vermir. Psixoloq da müttəhimin ya qatil, ya şahid, ya da iştirakçı olmağı qənaətinə gəlir. Yalanı aşkarlayan cihaz, əslində, həyəcanlanmanı ölçən cihazdır.

Sinir sistemi müxtəlif prosesləri həyata keçirir. Buraya fərdin öz istəyi ilə həyata keçirdiyi iradi proseslər daxildir. Belə fəaliyyətə görə fərd məsuliyyət daşıyır. Bu prosesləri beynin alın payı tənzimləyir. Həyəcanlanma anında baş verən qeyri-iradi reaksiyalar da vardır. Üçüncü növ qeyri-iradi reaksiyalar isə qeyri-həyəcan şəraitində baş verir,

amma həyəcan və emosiyalardan təsirlənməsi istisna edilmir.

Bunlar böyrəklərin funksiyası və həzm kimi daxili üzvi fəaliyyəti tənzimləyən sinir liflərinin işi ilə əlaqəlidir. Allahın mərhəmətindəndir ki, qeyri-iradi sinir fəaliyyətini insan oğlunun istəyinə buraxmayıb. Belə olsaydı, eşidərdik ki, filankəs yatmazdan əvvəl ürəyinin döyüntülərini tənzimləmədiyi üçün ölüb, filankəs də böyrəklərinin kilidini açmağı unutduğundan zəhərlənib.

Tələbələrimə mühazirə oxuyarkən bu iki sinir sistemi, fərdin öz istəyi ilə etdiyi əməllər, eləcə də qeyri-iradi məsələlər arasında paralellər aparıram. Belə ki fərd öz seçimi ilə Allaha ibadət edir, möhtacların dadına çatır, savab qazanır, yaxud pis əməllər işləyir, əxlaqsızlığa yol verir, buna görə də cəzalandırılır. Amma doğulduğu yeri, bədən formasını, valideynlərini özü seçmir, – bu, Allah tərəfindən fərdin iradəsi olmadan müəyyən edilən işlərdir. Biz Allaha bizi bədənimizin daxili tənzimlənməsi məsuliyyətindən azad etdiyi üçün şükür edirik. Kənar müdaxilə olmadan orqanizm özünü mükəmməl şəkildə tənzimləyir.

Həyəcan və emosiyaların biologiyası mütəxəssislərinin bir çox təsəvvürünü dəyişmiş yeni araşdırmalar mövcuddur. Bu tədqiqatlar göstərmişdir ki, amiqdala və hippokamp fərdin həyəcanlanması, reaksiya verməsi, həyəcanla əlaqəli hadisələri yadda saxlamasında başlıca rol oynayır. Nevroloqlar bu nəticəyə gəlmişdilər ki, həcminin balacalığı və beynin aşağı hissəsində yerləşməsinə baxmayaraq, amiqdala emosiyaların oyadılmasını təmin edir, emosional təcrübəni yaddaşda saxlayır. Mütəxəssislər görmüşdülər ki, amiqdalanın stimullaşdırılması heyvanlarda amansız döyüş reaksiyası doğurur. Məsələn, ev pişikləri digər pişiklərə, hətta sahibinə hücum çəkirlər. Amiqdalanın cərrahi müdaxilə ilə götürüldüyü heyvanlar isə təcavüzə müqa-

vimət bacarığından, qorxu hissi və cinsi istəkdən məhrum olurlar. Tibbi səbəblərdən amiqdalası götürülmüş fərdə gəlincə, ailəsi və dostları ilə maraqlanmamağa başlayır, onlarla tanış olmaq bacarığını itirir, təkliyə üstünlük verir.

Amiqdalanın yanında yerləşən hippokamp qısamüddətli yaddaş təcrübələrinin saxlanılmasında mühüm rol oynayır. Yəni hippokamp hazırda edilən, yaxud nəzərdə tutulan şeyi uzunmüddətli yaddaşa daşımaqla yadda saxlayır. Məhz uzunmüddətli yaddaş sayəsində özümüzü, ailəmizi, vətənimizi, bizim üçün mühüm və doğma olan hər kəsi və hər şeyi tanıyırıq. Əgər hippokampın bir hissəsi tələf olarsa, yaxud cərrahi yolla götürülərsə, fərd yeni tanışlar qazanmaq bacarığını itirəcək və istənilən yeni təcrübə hafizəsindən silinəcəkdir. Həmçinin yenicə tanış olduğu şəxsi bir anlığına tərk edərsə, qayıtdığında onu tanımayacaqdır.

Hippokampın funksiyası təcrübələri qeydə almaq və uzunmüddətli yaddaşda təsdiqləməkdir. Amiqdala isə bu təcrübələrə emosional məzmun qazandırır. Siz nərildəyən şir gördüyünüzdə hippokamp bunu təfsilatı ilə qeydə alır. Amma məhz amiqdala müəyyənləşdirir ki, şir haradadır: qəfəsdədirsə, özünüzü əmin-amanlıqda hiss edirsiniz, yox, həyətdədirsə, canınıza vəlvələ düşərək qaçmağa başlayırsınız.

Bu yaxınlara qədər sinir sistemi mütəxəssisləri güman edirdilər ki, emosional xarakterli təcrübələr hiss orqanlarından talamus vasitəsilə beyin qabığına, daha sonra amiqdalaya və emosiyalardan cavabdeh olan digər hissələrə ötürülür. Amma yeni tədqiqatlar üzə çıxarmışdır ki, fərd gözlənilmədən həyəcan vəziyyətinə düşdükdə amiqdala böyrəküstü vəzilərə impuls ötürür, saniyədən də az müddət ərzində orqanizmi reaksiyaya hazır vəziyyətə gətirir.

Bu müddət impulsun beyin qabığına ötürülməsi və amiqdalaya geri qayıtması müddətindən azdır.

Pişiyin itdən, siçanın pişikdən, insanın ilan və zəlzələdən qorxması[1] kimi irsi instinktiv reaksiyaları bu baxımdan izah etmək mümkündür. Belə vəziyyətlərdə fərdin göstərdiyi reaksiya bir göz qırpımından tez baş verir. Belə nadir vəziyyətlərdə orqanizm hələ koqnitiv tablo tamamlanmadan emosional qıcığı sadəcə koqnitiv olaraq hiss edir və reaksiya verir. Belə fors-major hallar Ceymsin sözügedən nəzəriyyəsi ilə əlaqəli hallara oxşardır.

Quranda deyilir ki, Uca Allah üç yüz ildən artıq müddət ərzində Mağara yoldaşlarını insanlardan onlara baxdıqlarında ürəklərinə qorxu salmaqla qorumuşdur:

"Əgər sən onları görsəydin, yəqin ki, (qorxudan) dönüb qaçar, dəhşət səni bürüyərdi" (əl-Kəhf, 18).

Bəzən insan nəticəni düşünmədən göstərdiyi bu tələskənliyə görə peşman olur, yaxud bərk həyəcanlandığı üçün utanır, qəzəblənib özündən çıxdığına, yaxud onu qorxutmuş şeydən qaçdığına, atdan yıxılmış dostuna bərkdən güldüyünə görə tanışlarının yanında xəcalət çəkir. Elə də olur ki, bu cür emosional tələskənlikdən qısa müddət sonra heyrətlənirik. Bununla əlaqədar olaraq baş verən maraqlı hadisələrdən biri budur ki, hovuza düşmüş uşağı görən şəxs onu xilas etmək üçün özünü pallı-paltarlı suya atır. Suda ikən yadına düşür ki, üzməyi bacarmır. Tədqiqatçılara o da məlum olmuşdu ki, hiss orqanlarından beyin qabığına gedən sinir liflərinin bir hissəsi həyəcan vəziyyətinə dərhal reaksiya verməsi üçün birbaşa amiqdala ilə birləşir. Deməli, amiqdala ani funksiyaları icra edir. Onun funksiyası orqanizmi fors-major vəziyyət haqqında

[1] Bəzi mütəxəssislərə görə, insanın ilandan qorxması anadangəlmə, irsi qorxudur. Bax: Benson, H. (1996).Timeless Healing. London:Simon & and Schuster.

məlumatlandırmaq, informasiya beynin alın payına çatmadan ani vəziyyətlərə münasibət bildirməkdən ibarətdir. Adi həyəcan vəziyyəti ilə əlaqəli informasiya isə tədricən öyrənilməsi üçün beyin qabığına göndərilir. Bu məsələnin növbəti fəsildə müzakirə edəcəyimiz "peyğəmbərlərin emosional reaksiyaları" mövzusu ilə yaxından əlaqəsi vardır.

Üçüncü fəsil

Allaha ibadətdə biliklərlə kifayətlənib emosiyaları sərf-nəzər etmək imanı kamilləşdirirmi?

Əvvəlki fəsildə oxucunu müasir psixologiya və nevrologiya tədqiqatlarında həyəcan və emosiya mövzusuna dair ümumi məlumatla tanış etdik. Bu fəsildə isə imanın kamilləşib Allahla əlaqənin dərinləşməsində emosiyaların əhəmiyyəti haqqında danışacağıq. Unutmayaq ki, emosiya olmadan iman "süstləşərək" zəifləyir. Həyəcan və emosiya insan fəaliyyəti ilə əlaqəli üç aspektin üçüncüsüdür. Dördüncü aspekt ruhla əlaqəlidir ki, modern materialist psixologiya onun mövcudluğunu rədd edir, digər üç aspektlə kifayətlənir.

Birincisi koqnitiv (bilmə və bilik) aspektdir. İnsan oğlu bilən (öyrənən) varlıq olduğu üçün özünə və ətraf aləmə baxışını, bəzən də inancını dəyişdirəcək yeni biliklər əldə edir. İkincisi davranış, yaxud əməli aspektdir. Fərdin davranışları və əməlləri əldə etdiyi məlumatlardan irəli gələn hərəkətlərlə təmsil olunur. Nəhayət, məsələn, gördüyü işlərə görə fərdin sevinməsi emosional aspekti əmələ gətirir. Psixologiya elmi göstərir ki, fərdin bütün psixoloji və fiziki-psixoloji fəaliyyəti bu üç aspektlə əlaqədardır.

Bu aspektlərin məntiqi ardıcıllığı belədir: koqnitiv, davranış-əməli, emosional. Əslində bu aspektlər bir-biri ilə içiçə olub ardıcıllığı müxtəlifdir və onları fərqləndirmək çətindir. Elə olur ki, koqnitivlik başlanğıcda güclü emosional stimulla müşayiət olunur və bu emosional stimul özünü

fərdin düşüncə və şüuruna qəbul etdirir, əməli-davranış fəaliyyətini ya təxirə salır, ya da gücləndirir. Və ya əməli-davranış aspekti başlanğıcda təsirli olur. Fərd elə vəziyyətə düşür ki, əvvəllər ağlına gəlməyən işləri görməyə məcbur qalır, gizli meyl və bacarıqlarını aşkara çıxaran yeni biliklər qazanır, özünə və ətrafa baxışını, gördüyü işlərə emosional münasibətini dəyişir. Bu, müasir psixologiyada sözügedən aspektlərin müxtəsər təsviridir. İndi isə məsələni islam nöqteyi-nəzərindən izah edək.

Söhbətimizə Ömər ibn Xəttaba *(Allah ondan razı qalsın!)* istinadən Müslimin rəvayət etdiyi məşhur hədislə başlayaq. Belə ki Həzrət Ömər demişdir: "Bir dəfə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanında oturmuşduq. Bu vaxt yanımıza ağappaq paltarda, şəvəsaçlı şəxs gəldi. Üst-başından yolçuya oxşamırdı, aramızdan kimsə onu tanımırdı. Peyğəmbərlə yanaşı əyləşib dizlərini dizlərinə toxundurdu, əllərini isə budlarının üstünə qoydu. Dilləndi: "Mənə islam haqqında danış." Peyğəmbər dedi: "İslam budur ki, Allahdan başqa ilahın olmadığını, Məhəmmədin Allahın elçisi olduğunu təsdiqləyirsən, namaz qılırsan, zəkat verirsən, Ramazanı oruc tutursan, gedə bilsən, Evi həcc edirsən." Dedi: "Düz dedin." (Həzrət Ömər deyir:) "Təəccübləndik ki, həm soruşur, həm də təsdiqləyir." Şəxs soruşdu: "Mənə iman haqqında danış." (Peyğəmbər) dedi: "(İman) Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirətə, qəzavü qədərə, xeyir və şərin qəzavü qədərdən olduğuna inanmaqdır." Şəxs dedi: "Doğru dedin. İndi isə mənə "ehsan" (yaxşıcasına etmə) haqqında danış." (Peyğəmbər) dedi: "(Bir şeyi yaxşıcasına etmək) Allahı görürmüş kimi Ona ibadət etməkdir. Bil ki, sən Onu görməsən də, O səni görür."

(Ömər deyir:) "(Şəxs getdikdə sonra) Peyğəmbər soruşdu: "Bilirsənmi, Ömər, sualları verən şəxs kim idi?" De-

dim: “Düzünü Allah və elçisi bilir.” Dedi: “O, Cəbrayıl idi, sizə dininizi öyrətməyə gəlmişdi”[1] (Əbu Hüreyrəyə istinadən Müslimin danışdığı başqa versiyada göstərilir ki, Cəbrayıl əvvəlcə iman, sonra islam, daha sonra “ehsan” haqqında soruşubmuş).

Hədisdən məlum olur ki, Allaha, elçilərə, mələklərə, kitablara, axirətə inam baza biliklərini təmsil edir; namaz, oruc və həcc kimi ibadət növləri isə bu biliklərə əsaslanan əməlləri əmələ gətirir. Hədisdə həm də emosional hissdən danışılır: Uca Allah ibadət edən bəndəsini görür. Bu vaxt fərdə emosiyalarla mənəvi paklığın qarışdığı vəziyyət hakim olur. Bu onu göstərir ki, Uca Allah bizdən Ona təkcə biliklə, şüurlu imanla, vacib ibadət növləri ilə deyil, həm də imandan irəli gələn emosionallıqla, duyğularla tapınmağımızı istəyir. Bu səbəbdən bildirmişdik ki, islam nöqteyi-nəzərindən psixoloji təsəvvürün dörd komponenti vardır: koqnitiv, əməli-davranış, emosional, ruhi (mənəvi).

Bu yerdə, islama görə emosional aspektin əhəmiyyətini təkrar qeyd etmək lazımdır, çünki bu aspekt nəzərə alınmadıqda iman zəifləyir, hətta yox ola bilir. Bununla əlaqəli konkret misallardan biri budur ki, müsəlmanın imanı Peyğəmbəri özündən, övladlarından və bütün insanlardan çox sevmədikcə kamilləşmir. Ənəs ibn Malik *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər demişdir: “Məni övladları, atası və bütün insanlardan əziz tutmadıqca sizdən kimsə (həqiqi surətdə) iman etməmişdir”[2].

Buxarinin “Səhih” kitabında qeyd olunub ki, Ömər ibn əl-Xəttab adəti açıqsözlülüyü ilə Peyğəmbərə deyibmiş: “Sən, ey Allahın elçisi, mənə özüm xaric hər şeydən əziz-

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: “Beyt əl-əfkar əd-düvəliyyə”, 1998, hədis № 8, səh. 36.

[2] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: “Beyt əl-əfkar əd-düvəliyyə”, 1998, hədis № 15, səh. 26.

sən." Peyğəmbər də deyir: "Xeyr, Allaha and olsun ki, mən sənə sənin özündən əziz olmadıqca (həqiqi surətdə iman etmiş sayılmazsan)." Ömər deyir: "İndi sən, Allaha and olsun ki, mənə özümdən də əzizsən." Peyğəmbər buyurur: "Bax indi, ey Ömər, (həqiqətən, iman etmiş sayıldın)"[1].

Peyğəmbərin həyatını qələmə almış mötəbər müəlliflər bu misilsiz sevgi ilə əlaqəli maraqlı misallar çəkmişlər. Məsələn, Əbubəkr əs-Siddiq özünü Peyğəmbərə fəda etmiş, Sövr mağarasına vəhşi heyvan, yaxud zəhərli həşəratların olub-olmadığını öyrənmək üçün birinci girmişdi. Əmin olmuşdu ki, mağara təhlükəsizdir. Amma Peyğəmbər yuxuda ikən Əbubəkri ilan dişləmiş, Peyğəmbəri oyatmamaq üçün Əbubəkr ağrıya dözməli olmuşdu. Ağrı şiddətləndikdə göz yaşı Peyğəmbərin üzünə düşərək onu oyatmışdı[2]. Həmçinin Peyğəmbər Uhud döyüşündən qabaq səhabələrini bir cərgəyə düzərkən əlindəki çubuqla Səvad ibn Qəzyə adlı bir səhabənin qarnından itələmiş və demişdi: "Düz dayan, Səvad." Səvad bildirmişdi ki, bu onu ağrıdıb, odur ki eyni şeyi etməsi üçün Peyğəmbərdən qarnını açmağını istəyir. Peyğəmbər deyilənləri etdikdə Səvad onu qucaqlayaraq mübarək bətnini öpür[3]. O bunu, özünün də dediyi kimi, döyüşdə şəhid olarsa, hələ sağ ikən bədəni Peyğəmbərin bədəninə dəysin deyə etmişdi. Xübeyb ibn Ədiyy[4] adlı səhabəni Qüreyş kafirləri çarmıxa çəkdikləri vaxt başçılarından biri soruşmuşdu: "Məhəmmədin sənin yerində, sənin isə sağ-salim ailənin yanında

[1] Yenə orada, hədis № 6632, səh. 1267.

[2] Ətraflı məlumat üçün bax: Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əl-Bidayə vən-nihayə. Beyrut: "Dar əl-mərifət", 1997, IV cild, səh. 194.

[3] Əbubəkr Əhməd ibn əl-Hüseyn ibn Əli əl-Beyhəqi. Əs-Sünən əl-kübra / araşdırıb çapa hazırlayan: Abdullah Əbdülmühsin ət-Türki. "Həcər" Ərəb Tədqiqatları Mərkəzi"nin nəşrləri, 2011, VIII cild, səh. 48.

[4] Əslində söhbət Zeyd ibn Dəssinədən gedir – ***tərcüməçinin qeydi.***

olmağını istəyərdinmi?" Xübeyb demişdi: "Allaha and olsun ki, mən ailəmin yanında ikən Məhəmmədi indi olduğum yerdə, hətta bir tikanın incitməsini istəmərəm!"[1]

Həmçinin münafiqlərin başçısı Abdullah ibn Übeyy ibn Səlul Peyğəmbər haqqında hərzə-hədyan danışaraq demişdi: "And olsun, əgər Mədinəyə qayıtsaq, ən şərəfli şəxs ən zəlil kimsəni oradan qovub çıxaracaqdır!" Bu vaxt oğlu Hübab qarşı çıxaraq qılıncını sıyırır, Peyğəmbər icazə verməcə onun Mədinəyə girməsinə mane olur. Bununla da Abdullah ibn Übeyyə məlum olur ki, özü zəlil, Peyğəmbər isə şərəflidir[2].

Peyğəmbəri təkcə kişi deyil, həm də xanım səhabələr çox sevirdilər. Tarix kitablarında oxuyuruq ki, Mədinəli bir müsəlman qadının həyat yoldaşı və qardaşı Uhud döyüşündə həlak olur. Bundan xəbər tutduqda soruşur: "Bəs Peyğəmbər necədir?" Deyirlər: "Yaxşıdır." Xahiş edir: "Gözümlə görüm deyə onu mənə göstərin." Peyğəmbəri ona nişan verdiklərində deyir: "Səndən sonra hər müsibət ağırdır, ey Allahın elçisi!"[3]

Sevgi böyük günah işləyənlərin kafir sayılmasının qarşısını almışdı. Peyğəmbər onu sevən şəxsləri lənətləməyi qadağan etmiş, onlara Allahdan bağışlanma diləmişdi. İçkiyə aludə olmuş Himar ləqəbli səhabə (adı Abdullah idi) Peyğəmbəri tez-tez bamәzə söhbətləri ilə güldürərdi. İçdiyinə görə bir neçə dəfə cəzalandırılmışdı. Bir dəfə onu içdiyinə görə Peyğəmbərin yanına gətirirlər. Oradakılardan biri deyir: "Allahım, ona lənət et! Onu necə də tez-tez

---

[1] Bax: Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əl-Bidayə vən-nihayə. Beyrut: "Dar əl-mərifət", 1997, IV cild, səh. 445.

[2] Yenə orada, səh. 545.

[3] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Peyğəmbərlər və hökmdarların tarixi / araşdırıb çapa hazırlayan: Məhəmməd Əbülfəzl İbrahim. Misir: "Dar əl-məarif", II cild, səh. 533.

gətirirlər!" Peyğəmbər dedi: "Ona lənət etməyin! Bilirəm ki, o, Allahı və elçisini çox sevir. Qardaşınıza qarşı şeytana kömək etməyin, əksinə, belə deyin: "Allahım, onu bağışla!"[1]

Görünür, Abdullah ciddi alkoqol asılılığından əziyyət çəkirmiş. Hətta səhabələrin yanında özünü saxlaya bilməyib içməsindən bu nəticəyə gəlirik. Başqa bir fakt: Xeybər döyüşündə müsəlmanlar yəhudilərdən qənimət götürdükləri içki küpələrini sındırıb çaxırı yerə tökdükləri vaxt Abdullah özünü saxlaya bilməyib içir, Peyğəmbər də ona cəza kəsir. Belə başa düşürük ki, Abdullah Peyğəmbərin sağlığında içkiyə aludəçilikdən əl çəkə bilməmişdir. Bu vəziyyət Həzrət Ömərin xəlifəliyinədək davam etmişdir. Hafiz ibn Həcər yazır ki, "Abdullah Həzrət Ömərin dövründə içmiş, xəlifə də ona cəza kəsmişdi"[2].

Başqa bir misal: səhabələrdən biri Peyğəmbərin yanına gələrək deyir: "Ey Allahın elçisi, mən cəhənnəmlik insanam". Bu ona görə idi ki, Ramazan orucu tutarkən həyat yoldaşı ilə yaxınlıq edibmiş. Peyğəmbər soruşur ki, bir qul azad edəcək qədər pulu varmı? Səhabə "yox" deyir. Peyğəmbər təkrar sual edir ki, iki ay ardı-ardına oruc tuta bilərmi? Cavab "xeyr" olur. Bu dəfə Peyğəmbər sual edir ki, altmış yoxsula verəcək yeməyi varmı? Səhabə başını bulayır. Həmin gün Peyğəmbərə balaca bir kisədə xurma gətiriblərmiş. Kisəni həmin səhabəyə verib deyir ki, yoxsullara sədəqə olaraq paylasın. Səhabə deyir: "Mədinədə məndən yoxsulu yoxdur!" Peyğəmbər azı dişləri

---

[1] Hədisi Ömər ibn Xəttab rəvayət etmişdir. Bax: Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 6780, səh. 1294.

[2] Əbülfəzl Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani. Əl-İsabə fi təmyiz əs-səhabə / araşdırıb çapa hazırlayan: Əli Məhəmməd əl-Bəcavi. Beyrut: "Dar əl-cil", 1412 (hicri), II cild, səh. 117.

görünənədək gülür və deyir: "Apar bunu ailənə ver". Səhabə də günahından keçilmiş vəziyyətdə, bir kisə xurma ilə Peyğəmbərin yanından ayrılır[1].

Sevgini itaətlə şərtləndirənlər bu nəcib duyğunun əhəmiyyətini azaldırlar. Onlar öz iddialarını isbatlamaq üçün aşağıdakı ayəni göstərirlər:

"De: "Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin" (Ali-İmran, 31)

Halbuki Təbərinin də dediyi kimi, ayə Allahı sevdiklərini iddia edənlər barəsində nazil olub. Ayənin demək istədiyi budur: "Əgər iddianızda səmimisinizsə, Allahın sizi sevməsi üçün Peyğəmbərə tabe olun". Təbəri ayənin Nəcrandan gəlmiş xristian elçilər haqqında enməsi versiyasına üstünlük verir. Xristian elçilər Mədinəyə Peyğəmbərlə danışığa gəlmişdilər, Allahı sevdiklərini iddia edirdilər. Bu səbəbdən yuxarıdakı ayə nazil olmuşdu[2].

Amma sevgi və şəfqətə etinasız qalan bir dəstə şəxs öz görüşlərini bütün müsəlmanlara qəbul etdirmək istəyir, sevgidən danışanlara deyirlər: "Sevgi də nədir!? Sevgi itaətdir!" Sevgini itaətlə eyniləşdirmək açıq-aydın göstərir ki, həmin şəxslərin qəlbində islamın gətirdiyi incə duyğulardan heç nə yoxdur. Əgər Peyğəmbəri özündən, ailəsi və bütün insanlardan daha çox sevmədikcə bir müsəlmanın imanı kamilləşmirsə, təbii ki, sevgi itaətə çevriləcək, onları fərqləndirməyə lüzum qalmayacaqdır.

Gənc nəslin tərbiyəsində əhəmiyyətli olduğu üçün bu mövzu haqqında bir az ətraflı danışmaq yerinə düşür. Sevgini itaətlə eyniləşdirmək bunun belə olduğuna inanan

---

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 1111, səh. 430.

[2] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Came əl-bəyan fi təfsir əl-Quran. "Dar əl-hicr" nəşriyyatı, "Ali-İmran" surəsinin 31-ci ayəsinin təfsiri.

yeniyetmələr üçün müəyyən psixoloji problemlər yarada bilir. Bəli, sevgi ilə itaət arasında əlaqə vardır, amma onlar eyni şey deyildir; sevgi və itaət uzunluq və çəki kimi bir şeydir. İnsanların çəki və boylarını ölçsəniz, aralarında uyğunluq taparsanız. Məsələn, orta çəkili uzunboy şəxs eyni çəkili qısaboylu şəxsdən iri olur və s. Amma biz bu nəticəni hər kəsə şamil edə bilmərik. Belə ki çəkisi az arıq uzunboylular olduğu kimi çəkisi ağır dolu qısaboylular da vardır. Sevgi və itaət də belədir. Elə şəxs vardır ki, səmimi qəlbdən sevsə də, ibadətində (mütiliyində) abid deyildir. Gecəsini gündüzə qatıb hətta sünnə və müstəhəb əməlləri yerinə yetirən, amma emosiyaları sönük abidlərə də rast gəlirik. Məsələn, Peyğəmbər Həzrət Əbubəkr haqqında deyirdi: "Əbubəkr sizi oruc və namazla deyil, könlündəki xatircəmliklə qabaqlamışdır"[1]. Bu baxımdan düşünürük ki, sevgi və şəfqətin sərf-nəzər edildiyi tərbiyə uşaqlarda qabalığa, daşürəkliyə səbəb olur. Belə uşaqlar böyüdüklərində onların dinə bağlı qalanlarının çoxu təkfir[2] və xaricilik[3] təbliğatçılarının toruna düşür.

İbn Qəyyimi özlərinə imam bilən, amma dində sevginin rolunu yüksək qiymətləndirən fikirlərinə ağız büzən şəxslərə heyrətimizi gizlətmirik. İbn Qəyyim özünün məhəbbətlə döyünən "Sevənlərin bağçası və müştaqların sevinci" kitabında yazır: "Yer və göylər sevgi ilə və sevgi üçün mövcuddur; məxluqat sevgi üçün yaradılmışdır. Göy qübbələri sevgi naminə hərəkət edər; hərəkət sevgi sayəsində qayəsinə yetişər, başlayar və qurtarar. İnsan sevgi ilə mət-

[1] Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə əd-Diməşqi. Əl-Mənar əl-münif fi-səhih vəz-zəif / araşdırıb çapa hazırlayan: Əbdülfəttah Əbu Qüddə. Hələb, 1403 (hicri), səh. 115.

[2] müsəlmanları küfrdə ittiham etmə – ***tərcüməçinin qeydi***.

[3] mövcud quruluşla etiqad motivli barışmama, problemləri zorakı və silahlı üsulla həll etmə təmayülü – ***tərcüməçinin qeydi.***

ləbə çatar, məqsədini hasilə gətirər, nəfsinin zərərlərindən xilas olar, rəbbinə yol alar; (halbuki) onun (insanın) Ondan (Allahdan) qeyri ümid və istəkləri vardı. İnsan sevgi ilə xoş həyat qazanar, Allahdan bir rəbb, islamdan bir din olaraq razı qaldığında imanın dadını hiss edər"[1].

Bu ona görədir ki, həmin şəxslər sevgidən, şəfqət və incə duyğulardan, zahidlik və ilahi qorxudan bəhs etməyən mənbələri oxuyur, müsəlman olduqlarını, Allahı və elçisini sevdiklərini desələr də, itaətdə ləngiyənlərə qarşı zorakılığı tərənnüm edən kitablara üstünlük verirlər.

Sevgini itaətə təhkim etməklə yanaşı, belə bir yanlış tərbiyə üsulu da Müsəlman dünyasında geniş yayılıb. Bu üsulun zərəri ondadır ki, uşaqlarda ilahi əzabdan qorxmağa əsaslanan Allah təsəvvürü formalaşdırır. Bu tərbiyə üsulunda sevgi və şəfqət aspektləri nəinki az əhəmiyyətli hesab edilir, hətta sərf-nəzər olunur. Biz uşaqlarımızda Allah təsəvvürü formalaşdırarkən onlara günah etdiklərində Allahın dünya və axirətdəki cəzasından qorxmağı aşılayırıq; əsas diqqətimizi, təəssüf ki, Allahın günahları bağışlaması, bəndələrini sevməsi aspektlərinə vermirik. Analar çox vaxt tərbiyə məqsədilə övladlarını mifoloji heyvanlar və cinlə qorxudurlar. Uşaqlar bu qorxu ilə Allah qorxusu, cəhənnəmlə cəzalanma arasında əlaqə qururlar, bununla da düşüncələri və xəyallarında qarmaqarışıqlıq yaranır. Məsələn, ana nadinc oğluna deyir: "Dediyimi etməsən, Allah sənə qəzəblənəcək, səni cəhənnəmə atacaq". Ana nəzərə almır ki, uşaqlarda böyüklərdə olmayacaq qədər yüksək təxəyyül qabiliyyəti var və xəyalları onlara dərindən təsir edir. Xəyal etdiyi və düşüncəsində möhkəmləndirdiyi Allah obrazı uşağın gələcək emosional və mənəvi həyatında

[1] Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə əd-Diməşqi. Rövzət əl-mühibbin və nüzhət əl-müştaqin. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1992, səh. 3.

yol xəritəsi kimidir. Bu obraz zorakılıq və ağrılı cəza ifadə edən obraz olarsa, belə təsəvvürün dağıdıcı təsirləri haqqında düşünün. Uşaq ilk illərdə mücərrəd şeyləri dərk edə bilmir. Ola bilsin ki, Allahı minarə hündürlüyündə və qarşısında tonqal qalanmış nəhəng insan kimi təsəvvür edir. Düşünür ki, bu nəhəng anasının sözünə baxmadığı, yaxud balaca bacısını vurduğu üçün onu tutub tonqala ata bilər. Uşaq böyüyüb ağlı kəsdikdə, mücərrəd anlayışları dərk etdikdə özünün Allaha dair uşaqcasına təsəvvürlərinə güləcək, amma Allahın dünyada və axirətdə verəcəyi cəza ilə əlaqəli qorxu hissi onu tərk etməyəcəkdir. Yəni, xəyalında formalaşdırdığı uşaqcasına təsəvvür unudulsa da, həmin təsəvvürün təsiri ömrü boyu qalacaqdır. Bu cür tərbiyə görmüş şəxs "Fatihə" surəsindəki "Mərhəmətli və Rəhimli" atributlarını gündəlik beş vaxt namazda 17 dəfə təkrarlasa da, Allahın qullarına, Allah dostlarının da Allaha bəslədiyi sevgi haqqında qəlbləri titrədən xütbələrə qulaq assa da, uşaqlıqda xarakterini formalaşdıran halların təsiri kəsilməyəcəkdir.

Elə isə sevgiyə, incə hisslərə əhəmiyyətsiz baxan bu cür tərbiyə nəticəsində ilahi cəza qorxusunun yaratdığı təsirin xarakterdə möhkəmlənməsi ekstremist qruplara qoşulacaq gənclər və yaşlıların yetişməsinə səbəb olur. Belə şəxslər hakimiyyətə gəldiklərində tərbiyə və şəfqətə etinasız qalaraq sərt qanunlar və cəzalar tətbiq edir, ən amansız işgəncə üsullarına əl atırlar.

Ekstremist qruplara qoşulmayanlar da bu cür natamam tərbiyənin dağıdıcı təsirində qalırlar. Allaha ümid deyil, qorxu ilə ibadət etmək ümidsizliyə səbəb ola bilir. Həmçinin sevgi və şəfqət hisslərinin olmamağı insanı bəzən xatircəmlik ləzzətindən məhrum edir. Bu vəziyyətdə mümkündür ki, modern həyatın təzyiqləri artdıqca sevgi və

şəfqətdən uzaq tərbiyə almış şəxs psixoloji pozuntulara məruz qalsın.

Həyəcan pozğunluğu və depressiyadan əziyyət çəkən xəstələri müalicə seanslarında görmüşdük ki, sevgi və şəfqətin olmamağı fərdlərin davranışlarına təsir edir. Həmin xəstələrin çoxu balanslaşdırılmış tərbiyə görməmiş şəxslər idi. Bir hissəsi böyük günahlar işləmişdi, Allahın mərhəməti və bağışlamasından ümidlərini kəsmişdilər, gərgin və narahat idilər, ilahi cəza və intiqamın hər an və hər yerdə onları yaxalayacağını gözləyirdilər. Elələri də vardı ki, ümidsizlik, kədər və bədbinlik içərisində olub özlərini bütün pis şeylərdə ittiham edirdilər; qara düşüncələrə dalmışdılar, yaxın və uzaq keçmişdə etdikləri və səbəb olduqları şeylərə görə özlərini günahlandırırdılar.

Bizə həvalə edilən xəstələrdə xəstəliyi müalicə məqsədilə verilən depressiya və narahatlıq əleyhinə dərmanlar işə yaramamışdı. Dünyəvi psixoterapiya onları yaxşılaşdıra, özləri və ətrafa münasibətlərini dəyişə bilmirdi. Fikrimizcə, xəstələrdəki bu vəziyyəti Allahın mərhəməti, sevgisi, nə qədər böyük olursa-olsun, asanlıqla günahları bağışlamağı haqqında səhv emosional təsəvvürlər doğurmuşdu. Odur ki əsas diqqətimizi ruhi-emosional məsələlərə verdik, nəticədə ümidsizlik və narahatlıq aradan qalxdı, xəstələrin çoxu nikbinləşdi. Xəstələr psixoterapiyaya, yaxud bundan əvvəl işə yaramamış üsullara daha tez reaksiya verməyə başladılar. Xatırlayıram ki, bəzi xəstələr ilk dəfə Allaha qarşı sevgi hiss etdiklərində həyəcanlanaraq ağlamışdılar. Bu insanlar var-dövlət sahibi olsalar da, psixoloji sağlamlıqdan məhrum idilər.

Mənəvi istəyin yaranmasına emosionallığın təsiri

Deyilənlərdən və fəslin adından bu nəticəyə gəlirik ki, görürmüş kimi Allaha ibadət edən möminin qəlbinə hakim kəsilən şövqün möhkəmlənməsində emosiyalar başlıca rol oynayır. Görəsən, coşqun emosiya ilə mənəvi saflaşma arasında hansı isə əlaqə mövcuddurmu? Cavab olaraq deyək ki, hər şey çox vaxt Allah və peyğəmbər sevgisi, yaxud Allah qorxusu kimi qıcıqlandırıcı emosiyalarla, Allahla birgəlik duyğusu ilə başlanır. Belə emosiyalar möminin psixoloji-fiziki vəziyyətini dəyişdirir. Bundan sonra mömin özündə mənəvi yüksəlmə hiss edir. Bu hiss emosiyanı (həyəcanlanmanı) "alovlandırır". Nəticədə coşmuş emosiya mənəvi saflaşma ilə bütünləşir, biri digərini qüvvətləndirir.

Qeyri-dini motivlərin təsiri ilə həyəcanlanmaq, məsələn, təsirli şerə, gözəl səsli birisinin oxuduğu nəğməyə qulaq asmaq, ola bilsin, möminin vicdanda bu cür hissləri keçmişdə olduğu kimi bir daha mənəvi motivlə əlaqələndirsin. Nəticədə şerə qulaq asmağın doğurduğu emosiya Allahın əzəmətini təsəvvür etməklə əvəzlənəcəkdir. Daxili mütilik (***xüşu***) yaratmada emosionallığın əhəmiyyəti haqqında deyilir ki, Quran oxuyan şəxs, ağlamasa da, başqasına qoşulub ağlamalı, yaxud özünü ağlayırmış kimi göstərməlidir. Ola bilər ki, belə süni həyəcan həqiqi ağlamaqla əvəzlənsin. Aşağıdakı hədis də bunu təsdiqləyir:

"Elm – öyrənmə, ağıl-kamal da kamilləşməklə hasilə gəlir"[1].

[1] Əbülqasim Süleyman ibn Əhməd ət-Təbərani. Əl-Möcəm əl-övsət / araşdırıb çapa hazırlayan: Tariq Əvəzullah. Qahirə: "Dar əl-hərəmeyn", çap ili göstərilməyib, III cild, səh. 118, hədis № 2663.

Elə də olur ki, əvvəlcədən bizi təsirli ayələrə, yaxud vicdanı hərəkətə gətirən xütbəyə qulaq asmağın yaratdığı mənəvi hal bürüyür. Könül özünü müticəsinə Allaha təslim edir və bizdə Allaha sevgi hissi baş qaldırır. Bu sevgi hissi öz növbəsində mənəvi halımızı gücləndirir. Göründüyü kimi belə vəziyyətdə daxili itaət emosiyanın oyanmasından qabaq yaranır, emosiyalar oyandıqda isə itaət artır. Bəlkə də, aşağıdakı ayədə elə bu qarşılıqlı təsirə işarə olunur:

"Onlar üzüstə səcdəyə qapanıb ağlayar, (Qurandakı öyüd-nəsihət isə) onların (Allaha) itaətini daha da artırar" (əl-İsra, 109).

Emosiya ilə mənəvi halın qarşılıqlı təsiri kulminasiya həddinə çatdıqdan sonra itaətkarlıq, sükunət və daxili mütilik vəziyyəti yaranır. Allahın əzəməti və qüdrəti qarşısında yaranan bu itaət isti gündən sonra qüruba meyllənmiş günəşə bənzəyir:

"Allah sözün ən gözəlini (Quranı, ayələri) bir-birinə bənzər, (xəbərləri və hekayətləri, əmrləri və qadağanları, vədləri və təhdidləri) təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan (Quranın təhdidlərindən) Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən (öyüd-nəsihətlərindən, vədlərindən) sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu (Quran) Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldər. Allahın (küfr edəcəyini əzəldən bildiyi üçün) yoldan çıxartdığı kimsəyə isə heç bir yol göstərən olmaz!" (əz-Zümər, 23).

Belə psixoloji, mənəvi və fiziki xatircəmlik fərəh və məsudluqla formalaşmayan hissə səbəb olur. Ustad Məhəmməd Qəzali bu halı ən düzgün təsvir edənlərdən biridir. "İslamın emosional tərəfi" kitabında Qəzali yazır: "Əməlisalehlərdən elələri vardır ki, ürəkləri saf, daxilləri pak, Allahla əlaqələri möhkəmdir. Allaha bəslədikləri sevgi

ürəklərindən xəbər verir. Bəlkə də, ruhlarının yanından keçmiş Göy Əhlinin ardınca onlarda xatirələr baş qaldırır. Daxillərində küləklərin üflədiyi köz alovlanır; bu köz onları insan həyatına aid olmayan anlara qərq edir. Onlar bu vəziyyətdə ikən özlərindən uzaqlaşaraq qısa, yaxud uzun müddətə Allahla baş-başa qalırlar. Burada təəccüblü nə var? İman dalğalartək yüksəldikdən sonra sakitcə geri qayıdıb düz vərəq kimi yayılar"[1].

Bəzən emosional həyəcan Allahın xatırlanması və mənəvi duyğuların oyadılması ilə eyni vaxtda baş verir. Belə ki emosional həyəcan və Allahın xatırlanması iç-içə olub bütünləşir. Məsələn, bir müsəlman gözəl səsli qareyə qulaq asdıqda sevincdən titrəyə bilir. Xoş səs və gözəl ifa emosiya doğurur, ayələrin mənası isə könülləri silkələyir. Belə mübarək qarışıq insanı qəflətdən ən ali mütilik (mənəvi sükunət) mərtəbəsinə qaldırır. Mövzu ilə əlaqədar deyək ki, Allah Davud peyğəmbərə xoş səs bəxş etmişdi. Davud Allahı təqdis edərək şəninə tərif dedikdə dağlar və quşlar da onunla birlikdə Allaha tərif oxuyurmuşlar:

"...Biz dağları və quşları Davudla birlikdə (Allahı) təqdis edib tərifləsinlər deyə ona ram etdik..." (əl-Ənbiya, 79).

Dünyaya gəldiyimiz, ömrümüzün ən saf illərinin keçdiyi doğma yerə (kənd...) bəslədiyimiz sevgi bəzən mənəvi-dini hisslərimizlə əlaqəli olur. Məsələn, doğulduğumuz kənddə hələ kiçik yaşlarından bəzi dini anlayışları mənimsəmişiksə, kənd həyatına olan möhkəm istək mənəvi duyğularımızla şərtləşir.

Bütün bunları özümdən danışmıram, əksinə, təcrübədən çıxış edirəm. Dostlarımdan biri danışırdı ki, hər dəfə kəndi və əhalisinə darıxdıqda könlünü riqqətə gətirən, mənəvi sakitliyə səbəb olan hisslər keçirirmiş. Digər tərəfdən, hər

[1] Məhəmməd Qəzali. İslamın emosional tərəfi: əxlaq, davranış və təsəvvüfə dair araşdırma. İsgəndəriyyə, 1990, səh. 87.

dəfə namazını etina ilə qıldıqda kənddəki uşaqlıq xatirələri gözünün önünə gəlirmiş. Özünü danlayırmış: "Camaat təsirlənmək üçün həcci, Kə`bəni, Mədinəni, Peyğəmbərin qəbrini göz önünə gətirir, sən isə namaz qılanda Sudan səhralarının birində yerləşən uzaq kəndlə bağlı uşaqlıq xatirələrini yada salırsan!" Unutmayaq ki, uşaqlıq dövrünün emosiyalarına aid xatirələr bu emosiyaları oyadan halla qarşılaşdıqda bizi bürüyən ən canlı xatirələrdir.

Bir dostum var idi, Allah rəhmət eləsin, uşaqlıq illərini Sudanın şimalında, Nilin sahilində, göy-göyərti sahələrinin olduğu kənddə keçirmişdi. Beş yaşında ikən mədrəsədə müəllimi Bədir döyüşü haqqında təsirli əhvalat danışır. Həmin vaxt dostum elə təsəvvürünə gətirir ki, döyüş kənddəki göyərti sahəsində baş verib! Bu təsəvvürü onda Peyğəmbərə və səhabələrinə bəslədiyi sevgi doğurmuşdu. Dostum Ərəbistana səfər edib Bədir döyüşünün baş verdiyi çöllük ərazini öz gözləri ilə gördükdən sonra da həmin təsəvvür onu tərk etməmişdi. Mənə danışırdı ki, hər dəfə Bədir döyüşündən danışıldıqda gözlərinin qarşısında həmin bostan canlanırmış.

Şəfqət və xatircəmlik hissinin dini-mənəvi halla əlaqəsi bəzən gizli, yaxud bişüur formada yaranır. Ağıllı o kəsdir ki, bu duyğulardan Allaha səmimi qəlbdən itaət göstərmək (***xüşu***), nemətlərinə görə şükür etmək, Şeytanın oyatdığı xatirələrdən uzaqlaşmaq üçün istifadə edir.

"Xüşu" islama aid anlayış olub, özündə ali mənəvi hisslərlə qarışmış bir sıra emosiyaları, Allaha mütiliyi ehtiva edir. Bu səbəbdən onun digər dillərdə dəqiq tərcüməsini göstərmək mümkün deyildir. Məsələn, ingilisdilli lüğətlərdə "xüşu" sözünün tərcüməsi kimi təslimçilik, mütilik (humbleness, submission) göstərilib. Halbuki təslimçilik "xüsu" məfhumunun mənalarından biri olub bu sözü bütünlükdə ifadə etmir. Çünki üzdə tabe olmağına baxma-

yaraq, daxilində müdirinə nifrət edən şəxslərə rast gəlirik. Vəziyyət dəyişdikdə belə şəxslər mütidən yamanlıq edən asiyə çevrilirlər. Xüşuya gəlincə, bu keyfiyyətə sahib şəxslər həm Allaha təslim olur, həm Ondan qorxur, həm də Onu sevir, Ona dərin rəğbət bəsləyir, özlərini müqəssir və bir heç hesab edirlər. Bütün bu hallar xüsusi mənəvi həzlə müşayiət olunur. Xüşuya dalan şəxsə heç ərəb dilində dəqiq tərifini verə bilməyəcəyimiz mənəvi enerji hakim kəsilir. Bu enerji Allahın dərgahından olub xüşuya dalmış bəndənin psixoloji və fiziki vəziyyətini dəyişir. Belə insan bəzən hönkürərək ağlayar, göz yaşı tökər, bir emosional-psixoloji vəziyyətdən digərinə adlayar. Onu qərbli psixoloqlardan kimsə bu vəziyyətdə görərsə, kəskin depressiya diaqnozu qoyar, depressiya əleyhinə dərman yazar, bəlkə də, intihar etməsin deyə xəstəxanada süni yuxuya verilməsini tövsiyə edər! Bu bədbəxtin xəbəri yoxdur ki, xüşuya dalmış şəxs özündə heç nəyin əvəzləyə bilmədiyi xoşbəxtlik hiss edir.

Şeyxülislam İbn Teymiyyə zikr əhlindən bəzi şeyxlərin düşdüyü mənəvi vəziyyəti onların dili ilə belə izah edir: "Elə hala düşmüşdüm ki, öz-özümə deyirdim: "Əgər cənnətliklər cənnətdə ikən bu halda olsaydılar, həyatları xoş keçərdi"[1]. Digəri deyirdi: "Bəzən elə hala düşürəm ki, sevincimdən rəqs edirəm". Başqa birisi deyir: "Gecə əhlinin gecə ibadətindən aldığı ləzzəti eyş-işrət əhli yeyib-içməkdən, əyləncədən ala bilmir"[2]. Üçüncünün dilindən oxuyu-

[1] Təqiyyəddin Əbülabbas Əhməd ibn Əbdülhəlim ibn Teymiyyə əl-Hərrani. Fitvalar külliyyatı / araşdırıb çap edən: Ənvər əl-Baz və Amir əl-Cəzzar. "Dar əl-vəfa" nəşriyyatı, 2005, X cild, səh. 647.

[2] Malik Bədri. Təfəkkür: idrakdan qavrayışa doğru. Beynəlxalq İslam Fikri İnstitutunun nəşrləri, 1995.

ruq: “Aldığımız ləzzətdən hökmdarlar xəbər tutsaydılar, qılınc çəkib bizə savaş açardılar”[1].

Sevgi haqqında dediklərimiz digər bütün emosiyalar üçün doğrudur. Allahın qaydalarını pozanlara qəzəblənməmək, onları inkar etməmək bəzən imanın birdəfəlik itirilməsinə səbəb olur. İbn Məsud rəvayət edir ki, Peyğəmbər demişdir: “Məndən əvvəl Allahın göndərdiyi elə peyğəmbər yox idi ki, xalqından onun yolu ilə gedən, dediklərini nümunə götürən həvariləri və əshabələri olmasın. Onlardan sonra gələnlər etmədiklərini söyləyər, əmr olunmayan işləri görərlər. Onlarla kim əllə cihad edərsə, mömindir, dillə cihad edərsə, mömindir, qəlblə cihad edərsə, mömindir. Bunun xaricində isə zərrə qədər iman yoxdur”[2].

Yəni, Allah üçün qəzəblənməsək, pis əməlləri qəlbimizdə inkar etməsək, imanımız yoxa çıxar. Aşağıdakı hədis də bunu təsdiqləyir. Cabir ibn Abdullah rəvayət edir ki, Peyğəmbər buyurmuşdur:

“Allah mələklərdən birinə vəhy edər ki, filan şəhəri əhalisinin başına yıxsın. Mələk deyər: “Orada Sənə heç asilik etməmiş bir bəndən var.” Allah buyurar: “Şəhəri onun və digər sakinlərin başına yıx! Çünki o Mənim yolumda əsla qəzəblənməyib!”[3]

Bu yerdə, imanın kamilləşməsində duyğuların rolu haqqında dediklərimizlə kifayətlənirik.

---

[1] Təqiyyəddin Əbülabbas Əhməd ibn Əbdülhəlim ibn Teymiyyə əl-Hərrani. Fitvalar külliyyatı / araşdırıb çap edən: Ənvər əl-Baz və Amir əl-Cəzzar. “Dar əl-vəfa” nəşriyyatı, 2005, X cild, səh. 647.

[2] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: “Beyt əl-əfkar əd-düvəliyyə”, 1998, hədis № 50, səh. 51.

[3] Əbülqasim Süleyman ibn Əhməd ət-Təbərani. Əl-Möcəm əl-övsət / araşdırıb çapa hazırlayan: Tariq Əvəzullah. Qahirə: “Dar əl-hərəmeyn”, çap ili göstərilməyib, VII cild, səh. 336, hədis № 7661.

Dördüncü fəsil

Bəşərilik və məsumluq baxımından peyğəmbərlərin emosional reaksiyaları

Gündəlik həyatımızda emosiya və həyəcan yaradan amillər (stimullar) barəsində düşünərkən onları dörd qrupa ayırıram. Birincisi tez və qeyri-iradi olaraq verdiyimiz reaksiyalardır. Qeyri-iradi və ani reaksiya vermək sinir sistemimizin anadangəlmə xüsusiyyətidir. Yırtıcı heyvanla, yaxud istənilən qorxulu şeylə qarşılaşdıqda göstərdiyimiz reaksiya buna misaldır. Yaxud qışqırmağımıza səbəb olan ani və gözlənilməz stimulları misal göstərə bilərik. Belə stimullar bizi çətin vəziyyətə salır və düşünmədən, ani reaksiya verməyimizə səbəb olur. Alimlər bunu amiqdala ilə əlaqələndirirlər. Bu vaxt özümüzü ani müdaxilə tələb edən çətin vəziyyətdə tapır, ətrafımızda baş verən qəfil dəyişikliyə qeyri-iradi olaraq reaksiya veririk.

Bu cür qeyri-iradi reaksiyalar sinir sistemi ilə əlaqəli reflekslər xatırladır. Bərk qızmış səthə toxunduğumuzda əlimizi çəkməyimiz, qamaşdırıcı işıq düşdükdə gözlərimizi qırpmağımız buna misaldır.

Belə vəziyyətlərdə peyğəmbərlər də adi şəxslərdə olduğu kimi reaksiya vermişlər. Məsələn, Davud peyğəmbər kimsənin daxil olmadığı məbədə iki nəfərin divardan aşaraq girdiyini gördükdə bərk qorxmuşdu. Həmçinin Həzrət Məhəmmədi Cəbrayılı olduğu kimi gördükdə vahimə bürümüşdü. Cabir ibn Abdullah rəvayət edir ki, Peyğəmbər

deyibmiş: "Ondan bərk qorxdum və yerə yıxıldım"[1]. Eləcə də Musa peyğəmbər əsasının titrəyərək ilan kimi hərəkət etdiyini gördükdə qorxuya düşmüşdü. Belə vəziyyətlərdə qorxu ya qəfildən, ya da vahiməli, əcaib şeyləri gördükdə meydana çıxır.

Bu kimi qeyri-iradi reaksiyalara misal olaraq qəzəb və sevinc hissini, yaxud qəfil və şiddətli ağrının yaratdığı halları göstərə bilərik. Bu emosiyalar peyğəmbərlərə də təsir göstərir. Onlar da bu kimi hallara digər insanlarda olduğu kimi reaksiya vermişlər. Amma peyğəmbərlərin həyəcanlanması şiddətli deyildir. Onlar tez özünə gəlib sakitləşirlər. Uhud döyüşündən sonra Peyğəmbər əmisi Həmzənin cəsədini gördükdə qəzəblənmişdi. Belə ki əmisi öldürülmüş, burun və qulağı kəsilmiş, qarnı yırtılmış, ciyəri çıxarılmışdı. Peyğəmbər qəzəbini aşağıdakı təsirli sözlərlə ifadə etmişdi: "İndiyədək məni bu qədər qeyzləndirəcək halla heç qarşılaşmamışdım! Allah sənə mərhəmət göstərsin, əmi! Sən qohumluqda sadiq idin, yaxşı işlər görürdün! And olsun ki, Allah məni bu tayfa üzərində müzəffər etsə, onlardan yetmiş nəfərin başına eyni şeyi gətirəcəyəm!"[2] Bəlkə də, belə ani reaksiya Peyğəmbərin insan olmağından irəli gəlirdi. Amma peyğəmbərinə gözəl tərbiyə vermiş Allah bəşəri emosiyaları ondan uzaqlaşdırmış, Həzrət Məhəmməd yerindən tərpənməmiş ayə nazil olmuşdu: "(İntiqam almaq məqsədilə birinə) cəza verəcək olsanız, sizə nə cəza verilibsə, eynilə həmin cəzanı verin. Əgər (on-

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3238, səh. 621; Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 161, səh. 89.

[2] Əbülqasim Süleyman ibn Əhməd ət-Təbərani. Əl-Möcəm əl-övsət / araşdırıb çapa hazırlayan: Tariq Əvəzullah. Qahirə: "Dar əl-hərəmeyn", çap ili göstərilməyib, III cild, səh. 233, hədis № 2868.

lardan intiqam almayıb) səbir etsəniz, bu, səbir edənlər üçün daha xeyirlidir" (ən-Nəhl, 126).

Peyğəmbər ayədəki iki göstərişdən daha çətinini seçmişdi: səbir etmək! Demişdi: "Səbir göstərəcəyik!" Bundan sonra cəsədlərin burun və qulaqlarının kəsilib eybəcər hala salınmasını qadağan etmişdi.

Həzrət Məhəmmədin bəşəriliyi və peyğəmbərliyi arasındakı fərqi izah edən başqa bir fakta nəzər salaq. Uhud döyüşündə Peyğəmbər yaralanmış, azı dişi qırılmış, zirehinin iki halqası üz sümüyünə batmışdı. Kafirlər ona daş atmışdılar və o, onların qazdıqları çalaya yıxılmışdı. Döyüş başa çatdığında Peyğəmbər qəzəblə demişdi: "Peyğəmbərlərinin üzünü yaralamış tayfaya Allahın şiddətli qəzəbi olsun!" Amma bir saat keçməmiş buyurmuşdu: "Allahım, xalqımı bağışla! Həqiqətən də, onlar bilmirlər!"[1]

Birinci reaksiyanı onun bəşəri təbiəti doğurmuşdu. Daha sonra peyğəmbərlik emosiyası ilə fərqli reaksiya göstərmişdi.

Şiddətli ağrıya qeyri-iradi reaksiya göstərməyə gəlincə, aşağıdakı əhvalat buna misaldır. Bir basabasda səhabələrdən birinin səndəli Peyğəmbərin ayağını incitmişdi. Gəlin baş verənləri həmin səhabənin – Abdullah ibn Əbubəkrin dilindən eşidək: "Dəvəmin belində Peyğəmbərlə yanaşı gedirdim, ayağımda qaba ayaqqabı vardı. Dəvəm Peyğəmbərin dəvəsi ilə basırığa düşdü və ayaqqabımın uc hissəsi onun baldır hissəsini sıxaraq ağrıtdı. Ayağıma qamçı ilə vurub dedi: "İncitdin məni, arxamdan gəl." Oradan uzaqlaşdım. Növbəti gün Peyğəmbər məni axtardı. Öz-özümə dedim: "Bu, and olsun ki, dünən Peyğəmbərin ayağını incitdiyimə görədir." Yanına getdiyimdə Peyğəmbər dedi:

[1] Əbülqasim Süleyman ibn Əhməd ət-Təbərani. Əl-Möcəm əl-kəbir / araşdırıb çapa hazırlayan: Həmdi ibn Əbdülməcid. Qahirə: "Məktəbə İbn Teymiyyə", çap ili göstərilməyib, V cild, səh. 446, hədis № 2529.

“Sən dünən ayağıma vurub məni incitdin, mən də sənin ayağına qamçı ilə vurdum. Çağırmışam ki, bunun əvəzini sənə ödəyim.” Və mənə vurduğu bircə qamçıya görə səksən qoyun verdi”[1].

Həmçinin hədsiz dərəcədə sevindiyimizdə reaksiyamız da buna uyğun olur. Bəzən bu hal emosional tutmalarla, bədən hərəkətləri ilə, nizamsız nitqlə müşayiət olunur. Səhabələrdən Bəra ibn Azib danışır ki, Peyğəmbər böyük səhabə Cəfər ibn əbu Talibə: “Görünüş və əxlaqca mənə oxşayırsan”[2], – dediyində sonuncu o qədər sevinmişdi ki, həbəşlər kimi tək ayaq üstündə tullanmağa başlamışdı. Bu yerdə, başqa bir hədis yadıma düşür. Hədisdə deyilir ki, bir kişi səhralıq ərazidə yeməyi və içməyi yüklənmiş dəvəsini itirir. Axtarsa da, tapa bilmir, naçar qalıb deyir: “Əvvəlki yerə qayıdım, ölənədək orada yatım.” Yatır, oyandıqda nə görsə yaxşıdır: dəvəsi yeməyi və içməyi ilə qarşısında dayanıb. Sevindiyindən (səhvən) deyir: “Allahım, Sən mənim qulum, mən də Sənin rəbbinəm!” (Peyğəmbər sözünə davam edir:) “Qulunun tövbəsinə görə Allahın sevinməyi bu şəxsin dəvəsini və yemək-içməyini taparkən sevinməyindən çoxdur”[3]. Sonuncu cümlə bizi nikbinliyə çağırıb Allaha sevgimizi artırır.

Bütün bu misallar anadangəlmə qeyri-iradi reaksiyalar haqqındadır. Dediyimiz kimi, peyğəmbərlər də insandır, amma Allah onlara bu cür stimullara müqavimət göstərmək və qısa vaxtda sakitləşmək bacarığı vermişdir. Məsələn, Həvazin tayfası ilə vuruşmaq üçün Məkkədən

---

[1] Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əs-Sirə ən-nəbəviyyə. Beyrut: “Dar əl-mərifət”, 1976, səh. 466.

[2] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: “Beyt əl-əfkar əd-düvəliyyə”, 1998, hədis № 2699, səh. 514.

[3] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: “Beyt əl-əfkar əd-düvəliyyə”, 1998, hədis № 2744, səh. 1098.

çıxan müsəlman ordusunda on iki min nəfər vardı. Müsəlmanlar qələbə qazanacaqlarına əmin idilər, çünki ilk dəfə idi ki, belə böyük ordu ilə döyüşə gedirdilər. Ordunun böyüklüyü onlarda arxayınlıq yaratmışdı. Ordu Hüneyn vadisinə daxil olduqda mühasirəyə düşdü; həvazinlilər gözlənilmədən hücum edərək vadinin ətəklərindən ox atmağa başladılar. Belə qəfil hücumu gözləməyən müsəlmanlar ani reaksiya ilə geriyə qaçmağa üz tutdular. Peyğəmbərin yanında çox az adam qalmışdı. Peyğəmbər möhkəm dayanmış, belə gözlənilməz hücuma reaksiyası təbii olmuşdu. Peyğəmbərin təmkini orduda ruh yüksəkliyinə səbəb olmuş, qələbəyə inamı artırmışdı.

Peyğəmbər qatırını düşmənə tərəf sürmüş, müsəlmanlara geri qayıtmaları üçün səslənmişdi. Müsəlmanlar da geri qayıdaraq kafirləri məğlub etmişdilər. Qurani-Kərim döyüşdə baş verənləri, yaşanan həyəcanı belə təsvir edir:

"Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (vuruşu) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu (yer üzü genişliyinə baxmayaraq sizə dar gəldi), sonra dönüb qaçdınız.

Sonra da Allah Öz peyğəmbərinə və möminlərə arxayınlıq nazil etdi, (köməyinizə mələklərdən ibarət) görmədiyiniz əsgərlər endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!" (ət-Tövbə, 25-26).

İkinci növ reaksiyaları xüsusi situasiyalar doğurur. Belə situasiyalara öz istəyimizlə münasibət bildiririk. Əvvəlki fəsildə bu barədə danışılıb. Təkrar qeyd edək ki, insan bu seçimləri öz istəyi ilə edir, seçiminə görə məsuliyyət daşıyır. Müasir elm təsdiqləyir ki, belə reaksiyaları beynin alın payı tənzimləyir. Onu da demişdik ki, müasir elm materialistcəsinə olub bütün bəşəri davranışları beyinlə əlaqələndirir. Bilmirik, bəlkə də, gələcəkdə bugünün elmi

müddəalarını dəyişəcək kəşflər ediləcəkdir. Nəticədə ağıllı mahiyyətcə qeyri-maddi hesab edən, beynin tənzimləyicisi olduğunu deyən Eklez və Persal kimi alimlərin fikirlərini əsas götürən nöqteyi-nəzər güclənəcəkdir. Belə təsəvvür sayəsində həmin alimlərin ideyaları islam nöqteyi-nəzəri ilə üst-üstə düşür. İslam nöqteyi-nəzərinə görə, qeyri-maddi "qəlb" beynimizi tənzimləyir, seçimlərimizə görə məsuliyyət daşıyır, bizi baş verənlərin fərqinə varan şüurla təmin edir.

Deməli, birinci növ reaksiyalar qeyri-iradidirsə, ikinci növ reaksiyalar iradidir. Yəni, həyəcanlanmış şəxs düşdüyü vəziyyəti dərk edir. Göstərdiyi reaksiya isə stimulun dərəcəsinə, özünün psixoloji-ruhi halətinə, inancı və xarakterinə uyğun olur. Bu baxımdan peyğəmbərlərlə adi insanların reaksiyaları arasında fərq vardır. Məsələyə qorxu hissi və bu hissi doğuran başlıca situasiya – ölüm situasiyası əsasında aydınlıq gətirək. Çünki bu hiss əsasında məsələni daha düzgün başa düşmək mümkündür.

Qurani-Kərimdə peyğəmbərlərin emosional reaksiyalarından, onları ölüm, yaxud işgəncə ilə hədələyənlərə hansı münasibəti bəslədiklərindən danışılır. Belə təhdidlər qarşısında peyğəmbərlər yolundan dönməmiş, ölümə xırda məsələ kimi baxmışdılar; yəqinliklə bilirdilər ki, ən kiçik zərrədən ən böyük qalaktikayadək bütün kainatın taleyi Allahın əlindədir, istədiyini öldürər, istədiyini də diri saxlayar, O, hər şeyə qadirdir. Siz zooparkdakı şirin hücum edə biləcəyi xəbərdarlığını edən ağılsız şəxsə necə baxırsınızsa, peyğəmbərlər də kafirlərə o cür baxırdılar. Siz bu xəbərdarlığa gülürsünüz, çünki şirin qəfəsdə olduğunu, oradan heç cürə çıxa bilməyəcəyini yaxşı bilirsiniz.

Peyğəmbərlər kafirlərin təhdidlərini Allahın köməyinə güvənərək əhəmiyyətsiz hesab edirdilər. Məsələn, Nuh peyğəmbər hədə-qorxuları heç sayaraq xalqına meydan

oxumuş və bildirmişdi ki, birləşib qərar versinlər və onu öldürmək üçün çıxardıqları qərarı gecikmədən icra etsinlər. Nuh əmin idi ki, güvəndiyi Allah bu işdə onlara fürsət verməyəcəkdir:

"(Ya rəsulum!) Müşriklərə Nuhun xəbərini söylə. Bir zaman o öz ümmətinə belə demişdi: "Ey ümmətim! Əgər aranızda qalmağım və Allahın ayələri ilə öyüd-nəsihət verməyim sizə ağır gəlirsə, mən (sizin mənə qarşı bütün pis niyyətlərinizdən) Allaha təvəkkül edirəm. Şəriklərinizlə birlikdə (mənim barəmdə) nə edəcəyinizi qərarlaşdırın. Görəcəyiniz iş gizli qalmasın (onu mənə də bildirir), sonra mənə heç möhlət də verməyib haqqımda istədiyinizi edin (istədiyiniz hökmü çıxarın!).

Əgər siz (mənim öyüd-nəsihətimdən, dəvətimdən) üz çevirsəniz, (bilin ki) mən (bunun müqabilində) sizdən heç bir mükafat istəmirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. Mənə müsəlmanlardan (özünü Allaha təslim edənlərdən) olmaq əmr edilmişdir!"

Onlar yenə də Nuhu yalançı hesab etdilər. Biz Nuha və onunla birlikdə gəmidə olanlara nicat verdik, onları (yer üzünə) varislər (xələflər) etdik. Ayələrimizi yalan hesab edənləri isə suda batırıb boğduq. Bir gör (əzabla) qorxudulanların (lakin yola gəlməyənlərin) axırı necə oldu!" (Yunis, 71-73).

Hud peyğəmbər də onu öldürmək istəyən tayfasına açıq şəkildə meydan oxumuşdur. Bilirdi ki, yer üzündə hər şey Allahın gücü və qüdrətinə tabedir:

"Mən özümün və sizin rəbbiniz olan Allaha təvəkkül etdim. (Yer üzündə) elə bir canlı yoxdur ki, onun ixtiyarı (Allahın) əlində olmasın. Həqiqətən, rəbbim düz yoldadır!" (Hud, 56).

Başqa bir misal: Həzrət Məhəmməd onu öldürmək istəyən kafirlərdən qaçaraq dostu Əbubəkrlə Sövr mağa-

rasında gizlənibmiş. Kafirlər mağaranın ağzına çatdıqda Həzrət Əbubəkr qorxudan əsərək deyir: "Onlardan biri əyilib baxsa, bizi görəcəkdir!" Həzrət Məhəmməd ona xatircəmlik bəxş etmiş Allaha güvənərək deyir: "Əbubəkr, üçüncüsü Allah olan iki nəfəri sən nə sanırsan?!"[1] Bu əhvalat haqqında "Tövbə" surəsində oxuyuruq:

"(Ey möminlər!) Əgər siz ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri (ikinin ikincisi) olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna (Əbubəkrə): "Qəm yemə, Allah bizimlədir!" – dediyi zaman (göstərmişdi). O vaxt Allah ona bir arxayınlıq (rahatlıq) nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir!" (ət-Tövbə, 40).

Bu əhvalat həyəcanlı situasiyalarda peyğəmbərlərlə adi insanların – iman və təvəkküldə Əbubəkrin səviyyəsində olsalar da – reaksiyaları arasındakı fərqi göstərir. Qorxmuş Əbubəkrin – bu qorxu Peyğəmbərə görə olsa da, fərq etmir – qarşısında mağaraya daxil olduqdan sonra başını dostunun dizinə qoyaraq yuxuya təslim olmuş xatircəm peyğəmbər vardır. Bu nə arxayınlıqdır belə?! Onu öldürmək istəyən xalqının əhatəsində rahatca yuxuya gedən bir peyğəmbər!

Deməli, iradi qərarların qəbul edildiyi vəziyyətlərdə peyğəmbərlərin qorxması, yaxud tərəddüd keçirməsi mümkün deyildir. Amma adi möminin onu öldürmək istəyənlərdən müxtəlif üsullarla xilas olmağına icazə verilib. Məsələn, bir dəfə kafirlər Əmmar ibn Yasirə bildirmişdilər ki, Həzrət Məhəmmədin peyğəmbərliyini danmadıq-

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3653, səh. 698.

ca ona işgəncə verəcəklər. Əmmar da naçar qalıb onların dediklərini etmişdi. Daha sonra gəlib üzrxahlıq etdiyində Peyğəmbər demişdi: "Sənə bir də işgəncə versələr, eyni şeyi et"[1]. Və Allah Təala aşağıdakı ayəni endirmişdi:

"Qəlbi imanla sabit olduğu halda (küfr sözünü deməyə) məcbur edilən (dil ilə deyib ürəyində onu təsdiq etməyən) şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu ağır təhlükə gözləyir). Lakin qəlbən küfrə razı olanlara (qəlbində könüllü surətdə küfrə yer verənlərə) Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!" (ən-Nəhl, 106).

Əzəmətli tariximizdə inancından vaz keçməyərək ölümü və işgəncəni üstün tutan alim və abidlər olmuşdur. Həmin fədailərə İmam Əhməd ibn Hənbəli, Övzaini, Həccac tərəfindən qətlə yetirilmiş Səid ibn Cübeyri, İbn Teymiyyə və başqalarını misal göstərmək olar.

Əziz oxucuya xatırladırıq ki, biz həyəcan və emosiya doğuran dörd növ stimuldan (qıcıqdan) və peyğəmbərlərin bu stimullara necə reaksiya göstərməsindən danışırıq. Dedik ki, peyğəmbərlər birinci növ stimullara adi insanlar kimi reaksiya verirlər. Çünki insan olduqlarından qeyri-iradi reaksiyaları onların sinir sistemi meydana çıxarır.

İkinci növ reaksiyalar fərdin iradi qərar verməklə münasibət bildirdiyi situasiyalarla əlaqəlidir. Bu reaksiyalar fərdin iradi fəaliyyəti ilə tənzimlənir. Fərd öz seçimi və bu seçimin nəticəsinə görə məsuliyyət daşıyır. Biz izahımızda əməli misallar göstərməyə, ancaq psixoloqları maraqlandıran nəzəriyyələrdən danışmamağa üstünlük vermişik.

---

[1] Əbubəkr Əhməd ibn əl-Hüseyn ibn Əli əl-Beyhəqi. Əs-Sünən əl-kübra / araşdırıb çapa hazırlayan: Abdullah Əbdülmühsin ət-Türki. "Həcər" Ərəb Tədqiqatları Mərkəzi"nin nəşrləri, 2011, XVII cild, səh. 140, hədis № 16979.

Üçüncü növ stimullara gəlincə, buraya nəfsimizin, şeytanların, insan və cinlərin vəsvəsələrinə göstərdiyimiz reaksiyalar daxildir. Bu stimullar – onlara qulaq versək – bizdə həsəd, kin, özünəvurğunluq kimi mənfi hisslər yarada bilər. Müsəlman şəxsdə belə hisslərin olması mümkündür, amma peyğəmbərlər bundan qorunmuşlar. İbn Məsud rəvayət edir ki, Peyğəmbər bu barədə deyibmiş: "Sizdən elə kimsə yoxdur ki, cin yoldaşı olmasın!" Soruşdular: "Sənin də mi (cin yoldaşın var?)" Dedi: "Bəli, mənim də! Amma Allah mənə ona qarşı kömək etmiş, o da müsəlman olmuşdur. Odur ki mənə ancaq yaxşı şeyləri əmr edir"[1]. Peyğəmbərlərin günahsızlığı haqqında, Allah qoysa, bu fəslin növbəti səhifələrində təfsilatı ilə danışacağıq.

İndi isə həyəcan doğuran stimulların dördüncü növü haqqında danışaq. Ümid edirik ki, peyğəmbərləri bu məsələdə adi insanlardan fərqləndirən bəzi cəhətlərə aydınlıq gətirəcəyik.

Söhbət yaxşı əxlaq aşılayan emosiyaların doğurduğu hisslərdən, şəfqət, mərhəmət, günahlara səbir göstərmək, cəsarət, ehtirası cilovlamaq kimi duyğulardan gedir. Fitrətimizdə mövcud olan belə emosiyaların bir hissəsinə heyvanlarda da rast gəlirik. Məsələn, heyvanlar öz balalarına qarşı şəfqətli və fədakardırlar. Bu hisslər onlara həyatda qalmaları üçün bəxş edilib. Hədislərin birində oxuyuruq ki, Peyğəmbər deyibmiş: "Allah mərhəməti yüz hissədə yaratmış, doxsan doqquzunu özündə saxlayaraq birini Yer üzünə endirmişdir. Həmin bir hissə mərhəmətin sayəsində canlılar bir-birinə rəhm edərlər. Heyvanlar da pəncələrini xətər toxundurmasın deyə balalarının üstünə qoymazlar"[2].

---

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 2814, səh. 1132.

[2] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari.

Bu yerdə, dünyəvi Qərb psixologiyası ilə psixologiyada islam nöqteyi-nəzərinin fərqi ortaya çıxır. Dünyəvi Qərb psixologiyası terapevtik təbabət ixtisasları arasında yer almaq üçün əxlaqi bitərəfliyini elan etməklə insanın neqativ təbiətli olduğunu irəli sürür. O, bunun davranışların öyrənilməsi üsulu olduğunu iddia etməklə əxlaqa neytral münasibət bəsləyən empirik elmlərə yaxınlaşdığını bildirir. Psixologiyada islam nöqteyi-nəzəri isə şər davranışlarla müsbət davranışlar arasında fərq qoyur, yaxşı işlər görməyə ruhlandırıb gözəl əxlaq aşılamaq, pis işlərdən çəkindirmək üçün psixologiya elmlərindən istifadənin əhəmiyyətini başa düşür.

Ümumiyyətlə, müsbət emosiyaların anadangəlmə olub-olmamağı mövzusu ilahiyyatçılar və filosoflar arasında müzakirə edilmişdir. Problemə fərqli münasibət insana dair müxtəlif təsəvvürlərin formalaşmasında mühüm rol oynamışdır. İnsan təbiət etibarı ilə yaxşı olduğu halda, pis əməllərini aldığı tərbiyə və yaşadığı mühitmi meydana çıxarır? Xeyir və şər insanda anadangəlmə mövcuddurmu? Bəlkə, insan Katolik kilsəsinin iddia etdiyi kimi şər təbiətlidir? Kilsə inanır ki, Allahın qadağan etdiyi ağacın meyvəsini yedikləri üçün Adəm və Həvvanın günahı sonrakı nəsillərə irsən ötürülür.

Bu fəlsəfi mövzunun qaranlıq və azdırıcı dəhlizlərinə daxil olmaq fikrimiz yoxdur. Burada biz səhih hədislərə əsaslanan açıq-aydın islam nöqteyi-nəzəri ilə kifayətlənirik.

Mötəbər dini mətnlərlə üst-üstə düşən nöqteyi-nəzər bizi insanların anadangəlmə yaxşı olduqlarına inanmağa çağırır. Yəni, insanlar atalarının belində olarkən və Allaha vəd verdikləri vaxtdan sağlam fitrət üzrədirlər:

Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 6000, səh. 1163.

“(Ey peyğəmbərim!) Xatırla ki, bir zaman rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onların özlərinə (bir-birinə) şahid tutaraq: “Mən sizin rəbbiniz deyiləmmi?” – soruşmuş, onlar da: “Bəli, rəbbimizsən!” – deyə cavab vermişdilər” (əl-Əraf, 172).

Məhz bu fitrət bizi Allaha iman gətirib gözəl əxlaqa sahib olmağa çağırır. Bu baxımdan aşağıdakı ayə çox düşündürücüdür:

“(Ya rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz” (ər-Rum, 30).

Aşağıdakı hədis də dediklərimizi təsdiqləyir: “Hər bir körpə dünyaya fitrət üzrə gəlir. Onu valideynləri ya yəhudi, ya xristian, ya da atəşpərəst edirlər. Çöl heyvanı balasını tam şəkildə doğur, siz heç onda burnukəsiklik görmüşsünüzmü?”[1] Hədisdən məlum olur ki, yaxşı təbiətlilik – fitrət insanda anadangəlmə mövcuddur. Valideynlər, pis mühit, şeytanlar fitrəti dəyişdirir, təsirini zəiflədirlər.

Uca Allah bu şər qüvvələrə yanlış inanc və nəfsin istəklərindən istifadə edərək könüllərə hakim olmaq üçün fitrətlə rəqabət aparmağa icazə verib. Çünki Allah dünyanı imtahan yeri seçmiş, insan ruhunu fitrətin çağırışı ilə tanış etmiş, ona şərə tabe olmaqla fitrətə asilik etmək, ya da nəfsini tərbiyə etməklə fitrətin səsinə qulaq asmaq seçimi vermişdir:

“And olsun nəfsə və onu yaradana (ona biçim verənə); sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə” (əş-Şəms, 7-8).

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: “Beyt əl-əfkar əd-düvəliyyə”, 1998, hədis № 1385, səh. 268.

İnsan günahkar olub küfrə yol versə də, fitrəti itmir, mənəvi-psixoloji dünyasında gizli formada mövcudluğunu davam etdirir. Şəxs tövbə edib Allaha üz tutarsa, fitrəti qaranlığı yaran nur kimi geri qayıdır. Qeyd edək ki, lüğəvi mənada küfr "örtmə" deməkdir. Ərəbcə birisi "kəfərtul inəə" deyərsə, bu, "qabın üstünü örtdüm" mənasına gəlir. Elə isə "kafir" qəlbini fitrətin nurundan uzaq tutub qaranlıqda yaşayan şəxsə deyilir:

"Kafirlərin dostu isə Tağutdur (şeytanlardır). Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar" (əl-Bəqərə, 257).

Bir daha qeyd edək ki, Uca Allah insana xeyri şərdən, yaxşı duyğuları pis hisslərdən fərqləndirən anadangəlmə bacarıq verib. Xeyir insanda anadangəlmə mövcuddur, şər isə sonradan qazanılandır. Hədislərin birində fitrətin mənəvi-psixoloji dünyamıza təsirinin bizdə yaratdığı duyğulardan danışılır. İmam Əhmədin "Müsnəd" əsərində "həsən" istinadla rəvayət olunur ki, məşhur səhabə Vamisə ibn Mö`bəd demişdir: "Peyğəmbərin yanına getmişdim. Soruşdu: "Yaxşılıq haqqında soruşmağamı gəlmişsən?" Dedim: "Bəli, ey Allahın elçisi!" Dedi: "Bunu qəlbindən soruş! Yaxşılıq nəfsin xatircəm olduğu, ürəyin aram tapdığı şeydir. Günah isə nəfsə təsir edib ürəyə iztirab verər"[1]. Nüvas ibn Səm`an rəvayət edir ki, Peyğəmbər deyibmiş: "Yaxşılıq gözəl əxlaqdır, günah isə nəfsinə təsir göstərən və insanların xəbər tutmalarını istəmədiyin şeydir"[2]. Xeyrin şərdən fərqini dərk etmək üçün fitrətə ilham verilib. Fitrət bu fərqi irsən hiss edir. Belə yanaşma könlümüzü rahatladır, çünki Allahın lütfkarlığı ilə üst-üstə düşür. Bəzi

[1] Əbu Abdullah Əhməd ibn Məhəmməd ibn Hənbəl. Müsnəd əl-İmam Əhməd / araşdırıb çapa hazırlayan: Şüeyb əl-Ərnəut və digərləri. Beyrut: "ər-Risalə", 2001, XXIX cild, hədis № 18001, səh. 528

[2] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 2553, səh.1032.

klassik və müasir alimlər aşağıdakı ayələrə istinadən qeyd edirlər ki, Allah insanın mənəvi dünyasında yaxşı və pis təhrikləri eyni miqdarda yaradıb:

"Biz ona iki yol (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi?!" (əl-Bələd, 10);

"And olsun nəfsə və onu yaradana (ona biçim verənə); sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə" (əş-Şəms, 7-8).

Onlar iddia edirlər ki, yaxşı və pis təhriklər bərabərdir. Bu iddia ilə razı deyilik. Bizə görə, Allah insan oğluna fitrət deyilən nemət bəxş etmişdir. Fitrətimiz sayəsində yaxşı hissləri və əməlləri müəyyən edir, nəticədə rəbbimizi tanıyıb Ona yaxınlaşırıq. Allah bəndələrinə qarşı çox lütfkardır: bir yaxşılıq on misli ilə, bir pislik bir misli ilə yazılar. İnsan oğlu asilik etsə də, Allah onu başı-başına buraxmır; əksinə, dünyada ikən bəla və müsibətlərə məruz qoyur ki, bəlkə haqqa qayıtsın:

"Biz ən böyük əzabdan (axirət əzabından) əvvəl onlara mütləq dünya əzabından daddıracağıq. Bəlkə, (tövbə edib düz yola) qayıdalar!" (əs-Səcdə, 21).

Əgər insan haqq yola qayıtmazsa, Allah fitrəti oyadacaq, xatırlatma edəcək elçilər göndərər. Bu yozum şəri Allaha aid etməmək baxımından daha münasibdir. Biz də cinlərin dediyi kimi deyirik:

"Biz bilmirik ki, (bununla) yerdə olanlara bir pislik etmək istənilmişdir, yoxsa rəbbi onlara bir xeyir diləmişdir" (əl-Cinn, 10).

Göründüyü kimi, cinlər şəri deyil, xeyri Allaha aid etmişdilər. Quranda Allahın şərdən, insanların başına gələn ağrı-acıdan, onların küfründən uzaq tutulmasına dair çoxlu misal vardır.

Deyilənlərdən bu nəticəyə gəlirik ki, həm iman və gözəl əxlaqla müşayiət olunan emosiyaları yaradan stimullara

reaksiya verməyimiz, həm də əxlaqsızlığa sövq edən ehtirası boğmağa cəhd göstərməyimiz ilk əvvəl fitrətdən irəli gəlir. Amma fitrətin, yuxarıdakı hədisdə deyildiyi kimi, təsiri zəifləyib itə bilir. Bu isə fitrət, xüsusən uşaqlıq mərhələsində pis mühitin, yarıtmaz valideynlərin, neqativ nüfuz sahiblərinin dağıdıcı təsiri ilə korlandıqda, təhrif edildikdə, dəyişdirildikdə baş verir. Həmçinin pis yoldaşlarla oturub durduqda, əxlaqsız səhnələrə, filmlərə, kadrlara davamlı baxdıqda fitrətin təsiri zəifləyir.

Elə isə davranışlarımıza fitrətin təsiri və dinə bağlılığımız anadangəlmə müsbət meyllərlə ictimai mühitin pis əngəlləri arasındakı münasibətdən, eləcə də irsi və qazanılan xüsusiyyətlərdən (emosionallıq dərəcəsi, meyllər, ehtirasa müqavimət bacarığı...) asılıdır. Bu dünyada hər cəhətdən yaxşı hesab ediləcək mühit yoxdur, eləcə də adi insanlar arasında anadangəlmə müsbət keyfiyyətlərin mükəmməl təmsilçisinə, yəni fitrətinin dediklərini bütünlükdə edən kimsəyə rast gəlinmir. Odur ki davamlı şəkildə Allahdan bağışlanma diləməliyik. Allah bizi əfv dilədiyimizdə bağışlaması üçün davamlı günah edən bəndələr olaraq yaradıb. O bizi bizdən yaxşı tanıyır. O yaxşı bilir ki, fitrətimizdəki xeyirlə bizi xeyirdən yayındıran dünya işləri arasında əbədi mübarizə gedir. Əbu Hüreyrə rəvayət edir ki, Allahın elçisi bəzi səhabələrinə deyibmiş: "Əgər günah etməsəydiniz, Allah yerinizə elə bir qövm gətirərdi ki, günah edərdilər, O da onları bağışlayardı"[1].

Əgər fitrətdə irsən mövcud olan xeyrin effektivliyi onunla mömin şəxsin yaşadığı mühitin qarşılıqlı təsirindən asılı olsaydı, onda yaşadığımız mühitə uyğun olaraq

[1] Əbu Abdullah Məhəmməd ibn Abdullah əl-Hakim ən-Nisaburi. Əl-Müstədrək əla əs-səhiheyn / araşdırıb çapa hazırlayan: Mustafa Əbdülqadir Əta. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1990, IV cild, hədis № 7622, səh. 274.

bu effektivlik artıb azalardı. Yəni, mühit yaxşılaşdıqca fitrətin təsiri də çoxalar, pisləşdikcə azalardı. Daxilimizdə gedən xeyir-şər mübarizəsinin kiməsə aşkar məsələ kimi görünməsi mümkündür; kimlərsə bu mübarizənin aspektlərini öyrənməyin mümkünlüyünü dilə gətirə bilərlər. Hətta modern psixologiya mütəxəssislərindən bəzi həvəskarlar bu mübarizəni psixoloji ölçmə ilə öyrənib meyarlarını müəyyənləşdirməyə cəhd göstərmişlər. Halbuki bu çox mürəkkəb məsələdir, onun miqyası ancaq Allaha məlumdur. Dediklərimizi bir misalla izah edək:

Məsciddən eyni uzaqlıqda yaşayan, məsciddə namaz qılmağa etina göstərən iki şəxs düşünək. Birincisi məscidə hamar yolla gedir, digəri isə məscidə çatmaq üçün təpəni aşmalıdır; həmçinin onlardan biri məscidə gedərkən ayağında yaranan ağrılardan şikayət edir; bununla yanaşı, onlardan biri tez hirslənəcək qədər emosionaldır, hirsləndikdə gec sakitləşir, odur ki namazda diqqətini toplaya bilmir və s. Kim onların müqayisəsini apara, hər birinin savabını müəyyənləşdirə bilər?! Görəsən, bu xəyali yarışda onlardan kim daha çox savab qazanıb? Eləcə də müqayisəyə iman dərəcəsi kimi mənəvi-ruhi məsələlər daxil edilsə, kimsə belə ölçməni apara bilməz. Gözlərin xəyanəti və qəlbdəkiləri bilən Uca və Böyük Allah bu işdə hər kəsdən üstün olduğunu aşağıdakı ayədə bildirir:

“Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə onu (hər hansı bir əməli tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik” (əl-Ənbiya, 47).

Bu gün biz şərin xeyrə, xeyrin də şərə çevrildiyi dünyada yaşayırıq. Ətrafımızdakı hər şey bizi bizdə anadangəlmə mövcud olan xeyri çıxdaş etməyə çağırır. Belə şər axına müqavimət göstərməyin savabı yaxşı mühitlərdə yaşayanların savabı ilə müqayisədə çoxdur. Bu yerdə, biz

Peyğəmbərin aşağıdakı sözünü daha düzgün başa düşürük: "Sizi elə günlər gözləyir ki, həmin günlərdə səbir etmək kösövü əldə saxlamağa oxşayacaqdır. Həmin günlərdə (Allahın qadağa və buyruqlarına) əməl edən şəxsin savabı sizdən əlli şəxsin savabı qədər olacaqdır." Bu vaxt soruşdular: "Bizdən, yoxsa onlardan əlli şəxsin?" Dedi: "Sizdən əlli nəfərin savabı kimi"[1]. Hədisə belə bir əlavə mövcuddur: "Siz xeyir uğrunda çalışan insanlar görürsünüz, amma onlar (həmin günlərdə) görməyəcəklər"[2].

Bu fəslin mühüm məsələsinə – peyğəmbərlərin digər insanlardan üstünlüyü məsələsinə gələk. Onlar anadangəlmə müsbət emosiya stimullarına necə reaksiya verirlər?

Əgər mömin şəxslər ətraf mühitin stimullarını fərqləndirməyi, pis istəklərə "yox" deməyi bacarırlarsa, onda Allahın seçdiyi, insanların ən təmiz qəlbliləri, ən dərrakəliləri sayılan peyğəmbərlərə nə deyəsən?! Allah peyğəmbərləri ona görə seçib ki, insanlar onları sözləri və əməllərində, göstərişləri və qadağalarında nümunə götürsünlər. Onlar vəhyin ağırlığına, dəvətin məşəqqətinə qatlaşırlar. Gizli xeyri oyadan emosiya və duyğular onların psixoloji-ruhi varlığında mövcuddur və onlar buna qeyri-iradi, yaxud çətinlik çəkmədən reaksiya verirlər. Adi insanların fitrəti məşəqqətli peyğəmbərlik məsuliyyətinin ağırlığını daşımağa bəs etmir.

Bu səbəbdən Allah peyğəmbərlərə məsumluq bəxş edib. Məsumluq günahlardan qorunma, günah etməmə deməkdir. Alimlər həmfikirdirlər ki, peyğəmbərlər dinin insanlara çatdırılmasında məsumdurlar, yəni vəhydən nə-

[1] Əbu İsa ibn Məhəmməd ibn İsa ibn Sövrə ət-Tirmizi. Came ət-Tirmizi. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999, hədis № 3058, səh. 487.
[2] Bax: Qazi Əbubəkr Məhəmməd ibn Abdullah ibn əl-Ərəbi əl-İşbili əl-Maliki. Əhkam əl-Quran / şərhçi: Məhəmməd Əbdülqadir Əta. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 2003, III cild, səh. 388.

yisə əskiltməz, onlara göndərilən vəhyi unutmaz, ona özlərindən nə isə əlavə etməzlər:

"Əgər o (Peyğəmbər) özündən bəzi sözlər uydurub Bizə isnad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq! Sonra onun şah damarını qopardardıq! Və heç biriniz də (Bizim əzabımızı) ondan dəf edə bilməzdiniz." (əl-Haqqə, 44-47).

Peyğəmbərlər böyük günahları etməkdən uzaqdırlar. Alimlər onların kiçik günahları edib-etməməsində fikir ayrılığına düşmüşlər. Əksər alimlərə görə, kiçik günahlar məsumluğa xələl gətirmir; peyğəmbərlərin bir hissəsi kiçik günahlara yol vermiş, amma tövbə etdikdən sonra Allah onları bağışlamışdır. Onlar Quranda Adəmin asiliyi haqqında deyilənləri misal göstərirlər:

"Adəm rəbbinə asi oldu və yoldan çıxdı. Sonra rəbbi (tövbə etdirməklə) onu seçdi (Özünə yaxınlaşdırdı), tövbəsini qəbul buyurdu və doğru yola müvəffəq etdi" (Taha, 121-122).

Onlara görə, misirlini öldürdükdən sonra Həzrət Musanın günahını etiraf edib Allahdan bağışlanma diləməsi faktı da deyilənlərə misaldır.

Digər tərəfdən, başda Qazi İyaz olmaqla əksəriyyəti məğribli olan bir qrup alim bildirir ki, peyğəmbərlər kiçik günahlardan da qorunmuşlar. Amma onlar bu məsələdə əsasən Həzrət Məhəmmədin peyğəmbərlikdən əvvəl və sonrakı məsumluğundan danışmaqla kifayətlənirlər.

Bu iki nöqteyi-nəzəri necə uyğunlaşdırmaq olar? Biz peyğəmbərlərə dair düşüncələrimizi dərindən təhlil etməklə mövzuya aydınlıq gətirməyə çalışır və soruşuruq: "Mühit, irsiyyət və şəxsiyyətin qarşılıqlı təsiri, bu sadalananlarla fitrətin münasibəti haqqında deyilənlər məsumluğa da aiddirmi?" Onu da deyək ki, Allahın peyğəmbərlərə bəxş etdiyi qeybi və mənəvi biliklər dəryasının sahi-

lində dayandığımızın, heç nə bilmədiyimizin fərqindəyik. Bununla belə, görürük ki, Qurani-Kərimdə Allahın bəzi peyğəmbərləri digərlərindən üstün tutmağı haqqında danışılır:

"(Ya rəsulum!) Rəbbin göylərdə və yerdə olanları (Özünün bütün yaratdıqlarını) çox gözəl tanıyır. Biz peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda Zəbur verdik" (əl-İsra, 55);

"(Ya rəsulum!) Bu peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir" (əl-Bəqərə, 253).

Bəlkə də, belə üstünlük məsumluğun davranışlara təsiri baxımından peyğəmbərlərin bir-birindən fərqlənməsinə görədir. Peyğəmbərimizi – sevimlimiz Həzrət Məhəmmədi Allah Təala digər peyğəmbərlərdən, hətta bütün yaradılmışlardan: insanlar, cinlər və mələklərdən üstün etmişdir. Bu səbəbdən biz klassik məğribli alimlərin Məhəmməd peyğəmbərin kiçik günahlardan da qorunması fikri ilə razılaşırıq. Allah kiçik günahlardan qorumaqla, mənəvi bəxşişlər (İsra gecəsi peyğəmbərlərə namaz qıldırması, heç bir mələk və peyğəmbərin görmədiyi Merac səyahətində olmağı və s.) əta etməklə onu digər peyğəmbərlərdən üstün tutmuşdur. Biz bu məsələni ətraflı surətdə öyrənmək istəsək, mövzudan uzaqlaşarıq, odur ki aşağıdakılarla kifayətlənirik: Həzrət Məhəmməd əvvəlki peyğəmbərlərin bəzi əməlləri və sözləri barəsində deyərdi: "Onun yerində olsaydım, belə deyərdim, belə edərdim, belə etməzdim". O bununla özünün digər peyğəmbərlərdən fərqləndirildiyini demək istəmişdir. Deməli, kiçik günahlardan qorunma peyğəmbərlərin müəyyən söz və əməllərinə əngəl olmamışdır.

Xalqının əxlaqsız istəklərini və edilən bütün təkliflərə "yox" dediklərini görən Lut peyğəmbəri məyusluq bürümüşdü:

"(Lut) dedi: "Kaş sizə çatan bir gücüm-qüvvətim olaydı, yaxud möhkəm bir arxaya söykənəydim (alınmaz bir qalaya və ya güclü bir qəbiləyə pənah apara biləydim)!" (Hud, 80).

Həzrət Məhəmməd Lutun itaətkarlığına işarə edərək demişdi: "Allah Luta rəhmət etsin! Möhkəm küncə sığınıb! (Yəni, gör nəyə boyun əyib!)"[1] Həmçinin Məhəmməd peyğəmbər Həzrət Musanın Xızıra səbir göstərməməsi haqqında demişdi: "Allah bizə və Musaya rəhm etsin! Kaş səbir edəydi! Onda bizə onlar haqqında daha çox xəbər gəlib çatardı". Yəni, Musanın səbirsizliyi bizi Xızırın daha çox möcüzələrini bilməkdən məhrum edib.

Həzrət Məhəmməd həmçinin Yusif peyğəmbərin hökmdarın zindandan çıxarma təklifinə cavab verməməsi haqqında demişdi: "Məhbəsdə Yusif qədər qalsaydım, çağırana hay verərdim"[2]. Yəni, zindandan çıxmağı qəbul edər, təmizə çıxarılmağımı isə məni zindana salmaqla imtahana çəkən, daha sonra oradan xilas olmaq imkanı verən Allaha buraxardım.

Fikrimizcə, bəzi peyğəmbərlərin kiçik günahlara yol verməsi mühit və irsiyyət amillərinin təsirinə, onların müəyyən bəşəri keyfiyyətlərinə (güclü və zəif olma) görədir. Bəzi peyğəmbərlərin məzəmmətləndiyi Quran ayələrinə baxdıqda məsələ aydınlığa qovuşur. Qoy oxucu bu ayələr haqqında düşünsün, həmin peyğəmbərləri Həzrəti Məhəmmədlə müqayisə etsin.

---

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3372, səh. 646.
[2] Yenə orada.

Tufan baş verdikdə Nuh peyğəmbər kafir və asi oğlunu gəmiyə minib möminlərə qoşulmağa çağırır. Amma oğlu bunu rədd edərək kafir kimi ölür. Atalıq hissi Nuha üstün gəldiyindən əllərini açıb Allaha dua edir: "Ey rəbbim! Oğlum (Kənan) mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlərin hakimisən!" Məzəmmət və hədələmə ifadə edən İlahi Cavab özünü çox gözlətmir: "Ey Nuh! O sənin ailəndən deyildir. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür. (Və ya sənin Məndən onu xilas etmək xahişin yaxşı iş deyildir). Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı tövsiyə edirəm (məsləhət görürəm)". Nuh etdiyi duanın təhlükəsini başa düşərək təslimçilik göstərir: "Ey rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən (belə bir işə cürət etməkdən) Sənə sığınıram. Əgər məni bağışlamasan, rəhm etməsən, ziyana uğrayanlardan olaram!"[1]

Bu faktı Həzrət Məhəmmədin kafir kimi ölmüş qohumlarına, məsələn, Əbu Ləhəbə münasibəti ilə, yaxud bu barədə bizə gəlib çatmış digər hadisələrlə müqayisə edək. Məsələn, Üsamə ibn Zeyd oğurluğu isbatlanmış bir qadına cəza kəsilməməsi üçün vasitəçilik etdikdə Peyğəmbər qəzəblənərək demişdi: "Allahın cəzasındamı vasitəçilik edirsən?! Allaha and olsun ki, Məhəmmədin qızı Fatimə də oğurluq etsəydi, əlini kəsərdim!"[2]

Quran bəzi söz, əməl və hisslərə görə Allah tərəfindən məzəmmətlənən peyğəmbərlərdən danışdığında Həzrəti Məhəmmədin üstünlüyü bütün aydınlığı ilə bizə məlum olur. Həmin halları Həzrət Məhəmmədin qınandığı hal-

[1] "Hud" surəsi, 45-47-ci ayələr.

[2] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3475, səh. 669; Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 1688, səh. 700.

larla müqayisə edək. Görürük ki, xalqına qəzəbi tutmuş Yunis peyğəmbər Allahın əzabının nazil olacağını dedikdən sonra onları tərk edir. Özü də bunu Allahın icazəsi olmadan edir. Təbəri yazır ki, Yunis peyğəmbər ağırxasiyyət birisi idi; bəlkə də, bərk qəzəblənməsi və tələsik qərarlar verməsinə xarakteri səbəb olmuşdur. Eləcə də Davud peyğəmbərin yol verdiyi yanlışlığa nəzər salaq. Belə ki qardaşının qoyunlarını mənimsədiyini deyən şəxsin lehinə qərar verməklə Davud səhv etmişdi. Bu vəziyyətdə o, ikinci tərəfi də dinləməli idi. Sonradan bunu başa düşən Davud Allahdan bağışlanma diləmişdi

İndi isə Həzrət Məhəmmədin məzəmmət edildiyi məsələlərə nəzər salaq. Allah onu xalqını haqqa yönəltmək yolunda səhhətinə təsir edəcək şəkildə çalışdığı üçün qınamışdır. O bu yolda sevgi, şəfqət və mərhəmətə dair bütün təsəvvürləri geridə qoymuşdur. Bunun müqabilində Allah ona bu sözlərlə təsəlli vermişdi:

"(Ya rəsulum!) Yoxsa (kafirlər) bu Qurana inanmasalar, (səndən üz döndərib getdiklərinə görə) arxalarınca təəssüflənib özünü həlak edəcəksən?!" (əl-Kəhf, 6);

"(Ya Peyğəmbər!) Artıq onlara (Məkkə müşriklərinin haqq yoldan azmalarına) görə özünü üzüb həlak etmə" (Fatir, 8);

"(Ya rəsulum! Məkkə müşrikləri) iman gətirməyəcəklər deyə, bəlkə, özünü həlak edəsən?!" (əş-Şüəra, 3).

Bu ayələrdə Allahın Həzrəti Məhəmmədə bəslədiyi sevgi ifadə olunub; Allah peyğəmbərin halına acıyır ki, layiq olmayanların haqqa gəlməsi üçün özünü həlak edir. Həyatı göstərir ki, xalqının ona əziyyət etmiş nümayəndələrinə belə Həzrət Məhəmmədin ürəyi yanmışdır.

Həzrət Məhəmmədin sahib olduğu incə hisslər, şəfqət və mərhəmət daima məni düşündürmüşdür. Qeyd etmişdik ki, Peyğəmbərin: "Görünüş və xasiyyətcə mənə ox-

şayırsan", – dediyini eşitdikdə böyük səhabə Cəfər ibn əbu Talib sevincindən tək ayağı üstündə tullanmağa başlamışdı[1]. İndi təsəvvür edin ki, oxşar sözləri Allah deyir! Səhabələrdən birinin analoji hala necə reaksiya verdiyinə baxın: bir dəfə Həzrət Məhəmməd Übey ibn Kə`bə deyir ki, Allah ona peyğəmbəri üçün Quran oxumağı əmr edir. Übey soruşur: "Ey Allahın elçisi, Allah adımımı çəkib?" Peyğəmbər: "Bəli", – deyə cavab verdikdə Übey hisslərinə hakim ola bilməyib ağlını itirən adamlar kimi hərəkət etməyə başladı: həm gülür, həm də sevinirdi[2].

İnanmayanlara görə bərk kədərlənib qəm-qüssəyə batmaq, daha sonra Allahın təsəlli verməsi ilə son dərəcə sevinmək, ruhən rahatlıq tapmaq... Görəsən, Həzrət Məhəmməd belə emosiya keçidlərinə necə dözürdü? Əslində, Allah peyğəmbərliyi kimə verəcəyini yaxşı bilir. Aşağıdakı sözləri Peyğəmbərin bizə məlum olmayan hallara dözümü, emosional-ruhi bacarığı haqqında oxucuya ipucu verir: "Bildiklərimi bilsəydiniz, az gülüb, çox ağlayardınız"[3].

Hətta "Əbəsə" surəsində Həzrət Məhəmmədin bərk məzəmmət olunması (peyğəmbərlərin kiçik günahlara yol verdiyini deyən müəlliflər bu faktdan Həzrət Məhəmmədin kiçik günahları işlədiyini isbatlamaq üçün istifadə edirlər) əslində ondakı dəvət eşqinə, peyğəmbərlərin böyüyünə xas ali əxlaqa dəlalət edir. Bir dəfə Peyğəmbər müsəlman olmaları ümidi ilə Vəlid ibn Müğirə və yanındakı Qüreyş rəhbərləri ilə qızğın söhbət aparırdı. Bu vaxt kor və yoxsul İbn Ümmi-Məktum gələrək Peyğəmbərin sözünü kəsir, ondan Allahın öyrətdiklərindən ona da öyrətməsini israr və təkrarla tələb edir. Bu tərz Peyğəmbə-

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3808, səh. 710.
[2] Yenə orada, hədis № 3809, səh. 724.
[3] Yenə orada, hədis № 4621, səh. 879.

rin xoşuna gəlmir, qaşqabağını tökərək ondan üz çevirir. "Əbəsə" surəsi nazil olur və Peyğəmbər üz çevirib qaşqabaq tökməyinə görə məzəmmət olunur. Əziz oxucu, belə situasiyalarda bizim hansı təbii reaksiyanı göstərəcəyimiz haqqında düşün! Təsəvvür et ki, sənin üçün çox mühüm nəticəsi olan bir işə düşüncələrin və duyğularınla köklənmişsən, məsələni qərar verəcək şəxslərlə müzakirə edirsən. Bu vaxt adi bir şəxs gələrək sözünü kəsir, hansı isə iş üçün səndən təcili kömək istəyir. Özü də elə bir iş üçün ki, adidir, təcili deyildir. Amma həmin şəxs istədiyini israrla təkrar edir. Yanındakılar getdikdən sonra nə edərsən? Qəzəblənəcəksən, qışqıracaqsan, bəlkə də, istədiyi şeyi ona verməyəcəksən! Belə reaksiya vermək indiki dövrdə normal qəbul olunur. Bəs Peyğəmbər nə etdi? Nə üz çevirdiyini, nə də qaşqabaq tökdüyünü görməyən şəxsdən qaşqabağını töküb üz çevirdi. Çünki İbn Ümmi-Məktum kor idi. Peyğəmbər İbn Ümmi-Məktumun israrından sıxıldığını göstərmək üçün nə bir söz demiş, nə də usandığını səsli şəkildə ifadə etmişdi. Belə hərəkət etmək rəhmdil Peyğəmbərə heç yaraşmazdı da! Axı İbn Ümmi-Məktum kar deyildi, ona əziyyət verəcək sözləri eşidə bilərdi.

Qeyd edək ki, biz yaxşı əxlaqa çağıran duyğulardan (daxili stimullardan) danışırıq. Dedik ki, belə duyğular peyğəmbərlərin fitrətində mövcuddur, çətinik çəkmədən onları ifadə edirlər. Adi inanclı şəxslərə gəlincə, nəfsin asiliyi və xudbinliyinə müqavimət göstərməkdən başqa çarələri yoxdur. Kimin daha yaxşı əməl sahib olduğunu müəyyənləşdirmək üçün Allah insana asilik edən nəfs vermişdir. Müasir dünyada əxlaqi davranışlarımız üçün son dərəcə əhəmiyyət kəsb etdiyindən stimulların bu növü bizi çox düşündürür. Çünki əxlaq dəyirmanı fərdin öz emosiyalarını tənzimləməsi ilə fəaliyyət göstərir: bir tərəfdən, emosiyaların qəzəb, həsəd, qorxaqlıq və xudbinlik

kimi mənfi tərəflərinə "yox demək", ehtirası cilovlamaq, digər tərəfdən, ağıl və dinin yaxşı emosiyalar hesab etdiyi mərhəmət, şəfqət, comərdlik, fədakarlıq, şücaət, səbir kimi keyfiyyətlərə sahib olmaq lazımdır. Bu keyfiyyətlər ərənlərin qədrinin bilindiyi ölkələrdə rəhbər vəzifələri tutsunlar deyə fərdlərin xarakterinin ölçüldüyü meyarlar sayılır.

Ərənlərin qədrini Həzrət Ömər kimi bilən vardırmı? O, hansı isə səhabəni vali təyin etmək istədikdə əxlaqi keyfiyyətlərə sahib olub-olmadığını, ehtirasını cilovlamağı, qəzəbinə qalib gəlməyi bacarıb-bacarmadığını müəyyənləşdirirdi. Bunun üçün həmin şəxs haqqında tanışından soruşardı. Müsbət cavab alsaydı, Ömər soruşardı ki, onunla qonşu olubmu, ona dinar-dirhəm verib alıbmı, onunla səfərə çıxıbmı? Qarşı tərəfin cavabı "yox" olsaydı, Ömər deyərdi: "Get, onu yaxşı tanımırsan! Olsa-olsa, onu məsciddə əyilib-qalxan görmüşsən!" Yəni, həmin şəxsi məsciddə namaz qılan görmüş, valiliyə layiq olduğunu düşünmüşsən[1].

Bu fakt Ömərin insanları tanımada sözügedən emosiyaların əhəmiyyətini yüksək qiymətləndirdiyini göstərir. Bu səbəbdən Allahın elçisi Öməri "ilhamlanaraq danışan" adlandırmışdı.

Fərdin duyğularına bələd olmaq onu tanımaqda mühüm rol oynayır. Bunun üçün onunla iç-içə olmaq lazımdır. Məsələn, qonşususansa, evdə olanda onun həyat yoldaşı və uşaqlarına qəzəblənib qışqırdığını, yaxud onlarla şirin danışdığını eşidirsən. Ailəsi və uşaqlarının ailən və uşaqlarınla davranışından onun necə adam olduğunu öyrənmiş olursan. Həmçinin səfərdə qarşılaşdığımız çətinliklər bizim səbirli, fədakar, qorxaq olub-olmadığımızı

[1] Əbu Abdullah Məhəmməd ibn Əli ibn əl-Həsən ibn Bişr ət-Tirmizi. Ədəb ən-nəfs // araşdırıb çapa hazırlayan: Əhməd Əbdürrəhim əs-Saih. Misir: "Əd-Dar əl-misriyyə əl-lübnaniyyə", 1993, səh. 79.

üzə çıxarır. Pul alıb-vermək də şəxsin pulun qulu olub-olmadığını məlum edir. Pula düzgün münasibət fərdin öz neqativ emosiyalarını cilovlamaq bacarığından asılıdır.

Bu bədbəxtlər ətrafdakı insanlarla iyrənc emosiyalarının təsiri altında qalaraq davranar, dünyada insanların nifrətini, axirətdə Allahın əzabını qazanarlar. Ən əsası, bu hisslər insana zənn etdiyi xoşbəxtliyi, ləzzəti bəxş etməz. Xarakterindəki eqoist istəklər zaman keçdikcə artar, bununla paralel olaraq, ehtirasını cilovlamaq bacarığını itirər, axırda, gücsüzlər üzərindəki hökmranlığa, yığdığı var-dövlətə baxmayaraq, utopik arzuların, dəf edilməsi qeyri-mümkün qorxuların əsirinə çevrilər. Var-dövləti və hakimiyyəti bədbəxtliyinin alovu üçün yanacaq olar:

"(Ya peyğəmbərim! Onların) nə malları, nə də oğul-uşağı səni təəccübləndirməsin. Allah onlarla ancaq münafiqlərə dünyada əzab vermək, kafir olduqları halda, canlarını almaq istər" (ət-Tövbə, 55).

Bu səbəbdən Allahın elçisi aşağıdakı duanı tez-tez etməklə belə rəzil xislətdən rəbbinə sığınarmış:

"Allahım! Qayğı və kədərdən, acizlik və tənbəllikdən, qorxaqlıq və xəsislikdən, borca batmaq və insanların (məni) sıxışdırmasından Sənə sığınıram!"[1]

Allahın rəsuluna az sözlə böyük mənanı ifadə etmək bacarığı verilmişdi. Bu duada özünə nəzarət edə bilmədikdə fərdə hakim kəsilməsi mümkün başlıca mənfi keyfiyyətlər cəmlənib. Müasir psixologiya lüğətlərində qayğı təşviş demək olub gələcəkdə baş verəcək problem və bəlalardan qorxunu ifadə edir. Kədər isə ya doğma şəxsi itirmək, yaxud bir istəyin baş tutmamağı üzündən keçmişdə baş verənlərə görə məyus olub hüznə batmaqdır. Kədər

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 6367, səh. 1223.

və depressiyanın ən bariz simptomlarından biri acizlik və ölgünlükdür.

Qeyd edək ki, dövrümüzdə psixoloji dispanserlərə müraciət edənlərin əksəriyyəti bu iki pozğunluqdan: qayğı və kədərdən, yəni gələcəyə olan narahatlıqdan və keçib-gedənin yaratdığı kədər və depressiyadan şikayət edirlər. Bu iki müsibətdən Allaha sığınan möminə gəlincə, qədərə olan inancı itirdiklərinə görə yaranmış ağrı-acını yüngülləşdirir. Gələcəyin Allahın əlində olmasına dair əminlik isə mömini qayğıların mənfi təsirindən qoruyur. Deyildiyi kimi: "Keçən keçmişdir, ümid isə hələ gerçəkləşməyib, sahib olduğun yeganə şey içində olduğun andır"[1].

Müşahidə göstərir ki, psixoloji pozğunluğu olan inanclı xəstələrin müalicəsi, bu cür islam təsəvvürünə əsaslandığı təqdirdə, səmərəli olmuşdur. Narahatlıq və depressiyadan əziyyət çəkən müsəlman xəstələrə həsr edilmiş altmış il ərzində görmüşdük ki, Qərb psixoterapiyası və farmakoterapiyasının səmərəliliyi islam koqnitiv-davranış terapiyası ilə müqayisədə azdır. Bizim bu mövzuda Qərb və ərəb psixologiya və psixiatriya jurnallarında nəşr edilmiş tədqiqatlarımız vardır. Kitabda yer baxımından bu tədqiqatlar haqqında danışmağa lüzum görmürük.

Qorxaqlıq və xəsislik dəmir pulun iki üzü olub bir-biri ilə əlaqəlidir. Qorxaq başqalarına xeyir vermək üçün canını, xəsis də malını fəda etməyən kimsədir. Hər iki simptom özünəvurğunluq və eqoizmin hakim kəsildiyi şəxslərdə meydana çıxır. Borc və digər səbəblərdən zorakılığa məruz qalmaq isə bizə ictimai situasiyalar qarşısında qorxma pozğunluğunu xatırladır. Belə situasiyalarda güc və hakimiyyət sahibləri qarşısında zəifliyini qəbul edən

[1] Məhəmməd ibn Aydəmir əl-Müstə`səmi. Əd-Dürr əl-fərid və beyt əl-qəsid \\ araşdırıb çapa hazırlayan: Kamil Salman əl-Cəburi. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 2015, IV cild, səh. 506.

fərdlər qorxudan əsirlər. İctimai situasiyalarla üz-üzə gəlməkdən qorxmaq dövrümüzdə ən çox yayılmış psixoloji pozuntulardan biridir.

Bəyənilən emosiyalara sahib insanlar əxlaqlı insanlardır. Onlar özlərini yaxşı duyğu və emosiyalara vərdiş etdirdikcə, pisliyi əmr edən nəfsin, eqoistliyin ehtiraslarını cilovladıqca, nəfslərini tərbiyə etdikcə, qəzəblərinə hakim kəsildikcə, insanların təqsirindən keçdikcə, yoxsullara və azyaşlılara mərhəmət göstərdikcə, ehtiyac sahiblərinə kömək əli uzatdıqca, məzluma dayaq olduqca mənəviyyat yolçuluğu pilləkənləri ilə qalxarlar. Baxın görün Həzrət Xədicə mələk Cəbrayılla ilk dəfə görüşən Həzrət Məhəmmədə necə təsəlli verib dayaq olmuşdu: həmin vaxt Xədicə həyat yoldaşı Həzrət Məhəmmədə demişdi: "Xeyr! Allaha and olsun ki, Allah səni heç vaxt rüsvay etməz! Çünki sən qohumlarına baş çəkirsən, yıxılmışa dayaqsan, yoxsula əl tutansan, qonağa yaxşı baxırsan, bəlaya tuş gəlmişlərə də yardım edirsən"[1].

Bütün bunlar hələ peyğəmbər olmazdan qabaq Həzrət Məhəmmədin nəcib keyfiyyətləri idi. Peyğəmbərlik verildikdən sonra əxlaqı Quranla gözəlləşmişdi. Qəzəbləndiyində Allah üçün qəzəblənir, məmnun qaldığında Allah üçün məmnun qalırdı. Həzrət Aişə Peyğəmbərin əxlaqını xəbər alanlara demişdi: "Möminlər" surəsini oxuyursunuzmu?" "Bəli!" – deyə cavab vermişdilər. Demişdi: "Oxuyun!" Onlar da: "qoruyub saxlayarlar" ayəsinə çatanadək "Həqiqətən, möminlər nicat tapmışlar!" – deyərək oxudular"[2].

---

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3, səh. 21.

[2] Bax: Əbu Abdullah Məhəmməd ibn Əhməd əl-Qurtubi. Əl-Came li əhkam əl-Quran // araşdırıb çapa hazırlayan: Səmir əl-Buxari. Ər-Riyad: "Dar aləm əl-kutub", 2003, XII cild, səh. 102.

Beşinci fəsil

Hər peyğəmbər üçün münasib mühit və irsiyyətin seçilməsi haqqında

Giriş

Bu fəsil uzun illər psixoloqları düşündürmüş mürəkkəb və mühüm mövzuya həsr olunub. Psixologiya sahəsində aparılmış təcrübi, sahə və statistik araşdırmalarda problemin bizə gizli qalan tərəflərinin öyrənilməsinə cəhd göstərilir. Söhbət şəxsiyyət və emosiyaların formalaşmasında ətraf mühit və irsiyyətin təsiri mövzusundan gedir.

Əvvəlki fəsillərdə bu mövzuya ümumi şəkildə toxunmuşduq. Bu fəsildə isə hər peyğəmbər üçün münasib mühit və irsiyyətin seçilməsi haqqında danışacağıq. Üslubumuzun sadə və aydın olmağına cəhd etmişik. Onu da deyək ki, mövzu ilə əlaqəli əsassız iddialar mövcuddur. Müasir psixologiya tədqiqatlarında, xüsusən psixologiya məktəblərinin fanatik tərəfdarlarının əsərlərində ağlabatmaz iddiaların şahidi oluruq. Bu əsərlərdə ya ətraf mühitin rolu qabardılır, ya da irsiyyətin təsiri şişirdilir.

Ətraf mühitin rolunu qabardan Ceyms Vatson[1] lovğalanaraq bildirirdi ki, ona həvalə edilmiş fiziki cəhətdən sağlam uşağı ətraf mühit və davranış imkanlarından istifadə etməklə həkimə, vəkilə, müğənniyə, ticarətçiyə, hətta dilənçi, yaxud cinayətkara çevirə bilər. Ceyms bu vaxt uşağın talantını, bacarıqları və irqi mənsubiyyətini nəzərə almırdı. O bu iddianı özünün "Biheviorizm" kitabında irə-

[1] Biheviorizm məktəbinin qurucusu sayılır.

li sürmüşdü[1]. Digər tərəfdən, davranışların formalaşmasında irsiyyətin rolunu qabardan müəlliflərə rast gəlirik. Məsələn, Qərbdə nəşr olunan elmi jurnallarda bəzi müəlliflər xoşbəxtlik, yaxud cinayətkarlıq genini tapdıqlarını iddia edirlər. Halbuki elmi araşdırmalar göstərir ki, davranışların formalaşmasında ətraf mühit amili başlıca rol oynadığı halda, irsiyyət ikincidərəcəli təsirə malikdir. Mövzu ilə maraqlanan oxucu sosial biologiya, etologiya[2], təkamül psixologiyası ədəbiyyatını mütaliə edə bilər. Bu ədəbiyyatda irsiyyətin rolunu qabardan nöqteyi-nəzər güclüdür. Sözügedən nöqteyi-nəzəri müdafiə edən bioloqlar Darvinin yaradıcılığından təsirlənmişlər. Darvin isə heyvanlar üzərində apardığı araşdırmalarla insan davranışlarını izah etməyə çalışmışdır.

Bioloqlar arasında irqçi olanları da vardır. Onlar asiyalılar və afrikalılarla müqayisədə avropalı geninin genetik üstünlüyünə inanırlar. Onlara görə, ağ adam qara adamdan üstündür; ona görə yox ki, məhsuldarlığa, təcrübi elmlərin, texnologiyanın inkişafına təşviq edən mühitdə yaşayır; ona görə ki, afrikalılarda olmayan inkişaf etmiş genlərə sahibdir. Bu bioloqlar oxucunu öz yalanlarına inandırmaq üçün hər növ hiylədən istifadə edirlər.

Məsələni diqqətlə araşdırdıqda görürük ki, davranışlara irsiyyətin birbaşa təsiri üzvi məsələlərlə məhdudlaşır. Buraya, məsələn, Daun sindromu adlandırılan əqli geriliyə səbəb olan xromosom pozğunluğu (anomaliya) daxildir. Digər hallarda davranışların formalaşmasına həm ətraf mühit, həm də irsiyyət təsir göstərir. Çox vaxt isə tədqiqatçı bu və ya digər xüsusiyyətin ətraf mühitin təsiri

[1] Watson, J.B. (1930) Behaviorism, University of Chicago Press, 1930 – P. 82.

[2] Heyvanların genetik davranışlarını (instinktlərini) öyrənən elm sahəsi – ***tərcüməçinin qeydi***

ilə formalaşdığını, yoxsa irsən ötürüldüyünü müəyyənləşdirə bilmir. Bu səbəbdən alimlər psixoloji xüsusiyyət və cizgilərə ətraf mühit və irsiyyətin təsir dərəcəsini müəyyənləşdirmək üçün dahiyanə metod və fəndlər işləyib-hazırlamışlar. İrsiyyətin şizofreniya ilə xəstələnməyə təsirini öyrənmək üçün alimlərin biryumurta və müxtəlifyumurta əkizlər üzərində apardıqları təcrübi araşdırmalar haqqında artıq danışmışıq. Alimlər, xüsusən yeni doğulmuş uşaqlar üzərində aparılan təcrübi araşdırmalarda yeni texnologiyalardan istifadə edirlər. Bu tədqiqatlar göstərmişdir ki, ümumi zəkanın, introversiya[1], emosional davranışların formalaşmasında irsiyyət və sosial mühit ortaq rol oynayır.

Peyğəmbərlərin xarakterinin formalaşmasında irsiyyət və mühitin rolu haqqında

İlk baxışdan elə gəlir ki, mühit və irsiyyətin təsirinin öyrənilməsi modern elmin qaldırdığı məsələlərdəndir. Amma bu məsələnin Müsəlman dünyasında tarixi kökləri vardır. Aşağıdakı əhvalata nəzər salaq. Məşhur səhabə Əşəc Əbdülqeys bəzi yoldaşları ilə Mədinəyə Peyğəmbərlə salamlaşmağa, hal-əhval tutmağa gəlibmiş. Məscidə çatdıqlarında yoldaşları tez-tələsik gedib Peyğəmbərlə salamlaşdılar. Amma Əşəc tələsmədi, üst-başının tozunu çırpdı, əynindəki paltarını çıxarıb kisəsinə qoydu, yenisini çıxarıb geyindi, aramla Peyğəmbərə tərəf getdi. Peyğəmbər onun etdiklərinə baxırdı. Bəlkə də, gülümsəmişdi! Dilləndi: "Səndə Allahın sevdiyi iki xüsusiyyət var: həlimlik

[1] Sosial əlaqələrə meyl göstərməyən xarakter xüsusiyyəti – ***tərcüməçinin qeydi.***

və təmkin."[1] Əşəc soruşdu: "Bu iki keyfiyyəti mən qazanmışam, yoxsa Allah fitrən verib?" Peyğəmbər dedi: "Allah fitrən verib." Əşəc sevindi: "Allaha şükür olsun ki, mənə Özü və rəsulunun sevdiyi iki xüsusiyyət verib!"[2]

Suala baxın: "Bu iki keyfiyyəti mən qazanmışam, yoxsa Allah fitrən verib?" Dövrün dili ilə desək: "Bu iki xüsusiyyət irsiyyət, yoxsa mühitin təsiri ilə meydana çıxıb?"

Mövzuya – gələcəkdə peyğəmbərlik vəzifəsinin veriləcəyi şəxslərin tərbiyəsində münasib mühit və irsiyyətin (genlərin) seçilməsi məsələsinə qayıdaq. Fikirlərimiz aydın olsun deyə mücərrəd və qəliz dil üslubundan imtina edirik. Fiziki və psixoloji fərqlərə baxmayaraq, peyğəmbərlər dörd xüsusiyyətə sahib olmuşlar: düzgünlük (***sidq***), etibarlılıq (***əmanət***), çatdırma bacarığı (***təbliğ***) və fərasət (***fətanət***). Peyğəmbərlərin sahib olduğu keyfiyyətləri təhlil etdikdə görürük ki, Allahın bəxş etdiyi keyfiyyətlərlə (məsumluq, peyğəmbərlik yükünü daşıma bacarığı) yanaşı irsi olanları da (görünüş, bəzi xarakterik cəhətlər) vardır. Həm irsiyyət, həm də mühitin formalaşdırdığı keyfiyyətlər də istisna edilmir.

Peyğəmbərlərin genetik eybəcər fiziki və psixoloji xüsusiyyətlər (dəlilik, kifir, qısaboy, yaxud uzundraz olmaq və s.) daşıması qeyri-mümkündür; onların çöhrələri gözəl, səsləri xoş olmuşdur. Aşağıda biz bütün peyğəmbərlərə Allahın bəxş etdiyi xüsusiyyətləri sadə dillə, dövrün termin və anlayışları əsasında izah edəcəyik. İrsi keyfiyyətlərə zəngin mənəviyyat, qüvvətli olma, dərrakə və yaradıcı təfəkkür, əsil-nəcabəti misal göstərə bilərik. Bütün

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 17, səh. 41.

[2] Süleyman ibn əl-Əş`əs əbu Davud əs-Sicistani. Sünən Əbu Davud. Ər-Riyad: "Beyt əl-əfkar əd-duvəliyyə", 1999, hədis № 5225, səh. 561.

bunlardan çıxış edərək, növbəti fəsillərdə Həzrət Musa və Yusifin timsalında mövzuya təfsilatlı ilə toxunacağıq. Hər iki peyğəmbərin həyatı Quranda təfərrüatı ilə mövcuddur.

Mənəvi varislik, yaxud irsiyyət

Aşağıdakı ayələrə nəzər salaq:

"Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində seçilmiş (üstün) etdi.

Onlar biri digərindən törəmiş nəsil idilər. Allah eşidəndir, biləndir!" (Ali-İmran, 33-34);

"Biz İshaqı və Yaqubu Ona əta etdik. Onların hər birini hidayətə (peyğəmbərliyə) çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri (yaxşılıq edənləri) belə mükafatlandırırıq.

Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da (hidayətə çatdırdıq). Onların hamısı əməlisalehlərdən idi.

Biz, həmçinin İsmayılı, Əlyəsəi, Yunisi və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən (özləri ilə bir dövrdə yaşayan bütün insanlardan) üstün tutduq.

Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qismini hidayətə çatdırdıq), onları seçdik və düz yola yönəltdik.

Bu, Allahın haqq yoludur. Bəndələrindən istədiyini ona yönəldir. Əgər onlar (Allaha) şərik qoşsaydılar, etdikləri əməllər puça çıxardı" (əl-Ənam, 84-88).

Bu ayələri oxuduqda öz-özümə sual verirəm: "Bioloji genlərlə yanaşı, mənəvi genlər də mövcuddurmu? Belə mənəvi genlərin nəsildən-nəslə ötürülməsi mümkündürmü?

Bioloji genlər bizə irsən ötürülür. Onlar fiziki xüsusiyyətlərin (boy, üz cizgiləri, dərinin rəngi və s.) irsən keçidini təmin edir. Eləcə də bəzi psixoloji xüsusiyyətlərin (dərrakə, introversiya, oxşar emosiyalar...) meydana çıxmasında genlər və mühit müştərək rol oynayır. Avtonom sinir sisteminin ani reaksiyaları da genlərlə tənzimlənir. Bütün bu irsi xüsusiyyətləri bizə müasir elm izah edir.

Görəsən, irsən ötürülən, Allahın seçərək könüllərini şeytani vəsvəsələrdən uzaq tutduğu, peyğəmbərlik yükünü daşımağa hazırladığı şəxslərə bəxş etdiyi, materialist elmi araşdırmaların izah edə bilmədiyi mənəvi genlər mövcuddurmu? Bir peyğəmbərin digərindən üstün olmasında bu genlərin rolu vardırmı? Mənəvi genlər boy ölçüsü və dəri rənginin irsən ötürülməsini təmin edən, hər insanda fərqli sayda olan multigenlərə (poligenlər) oxşayırmı? Məlumdur ki, multigenlərin sayı artdıqca fiziki təsiri də artır. Görəsən, mənəvi genlərin də sayının artması ilə fərdin daha mənəviyyatlı, daha pak olması mümkündürmü? Bu nəzəriyyə ayrı-ayrı şəxslərdəki telepatik bacarıqlara aydınlıq gətirə bilərmi? Allah tərəfindən insanlara müxtəlif dərəcədə verilməsinə baxmayaraq, telepatiya bacarığının ibadət və düşünməklə artması mümkündürmü?

Belə mənəvi genlərə sahib olmaq peyğəmbərlərin səmadan vəhy almasını təmin edir. Onu da qeyd edək ki, Peyğəmbərin Ömər ibn Xəttab haqqında dediyi sözdə iddiamızı təsdiqləyən nüanslar mövcuddur. Fikrimizcə, mənəvi genlər Allahın hədiyyəsidir, bu genləri daşımaq üçün son dərəcə dindar olmaq həmişə şərt deyildir. Amma ibadət və davamlı zikr vasitəsilə bu genlərin mənəvi təsirinin artması da istisna edilmir.

Çoxlu sayda mənəvi genə sahib müsəlman – o bunları irsən də, Allahın hədiyyəsi olaraq da ala bilər – radio lokator rolunu oynamaqla ətrafda baş verən mənəvi

prosesləri qəbul edir. Belə şəxsə "mühəddəs" (danışılan, söhbət olunan, kənardan ilham alan kimsə) deyilir. Misal üçün Ömər ibn əl-Xəttabın mənəvi bacarıqlarının təsvir edildiyi hədisə nəzər salaq. Əbu Hüreyrə rəvayət edir ki, Peyğəmbər demişdir: "Sizdən əvvəlki xalqların arasında "danışılan şəxslər" olmuşdur. Ümmətimin arasında beləsi varsa, o da Ömərdir"[1]. Əbu Hüreyrənin danışdığı digər hədisdə Peyğəmbər "israiloğulları arasında belə kimsələri "peyğəmbər olmasalar da, danışılan şəxslər"[2] kimi təsvir etmişdi. Eləcə də İmam Əhməd və Tirmizi rəvayət edirlər ki, Üqbə ibn Amir Həzrət Məhəmmədin belə dediyini eşidibmiş: "Məndən sonra peyğəmbər olsaydı, Ömər ibn əl-Xəttab olardı"[3]. Bu hədislər alimlər və tədqiqatçıların diqqətini çəkir. Onlar hamılıqda eyni sualı verirlər: "Necə ola bilər ki, Əbubəkr əs-Siddiq deyil, Ömər ibn əl-Xəttab bu mərtəbəyə layiq görülüb? Halbuki hədislər Əbubəkrin Ömərdən, eləcə də digər səhabələrdən üstün olduğunu göstərir. Məsələn, bir hədisində Peyğəmbər deyibmiş: "Yoldaşlığı və var-dövlətində mənə ən çox köməyi dəymiş kimsə Əbubəkrdir. Əgər rəbbimdən qeyrisini özümə dost seçsəydim, Əbubəkri seçərdim. Amma islam qardaşlığı və sevgisi daha yaxşıdır"[4].

Ömər ibn əl-Xəttab da Əbubəkrin ondan üstün olduğunu etiraf edirdi: "Əbubəkr böyüyümüz, ən yaxşımız və Allahın elçisinə aramızda ən əziz olanımızdır"[5]. Həmçinin

---

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3469, səh. 668.
[2] Yenə orada, hədis № 3689, səh. 704.
[3] Əbu İsa ibn Məhəmməd ibn İsa ibn Sövrə ət-Tirmizi. Came ət-Tirmizi. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999, hədis № 3686, səh. 577.
[4] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3654, səh. 698.
[5] Əbu İsa ibn Məhəmməd ibn İsa ibn Sövrə ət-Tirmizi. Came ət-Tirmizi. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999, hədis № 3656, səh. 573.

Peyğəmbərin xəstəliyi ağırlaşıb məscidə gedə bilmədiyində demişdi: "Əbubəkrə deyin ki, insanlara namaz qıldırsın!"[1] Bütün bunlar göstərir ki, Əbubəkr Ömər və digər səhabələrdən fəzilətli idi.

Əslində, Əbubəkrin – Peyğəmbərin mağara dostunun, islamı ilk qəbul etmiş bu şəxsin dərəcəsini təsdiqləyən dəlillərin çoxluğu danılmaz gerçəklikdir. Məhz buna görə yuxarıdakı sual yaranır. Bəzilərində bu, koqnitiv dissonans effekti yaratmışdı. Koqnitiv dissonans iki əks situasiya arasında çaş-baş qalan fərdə hakim kəsilən gərginlik halıdır. Belə vəziyyətdə fərd gərginlikdən xilas olmaq üçün ya həmin iki situasiyadan birini inkar edib mötəbərliyini şübhə altına alır, ya da onların arasında uyğunluq tapmaq üçün psixoloji fəndlərə müraciət edir.

Bu səbəbdən görürük ki, yuxarıdakı hədisin səhihliyini şübhə altına alıb istinadının zəif olduğunu bildirənlər tapılıb. Halbuki hədis öz mötəbərliyini Əhməd ibn Hənbəl, Tirmizi kimi ravilərin böyüklüyündən alır, eləcə də onu böyük hədis alimləri, o cümlədən Əlbani səhih saymışdır. Əbubəkrin fəzilətinə baxmayaraq, hədisdə Ömərə üstünlüyün verilməsini İbn Həcər kimi alimlər əsaslandırmağa, bununla da "gərginliyi azaltmağ"a çalışmışlar. Onlara görə, Ömər haqqı bərqərar edəcək qədər güclü idi, ilhamlanaraq danışır, ayələr də dediklərini təsdiqləyirmiş. Abdullah ibn Ömər rəvayət edir ki, atası deyibmiş: "Üç məsələdə rəbbimin dediklərinə dediklərim müvafiq düşmüşdür: hicab, Bədir əsrləri və İbrahim məqamı"[2].

Bizim mənəvi-ruhi genlərin mövcudluğuna dair nəzəriyyəmiz bu məsələyə aydınlıq gətirir. Allah Təala Ömərə

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 678, səh. 144.
[2] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 2399, səh. 976.

güclü bədən, boy-buğun verdiyi kimi fitrətinə də mənəvi genlərdən yerləşdirmişdi. Məhz bu genlərin sayəsində Ömər "danışılan, ilham verilən" şəxs idi. Belə ilahi ərməğan dindarlıq səviyyəsinin göstəricisi deyildir; siz bu hala dindarlığı az şəxslərdə də rast gələ bilərsiniz. Mənəvi genlər radio lokatoru xatırladır. Bu dünyada yaşayan tək canlı biz deyilik. Dünyada mələklər, cinlər və bilmədiyimiz qeyri-maddi varlıqlar mövcuddur. Belə qeyri-maddi varlıqların mövcudluğu dünyanın müxtəlif ölkələrindən olan bir çox alim və mütəfəkkir tərəfindən qəbul olunur.

İlahi vergi sayəsində Həzrət Ömər zaman və məkan əngəlini aşıb-keçə bilmişdi. İlham alır, təlqinlə həqiqəti görə bilirdi, sanki mələklərin danışdığı kimsə idi. Keçən fəsillərin birində qısa şəkildə toxunduğumuz əhvalatı xatırlayaq. Belə ki Sariyə ibn Zənim adlı səhabənin başçılığı ilə müsəlman ordusu Fars diyarında müşriklərlə döyüşə giribmiş. Düzənlik ərazidə farslar çoxsaylı ordu ilə müsəlmanları mühasirəyə alırlar. Dağın başında qalaları vardı. Sariyə başa düşür ki, tutduğu mövqe əlverişli deyildir, amma ordunu bu vəziyyətdən çıxaracaq planı da yox idi. Həmin vaxt Möminlərin əmiri Həzrət Ömər Mədinədə, Peyğəmbər məscidində cümə xütbəsi verirmiş. Birdən yüksək səslə çağırmağa başlayır: "Sariyə, dağa tərəf! Sariyə dağa tərəf!" Sariyə Həzrət Ömərin səsini eşidərək qoşunu dağa çəkərək xilas olur və qələbə qazanır. Həzrət Ömərin qışqırığını onun ilhamlı olmağı ilə əlaqələndirmək olar. Onun səsinin Sariyəyə çatması isə Allah müsəlman döyüşçülərə lütfü idi.

Bu paraqrafı belə bir qeydlə bitiririk ki, peyğəmbərlərdə mənəvi genlər çox olmasaydı, vəhy ala bilməzdilər. Həmçinin bu genlər genetik olub, bir peyğəmbərdən digərinə ötürülür. Bəlkə də, peyğəmbərliyin İmran ailəsində, Həz-

rət İbrahim və övladlarında cəmlənməsini bununla izah etmək olar. Uca Allah buyurur:

"Biz İshaqı və Yaqubu Ona əta etdik. Onların hər birini hidayətə (peyğəmbərliyə) çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri (yaxşılıq edənləri) belə mükafatlandırırıq.

Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da (hidayətə çatdırdıq). Onların hamısı əməlisalehlərdən idi.

Biz, həmçinin İsmayılı, Əlyəsəi, Yunisi və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən (özləri ilə bir dövrdə yaşayan bütün insanlardan) üstün tutduq.

Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qismini hidayətə çatdırdıq), onları seçdik və düz yola yönəltdik" (əl-Ənam, 84-87).

Həmçinin peyğəmbərlər bir çox şeyi atalarından müşahidə etməklə, onlarla iç-içə olmaqla, həm də Allahın onları bu çətin vəzifəyə hazırlaması ilə öyrənmişdilər. Biz bunu İbrahim və İsmayıl, Yaqub və Yusif, Musa və Harun, Davud və Süleymanın timsalında görürük.

Peyğəmbərlər və fiziki cəhətdən güclü olmağın əhəmiyyəti

Dinin insanlara çatdırılmasında, bu yolda çəkilən əzab-əziyyətə, məruz qalınan işgəncələrə səbir göstərmədə fiziki cəhətdən güclü olmağın rolu danılmazdır. Həmçinin vəhyin ağırlığına fiziki və psixoloji cəhətdən dözmək üçün fiziki güc lazımdır:

"Həqiqətən, Biz sənə (məsuliyyəti) ağır bir kəlam vəhy edəcəyik" (əl-Müzzəmmil, 5).

Peyğəmbərin həyatından öyrənirik ki, vəhy nazil olduqda möcüzəvi şəkildə ağırlaşırmış. Buxarinin "Səhih" kitabında deyilir ki, bir dəfə Peyğəmbərə ayağı səhabələrdən Zeyd ibn Sabitin ayağının üstündə ikən vəhy gəlir. Zeyd deyir: "Peyğəmbərin ayağı elə ağırlaşdı ki, ayağımın sınacağından qorxdum"[1]. Həmçinin mənbələrdə qeyd olunur ki, dəvəsinin tərkində ikən Peyğəmbərə vəhy gəldiyində dəvə dayana bilməyib yerə çökür, boynunu uzadır, vəhyin enişi əsnasında baş verənlərin ağırlığından nərildəyirdi[2].

Nur dağında 650 metr hündürlükdə yerləşən Hira mağarasına davamlı şəkildə gedib-gəlməsi də Peyğəmbərin fiziki cəhətdən güclü olduğunu göstərirdi. Mağaraya çatmaq üçün dağda dik yamacı qalxmaq lazımdır. Bu baxımdan Səudiyyə hökumət dairələri məcbur qalaraq zəvvarların mağaraya qalxmasına qadağa qoymuşdu. Məqsəd yıxılmaq, təngnəfəslikdən bayılmaq kimi halların qarşısını almaq idi. Mənim də başıma oxşar hadisə gəlib.

Uca Allah 1959-cu ildə mənə Hira mağarasını görməyi qismət etmişdi. Həmin vaxt iyirmi yeddi yaşında güclü gənc idim, idmanla məşğul olurdum. Mağaraya qalxmaq, ayağımı Peyğəmbərin ayağının dəydiyi yerə basmaq istəyirdim. Dağa qalxa biləcəyimə əmin idim, amma zəifliyimi hiss etdim, nəfəsimi dərmək, güc toplamaq üçün bir neçə dəfə oturmalı oldum. Halbuki həm cığırı genişləndirmiş, həm də sürüşkən dik yerləri pilləkənli etmişdilər. Həmin vaxt mənə bir daha agah oldu ki, Peyğəmbər necə güclü imiş. Mağaraya qalxır və hər dəfəsində yeməyi qur-

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 371, səh. 94.
[2] Əbubəkr Əhməd ibn əl-Hüseyn əl-Beyhəqi. Peyğəmbərliyin sübutları // araşdırıb çapa hazırlayan: Əbdülmö`ti Qələci. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1988, VII cild, səh. 53.

tardıqda Möminlərin anası Həzrəti Xədicənin hazırladığı yeməyi götürmək üçün dağdan Məkkəyə enirdi.

Mağaradan baxdıqda bu günlə müqayisədə keçən əsrin əllinci illərində Kə`bənin qabağını kəsən binalar yox idi. Dairəvi ərazinin mərkəzində yerləşən Kə`bəyə sanki təyyarədən baxırdım. Peyğəmbərin bu dağı və bu mübarək mağaranı seçməsinə heyrətlənmişdim.

Məkkədə Rükanə ibn Əbdi-Yezid adlı birisi güləşdiyi hər kəsin kürəyini yerə vurması ilə tanınmışdı. İri cüssəli Rükanə ilə baş verənlər Peyğəmbərin fiziki cəhətdən güclü olmağına dəlalət edir. Tarixçilərdən İbn İshaq yazır ki, hicrətdən əvvəl Peyğəmbər Məkkə vadilərinin birində Rükanə ilə rastlaşır. Həmin vaxt Rükanə müşrik idi. Fikirləşir ki, Peyğəmbəri güləşməyə çağırsın, qalib gəlməklə onu hörmətdən salsın, məkkəli kafirlərin əlinə bəhanə versin. Amma Peyğəmbər güləşdə ona qalib gəlir. Rükanə mat-məəttəl qalır, öz-özünə donquldanır: "Təsadüfi qələbə idi!" Peyğəmbərə səslənir: "Məhəmməd, qayıt!" Allahın elçisi onu yenidən qaldırıb yerə vurur. Deyilənə görə, onlar üç dəfə güləşmiş, hər dəfəsində Allahın elçisi qalib olmuşdu. Rükanə baş verənlərə inanmaq istəməmiş, olanları sehr işi saymışdı[1].

Quranda deyilir ki, bir sıra peyğəmbərlər fiziki cəhətdən güclü olmuşlar. Onlardan biri də Musa peyğəmbər idi. Ayələrdə onun sahib olduğu fiziki gücdən danışılır. Məsələn, əlbəyaxa olmuş şəxsi bir zərbə ilə öldürmüşdü:

"(Musa) şəhərə əhalisi xəbərsiz ikən (günorta istirahət vaxtı) girdi. Orada iki nəfərin vuruşduğunu gördü. Onlardan biri öz adamlarından (yəhudilərdən), digəri isə düşmənlərindən (qibtilərdən) idi. (Musanın) adamlarından

[1] Məhəmməd ibn İshaq ibn Yəsar ibn İshaq. Sirət İbn İshaq // araşdırıb çapa hazırlayan: Məhəmməd Həmidullah. Məğrib: "Mə`həd əd-dirasat vəl-əbhas vət-tə`rib", 1976, V cild, səh. 256.

olan kəs düşməninə qarşı ondan imdad istədi. Musa onu (əli, yaxud əsası ilə) vurub öldürdü və dedi: "Bu, Şeytan əməlindəndir. Həqiqətən, o, açıq-aşkar bir düşməndir, (insanı haqq yoldan) azdırandır!" (əl-Qəsəs, 15).

Həmçinin Şüeybin qızı atasına Musanın gücü haqqında demişdi:

"(O iki qızın) biri dedi: "Atacan! Onu muzdla (çoban) tut, çünki bu güclü, etibarlı adam (indiyə qədər) muzdla tutduqlarının ən yaxşısıdır!" (əl-Qəsəs, 26).

Etiqad və tövhidi müdafiədə Musanın fiziki gücü mənəvi gücü ilə birləşmişdi. Məsələn, ibadət məqsədilə qızıldan öküz düzəltmiş Samiriyə səslənən Musanın səsində fiziki güclə mənəvi gücün vəhdəti hiss olunur:

"İndi tapınıb durduğun tanrına (bütünə) bax. Biz onu yandıracaq, sonra da (külünü) dənizə atacağıq!" (Taha, 97).

Tarixi və dini kitablarda da Musanın fiziki gücündən danışılır. Məsələn, İntibah dövrünün məşhur heykəltəraşlarından Mikelancelonun yonduğu heykəldə Musanın güclü bədənə sahib olduğu bütün aydınlığı ilə əks olunub.

Peyğəmbərlərin fiziki gücü haqqında çox danışmaq olar. Tədqiqatçılar onların fiziki gücünü təsvir edən motivləri araşdıra bilərlər. Bu təsvirlər onlarda gəmi düzəldən Nuhun, Kə`bəni inşa edən İbrahim və İsmayılın, zireh düzəltmək üçün dəmirçilik edən Davudun, dülgərliklə məşğul olan Zəkəriyyanın əks olunduğu xoş və növbənöv mozaika formalaşdıracaqdır.

Ağıl və yaradıcı təfəkkür

Peyğəmbərlərin əqli bacarıqlarının formalaşmasında mühit və irsiyyət rol oynayır. Əqli bacarıq dərrakə və fərasət üçün lazımdır. Peyğəmbər xalqı arasında ən ağıllı, problemləri daha düzgün həll etməyi, yaradıcı düşünmə-

yi bacaran şəxsdir. Peyğəmbərlərin əqli bacarıqları dövrümüzün meyarları ilə qiymətləndirilsəydi, ən yüksək dərəcəyə layiq görülərdilər. Müşriklərin düşüncə tərzinin tənqid edildiyi, yollarını azmalarına dair tutarlı dəlillərin göstərildiyi ayələrdə peyğəmbərlərin zəkası, əqli bacarığı və yaradıcı təfəkkürü haqqında çoxlu misallar vardır. Bütlərə, ulduz və göy cisimlərinə tapınan xalqına, Allaha inanmayan atasına güclü dəlillərlə cavab verən Həzrət İbrahimin zəkası buna misaldır. Qurandan onu da öyrənirik ki, Allah olduğunu iddia edən Nəmrudu Həzrət İbrahim tutarlı dəlillərlə susdurmuşdur. Belə ki Nəmrud Allah kimi öldürüb diriltdiyini iddia etdikdə İbrahim tərəfindən məntiqi fəndlə susdurulmuşdu:

"Allah Günəşi şərqdən doğdurur, bacarırsansa, sən onu qərbdən doğdur!" – dedikdə, o kafir donub qalmışdı" (əl-Bəqərə, 258).

Nəmrud özünü itirmiş, cavab verə bilməmişdi. Bundan savayı, Həzrət İbrahim bütlərin puç olduğunu göstərmək üçün kəskin zəkasından istifadə etmiş, böyüyündən başqa bütün bütləri qırmışdı. Onu tapıb gətirdiklərində həmqəbilələrinə rişxəndlə demişdi: "Bütlərinizi bu böyük büt qırıb, əgər danışa bilirlərsə, ondan soruşun!" Bununla da, xalqının bütlərə olan inancını sarsıda bilmişdi. Onlar da bir anlığa ağıllarını başına yığmış, amma çox keçmədən küfrlərinə qayıtmışdılar. Quranda bu əhvalat belə xatırlanır:

"(Onlar gedən kimi İbrahim bütləri) parça-parça edib yalnız onların böyüyünü saxladı ki, bəlkə, qayıdıb ona baş çəkdilər.

(Onlar qayıdan kimi işin nə yerdə olduğunu görüb) dedilər: "Bunu tanrılarımıza kim edibsə, o, şübhəsiz ki, zalımlardandır!"

(Müşriklərin bəziləri:) “İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik!” – dedilər.

(Qalanları:) “Bunların şahidlik edə bilmələri üçün onu (tapıb) camaatın gözü qabağına gətirin!” – dedilər.

(Müşriklər İbrahimi tapıb gətirərək:) “Ya İbrahim! Tanrılarımızı sənmi bu günə saldın?” – deyə soruşdular.

(İbrahim sındırmadığı iri bütü göstərib:) “Bəlkə, onların bu böyüyü bunu etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!” – deyə cavab verdi.

Bunun nəticəsində onlar (ağıllarını başlarına yığıb) öz-özlərinə müraciətlə: “Siz, doğrudan da, zalımlarsınız (dilsiz-ağılsız, heç özlərini belə qorumağa qadir olmayan bütlərə tapınmaqla özünüz özünüzə zülm edirsiniz)”, – dedilər.

Sonra (mübahisədə aciz qaldıqlarını görüb) yenə də öz küfrlərinə (başlarında olan əski etiqada) qayıdaraq (İbrahimə): “Axı sən bilirsən ki, bunlar danışmırlar!” – dedilər.

(İbrahim) dedi: “Elə isə Allahı qoyub sizə heç bir xeyir və zərər verə bilməyən bütlərəmi ibadət edirsiniz?

Tfu sizə də, Allahdan başqa ibadət etdiyiniz bütlərə də! Əcəba, (etdiyiniz əməllərin qəbahətini) anlamırsınız?” (əl-Ənbiya, 58-67).

Mövzunu peyğəmbərimiz Həzrət Məhəmmədin zəkası ilə əlaqəli bir faktla bitirmək istəyirik. O, hələ peyğəmbərlikdən qabaq parlaq zəkası ilə bir mübahisəni həll etmiş, Qüreyş qəbilələri arasında, az qalsın, meydana çıxacaq müharibənin qarşısını almışdı. Belə ki Kə`bə təmir edildikdən sonra Qara daşın hansı qəbilənin təmsilçisi tərəfindən yerinə qoyulması məsələsi ortaya çıxmış, mübahisə yaranmışdı. Hər kəs bu şərəfə nail olmaq istəyirdi. Müdrik ağsaqqallar qohum Bəkr və Təğlib qəbilələri arasında qırx ildən çox davam etmiş savaşın yenidən alovlanmasından qorxmuşdular. Mübahisə günlərlə davam etmiş, heç bir

nəticə hasil olmamışdı. Aralarından biri təklif etmişdi ki, gün ərzində Kə`bə ərazinə girən ilk şəxs hakim olsun. Uca Allah bu şəxsin Həzrət Məhəmməd olmasını murad etmişdi. Həzrət Məhəmmədi gördükdə sevinmiş, nə deyəcəksə onunla razılaşacaqlarını bildirmişdilər. O da əbasını yerə sərmiş, Qara daşı ortasına qoymuş, qəbilə başçılarından xahiş etmişdi ki, hər kəs əbanın bir ucundan yapışıb daşı birlikdə qaldırsınlar. Onlar deyiləni etdikdə özü daşı götürərək yerinə bərkitmişdi. Nəticədə hər kəs razı qalmışdı[1].

Bu hadisə peyğəmbərliyin verilməsindən beş il əvvəl olmuşdu. Həmin vaxt Həzrət Məhəmməd Allahdan vəhy almırdı, deməli, çıxış yolunu tapmaq üçün zəkasından istifadə etmişdi. Həyatı göstərir ki, Peyğəmbər düzgün qərar vermək üçün zəkasına, hadisələri müşahidə bacarığına güvənirdi. Məsələn, körpəsinə süd verən qadınla cinsi əlaqəni əvvəlcə qadağan etmək istəmişdi. Bunun körpəyə zərər toxunduracağını düşünürdü. Daha sonra bundan vaz keçmişdi. İmam Müslim rəvayət edir ki, Peyğəmbər deyibmiş: "Süd verən qadınla yaxınlığı qadağan etmək istəyirdim. Mənə dedilər ki, rumlar[2] və farslar bunu edirlər, amma bu onların uşaqlarına zərər toxundurmur"[3].

Əsilzadəlik və əsil-nəcabət

Zəka, yaradıcı təfəkkür və fiziki güc ya irsidir, ya da irsiyyət və mühitlə əlaqəlidir. Psixologiya elminə görə bu xüsusiyyətlərin formalaşması irsiyyət və mühitdən asılı-

[1] Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əl-Bidayə vən-nihayə. Beyrut: "Dar əl-mərifət", 1997, II cild, səh. 705.

[2] Bizanslılar – ***tərcüməçinin qeydi.***

[3] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 1442, səh. 573.

dır. Amma peyğəmbərlərin şəxsiyyətinin formalaşmasına təsir göstərən digər ictimai-mədəni amillər də vardır. Ən mühüm amillərdən biri əsilzadəlik, əsil-nəcabətlilikdir. Əsil-nəcabətlilik Allah Təalanın peyğəmbərləri tərbiyə etmək üçün seçdiyi ictimai-mədəni xüsusiyyətlərdən biridir. Bütün peyğəmbərlər hörmətli nəsillərdən, əsil-nəcabətli ailələrdən çıxmışdır. Belə olduqda xalqı, həmvətənləri, həmqəbilələri peyğəmbərə yuxarıdan aşağı baxa bilmir, peyğəmbər də müxalifləri qarşısında özünü aşağı hiss edib kompleksə qapılmır.

Həzrəti Məhəmməd də soy-kök cəhətdən ən böyük ərəb qəbiləsi Qüreyşdən, Qüreyşin də ən əsilzadə haşimoğulları ailəsindən idi. İmam Müslim rəvayət edir ki, Peyğəmbər demişdir: "Allah İsmayılın övladları arasından kinaniləri, kinanilərdən qüreyşliləri, qüreyşlilərdən haşimoğullarını, haşimoğullarından isə məni seçmişdir"[1].

Tədqiqatçı tarixə məlum dövrlərdə yaşamış peyğəmbərlərin soy-kökündə əsilzadəliyin şahidi olacaqdır. "Peyğəmbərlərin atası" adlandırılan Həzrət İbrahimdən sonra yaşamış peyğəmbərlər isə "biri digərindən törəmiş nəsil idilər" (Ali-İmran, 34).

Qeyd etdiyimiz kimi, psixoloji prinsiplər və islam mətnlərinə söykənən düşüncələrimiz, bəlkə də, daha təfsilatlı əsaslandırma tələb edir. Bunun üçün peyğəmbərlərin həyatına onların uşaqlıq dövründən etibarən nəzər salmaq, peyğəmbərlik yaşına çatanadək onların Allah tərəfindən necə yetişdirilməsini öyrənmək lazımdır. Bildiyimiz kimi, uşaqlıq illəri və valideyn qayğısının şəxsiyyətin formalaşmasında oynadığı rol çox böyükdür. Bu səbəbdən, ömür yolları haqqında Quranda təfsilatı ilə danışıldığı üçün növbəti iki fəsli Həzrət Musa və Yusifə həsr etmişik.

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 2276, səh. 935.

Altıncı fəsil
Allahın Musa peyğəmbər üçün münasib mühit və irsiyyət seçməsi haqqında

Həzrət Musanın Allah tərəfindən peyğəmbərliyə hazırlanması Quranda təfsilatı ilə əksini tapmışdır. Ayələrdən məlum olur ki, Allah hər peyğəmbər üçün münasib irsiyyət və mühit seçmişdir. Ululəzm peyğəmbərlər arasında Musanın da vəzifəsi ağır və məşəqqətli idi. Çünki ona Firon kimi zalımla, azğın və kafirlə mübarizə aparmaq tapşırılmışdı. Quranda onun pis əməlləri və təkəbbürlü danışığı haqqında məlumat verilir. Məsələn, bir dəfə xalqına səslənmişdi: "Mən sizin uca rəbbinizəm!"[1] Başqa vaxt gur səslə car çəkmişdi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir tanrı olduğunu bilmirəm"[2]. Zülmü və istibdadı tükürpərdici idi. Quranda deyilir ki, Firon israiloğullarının uşaqlarını öldürür, qadınlarını da kölə etmək üçün sağ saxlayırmış:

"Həqiqətən, Firon yer üzündə (Misirdə) baş qaldırıb onun əhalisini zümrələrə bölmüşdü. (Firon) onların arasında olan bir tayfanı (İsrail oğullarını) gücsüz (aciz) görüb onların (yeni doğulan) oğlan uşaqlarını öldürür, qızlarını isə sağ buraxırdı. O, həqiqətən, (yer üzündə) fitnə-fəsad törədənlərdən idi!" (əl-Qəsəs, 3).

Fərz edək ki, Musa da digər yəhudilər kimi Firon Misirində alçaldılaraq, kölələr kimi böyüyür. Belə olsaydı, nə baş verərdi? Uşaq ikən öldürülmə ehtimalının olduğu bir

[1] "ən-Naziat" surəsi, 24-cü ayə
[2] "əl-Qəsəs" surəsi, 38-ci ayə

cəmiyyətdə hələ də sağ qaldığı üçün Allaha şükür etməklə kifayətlənərdimi? Fironun yüksək qəsrinə daxil olarkən, əyanları və əsgərləri ilə əhatələnən qorxunc görkəmə sahib Fironun qarşısında dayanarkən, ona: "Mən Allahın sənin yanına göndərdiyi elçiyəm", – deyərkən Musa hansı hissləri keçirmişdir? Həmin vaxt, mümkündürmü ki, insan olduğu üçün bu görüşün vahiməsindən titrəyib qəsrin böyüklüyündən heyrətə gəlsin? Amma Allah Musa üçün başqa ssenari hazırlamışdı. Allah istəyirdi ki, Firon peyğəmbərliyin gücünü görsün! Musa bu gücü həm Allahın bəxş etdiyi irsi, həm də Fironun sarayında böyüyərkən qazandığı xüsusiyyətlərdən alırdı. Qəsrdə böyüdüyü vaxt görmüşdü ki, Firon evdə ikən adi paltarda gəzir, yatıb-dincəlir, digər insanlar kimi xəstələnir, yatanda xoruldayır, deməli, heç də ziyarətçilərinin və misirlilərin ürəyinə qorxu salan tanrı deyildir.

Allah Təala peyğəmbərinə bu cür azğının qarşısında mərdi-mərdanə dayanması üçün irsən keçən və mühitin formalaşdırdığı keyfiyyətlər bəxş etmişdi. Musanı tərbiyə edən, həyatının müxtəlif mərhələlərində ona istiqamət verən məhz Allahın özü idi. Çünki Musa, Allahın dediyi kimi, Onun gözü qabağında boya-başa çatmışdı. Allah onu Özü üçün tərbiyə etmişdi. "Taha" surəsinin 38-40-cı ayələrində Musa peyğəmbərin həyatını formalaşdıran "ilahi tərbiyə"dən danışılır. Təkcə üç ayə Musanın həyatının doğulduqdan peyğəmbərlik verilənədək olan hissəsini xülasə edir:

"Anana vəhy olunacaq şeyi vəhy etdiyimiz zaman.

(O zaman ki, Mən anana buyurmuşdum:) "(Musanı) bir sandığa qoyub çaya (Nilə) at. Qoy çay onu sahilə çıxartsın və Mənə də, ona düşmən olan birisi (Firon) onu (sudan tapıb) götürsün". (Ya Musa!) Gözümün qabağında boya-başa çatdırılasan deyə, Öz tərəfimdən (insanların ürəklərin-

də) sənə bir sevgi yaratdım. (Mərhəmət nəzərim heç vaxt üstündən əskik olmadı. Elə etdim ki, Firon özü, arvadı Asiyə və ətrafındakıların hamısı səni sevdi).

O zaman bacın (sənin ardınca guya yad bir adam kimi saraya) gedib (oradakılara) deyirdi: "Sizə ona baxa biləcək (süd verəcək) birisini göstərimmi?" (Onlar razılıq verdilər, anan saraya gəldi). Artıq (salamat qalmağına görə) gözü aydın olsun və kədərlənməsin deyə, səni anana qaytardıq. Sən (on iki yaşında ikən tayfadan olan bir yəhudi ilə mübahisə edən) bir nəfəri (bir qibtini) vurub öldürdün. Sonra Biz səni (Mədyənə qaçırtmaqla) o qəmdən qurtardıq. Biz səni bir çox sınaqlardan keçirtdik (cürbəcür bəlalara, möhnətlərə düçar edib hamısından salamat qurtardıq). İllərlə Mədyən əhli içində (Şüeybin yanında) qaldın. Sonra da müəyyən olunmuş vaxta (qırx yaşına) gəlib çatdın, ya Musa!" (Taha, 38-40).

Uca və Pak Allahın Musaya xitabən dediyi bu sözlər necə də gözəldir! Bu sözlərdə ifadə olunan şəfqət və rəhmdillik necə də yaxşıdır: "Gözümün qabağında boya-başa çatdırılasan deyə, Öz tərəfimdən (insanların ürəklərində) sənə bir sevgi yaratdım". Yəni, səndə elə gözəllik, füsunkarlıq yaratdım ki, görənlər səni sevdi. Hətta Fironun daş ürəyi yumşalmış, həyat yoldaşının Musanı oğulluğa götürmək istəyini qəbul etmişdi. İlahi sevgi hissi israiloğullarına nifrətdən daha kəsərli silah idi. Allah Musaya həm irsi keyfiyyətlər bəxş etmiş, həm də onun Fironun sarayında şahzadələr kimi böyüməsinə şərait yaratmışdı. Şübhə yox ki, Firon Musanı sevmiş, ona sarayın elmi-mədəni imkanlarından istifadə etmək fürsəti vermişdi. Musa yeniyetmələlik yaşına çatdıqda Allah Təala ona bilik və hikmət əta etmiş, hazırlığını tamamlamışdı:

“(Musa) yetkinləşib kamilləşəndə (otuz-qırx yaşlarına çatanda) ona hikmət və elm (şəriət elmi) verdik. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq!” (əl-Qəsəs, 14).

İndi bizim qarşımızda ilahi təlimləri Firona və xalqına çatdırmaq üçün Allahın hikmət, bilik və tərbiyə verdiyi peyğəmbər dayanmışdır. Amma biz Musa peyğəmbərin irsiyyət və mühit əsasında Allah tərəfindən yetişdirilməsinin detallarına dair çox az şey bilirik. Bu səbəbdən əsas diqqətimizi Musanın yetişməsi üçün tələb olunan mühiti seçən və irsi keyfiyyətləri bəxş edən ilahi hikmətlə əlaqəli bəzi məsələlərə verəcəyik.

Musanın həyatının Quranda təfsilatı ilə öz əksini tapması bütün peyğəmbərlərin Allah tərəfindən yetişdirilməsinin göstəricisidir. Təbliğ işinin düzgün aparılması üçün peyğəmbərləri tərbiyə etməyin, onlara özünəinam hissini aşılamağın, fitrətlərini əxlaqla yoğurmağın əhəmiyyətini vurğulamaqla mövzuya giriş edək.

Tərbiyədə ananın rolu

Şəxsiyyətə mühit və irsiyyətin təsiri öz təsdiqini tapmış məsələdir. Uşaq və yeniyetmələrin davranışlarında müşahidə olunan dəyişikliklər bu iddianın doğruluğuna əminlik yaratmışdır. Müasir psixologiya bu məsələni elmi-təcrübi qaydada öyrənmiş, ağlabatmaz faktları üzə çıxarmışdır. Buraya ana bətnində və doğulduqdan sonra uşağın hərəkətləri, sevgi və şəfqət hissinin, müxtəlif psixoloji xüsusiyyətlərin uşaqlara aşılanmasında ananın rolu və sair daxildir. Məsələn, güman olunurdu ki, uşağa mühitin təsiri doğulduqdan illər sonra – valideynlərinin bəzi davranışlarını, ətraf mühiti dərk etməsi ilə başlanır. Amma yeni elmi araşdırmalar sübut etmişdir ki, mühit ana bətnində yumurta hüceyrə spermatozoidlə dölləndiyi vaxtdan öz

təsirini göstərir. Rüşeym ananın psixoloji vəziyyətindən, qəbul etdiyi yemək və dərmanlardan fiziki və psixoloji olaraq təsirlənir. Həmçinin yeni doğulmuş uşaqlar üzərində aparılmış təcrübi araşdırmalar göstərmişdir ki, südəmər körpələr heyrətamiz bacarıqlara sahibdir. Açıq-aydın sübutlar olmasaydı, bu bacarıqlara inanmağımız mümkün deyildi. Məsələn, yeddiaylıq uşaq ana bətnində anasının səsini tanıya bilir. Yaxud bir neçə həftəlik körpə anasının südünü başqa qadınların südündən seçir. Görmüşdülər ki, o, digər qadınların deyil, məhz anasının südünə batırılmış pambıq parçasına reaksiya verir.

Eləcə də alimlər uşaqların qeyri-adi bacarıqlarını ortaya çıxaran belə bir təcrübə aparmışdılar. Bu təcrübədə alimlər ananın tam aydın olmayan və zəif elektrik cərəyanı ilə "tənzimlənən" şəklini göstərən kompüterdən istifadə etmişdilər. Həmin elektrik cərəyanı xüsusi əmzik vasitəsilə yaradılırdı. Alimlər müşahidə etmişdilər ki, körpə müvafiq əmmə ilə "lazımi" elektrik cərəyanını yaradaraq ananın şəklinin aydın görünməsinə nail olur. Ana ilə körpəsinin münasibətini öyrənən bu araşdırma körpələrdəki emosional-psixoloji xüsusiyyətləri üzə çıxarır.

İlk həftələr və aylarda uşaqla ana arasında emosional münasibət yaranır. Bu münasibət uşağın ömrü boyu başqaları ilə emosional-ictimai əlaqələr qurmasında özül rolunu oynayır. Psixoloqlar belə münasibət formasını bağlılıq adlandırırlar. Anasını itirməsi nəticəsində bu mənəvi rabitə kəsildikdə uşaq gələcəkdə başqaları ilə yaxın münasibət yaratmaq bacarığından məhrum ola bilir. Bağlılığın yaranmasında əsas rolu ana oynayır. Məhz o, körpənin qayğısına qalır, onu əmizdirib əzizləyir. Bağrına basdıqda körpə anasının ürəyinin hələ bətndə ikən öyrəşdiyi döyüntülərini eşidir, sakitləşib rahatlıq tapır. Bu məsələdə atanın rolu ikinci dərəcəlidir.

Ananın oynadığı rolun mühümlüyü peyğəmbərləri ana sevgisindən məhrum etməyən ilahi hikmətə aydınlıq gətirir. Ataya gəlincə, məsələ bir qədər fərqlidir. Məsələn, atası Həzrət Məhəmməd hələ doğulmazdan əvvəl vəfat etmişdi. Uca Allah Həzrət Məhəmmədə dörd qadının analıq etməsini istəmişdi: Aminə bint Vəhəb (əsl anasıdır), Həlimə (süd anasıdır), Süveybə və "ana" deyə müraciət etdiyi Ümmi-Əymən. Anası Aminə oğlu Məhəmməd altı yaşına çatanadək yaşamış, emosiyalarının formalaşmasında rol oynamışdı. Babası – böyüyümüz İbrahimə gəlincə, Allah ona oğlu İsmayılı anasının himayəsində, əkin-biçinin olmadığı quraqlıq ərazidə qoyub getməyi əmr etmişdi.

Anasından məhrum olsa da, Allah Musaya başqa mömin ananı – Fironun həyat yoldaşını bəxş etmişdi. Onun ona darıxan, onu görmək istəyən iki anası vardı. Birincisi öz anası, digəri isə Allahın övlad vermədiyi, övladlığı Musaya canı-dildən bağlanan saray xanımı! Balaca Musa təkcə iki ana ilə deyil, həm də sarayın digər qadınları ilə əhatələnmişdi. O, kraliçanın ərköyün övladı idi! Musaya sevgini Allah əta etmişdi! Boya-başa çatdıqda bilmişdi ki, onu öldürülməkdən rəbbi qoruyub. Fironla mübarizə aparmaq üçün ona özünəinam, sevgi, mərhəmət, təmkin və dözüm lazım idi. Bu keyfiyyətlərin uşağa aşılanmasında ana başlıca rol oynayır.

Musanın əsilzadə nəsildən çıxması

Özünəinam aşılamaq təkcə psixoloji yolla baş vermir, onun yaranması və möhkəmlənməsində həm də sosial-mədəni amillər rol oynayır. Hörmət qoyulmayan bir nəsildən çıxmış uşağın hiss etdiyi miskinliyi heç bir ana sevgisi və ata təşviqi kompensasiya edə bilməz. Bundan əvvəl qeyd etmişdik ki, Uca Allah öz peyğəmbərlərinə

əsilzadəlik bəxş etmişdir. Onlar əsilzadə nəsillərdən çıxmışdılar. Bu amil onların xalqları (cəmiyyətləri) tərəfindən qəbul etməsində əhəmiyyətli rol oynayır. Həzrət Musa israiloğullarının ən şərəfli ailəsindən – peyğəmbərlik bəxş edilən ailədən çıxmışdı:

"Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində seçilmiş (üstün) etdi.

Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir!" (Ali-İmran, 33-34).

Həzrət Musa, bir neçə təfsir kitabında deyildiyi kimi, Yaqubun nəslindən idi. Musa Firon və həyat yoldaşına əziz və doğma olduğundan misirlilərin də hörmətini qazanmışdı. Əslən yəhudi olmağına baxmayaraq, Musa "tanrı"nın[1] və kraliçanın ərköyün oğlu idi!

Allahın Musaya qüvvətli bədən və emosionallıq bəxş etməsindəki sirr

Heyrətamiz fiziki güc, tez və kəskin reaksiya vermək bacarığı Allahın Musaya bəxş etdiyi irsi xüsusiyyətlər idi. Bu da onun dünyanın ən zalım hökmdarı qarşısında ilahi təlimləri təbliğ etmək üçün inam və gücünü artırmışdı. Keçən fəsildə dediyimiz kimi, fiziki cəhətdən güclü olmaq Allahın bütün peyğəmbərlərə bəxş etdiyi xüsusiyyət olmuşdur. Amma Allah bizim bilmədiyimiz səbəblərdən bəzi peyğəmbərləri daha güclü etmişdir. Həzrət Musa hündür boylu və son dərəcə güclü idi. Məhəmməd peyğəmbər Meracda Həzrəti Musanı gördüyünü, çox qarabuğdayı və uzunboylu olduğunu demişdir[2]. Həmçinin biz onun fizi-

[1] Özünü tanrı hesab etdiyindən Firon nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

[2] Bax: Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari.

ki xüsusiyyətləri və cizgilərinə dair detallı məlumatlara Musanın təsvir edildiyi gil lövhəcikdə və İbn Kəsirin təfsirində rast gəlirik. İbn Kəsir yazırdı ki, Bizans imperatoru İrakli peyğəmbərlərin şəkillərinə sahib idi. Çox güman ki, ona bu şəkillər Süleyman peyğəmbərin qoyub-getdiyi möcüzələrdən miras qalmışdı[1].

Gil lövhəcikdə Musa qıvrımsaç, çuxura düşmüş gözləri ilə, sərt, qəzəbli və qaşqabaqlı baxışı ilə təsvir edilir. Zəifliyinə baxmayaraq, rəvayətlər Həzrəti Musanı Quranda və hədislərdə olduğu kimi təsvir edir. Uca boyu, fiziki gücü, sərt görünüşü onu xalqı arasında çəkinəsi şəxsiyyətə, itaət olunası rəhbərə çevirmişdi.

Musanın xarakterinə həm də irsi psixoloji xüsusiyyətlər daxil idi. Allah ona sərt reaksiyaları ilə seçilən avtonom sinir sistemi bəxş etmişdi. Musa peyğəmbər emosionallığını qıcıqlanmanın yaratdığı psixoloji gərginlikdən xəbər verən aşağıdakı sözlərlə təsvir etmişdi:

"Ürəyim sıxılır, dilim də açılmır. Buna görə Haruna da (peyğəmbərlik) ver!" (əş-Şüəra, 13).

Xarakteri Musanı zülm, şirk və əxlaqsızlıq qarşısında dözə bilməyəcək qədər səbirsiz və emosional etmişdi. Quran onun səbirsizliyi haqqında "Kəhf" surəsində təfsilatı ilə məlumat verir. Allah Musaya əmr edir ki, iki dənizin qovuşduğu yerdə Xızırla görüşüb ondan qeyblə əlaqəli bəzi bilikləri əxz etsin. Amma emosionallığı nəticəsində Musa Xızırın üzdə günah və qəddarlıq ifadə edən, əslində isə ilahi mərhəmətin əks olunduğu bəzi işlərini (gəmini deşməsi, uşağı öldürməsi, yamanlıq edənlərin divarını ye-

---

Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3207, səh. 616; Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 168, səh.

[1] Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əl-Bidayə vən-nihayə. Beyrut: "Dar əl-mərifət", 1997, II cild, səh. 736.

nidən tikməsi) gördükdə dözüm göstərmir. Xızırın qabaqcadan xəbərdarlıq etməsinə baxmayaraq, Musa hisslərinə hakim ola bilməmişdi.

Belə fiziki və psixoloji xüsusiyyətlər Musada cəmləşdiyindən məğrurcasına Firona etiraz edir. Başqa kim gücü və şücaəti sayəsində Fironu susdura bilərdi? Qurani-Kərimin "Şüəra" surəsinin 18-22-ci ayələrində Musa ilə Fironun dialoqundan danışılır. Firon Musanı çətin vəziyyətə salıb hər kəsin qarşısında alçaltmaq istəyir. İstəyir ki, sarayında aldığı tərbiyəni unudacaq, bir misirlini öldürəcək qədər nankor olduğunu ona başa salsın:

"Musa Harunla Fironun yanına gedib bu sözləri deyəndən sonra Firon onu tanıyıb) dedi: "Biz səni körpə uşaq ikən yanımıza alıb böyütmədikmi? Sən illərcə yanımızda qalmadınmı?

Axırda elədiyini də elədin (bir qibtini vurub öldürdün). Sən nankorun birisən!" (əş-Şüəra, 18-19).

Fironun dediyini bir baxın: "Axırda elədiyini də elədin!" Məqsəd qabaqdangəlmişlik etmək, məsələni böyütməkdir. Musa da mövzunu böyütməmək üçün qibtini vurub öldürməklə səhvə yol verdiyini etiraf edir: "(Musa) dedi: "Mən onu özümü itirərək etmişdim" (əş-Şüəra, 20). Ardınca mövzunu dəyişmədən elə söz deyir ki, Firon karıxıb qalır: "Boynuma minnət qoyduğun bu nemət də (məni sərbəst buraxıb) İsrail oğullarını (özünə) qul etdiyinə görədir. (İsrail övladını kölə etdiyin halda, məni öz yanına alıb böyütdüyünü başımamı qaxırsan?)" (əş-Şüəra, 22). Yəni, mənə sarayında tərbiyə verməyin israiloğullarını sevdiyinə görə deyildi; sən ki onlara zülm edib, övladlarını öldürmüşsən.

Musanın emosionallığı anadangəlmə dərrakəliliyi ilə çulğaşaraq susdurucu cavab ərsəyə gətirmişdi.

Bundan qabaq peyğəmbərlərin fiziki xüsusiyyətləri haqqında danışmışdıq. "Qəsəs" surəsinin 15-ci ayəsində

oxuyuruq ki, Musa bir misirlinin bir yəhudiyə hücum çəkməsini həzm edə bilməmiş, yumruq zərbəsi ilə onu öldürmüşdü. Dövrümüzdə Məhəmməd Əli də daxil elə boksçu yoxdur ki, rəqibini ilk raundun başlanğıcında bir yumruq zərbəsinə öldürə bilsin. Bu fakt da Musanın son dərəcə güclü olduğunu göstərir.

Bu hadisədən sonra Musa peşman olub Allahdan bağışlanma diləyir. Növbəti gün həmin yəhudi Musanı başqa bir misirliyə qarşı köməyə çağırır. Musanın anadangəlmə emosiyaları o dərəcədə "alovlanır" ki, baş verənlərə görə peşman olduğunu yaddan çıxarıb misirlini vurmaq istəyir. "Qəsəs" surəsində Musanın xariqüladə gücü və ifrat emosionallığından danışılır.

Allah Təala nə üçün Musa peyğəmbərə bu cür irsi xüsusiyyətlər bəxş etmişdi? Ona görə ki, Musanın yaşadığı dövrdə Misiri Firon idarə edirdi. Terror və repressiyaların hökm sürdüyü bir cəmiyyət formalaşmışdı. Bu səbəbdən ancaq təqib və qorxutma siyasəti yürüdən güclü və qorxunc şəxslər cəmiyyəti idarə edə bilirdilər. Bu, xüsusən israiloğullarına aid idi. Onlar, Quranın bir çox ayəsində deyildiyi kimi, mütiliyə, miskinliyə, hökmdarların zülmünə vərdiş etmişdilər. Misirlilərin bütpərəstliyindən təsirləndikləri üçün israiloğullarını ancaq maddi ehtiyacları: yemək, içmək, əylənmək və əmin-amanlıq maraqlandırırdı.

Quranda göstərilir ki, özlərini ibadətə həsr etsinlər deyə Allah yəhudilərə yemək üçün qüdrət halvası və bildirçin əti göndərdikdə Musaya demişdilər: "Ya Musa! Biz (hər gün yediyimiz) eyni təama (qüdrət halvasından və bildirçin ətindən ibarət olan yeməyə) heç vaxt dözməyəcəyik! Rəbbinə dua et ki, bizim üçün torpağın bitirdiyi şeylərdən tərəvəzindən, sarımsağından, mərciməyindən və soğanından yetirsin! – dediniz" (əl-Bəqərə, 61). Həmçinin Musa

peyğəmbər yəhudiləri müqəddəs torpaqları azad etməyə çağırdıqda demişdilər: "Sən və rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq" (əl-Maidə, 24). Bu səbəbdən Musa rəbbi ilə görüşməyə getməzdən qabaq qardaşı Harunu öz yerinə qoymuşdu. Bu, yəhudilərin öz gözləri ilə Allahın möcüzəsini (dənizin yarılması, onların xilas olub Fironun boğulmağı) görməsindən sonra baş vermişdi. Harun qardaşı Musa kimi deyildi. Görünür, bədəndə, gücdə, zəhmli rəhbər olmada, emosionallıqda, dərhal reaksiya vermədə qardaşına oxşamırdı. Nəticədə yəhudilər Harunu ciddiyə almadılar. Harun yəhudilərə onları qızıldan düzəldilmiş buzova sitayiş etməyə çağıran Samirinin sözünə baxmamağı əmr etdikdə onu ölümlə hədələdilər.

Bu əhvalat "Əraf" və "Taha" surələrində təfsilatı ilə mövcuddur. Ayələrdən görünür ki, qardaş olmaqlarına baxmayaraq, Musa və Harun fərqli idilər. İrsi və qazanılmış xüsusiyyətlərində ilahi hikmət təzahür etdiyindən Musa xalqın itaət etdiyi coşqun rəhbərə çevrilmişdi.

Quranda deyilir ki, rəbbi Musaya müqəddəs lövhələrdə Tövratda göstərilmiş öyüd-nəsihətləri yazmış, ona xalqını Samirinin yoldan çıxardığını, onların da buzova tapındıqlarını xəbər vermişdi. Ola bilsin, Allah bunu geri qayıtdığı vaxt xalqının buzova tapındığını gördükdə Musanın sarsılmamağı üçün etmişdi. Amma heyhat! Musa həm qəzəblənərək, həm də təəssüf edərək bərk həyəcanlanmışdı. Allah xalqının buzova tapındığını qabaqcadan xəbər versə də, Musa baş verənləri gözü ilə gördüyündə danışığı və hərəkətlərinə nəzarəti itirmiş, müqəddəs lövhələri yerə ataraq qardaşı Haruna hücum çəkmiş, bütün məsuliyyəti ona yükləmiş, saç-saqqalından yapışaraq dartmışdı. Harun Musanın əlindən ona qardaşı olduğunu xatırlatmaqla qurtulmuşdu. Musa Harunu buraxdıqdan sonra nəhəng bədəni, qəzəbli və qorxunc üzü, vahiməli səsi ilə Sami-

riyə tərəf getmişdi. Bu mənzərə Samirini qorxutmuşdu. Halbuki Musa gələnədək Samiri özünü yəhudilərin lideri sayır, onları buzova tapınmağa, qarşı çıxarsa, Harunu öldürməyə çağırırdı. Allahın Musaya nə üçün üstün fiziki və emosional xüsusiyyətlər bəxş etməsi bu məqamda bir daha aydın olur. Nəticədə, Samiri qorxaraq alçalır, Musa isə buzovu parçalayaraq məhv edir. Bununla da, Samirinin fitnə-fəsadı başa çatır. Beləliklə Allahın Musanı bu cür mühitdə yetişdirməsinin, ona sərt və qaba xüsusiyyətlər bəxş etməsinin səbəbi bizə məlum olur.

Fikrimizcə, xalqını haqqa çağırması üçün Allahın irsən bəxş etdiyi bu və ya digər xüsusiyyət bir peyğəmbərin həyatının bütün istiqamətlərində, bəlkə də, səmərəli olmamışdır. Ola bilsin, emosionallığı Musanı gündəlik həyatında bəzi problemlərlə üz-üzə qoymuşdur. Amma Allah emosionallığı üzündən baş verən bəzi naxoş hadisələrə görə Musanı bağışlamışdı. Axı O, Musaya bu emosionallığı ali missiya üçün bəxş etmişdi! Bəlkə də, belə irsi keyfiyyətin səbəb olduğu müşküllərə görə Musaya savab da yazılmışdır. Belə ki Allah peyğəmbərlikdən əvvəl öldürdüyü misirliyə görə Musanın təqsirindən keçmiş, hər dəfə emosiyalarına məğlub olduqda onunla mərhəmət, sevgi və şəfqətlə davranmışdır.

Bu məsələdə Musa peyğəmbəri Həzrət Məhəmmədlə müqayisə edə bilərik. Musa emosional peyğəmbər idi. Emosionallıq xalqını idarə etmək üçün Musaya bir rəhbər olaraq lazım idi. Eləcə də Allah yəhudiləri idarə edəcək şəxsə hansı xüsusiyyətləri əta edəcəyini yaxşı bilir. Çünki Allah xalqa uyğun peyğəmbər seçir. Həzrət Məhəmmədə gəlincə, Allah onu bütün bəşəriyyətə peyğəmbər göndərmişdir. Allah onu nə bir peyğəmbərin, nə də mələyin yaxın düşə biləcəyi mərtəbəyə çatdırmış, yaxşıca tərbiyə

etmiş, ona peyğəmbərlik, hər kəslə dil tapmaq bacarığı vermişdir.

Nə qədər ali olsa da, belə ali mərtəbənin özünəməxsus çətinliyi, sınaq və ağırlığı vardı. Bu səbəbdən Həzrət Məhəmmədi digər peyğəmbərlərdən uca tutan Allah onu, bəlkə də, başqa peyğəmbərlərə nisbətdə "göz yumduğu" məsələlərə – bu barədə yuxarıda danışmışdıq – görə danlamışdır. Ona görə ki, Allah peyğəmbərlərin bəzilərini digərlərindən üstün tutmuşdur:

"(Ya rəsulum!) Bu peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir" (əl-Bəqərə, 253).

Həzrət Musa Allahın yazdığı müqəddəs lövhələri yerə atmış, əvvəlcədən edilən xəbərdarlığa baxmayaraq, Xızırla səbirsiz davranmışdı. Buna baxmayaraq, Quranda Musanın Allah tərəfindən danlanmasına dair heç nə yoxdur. Amma "Əbəsə" surəsində oxuyuruq ki, Uca və Böyük Allah Həzrət Məhəmmədi kor İbn Ümmi-Məktuma qaşqabaq tökdüyünə görə məzəmmətləmişdir. O İbn Ümmi-Məktuma ki, Peyğəmbərdən israrla Allahın öyrətdiklərini ona da öyrətməsini istəmişdi. Həmin vaxt Həzrət Məhəmməd haqqa qayıdacaqlarına ümid edərək Qüreyş başbilənlərinə Allahın təlimlərini çatdırmaqla məşğul idi. İbn Ümmi-Məktum vaxtında gəlməmişdi, üstəlik, Peyğəmbərin sözünü kəsərək istəyini israrla təkrarlayırdı. Axırda, Peyğəmbərin ürəyi sıxılır, ondan üz çevirib qaşqabağını tökür. Və Allah peyğəmbərini onun üz cizgilərini görməyən bir kor qarşısında üzünün ifadəsini dəyişdirməyinə görə məzəmmətləyir.

Yeddinci fəsil

Allahın Yusif peyğəmbər üçün münasib mühit və irsiyyət seçməsi haqqında

Allahın Yusifi necə yetişdirdiyini öyrənmək istəyən kimsədən Quranın ayrı-ayrı surələrinə müraciət etmək tələb olunmur. Bütün məlumatlar bir surədə – "Yusif" surəsində toplanmışdır. "Yusif" surəsi islam psixologiyası, parapsixologiya və xüsusən spiritual psixologiya mütəxəssisləri üçün əhəmiyyətli məlumatları ehtiva edir. Surədə əsasən yuxulardan, rəmzi və məna yozumlarından danışılır. Həmçinin surədə qısa şəkildə ilham, telepatiya kimi məsələlərə işarə olunur. Surədə gözdəymə hadisəsinə, psixosomatik pozuntulara, yəni boğulmuş duyğuların səbəb olduğu fiziki xəstəliklərə də toxunulur.

Söhbətimizə yuxular və Yusifə verilmiş yuxuyozma bacarığı haqqında danışmaqla başlayaq. "Yusif" surəsinin başlıca mövzusu məhz bundan ibarətdir. Bu surə, bəzilərinin dediyi kimi, yuxular və röyalar surəsidir. Surə Yusifin uşaq ikən gördüyü yuxu ilə başlanır və onu yozmağı ilə qurtarır. Amma biz hər şeydən əvvəl müasir psixologiyanın ümumiyyətlə yuxulara, xüsusən də çin çıxan yuxulara münasibəti haqqında ümumi şəkildə danışmaq istəyirik. Mövzu həm modern psixologiya tədqiqatçıları və tələbələri üçün, həm də Qərb mənbələrindəki təsəvvürlərin ciddiliyi baxımından əhəmiyyətlidir. Bu təsəvvürlər təcrübi biliklərlə nə ağıl, nə də dinin təsdiqlədiyi absurd iddiaların qarışığından ibarətdir. Mövzu psixologiya təhsili olmayan tələbə və oxuculara aydın olsun deyə sadə izah üslubundan istifadə edəcəyik.

Yuxuya dair neyropsixoloji və təcrübi araşdırmalar

Maqnit-rezonans tomoqrafiyası ilə aparılmış yeni neyropsixoloji tədqiqatlar yuxu və yuxugörmə zamanı neyronlarda baş verən bir çox prosesi üzə çıxarmışdır. Müasir elm insanların nə üçün yatdıqları və yuxu gördüklərini dəqiq şəkildə izah edə bilmir. Elmə təkcə yuxuda və yuxugörmə zamanı orqanizmdə baş verən proseslər məlumdur. Bu baxımdan alimlər yuxuların təsnifatını aparıblar: qorxulu yuxular (nightmares), gecə dəhşəti (night terror), aydın yuxular (lucid dreams).

Tədqiqatlar göstərir ki, yuxugörmə mərhələsində (rapid eye movement) gözlər sürətlə – beyin fəaliyyətini ölçən cihazların qeydə aldığı xüsusi tərpəntilərlə hərəkət edir. Gözlərin sürətlə hərəkət etməsi hadisəsi yuxu zamanı hər doxsan dəqiqədən təkrarlanır. Yuxular insan və heyvanların psixoloji sağlamlığı üçün xeyirlidir. İnsanı, yaxud bəzi heyvanları (pişik və s.) yuxugörməni qeydə alan kompüter hər dəfə onların yuxu gördüyünü göstərdikdə oyatsaq, yuxunun davamlılığına baxmayaraq, gərgin olacaqlar.

Elə isə gündəlik həyatın gətirdiyi qayğı və gərginliyi yüngülləşdirmək üçün yuxu Allahın insan oğluna nemətidir. Araşdırmalar göstərmişdir ki, təyyarə qəzaları, yanğın və zorlama halları nəticəsində sarsılan, həyəcanlanma, patoloji qorxu və əsəb pozğunluğundan şikayətlənən şəxslər[1] üçün yuxuların müalicəvi təsiri vardır. Belə olan halda ağrı-acılı hadisələr psixoloji pozğunluğu olan şəxsin yuxularında tez-tez təkrarlanır. Bununla da, vərdiş yolu ilə travmanın müalicəsi mümkün olur. Bu cür təkrarla-

[1] Belə şəxslər travmasonrası stress pozğunluğundan (post-traumatic stress disorder) əziyyət çəkirlər.

nan yuxular psixoterapevti xatırladır. Bu "psixoterapevt" zərərli həyəcanlanmanı tədricən azaltmaq üçün tələb edir ki, psixoloji və fiziki relaksasiya keçən xəstə baş verənləri yenidən təsəvvür etsin.

Bununla yanaşı, yuxular əqli-koqnitiv proseslər üçün faydalıdır. Yuxular hafizəni gündəlik faydasız işlərdən təmizləyir, gün ərzində keçirdiyimiz tərəddüdləri dəqiqləşdirməyə kömək olur, yadda saxlamaq istədiyimiz məlumatların, təkmilləşdirilməsi zəruri bacarıqların möhkəmlənməsini təmin edir. Müşahidə göstərmişdir ki, əzbərləmə təlimindən dərhal sonra yatmağa gedən şəxslər başqaları ilə müqayisədə daha yüksək nəticə əldə edirlər.

Yuxuların mənəvi və proqnozlaşdırıcı tərəfinin psixologiya elmi tərəfindən inkar edilməsi

Yuxulara dair neyropsixoloji araşdırmalar psixologiya elminin görünən üzünü əmələ gətirir. Çünki bu tədqiqatlar bütünlükdə materialistcəsinə olub duyğu orqanlarımızla dərk edilən fiziki və nevroloji dəyişikliklər haqqında məlumatlar təqdim edir. Belə tədqiqatlar hiss orqanları ilə aparılan müşahidələrə söykənir, odur ki təzahürlərə (hadisələrə) dair sadə suallara cavab verməkdə çətinlik çəkmir. Amma müasir dünyəvi elmlər, o cümlədən ictimai və psixologiya elmləri həmin hadisələrin məqsəd və faydalarını, bu hadisələrin kökündə yatan hikməti izah edən mürəkkəb suallara tutarlı cavab verə bilmir. Onu da görürük ki, müasir dünyəvi elmlərin ideya məzmunu spiritual aspektlərin, duyğu orqanları ilə dərk edilməyən biliklərin radikal formada, açıq-aydın qərəzliliklə inkarına əsaslanır.

Psixologiya mütəxəssisləri gələcəkdən xəbər verən yuxuların doğruluğunu təsdiqləyən dəlilləri, yüzlərlə mənəvi

təcrübə faktını inkar etmişdilər. Halbuki bu cür yuxularda biz başımıza gələcək hadisələri görürük və həmin hadisələr sonradan dəqiqliyi ilə baş verir. Onlar belə yuxuları "elmi araşdırma" ilə ifşa olunması mümkün saxtakarlıq hesab etmiş, hadisələri eyni ilə təkrarlamağı şərt qoymuşdular. Bununla da, nəticənin iddiaçının dediyi kimi olub-olmadığı üzə çıxacaqdı. Başqa sözlə, şəxsdən eyni şəraitdə yuxulamaq xahiş olunur və nəzarətçi həmin yuxunu görüb-görmədiyini müəyyənləşdirir! Sanki hansı isə yuxunu görmək yatmış şəxsin sərəncamında, iradəsi daxilində olan iş imiş! İşdir, şəxs gördüyü yuxunu başqalarına danışıbsa və gördüyü də baş veribsə, üstəlik, həmin şahidlər bunu təsdiqləyibsə, dünyəvi tədqiqatçılar deyirlər: "Bu, tamamilə təsadüfdür!"

Dedikləri inkar edilməyəcək qədər məşhur sayılan şəxsiyyətlər bu kimi hallarla qarılaşdıqlarını bildirdikdə materialist təfəkkür özünü eşitməzliyə vurur, belə faktların unudulmasına çalışır. Məsələn, ABŞ prezidenti Avraam Linkoln və alman alimi Otto Lövi belə şəxsiyyətlərdəndir. Linkoln yuxuda görmüşdü ki, sui-qəsdə uğrayır, Ağ Evdə otaqların birində ABŞ bayrağına bükülmüş cənazəsinin başında gözətçi dayanır. O bu yuxunu bəzi yaxınlarına danışmışdır. Çox keçmir, yuxuda gördükləri gerçək həyatda baş verir. Sinir impulslarının kimyəvi vasitələrlə ötürülməsi fərziyyəsini irəli sürən alman alimi Otto Löviyə gəlincə, apardığı təcrübələr başlanğıcda nəticəsiz qalmış və alim ümidini itirmişdi. Düz 17 il sonra Lövi problemi həll edəcək təcrübəni bütün detalları ilə yuxuda görmüşdü. Ayıldıqda yuxuda gördüklərini olduğu kimi dəftərə köçürmüş, yuxusundakı eksperimenti səhəri gün apararaq fərziyyəsinin doğruluğunu isbatlamışdı. Lövi bu kəşfinə görə 1938-ci ildə Nobel mükafatına layiq görülmüşdü. Ola bilsin, bir çox alim bu cür yuxulardan görmüşdür, amma

onlar səbəb kimi çəkdikləri zəhməti göstərirlər[1]. Bir çox avropalı alim, ədəbiyyatçı və aktyorun başına oxşar hadisələr gəlib, amma biz burada həmin əhvalatları qeyd etməyəcəyik.

Bir daha deyirik, materialist alimlər, xüsusən ifrat materializm tərəfdarları təcrübi elmlərin tələblərinə cavab verməyən yoxlamanı elmi və mötəbər hesab etmirlər! Onlara görə, bilik əldə etməyin yeganə yolu duyğu orqanları ilə (təcrübədə) yoxlamaqdır. Onlar aşağıdakı iddia ilə sözə başlayırlar: "Mötəbərliyi duyğu orqanları ilə təcrübədə isbatlanmayan bilik elmi deyildir". Daha sonra deyirlər: "Mövcudluğu təcrübədə isbatlanmayan şey gerçəklikdə mövcud deyildir!" Halbuki bu alimlərin özləri mötəbərliyi təcrübədə isbatlana bilməyən bir sıra nəzəriyyə və ideyalarında yuxarıdakı şərtə əməl etmirlər! Həmin nəzəriyyə və ideyaların bəzisi məntiqə sığmır, ağlabatan deyildir, sağlam zövqün məhsulu ola bilməz! Amma bu nəzəriyyələr ateist düşüncəni möhkəmlətdiyi üçün elmi hesab olunur! Freydin yuxu yozumu ilə əlaqəli seksuallıq nəzəriyyəsi, uşaqlar və körpələrin seksual(!) davranışlarına dair fikirləri buna misaldır.

Bu baxımdan böyük tədqiqatçılar, empiriklər, bihevioristlər yuxuların spiritual aspektini, proqnozlaşdırıcı (gələcəkdən xəbər vermə) xüsusiyyətini inkar edirlər. Onlar iddia edirlər ki, yuxugörmə yatan şəxsin beyninin müxtəlif yerlərində tam təsadüflə baş verən kimyəvi-elektrik impulslarından başqa bir şey deyildir; beyin bu impulsları bizi dağınıq xatirələrin səbəb olduğu çaşqınlıqdan xilas edəcək şəkildə təsvir etməyə çalışır. Tutaq ki, yatmış şəx-

[1] İnternet saytlarında bu cür əhvalatlar geniş yayılıb. Misal üçün bax: Əhməd ibn Hamid əl-Qamidi. Alimlərin gördükləri yuxuların izahı // Ərəb Elmi Cəmiyyəti Assosiasiyasının rəsmi saytı: 0- 8- .https://arsco.org/article-detail-688

sin beyninin onun dostlarından biri ilə əlaqəli yerində – yaddaş payında neyron impulsu yaranır və bu, yaddaşda quduz köpəklə əlaqəli digər sinir fəaliyyətinə təsadüf edir. Belə olduqda beyin məlumatları toplayır və şəxs yuxusunda görür ki, dostu it kimi hürür! Bu nəzəriyyəyə görə, yuxular beyindəki fizioloji proseslərin nəticəsində yaranır; yuxudakı məna, yaxud onun bizə vermək istədiyi mesajlara dair yozumlar əsassız olub gerçək deyildir. Materialistlər "aktivləşdirmə-sintez hipotezi" (activation-synthesis hypothesis) adlandırdıqları bu nəzəriyyəni alqışlayırlar, çünki bu nəzəriyyə onların materialist təsəvvürləri ilə üst-üstə düşür. Madam ki belə bir nəzəriyyə mövcuddur, onda yuxuların mahiyyəti ilə əlaqəli mürəkkəb suallara cavab tapmağa, yaxud yuxuların spiritual aspektinə dair təqdim edilən çoxsaylı dəlillərlə "məşğul olmağa" ehtiyac qalmır.

Psixoloqlara daha çox Freydin nəzəriyyəsi təsir göstərmişdir. Bu nəzəriyyə insanın bütün fəaliyyətini seksual aspektdə izah etməklə səhvə yol versə də, yuxunun mahiyyətinə, onlardakı gizli və rəmzi mənalara dair mühüm sualları cavablandıran, ilk baxışdan mükəmməl görünən nöqteyi-nəzər təqdim edir. Burada Freydin psixoanaliz nəzəriyyəsi haqqında təfsilatı ilə danışmayacağıq, istəyənlər onun "Yuxuların izahı" kitabını oxuya bilərlər. Oxucuya, xüsusən tələbələrə Freydin yuxulara dair düşüncələrini sadə dildə izah etmək istəyirik. Çünki Freydin nəzəriyyələri tələbələrə "isbatlanmış elmi gerçəklik" kimi öyrədilir.

Freyd bu cür düşüncələrini XIX əsrin sonlarında dilə gətirmiş, 1900-cü ildə çap edilmiş "Yuxuların izahı" kitabında toplamışdır. Onun nəzəriyyəsi iki səbəbdən qərbli psixoloqların, Avropa xalqlarının rəğbətini qazanmışdır. Birincisi, Freydin nəzəriyyələri dünyəvi-liberal təfəkkü-

rün, ələlxüsus da seksual inqilabın zəfər çalması üçün ən münasib sayılan bir dövrdə meydana çıxmışdı. Avropa Kilsə ilə mübarizədə yenicə qələbə çalmış, onun hər şeyə puritan nəzarəti ifadə edən, cinsi instinktləri boğan təlimlərini qüvvədən salmışdı. Kilsənin qaranlıq keçmişində İnkvizisiya məhkəmələri deyilən kabus vardı və Avropa bu məhkəmələrdə yüz minlərlə insanın məhv edildiyini öz gözləri ilə görmüşdü. Qurbanların əksəriyyəti şeytanla cinsi əlaqədə ittiham edilən qadınlar idi! Kilsə məğlub edildikdən sonra yaranan boşluğu dolduracaq azad düşüncəyə Avropanın ehtiyacı vardı. Avropalılar allahsız din rolunu oynayacaq azad düşüncə axtarışında idilər. Freydin psixoanaliz təlimi ateist təfəkkürün köməyi ilə bu boşluğu doldurmaq üçün meydana çıxacaqdı.

İkinci səbəb bu idi ki, Freyd öz nəzəriyyələrini insanlara tanış ideya və təsəvvürlər əsasında qurmuşdu. Sonradan isə bu təsəvvürləri mənəvi-əxlaqi və dini məzmundan uzaqlaşdırmış, cinsi instinktlərin şüurlu surətdə, yaxud təhtəlşüurda davranışları tənzimləməsi ilə əlaqəli iddialarını da əlavə etməklə yenidən formalaşdırmışdı. Davranışlara təsir edən bişüur istəklərin mövcudluğu, yəni bu gün "təhtəlşüur" (şüuraltı) adlandırdığımız şey haqqında Freyddən hələ çox əvvəl bəzi alim və filosoflar tərəfindən söz açılmışdır. Freyd də bu anlayışı qəbul etmiş, nəzəriyyələrinin bazası halına gətirmiş, mənəvi-əxlaqi aspektlərindən təcrid edərək yenidən formalaşdırmışdı. Freydin yaradıcılığında təhtəlşüur anlayışı bütünlükdə cinsi instinkt məzmunu kəsb etmişdir. O iddia edirdi ki, təhtəlşüurdakı cinsi istəklər beşikdən qəbirədək bütün davranışlarımıza istiqamət verir.

Freyd yuxulara münasibətdə də eyni mövqedən çıxış etmişdir. İnsanlar ta qədimdən yuxuların bizə müəyyən mesajları çatdırmaq istədiyinə inanmışlar. Bu mesajlar

bəzən rəmzi formada ola bilir. Bir sözlə, yuxuların rəmzi mesajlar daşıması keçmişdə və indi insanların qəbul etdiyi məsələdir. Freyd də yuxuların yuxu görən şəxs üçün rəmzi mesajlar daşıdığını qəbul edirdi. Əslində, bu təsdiq onun seksual iddialarına keçid platforması rolunu oynayacaqdı.

Freyd yuxulardakı rəmzi mesajları bir şeylə izah edirdi: yuxular təhtəlşüurda basdırılmış azğın cinsi istəkləri gerçəkləşdirmək cəhdidir. Ona görə ki, biz şüurlu vəziyyətdə cinsi istəklərimizi əxlaqi kimliyimiz və ideallarımıza görə həyata keçirə bilmirik. Freyd iddia edirdi ki, yuxuya getdiyimizdə eqomuz, yəni özümüzə və ətrafa şüurlu münasibətimiz zəifləyir; həmçinin yatarkən əxlaqın çağırışlarına, "İdeal Mən" ilə əlaqəli təsəvvürlərimizi formalaşdıran motivlərə şüurlu münasibət bəsləyə bilmir, vicdan (super eqo – fövqəlmən) əzabı qorxusundan azad oluruq; ya da bu motiv və çağırışlar öz təsirini böyük ölçüdə itirir. Nəticədə Onda[1] basdırılmış xəyallar öz cinsi çağırışlarını ifadə etmək imkanı qazanır. Amma biz yuxuda əxlaqımız və inancımıza tərs düşən şeylərə nəzarəti tam itirmirik, sadəcə olaraq, bu nəzarət böyük ölçüdə zəifləyir. Odur ki yuxuda cinsi istəklərin ifadə edilməsi bizi narahat etməyəcək şəkildə rəmzi formada baş verir.

Bütün yuxuların təhtəlşüurdakı cinsi istəkləri ifadə etdiyini deyən Freyd bildirirdi ki, yuxudakı hər şey bu cinsi istəklərin simvollaşdırılmış təzahüründən başqa bir şey deyildir. Məsələyə əxlaqsızcasına yanaşdığından Freyd yuxuda görülən adi predmetlərin seksual simvollar kimi izah edildiyi siyahı hazırlamışdı. Məsələn, o iddia edirdi ki, qələm, siqar və ilan kimi silindr formalı predmetlər, sürüşkən, sivri şeylər, tüfəng və tapança kimi mərmi atmaq

[1] "O" – Freydə görə insan şəxsiyyətini təşkil edən üç hissədən (id, eqo və supereqo) biri; id, heyvani, bioloji öz. – ***tərcüməçinin qeydi.***

üçün istifadə edilən vasitələr, yaxud burğu kimi dəlici əşyalar kişi cinsiyyət orqanının rəmzi ifadəsidir. Dairəvi və ya boş predmetlər (sandıq, otaq, qablar) isə qadın cinsiyyət üzvünü bildirir.

Freyd yuxulara seksual məna kəsb etdirməklə kifayətlənməmiş, uşaqların davranışlarını, valideynləri ilə əlaqələrini də belə murdar məzmunla kirləməyə cəsarət etmişdir. Freyd iddia edirdi ki, hər bir uşaqda Edip kompleksi özünü göstərir. Belə ki oğlan uşağı anasına seksual cəhətdən meyl edir, anasını atasına qısqanır, sonuncuya rəqib gözü ilə baxaraq nifrət bəsləyir. Qızlar isə Elektra kompleksinin təsiri ilə atalarına meyl edir, atalarını analarına qısqanaraq sonuncuya nifrət edirlər.

Freyd bu komplekslərə ad verərkən yunan mifologiyasına aid obrazlardan istifadə etmişdi. O bu kompleksləri insanlardakı psixoloji xəstəliklərin əsas səbəbi hesab edirdi. İddia edirdi ki, uşaqlıq dövrünün seksual duyğuları, fərqinə varmasaq da, boğulmuş vəziyyətdə qalır, izləri itmir, unudulmur. Yuxuya getdiyimizdə özünənəzarət zəiflədiyi üçün həmin istəklər rəmzi formada özünü büruzə verir.

Psixoloqlardan biri bu iddianı belə izah edir: "Yuxuda görsən ki, südlük inəyə saman verirsən, bil ki, inək sənin ananın rəmzi ifadəsidir; inəyə saman verməyin isə uşaqlığında anana qarşı seksual hisslər bəsləməyini simvolizə edir".

İstəyənlər Freydin əsərlərinə, tərəfdarlarının ilk nəslinin yazılarına baxa bilərlər. Bu əsərlər məntiqə və anadangəlmə mənəviyyata zidd təhlillərlə doludur.

Bütün iyrənc yuxularımızın təhtəlşüurumuzda boğulmuş cinsi istəklərimizin rəmzi ifadəsi olduğunu demək yanlış ümumiləşdirmədir. Belə ümumiləşdirməni əxlaq və ideallarımızla üst-üstə düşməyən aşkar seksual məzmunlu

yuxularımız inkar edir. Ən iyrənc günahları etdiyimiz şeytancasına yuxuları nə üçün görürük?! Daxili nəzarət (senzura) potensialımız belə iyrənc, əxlaqsız yuxuların, hətta simvolik ifadə edilməsinin qarşısını almalı deyildimi?!

Bununla yanaşı, əgər yuxularımız təhtəlşüurda boğulmuş cinsi istəklərin rəmzi ifadəsi olsaydı, onda biz gündəlik həyatımıza aid istənilən şeyi yuxularımızda "məsumanə" şəkildə – olduğu kimi görə bilməzdik. Məsələn, bir şəxs işdən evə qayıdarkən yolda otlayan inək görür. Freydin dediyindən belə çıxır ki, bu şəxs anasına qarşı təhtəlşüurunda boğduğu cinsi istəyin təsiri olmadan yuxusunda inək görə bilməz! Halbuki təcrübə göstərmişdir ki, yuxuda gördüyümüz şeylərin çoxu əvvəlki gün yaşadığımız təcrübələrin ifadəsidir. Belə "təcrübi" yuxuların sayəsində gündəlik fəaliyyətə dair xatirələr yadda qalır, qısamüddətli yaddaşdan uzunmüddətli yaddaşa ötürülür. Bu baxımdan biz boğulmuş cinsi istək nəzəriyyəsini gündüzləri kəsimdən qabaq inəkləri yoxlayan baytara, yaxud mal-qaranın qeydinə qalan çobana tətbiq edə bilərikmi? İnəklərdən danışmışkən, keçən fəsildə dediyimizi bir daha təkrarlayırıq: məşhur fizik Albert Eynşteyn Nisbilik nəzəriyyəsini gəncliyində gördüyü yuxudan ilhamlanaraq kəşf etmişdir. Yuxusunda görmüşdü ki, sahədə inəklər elektrik verilmiş məftillərdən qaçır və dalı-dalı yeriyirlər.

Yeri gəlmişkən, deyək ki, elə biz də cinsiyyət üzvlərinin xalqa məlum adlarını tələffüz etməmək üçün rəmzi adlardan istifadə edirik. Məsələn, bəzi yerlərdə balaca oğlan uşaqlarının cinsiyyət orqanı haqqında "göyərçin" sözü işlədilir. Yuxuda göyərçin gördüyümüzdə mürəkkəb psixoanaliz təhlilləri olmadan o nəticəyə gələcəyik ki, bunun müəyyən qədər seksual tərəfi vardır.

Freydin yuxu yozumu təlimini izah edərkən bu qədər uzunçuluğa yol verməyimiz, əlbəttə ki, əsassız deyildir.

Axı Qərbdə psixologiya kitablarının müəllifləri bu təlimə əsaslanır, ərəb-müsəlman psixoloqları onu tənqid və təftiş süzgəcindən keçirmədən əxz edir, tələbələrinə danılmaz həqiqət olaraq öyrədirlər. Dini anlayışları bir kənara atdıqdan sonra qərbli psixoloqların yuxu hadisəsini aktivləşdirmə və sintez nəzəriyyəsi, eləcə də Freyd təlimi əsasında izah etməkdən başqa seçimləri qalmayıb. Bundan əvvəl qeyd etmişdik ki, aktivləşdirmə və sintez nəzəriyyəsi yuxuların mənası və əhəmiyyətini inkar edir; bu nəzəriyyənin tərəfdarları bildirirlər ki, yuxu beyində qarmaqarışıq şəkildə baş verən sinir impulslarının meydana çıxardığı şeydir. Onu da deyək ki, bu nəzəriyyə yuxuların gələcəkdən xəbər vermə xüsusiyyətini, qeyri-adi hadisələrlə əlaqəsini isbatlayan arqumentlərin (faktların) çoxalması ilə təsir gücünü itirmiş, meydanda təkcə Freyd təlimi qalmışdır. Təəssüf ki, Yunq və digər psixoloqların nəzəriyyələri Freydin təlimi qədər məşhurlaşa bilməyib. Maraqlıdır ki, Amerika və Avropada çap olunmuş psixologiya kitablarında Freydin yuxu yozumu təlimi mütləq həqiqət olaraq qəbul edilsə də, psixoanaliz metodu digər tətbiq sahələrində işə yaramadığı üçün amansız hücuma məruz qalır. Halbuki Freydin yuxuların yozumuna dair təsəvvürləri psixoanaliz təliminə əsaslanır.

Əvvəlki fəsildə qeyd etmişdik ki, son illərdə Freyd və psixoanaliz üsulunun ulduzu getdikcə sönür. Bir sıra araşdırmalar göstərmişdir ki, bu üsul psixoterapiyada effektiv deyildir. Psixologiya elminin tarixini öyrənən mütəxəssislər Freydin psixoanaliz sahəsində əldə etdiyi "nailiyyət"ləri, təcrübədə və sağlam məntiq tərəfindən təsdiqlənməyən iddialarını bir daha nəzərdən keçirməli olmuşlar. İş o yerə çatmışdır ki, bəzi müəlliflər Freydi fırıldaq və yalançılıqda təqsirləndirmişdir. Onlar Freydin kokain asılılığından əziyyət çəkdiyini bildirirdilər. Məsələn, avropalı tədqiqat-

çı Elizabet Tornton məşhur "Freyd və kokain: Freydin yanılması" kitabında inandırıcı şəkildə sübut etmişdi ki, Freyd cinsi instinktlərin davranışlara təsiri mövzusunu işləyərkən kokainin təsiri altında olmuşdur.

Bütün bunlara baxmayaraq, Freydin yuxu yozumu təlimi psixologiya kitabları müəlliflərinin və Avropa insanının rəğbətini qazanıb. Bu təlim Qərb insanının zövqünə uyğun olub cəlbedicidir, yuxuları seksuallıq cəhətdən izah etdiyi üçün qərblilərin marağına səbəb olmuşdur. Adler, Yunq və digər böyük psixoloqlar alternativ təlim yarada bilmədiklərindən avropalılar seçim qarşısında qalmışdılar: ya Freydin ideyalarını qəbul edəcək, ya da yuxuların ənənəvi – mənəvi-telepatik izahı ilə razılaşacaqdılar. İkincini seçmək tədricən dini təfəkkürə geri qayıtmaq mənasına gəlirdi. Odur ki Freydin təliminə üstünlük verdilər! Nöqsanlarına baxmayaraq, Freyd təlimini mənimsəyən belə kortəbii təfəkkürü, ola bilsin, məsələyə bu sayaq münasibət meydana çıxarıb. Təki başqa təlimlərə müraciət edilməsin! Eyni təfəkkür aşkar çatışmazlıqları olan Darvin nəzəriyyəsini də mənimsəmişdir! Çünki bu nəzəriyyənin alternativi yaradıcı tanrı anlayışını qəbul etməkdir.

Qərb mədəniyyətində yuxuların dini-mənəvi izahını inkar edən təfəkkür avropalıların Orta əsr katolikliyinə, ruhani sinfinin özbaşınalığına qarşı etdikləri inqilabdan sonra dünyəvi din halını alaraq möhkəmlənmiş təfəkkürün özü idi. Sərt düşüncə və inancın nəzarətində inləyən insanların edəcəyi iş əks ekstremist düşüncəni mənimsəmək olacaqdı. Onlar sərt düşüncə tərzini əks sərt düşüncə tərzi ilə rədd etmişdilər.

Bu deyilənlər avropalı təfəkkürünün şeylərin spiritual izahından iyrənməsinə, alternativ şərhləri alqışlamasına ictimai-mədəni cəhətdən aydınlıq gətirir. Bütün bunlar tarixi-ideoloji səbəblərdir. Elə isə nə gəlib ki, müsəlman

psixoloqları, psixologiya professorları Qərbin bu fikirlərini məntiqi və əxlaqi meyarlara təhkim etmədən məqbul sayırlar?! Axı islam tarixində dinlə elmin konfliktinə rast gəlinmir; üstəlik, bu din çiçəkləndiyi əsrlərdə nəzəri və təcrübi elmləri öyrənsinlər deyə avropalıların gözlərini açmışdır.

Yuxular və təsnifatına dair islam nöqteyi-nəzəri

İslam yuxu mövzusuna böyük əhəmiyyət verir. Yuxuların mahiyyəti və növlərinə dair islam nöqteyi-nəzərini hansı isə alim deyil, ən ali istinad-mənbə – "kefi istəyəni (havadan) danışmayan" Peyğəmbər irəli sürmüşdür. Buxarinin Əbu Hüreyrəyə istinadən rəvayət etdiyi hədisdə Peyğəmbər demişdir: "Yuxular üç (növdür): "Allahdan müjdə (yuxular); Özün danışığı (sayılan yuxular); şeytandan gələn qorxulu (yuxular)"[1].

Əvvəlcə, "Özün danışığı" sayılan yuxulardan danışaq. Bundan əvvəl yuxuların bu növünə qısa şəkildə toxunmuşduq.

Yuxarıdakı hədisin digər versiyasında oxuyuruq: "Yuxular üç (növdür): "insan oğlunu qəmə batırmaq üçün şeytandan gələn qorxulu (yuxular); ayıq ikən insanı maraqlandıran şeylərə dair (yuxular); peyğəmbərliyin qırx altıda biri sayılan (yuxular)"[2].

Bu hədisdə Peyğəmbər "Özün danışığı" sayılan yuxuları "ayıq ikən insanı maraqlandıran şeylərin yuxuda görülməsi" kimi izah edir. Bizi ayıq ikən maraqlandıran

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 7017, səh. 1341.
[2] Əbu Abdullah Məhəmməd ibn Yezid ibn Macə. Sünən İbn Macə. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999, hədis № 3907, səh. 419.

şeylərə xatirələrimiz, arzularımız, qorxularımız, istədiyimiz və nifrət etdiyimiz şeylər, gündəlik adi hallar, qeyri-adi vəziyyətlər və sair daxildir. Yuxarıda qeyd etdiyimiz kimi, yuxuların bir hissəsi gündəlik təcrübə və hadisələrlə əlaqəlidir. Bu, hər kəsə məlum, həm də təcrübi araşdırmaların sübut etdiyi məsələdir. Ayıq ikən bizi maraqlandıran şeylərə həm də cinsi istəklə bağlı, bioloji və psixoloji məsələlər daxildir. Həmçinin cinsi istək ayıq ikən insanı maraqlandıran yeganə şey deyildir ki, Freydin iddia etdiyi kimi, yuxuları yeganə tənzimləyicisi rolunu oynasın.

İkinci və üçüncü növə isə rəmzi və spiritual aspekti olan yuxular daxildir. Bu iki növ yuxuları izah etmək üçün oxucuya indiki dövrdən misal çəkmək istəyirik. Yaşadığımız dövrdə ötürücü stansiyalardan çıxan dalğalar televiziya qurğuları vasitəsilə qəbul edilir. Elə dalğalar vardır ki, özü ilə "yaxşı" informasiya daşıyır; bunlar, məsələn, Qurani-Kərim qiraətini, yaxşı işlər görməyə təşviq edən məlumatları "daşıyan" dalğalardır. Əxlaqsızlıq, homoseksuallıq, yalan təbliğ edən informasiyanın ötürüldüyü dalğalar da vardır. Həmçinin dünyamızda mələklər, yaxşı və pis ruhlar, cinlər və şeytanlar qaynaşır. Uca Allah bizdə həm ayıq ikən, həm də yuxuda yaxşı, yaxud pis "mesaj"ları qəbul edə biləcək qəlb yaratmışdır. Bundan əvvəl qeyd etdiyimiz kimi, qəlblər "lokator" rolunu oynayır.

Müxtəlifliyi, növbənövlüyü, əksliyi Allah yaratmışdır. Allah gündüzün əksi kimi gecəni, bədbəxtliyin əksi kimi xoşbəxtliyi, şərin əksi kimi xeyri, qadının əksi kimi kişini, cinin əksi kimi insanı yaratmışdır. O, hər şeydən bir-birinə əks iki növ meydana gətirmişdir. Uca və Pak Allah buyurur:

"Biz hər şeydən cüt-cüt yaratdıq. Bəlkə, bir düşünüb ibrət alasınız!" (əz-Zariyat, 49).

Yatdığımızda şüurun təsir qüvvəsi azalır və Allah ruhumuza Özünün mənəvi aləmində "seyrə çıxmaq" icazəsi verir. Yuxularımız ya mələklərin – yaxşı mücərrəd varlıqların, ya da cinlər və şeytanların – pis varlıqların təsiri ilə formalaşır. Şər ruhların təsiri ilə bizi qəm-qüssəyə batıran, narahat edən yuxular görürük. Məsələn, yuxuda görürük ki, şalvar geyinmədən küçədə adamların arasında gəzir, yaxud nalayiq hərəkətlərə yol veririk. Peyğəmbər bu yuxuları: "insan oğlunu qəmə batırmaq üçün şeytandan gələn qorxulu (yuxular); "şəxslə şeytanın oynadığı yuxular", – deyə təsvir etmişdir. Hədisdə deyilir ki, bir bədəvi yuxuda başının kəsildiyini, bədəninin başının arxasınca getdiyini görür. Gələrək yuxusunu yozar deyə Peyğəmbərə danışır. Amma Peyğəmbər onu məzəmmətləyərək deyir: "Şeytanın yuxuda sənin lə oynadığını kimsə danışma!"[1]

Deməli, ya gündəlik fəaliyyətimizin, bizi maraqlandıran şeylərin, ya da şeytanların, şər ruhların səbəb olduğu yuxular vardır. Üçüncü növ yuxular sevinc aşılayan, müjdələyən, nədənsə xəbər verən yuxulardır. Yatağımızdayıq, amma gələcəkdə baş verən hadisələr haqqında yuxu görürük. Peyğəmbər bu cür yuxuları Allahdan gələn, Allahın müjdəsini ifadə edən yuxular adlandırmışdır. Pak könüllər (itaətkar qəlblər) möminin mənəvi əlamətləri "hissetmə" bacarığı (mənəvi lokator) ilə bütünləşdikdə yuxular dəqiqliyinə görə peyğəmbərlərə gələn vəhyi xatırladır. Əlbəttə ki, peyğəmbərlərlə Allah dostları arasındakı böyük fərqi diqqətdən qaçırmamalıyıq.

Bu səbəbdən Peyğəmbər çin çıxan yuxuları peyğəmbərliyin qırx altıda biri adlandırmışdır[2]. Belə ki o, bəzi sə-

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 2268, səh. 932.

[2] Bax: Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 7017,

habələrin gördüyü oxşar yuxular əsasında müəyyən dini qərarlar çıxarmışdır.

Məsələn, İmam Əhməd, Tirmizi və İbn Macə rəvayət edirlər ki, Peyğəmbər əvvəllər müsəlmanları məsciddə namaz qılmağa xristianların zəngi ilə çağırmaq istəyirmiş. Səhabələrdən Abdullah ibn Zeyd yuxuda görür ki, bir şəxs əlində zəng tutub. Abdullah ondan zəngi almaq istədikdə şəxs deyir: "Bundan daha yaxşısını sənə deyimmi?"[1] Bundan sonra ona bugünədək gəlib çatmış azan sözlərini oxuyur. Ömər ibn əl-Xəttabın da oxşar yuxunu görməsi nəticəsində Peyğəmbər namaza azan vasitəsilə çağırılmasını əmr edir.

İslamda müsbət yuxuların mühümlüyünü göstərən digər misala baxaq. Belə ki Peyğəmbərin xəlifəsi Əbubəkr əs-Siddiq səhabələrdən birinin yuxusuna görə şəhid vəsiyyətini yerinə yetiribmiş. Bu, yuxu əsasında vəsiyyətin yerinə yetirilməsi ilə əlaqəli ilk hal idi. Səhabələrdən Qeys ibn Sabit dönüklərlə müharibədə şəhid düşmüşdü. Şəhid olduğu günün gecəsi səhabələrdən birinin yuxusuna girib deyir: "Nəbadə gördüyünü adi yuxu sanasan! Bu sənə vəsiyyətimdir, onu müsəlman ordusunun başçısı Xalid ibn Vəlidə çatdır. Cəsədimin yanından müsəlmanlardan bir kişi keçirdi, əynimdəki zirehi çıxarıb evindəki güvəcin altında gizlədib". Bundan sonra evin yerini təsvir edib deyir ki, Xalid ibn Vəliddən zirehi gedib götürəcək adam göndərməsini, xəlifə Əbubəkrdən də onu satıb borcunu ödəməsini istəsin. Xalidin göndərdiyi səhabə yuxuda təsvir edilən yerə gedərək zirehi tapır, Xalid də zirehi Əbu-

---

səh. 1341.

[1] Əbu İsa ibn Məhəmməd ibn İsa ibn Sövrə ət-Tirmizi. Came ət-Tirmizi. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999, hədis № 190, səh. 50; Əbu Abdullah Məhəmməd ibn Yezid ibn Macə. Sünən İbn Macə. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999, hədis № 706, səh. 86.

bəkr əs-Siddiqə göndərir. Əbubəkr də şəhidin vəsiyyətini yerinə yetirir[1].

Əgər adi müsəlmanların yuxusu bu cürdürsə, onda peyğəmbərlərin yuxularına nə deyəsən?! Onlar həm ayıq ikən, həm də yuxuda günah işləməzlər; pis ruhlar peyğəmbərlərin yuxularını nəinki formalaşdırmağa, heç onlara yaxınlaşmağa cəsarət etmirlər. Peyğəmbərlərin yuxuları Allahın "əsgərlər"i tərəfindən qorunur, çünki yuxu vəhyalma vasitələrindən biridir.

Qoy oxucu Freydin yuxulara dair izahlarını, cinsi istək məzmunlu iddialarını Peyğəmbərin yuxuları təsnif etməsi ilə, müəyyən növ yuxulara yüklədiyi ülvi məzmunla müqayisə etsin.

Allahın Yusif peyğəmbər üçün münasib irsiyyət və mühit seçməsi haqqında

Bu paraqrafda düşüncələr bizi Həzrət Məhəmmədin "ən hörmətli" – deyə təsvir etdiyi bir peyğəmbərə aparıb çıxarır. Hədislərin birində oxuyuruq ki, Peyğəmbər Həzrət Yusif haqqında deyibmiş: "Hörmətlinin oğlu hörmətlinin oğlu hörmətlinin oğlu hörmətli, İbrahimin oğlu İshaqın oğlu Yaqubun oğlu Yusif!"[2]

Hədisin başqa versiyasında deyilir: "Ən hörmətli insan Allahın peyğəmbəri Yusifdir! O, Allahın dostunun oğlu, peyğəmbər oğlu peyğəmbərin oğludur!"[3]

---

[1] Həmçinin bax: Şəmsəddin Məhəmməd ibn Əhməd ibn Osman əz-Zəhəbi. Siyər ə`lam ən-nübəla // araşdırıb çap edən: Şüeyb əl-Ərnəut. Beyrut: "Müəssisə ər-risalə", 1982, I cild, səh. 311.

[2] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3382, səh. 648.

[3] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3353, səh. 641.

Ola bilsin, Allah Yusifə bir çox peyğəmbərə verdiyi qədər mənəvi gen bəxş etmişdi. Bəlkə də, atası və babalarına verilmiş bütün mənəvi genlər onda toplanmışdı. Nəticədə zərifliyi və gözəlliyində mələklərə oxşamışdı. Qadınların onu gördükdə məftun olmaları da deyilənləri təsdiqləyir:

"(Qadınlar Yusifi) gördükdə (gözəlliyinə heyran olub) onu həddindən artıq təriflədilər və (özlərini itirib əllərindəki turuncun qabığını soymaq əvəzinə) əllərini kəsdilər. Onlar: "Aman Allah! Bu ki bəşər deyildir! Bu ancaq (Allah yanında) möhtərəm (əziz) olan bir mələkdir!" – dedilər" (Yusif, 31).

Vəzifələrinin öhdəsindən gəlmək, müsibətlərə sinə gərmək üçün peyğəmbərlərin şəxsiyyətinin Allah tərəfindən formalaşdırılmasına fikir verin! Eyniadlı surədən məlum olur ki, Yusif onu incitməyə və öldürməyə, narahat etməyə çalışanlarla olduqca nəzakətli və səbirli davranır, könül qıracaq sözlər danışmırdı.

Fikrimizcə, Yusifin imtahanı ağır olmuşdur, çünki həm simaca yaraşıqlı, həm də nəzakətli və mehriban idi.

Yusif peyğəmbərin yerində Musa peyğəmbər olsaydı, nə baş verərdi? Təsəvvür edin ki, Yusif deyil, Musa qardaşlarının zülmünə, sui-qəsd cəhdinə məruz qalır və qardaşları illər sonra hökmdar ikən onun yanına miskin vəziyyətdə gəlirlər. Həmin vaxt Musanın necə davranacağını təxmin etmək çətin deyildir. Yaxud Misir əyanının arvadı Yusifi deyil, Musanı bağlı otağa salıb: "Gəl!" – desəydi, Musanın buna reaksiyası necə olardı? Şübhə yox ki, emosional və coşqun xarakteri üzündən qadına ya şillə vurar, ya da misirlidə olduğu kimi ona da yumruqla zərbə endirib həyatına son qoyardı.

Yusifin birinci yuxusuna dair mülahizələr

"Yusif" surəsində dörd yuxu faktından təfsilatı ilə söz açılır. Yusifin zindan yoldaşının yuxusundan isə ətraflı danışılmır. Birincisi Yusifin uşaqlığında gördüyü yuxudur:

"Bir zaman Yusif atasına demişdir: "Atacan! Mən (yuxuda) on bir ulduz və Günəşlə ayı gördüm. Gördüm ki, onlar mənə səcdə (təzim) edirlər" (Yusif, 4).

Cansız əşyanın insana səcdə etməsi nə mənaya gəlir? Yaşının azlığına baxmayaraq, Yusif yuxusunu başa düşə bilmişdi. Bəlkə də, yuxuda Yusifə nə isə deyilibmiş, amma Quran bu barədə heç nə demir.

Bu yuxunu görərkən Yusif neçə yaşında olmuşdur? Müfəssirlər onun 7, 9, yaxud 12 yaşında olduğunu deyirlər. Biz qardaşlarının Yusifi meşəyə aparmaq üçün atalarını razı salmalarından bəhs edən əhvalatı təhlil etdikdə görürük ki, Yusif 5-6 yaşlı uşaq imiş. Aşağıdakı ayələrə nəzər salaq:

"Onlar dedilər: "Ata! Biz Yusifin xeyirxahları olduğumuz halda, sən nə üçün onu bizə etibar etmirsən?

Sabah onu bizimlə birlikdə (çölə gəzməyə) göndər, qoy oynayıb əylənsin, atılıb-düşsün. Biz onu mütləq qoruyacağıq!" (Yusif, 11-12).

On iki yaşlı bir gənc "atılıb-düşməyi", "qaçışıb-ötüşən qardaşlarının əşyalarının keşiyini çəkməyi" qəbul etməz, əksinə, onlarla yarışa qoşulardı. Əgər o, yeniyetməlik yaşında olsaydı, qardaşları Yaquba onun canavar tərəfindən bütünlükdə yeyilməsi yalanını uydurmazdılar. On iki-on üç yaşlı gənci canavar bir dəfəyə yeyə bilməzdi; o, daş atmaqla, çomaqla canavara müqavimət göstərə bilərdi.

Quranda deyilir ki, Yaqub oğlu Yusifə yuxusunu paxıllıq edərlər deyə qardaşlarına danışmamağı tapşırır. Bu fakt bizdə belə fikir yaradır ki, peyğəmbərlərin evində yuxulara əhəmiyyət verilmişdir. Adi ailədə azyaşlı uşaq yuxusunda ulduzlar və Ayın ona səcdə etdiyini görsəydi, eşidənlər, bəlkə də, ona gülərdilər. Amma Yusifin qardaşları oğlunu kəsməyi əmr edən yuxuya görə vəhyə boyun əyən İbrahimin nəslindən idilər.

Yusifin yuxusu Allahın müjdəsi idi; xəbər tutsaydılar, qardaşlarının içinə kin dolar və onlar Yusifə qarşı tədbir tökərdilər. Barəsində danışdığımız mənəvi genlər sayəsində qardaşları yuxuda Yusifə verilən mesajı anlayacaqdılar. Bu qardaşlar bədniyyətli və bədəməl olsalar da, peyğəmbərlərin nəslindən çıxmışdılar, bəlkə də, onları ilhamlı şəxslərə çevirmiş mənəvi genlərə sahib idilər. Dediyimiz kimi, bu cür "vergi" mütləq mənada dindarlıqla əlaqəli deyildir. Yuxudan xəbər tutsaydılar, qardaşları belə irsi "vergi"nin sayəsində Yusifi onlardan üstün edən cəhətləri görə bilərdilər.

Qardaşlarının quyuya atmağı planlaşdırdıqları balaca Yusif haqqında düşünək. Yusif müqavimət göstərəcək, yaxud sürətlə qaçacaq, ya da quyudan öz gücü ilə çıxacaq yaşda deyildi. Bəlkə də, Yusif ağlamış, qardaşlarına yalvarmışdı, amma onlar onu zorla aparıb quyuya atmışdılar. Yusifin təsəlli verəcək kimsələrə çox ehtiyacı vardı:

"(Qardaşları) onu (Yusifi) götürüb (çölə) apararkən onu quyuya atmaq üçün sözü bir yerə qoydular. Biz (Yusifə): "Sən (bir vaxt) onlara (qardaşlarına) özlərinin bu işi barəsində heç gözləmədikləri (səni tanımadıqları) halda xəbər verəcəksən!" – deyə vəhy etdik" (Yusif, 15).

Quyuda Yusifə köməyin gələcəyini müjdə verən vəhy necə nazil olmuşdu? Azyaşlı uşağa bu müjdə vəhylə bildirilmişdimi? Bəzi müfəssirlərə görə, vəhy Yusifə o qorxulu

quyunun qaranlığında ikən yuxuda gəlmişdi. Əgər belədirsə, onda surədə dörd yuxu hadisəsindən danışılır, əks halda, bu rəqəm üçdür.

Yusifin paytaxta aparılmasındakı ilahi hikmət

Yoldan keçən karvanın suçusu gəlib quyuya teşti salladıqda Yusif teştdən yapışmış, suçu qışqırıb demişdi: "Müjdə! Bu bir oğlandır!" (Yusif, 19). Bundan sonra Yusifi dartıb quyudan çıxarmışdı. Bəzi kitablarda deyilir ki, quyunun içi qaranlıq olduğundan teştdə nəyin olduğunu suçu bilmirdi. Kəndiri dartarkən Yusif ondan yapışıbmış. Suçu çətinlik çəkmədən qabı dartıb çıxardığından içindəkinin su, yoxsa Yusif olduğunu bilməmişdi. Bu da həmin vaxt Yusifin azyaşlı olduğuna dəlalət edir. Bu mübarək uşağın belə məşəqqətlərə məruz qalmasındakı ilahi hikmət nə idi? Əlbəttə ki, Allah onu peyğəmbər olmağa hazırlayırdı. Yusif Kənanilər yurdundakı hansı isə kəndə peyğəmbər göndərilməmişdi. Quranda deyilir ki, Uca Allah öz peyğəmbərlərini böyük şəhərlərə göndərmişdir:

"(Ya rəsulum!) Sənin rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!" (əl-Qəsəs, 59).

Yusifin dövründə Misirin paytaxtı, bəlkə də, ən böyük şəhər idi. İlahi Hikmət nəticəsində Şeytan Yusifin qardaşlarını azdırmış, onlar da onu Allahın istədiyi yerə – Misirə aparacaq şəxslərin xilas etməsi üçün quyuya atmışdılar. Uca Allah bəzən Şeytan və günahkarların əli ilə içərisində xeyir gizlənmiş işlər gördürür. İstəyənlər "Kəhf" surəsinin 62-65-ci ayələrinə baxsınlar. Həmin ayələrdə deyilir ki, Musa yanındakı oğlana özü ilə daşıdığı balığı bişirməyi

əmr edir. Amma balıq dirilərək dənizə atılır. Oğlan bunu Musaya deməli idi, amma Şeytan bunu ona unutdurur:

"Doğrusu, onu xatırlamağı mənə yalnız Şeytan unutdurdu" (əl-Kəhf, 63).

Amma balığın başına gələnlər bu səyahətdə Musanın axtardığı idi:

"(Musa:) "Elə istədiyimiz də (axtardığımız da) budur!" – dedi" (əl-Kəhf, 64).

Musa və oğlan gəldikləri yolla geri qayıtdıqda Xızırın onları gözlədiyini gördülər. Şeytan gəncə balığın dirildiyini Musaya danışmağı unutdurmuşdu. Nəticədə Musa Allahın ona əmr etdiyi yerə qayıdaraq Xızırla görüşmüşdü. Allah hər şeyə qadirdir: şər sandığımız şeydən xeyir, xeyir bildiyimizdən də şər hasilə gətirər.

Karvandakılar Yusifi Misirin paytaxtına gətirib satışa çıxardıqda kölə tacirləri onu almaq üçün basırıq salmışdılar. Bu vaxt "Əziz" ləqəbli Baş vəzir hərraca daxil olub Yusifi satın alır. Yusif olduqca yaraşıqlı idi, Baş vəzirin də uşağı olmurdu. Yusifə layiqi ilə atalıq etmiş, həyat yoldaşına demişdi: "Ona hörmət et (yaxşı bax). Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək!" Biz burada Allahın öz peyğəmbəri üçün uyğun mühiti seçməsinin şahidi oluruq. Musa kimi Yusif də uşaqlığını ona hörmət qoyanların arasında keçirmişdi. Belə ki Allah Musanın qarşısına uşağı olmayan hökmdar xanımı çıxarmışdı. Musa bu qadının həyatındakı boşluğu doldurmuş, o da Musaya bir peyğəmbərin xarakterinin formalaşması üçün zəruri sayılan sevgi və şəfqət bəxş etmişdi. Allah Təala Yusifə də oxşar tale yazmışdı: o da Misir sarayında tərbiyə almış, sosial əmin-amanlıq içərisində boya-başa çatmışdı.

Uşaqlığında Yusifin valideynlərindən məhrum edilməsindəki ilahi hikmət

Yusif hələ beş-altı yaşlarında ata qayğısı və onu tərbiyə etmiş sevimli xalasının şəfqətindən ayrı düşmüşdü. Bu işdəki İlahi Hikmət haqqında düşünək. Allah Yusifi misirlilər üçün peyğəmbər seçmişdi. Bir peyğəmbərin öz xalqının dilini bilmədən Allahın dediklərini onlara çatdırması mümkün deyildir:

"Biz hər bir peyğəmbəri yalnız öz millətinin dilində (danışan) göndərdik ki, (Allahın əmrlərini) ona izah edə bilsin. Allah istədiyi kimsəni zəlalətə salar (haqq yoldan sapdırar), istədiyini də doğru yola yönəldər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!" (İbrahim, 4).

Yusif kənanilər ölkəsinin dilində – ibranicə danışırdı, amma Baş vəzir onu saraya gətirdikdə qədim Misir dilində danışmaq ehtiyacı yarandı. Allah istəyirdi ki, Yusif misirlilərə ilahi təlimləri çatdırarkən istifadə etməli olacağı bu dili yaxşı öyrənsin. Məlum məsələdir ki, uşaqlar yeni dili tez və xüsusi bacarıqla mənimsəyir, o dilə aid səsləri düzgün tələffüz etməyi öyrənirlər. Yeniyetmə yaşına çatdıqda uşağın başqa dilə aid səsləri və sözləri düzgün tələffüz etmək bacarığı zəifləyir. Allah Yusifin Misir dilini yaxşı öyrənməsini, öz fikirlərini düzgün ifadə etməsini istəyirdi. Hər ölkədə paytaxt sakinlərinin dialekti ədəbi dilin formalaşmasında baza rolunu oynayır; digər yerlərin əhalisi öz ləhcələrində danışsalar da, paytaxtın dilinə hörmətlə yanaşırlar. İlahi Hikmətə görə, Yusif azyaşlı uşaq olmalı idi ki, ədəbi Misir dilini yaxşı öyrənə bilsin.

Analıq şəfqətindən cinsi zorakılığa doğru

Düşüncələrimiz tumurcuqdan açılmış çiçək kimi böyüyən Yusiflə davam edir. Gözəlliyi o dərəcədə artmışdı ki, analığı məftun qalaraq ondan kamını almaq istəmişdi. Amma Yusif məsum peyğəmbərlərə xas əda ilə ismətini qorumuş, ona yaxşılıq etmiş kimsənin namusunu öz namusu bilmiş, etibarlı kişilər kimi davranmışdı. Bununla da, Yusif ona şahlara layiq həyat bəxş edən Allaha ehtiramını bildirmişdi. Ayələr bizə ehtirasın gözünü kor etdiyi, yaşı və yerini unutdurduğu bir qadının tablosunu cızır. Halbuki vəzir Yusifi özünə oğul etmək üçün evə gətirdikdə bu qadının qəlbində analıq duyğusu baş qaldırmışdı. İndi isə "yox" deyərək qapıya yönələn Yusifə arxadan dəlicəsinə hücum çəkib paltarını cıran bir qadının şahidi oluruq. Quran bu hadisəni qadının Yusifə təcavüz cəhdinin kulminasiya nöqtəsi kimi təsvir edir və belə təsirli səhnəyə səbəb olmuş vəziyyəti təsəvvür etməyi bizə buraxır.

Düşüncələrimiz deyir ki, qadın hələ bu hadisədən əvvəl Yusifi dəfələrlə yoldan çıxarmağa cəhd etmişdir. Bəlkə də, bəzənib-düzənməklə, ehtiraslı qadınlara xas əda ilə Yusifi başdan eləməyə çalışmış və fikirləşmişdir ki, o, bu cür bəzənib-düzənmə qarşısında tab gətirə bilməz. Etdiklərinin faydasız olduğunu gördükdə birbaşa hücuma keçmək qərarına gəlmişdi. Bütün bunlar Yusifin yeganə imtahanı olan gözəlliyinə, incə və mehriban rəftarına görə olmuşdur. Bu bir peyğəmbərin başına gələn ən ağır imtahanlardan idi.

Maqnit effekti

Bəlkə də, Yusifin gözəlliyi və zərifliyi ona nəzər salanların könüllərini maqnit kimi cəzb edən ilahi sirlə əlaqədar idi. "Yusif" surəsində deyilir ki, vəzirin xanımı əsilzadə qadınların onu Yusifə məftun olmağına görə qınadıqlarını eşitdikdə onlara qarşı Yusifin gözəlliyi və baxanlara təsir göstərməsindən vasitə kimi istifadə etdiyi plan qurur. Çünki qadın şəxsi təcrübəsindən Allahın Yusifə bəxş etdiyi sirri müəyyən qədər hiss edirdi. O, evində boya-başa çatan bu uşağın hər gün daha da gözəlləşdiyini görürdü. Yusif yeniyetmə yaşına çatdıqda qadın hiss etmişdi ki, hisslərinə müqavimət göstərə bilmir. Odur ki onu qınayan qadınlara qarşı bir plan qurdu. Bu planın ona bəraət qazandıracağını düşünürdü.

Onları evinə qonaq çağırdı, süfrə düzdü, süfrəyə hər qadın üçün meyvə və bıçaq qoydu. Qadınlar gəlib süfrəyə əyləşdilər, meyvələri soyub yeməyə başladıqda otağa qəfildən Yusif daxil oldu:

"(Yusifə): "Onların qarşısına çıx!" – deyə əmr etdi" (Yusif, 31).

Qadınlar Yusifin heyrətamiz gözəlliyi və cazibəsinin təsirindən özlərini itirib hipnoz edilmiş şəxsin vəziyyətinə düşdülər. Bu vəziyyətdə Yusifə baxarkən meyvələri soymaqda davam edərək özləri də bilmədən, ağrı hiss etmədən əllərini kəsdilər. Hipnozçu psixoloqlara yaxşı məlumdur ki, hipnozun təsirində olan şəxsə isti əşyanın soyuq olduğunu dedikdə həmin şəxs əşyaya toxunarkən ağrı hiss etmir. Təcrübəni tərsinə apardıqda məlum olmuşdu ki, həmin şəxs soyuq əşyaya toxunduğunda əlinin yandığını bildirmişdi. Bu, psixoloqların yaxşı bacardığı bir şeydir.

Keyləşdirici dərmanlar kəşf edilməzdən qabaq cərrahlar hipnozdan istifadə edirmişlər.

Yusifin təkcə gözəlliyi bu cür təsirə malik ola bilməzdi. Əslində, bu əsrarəngizlik Yusifə Allah tərəfindən imtahanını daha da çətinləşdirmək üçün bəxş edilmişdi. Yusif digər peyğəmbərlər kimi müşriklərlə savaşmaq, əzab-əziyyət və xəstəliklərə düçar olmaqla imtahana çəkilməmişdi. Yusifin imtahanı məftun olmuş qadınlara müqavimət göstərmək, zülm etmiş şəxslərin də təqsirindən keçmək olmuşdur. Bu yerdə, bizi belə bir hiss bürüyür ki, peyğəmbər olaraq dərəcəsini yüksəltmək üçün Allah Yusifə mələksayağı əsrarəngizlik bəxş etmişdir. Və qadınlar "Bu ki bəşər deyildir. Bu ancaq möhtərəm (əziz) olan bir mələkdir!"[1] – dedikləri vaxt bir anlığına bu əsrarəngizliyin təsirində qalmışdılar.

Vəzirin arvadı qadınların əllərini kəsdiklərini gördükdə elə hiss etdi ki, ləyaqətini geri qaytarıb, odur ki cəsarətlə danışdı: "Bəli, mən onu qucaqlamaq istəmişəm və onu mənimlə yaxınlıq etməyə məcbur edəcəyəm! Rədd edərsə, onu zindanla cəzalandıracağam!"

Belə olduqda qadınlar sözü bir yerə qoyub Yusifi müxtəlif vasitələrlə yoldan çıxarmağa çalışdılar, amma bacarmadılar. Əziz oxucu, sınağın, möhnətin ağırlığına bax! Əbu Hüreyrə rəvayət edir ki, Peyğəmbər yeddi nəfərin Allahın kölgəsindən qeyri kölgənin olmadığı gündə Onun Kölgəsi altında olacağını demişdir. Onlardan biri də "gözəl və mənsəb sahibi qadının (cinsi əlaqəyə girmək üçün) çağırdığı, amma "Mən Allahdan qorxuram!" – deyərək imtina etdiyi şəxs"dir[2].

---

[1] "Yusif" surəsi, 31-ci ayə.

[2] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 660, səh. 141.

Elə isə bir deyil, onlarla gözəl qadının təhrik etdiyi gəncə nə deyəsən?! Vəzirin xanımı çox gözəl qadınlardan biri idi. Həmçinin o, Yusifin nəzərində təkcə vəzifəli xanım deyildi, həm də onun ağası sayılırdı, əri belə ona qarşı çıxa bilmirdi. Qadın hökmlü idi, Yusifi həbslə, pis rəftarla hədələmiş, əri də dediklərini yerinə yetirmişdi.

Şübhə yox ki, Yusifin imtahanı çox ağır idi. Belə imtahana ancaq bir peyğəmbər tab gətirə bilərdi. Amma o da görəndə ki, imtahanı getdikcə ağırlaşır, vəzirin xanımı onu həbslə hədələyir, Allaha əl açaraq dedi:

"Ey rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər (bu qadınların) hiyləsini məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram" (Yusif, 33).

Hikmət sahibi Allah Yusifin duasının qəbul edilməsinə zəmin yaradacaqdı. Şübhə yox ki, qadınlar öz aralarında vəzirin xanımı və digər qadınların təhrikləri qarşısında Yusifin tab gətirməsi haqqında danışmışdılar. Bu xəbər ətrafa yayılmış, vəzir və ailəsi ifşa olunmaqdan və bunun onlar üçün pis qurtaracağından qorxmağa başlamışdılar. Qərara gəlmişdilər ki, Yusifi zindana atsınlar. Bununla da, səslər kəsiləcək, misirlilər vəzirin xanımının etdiyini unudacaqdılar. Bu, Allahın işə müdaxiləsi idi: zindana atılmaq qadınların hiyləsini Yusifdən dəf edəcəkdi!

Yusif zindanda

Yusif yuxuları yozmağı bacarırdı. Quran bizə bu barədə Yusifin zindana atılmasından sonra danışır. Həbsxana oraya düşənlər üçün hisslərin "yonulduğu", duyğuların yumşaldığı yerdir. Həbsxanada məhbusun vaxtı boş keçir ki, bu da ona emosional düşüncələrini, keçmiş və gələcək

hadisələr barədə gördüyü yuxuları dərindən təhlil etmək imkanı verir.

Bu səbəbdən Yusiflə birlikdə həbsə atılan iki məhbus onun dürüst, dostyana olduğunu görmüşdülər. Çox güman ki, Yusif tez-tez onların yuxularını yozurmuş. Quranda bu barədə təfsilatı ilə danışılmır. Ayədə Yusifin dili ilə deyilir ki, o, yuxuların gerçək həyatda nə ilə nəticələnəcəyini qabaqcadan bilirmiş:

"(Yusif) belə cavab verdi: "Yeyəcəyiniz taam gəlməmişdən əvvəl mən onun mənasını (gördüyünüz yuxuların dünyada nə ilə nəticələnəcəyini və ya yeməklərin nədən ibarət olacağını) sizə xəbər verərəm. Bu, rəbbimin mənə öyrətdiyi elmlərdəndir" (Yusif, 37).

Məhbus yoldaşları gördükləri yuxunu yozmaq üçün müraciət etdiklərində Yusif onlarla xeyirxahcasına davranmışdı. Fürsətdən istifadə edib onları tək olan Allaha inanmağa, bütləri tərk etməyə çağırmış, onlara Allahın bəxş etdiyi incəlik və nəzakətlə: "Ey mənim iki zindan yoldaşım"[1] – deyə xitab etmişdi. Halbuki onlar Fironun sarayında xidmətçi idilər, Yusifə vəzirin sarayının şahzadəsi kimi baxırdılar.

"Ey mənim iki zindan yoldaşım! (Sizə nə bir xeyir, nə də bir zərər verə bilən) ayrı-ayrı tanrılar daha yaxşıdır (ibadət olunmağa daha layiqdir), yoxsa bir olan, (hər şeyə) qadir (qalib) olan Allah?!" (Yusif, 39).

Bu əhvalatda tək Allaha çağıran indiki dəvətçilər üçün böyük dərs vardır.

Həmin məhbuslardan biri yuxusunda hökmdara şərab hazırlamaq üçün üzüm sıxdığını, digəri isə başında çörək daşıdığını, quşların da ondan yediyini görmüşdü. Ayələrdən məlum olur ki, Yusif həmin yuxuları yozaraq

[1] Bax: Qurani-Kərim, "Yusif" surəsi, 39-cu ayə.

bildirmişdi ki, birinci məhbus hökmdarın şərab paylayanı olacaq, ikinci məhbus isə çarmıxa çəkiləcək, quşlar da cəsədini başından yeyəcəklər. Yusifin dediyi kimi olmuş, birincisi zindandan buraxılaraq hökmdarın şərabçısı olmuş, ikincisi isə edam edilərək çarmıxa çəkilmişdi.

Çin çıxan yuxular

Bəzən yuxuda gördüklərimiz olduğu kimi real həyatda təkrarlanır. Belə yuxular qismən yozum tələb edir, bəzən isə yozuma ehtiyac qalmır. Allah yuxuların bu növünə hökmdar üçün üzüm sıxıb şərab hazırladığını görən məhbusun yuxusunu misal göstərir. Onun yuxusu gerçəkləşmiş, azadlığa çıxaraq şərabçı vəzifəsinə geri qayıtmışdı.

İslam tarixindən məlumdur ki, müsəlman fərdin mənəviyyatı zənginləşdikcə gördüyü yuxular daha çox çin çıxır. Abid və alimlərimizin tərcümeyi-halları bu cür faktlarla doludur; elələri olmuşdur ki, gördükləri yuxu həyatlarını dəyişmişdir. Bundan əvvəl qeyd etmişdik ki, nadirən də olsa qeyri-dindarların, hətta müsəlman olmayanların başına bu hal gələ bilir. Bəzən qeyri-müsəlman şəxs bəşəriyyətə böyük fayda toxunduracaq qapalı məsələni yuxusunda görə bilir.

Məsələn, Peyğəmbərin babası Əbdülmüttəlibə yuxusunda bir neçə dəfə deyilmişdi ki, Zəmzəm suyu üçün gedib səhrada yeri qazsın. Ayıldıqdan sonra gedib həmin yeri qazdıqda torpaqdan su fışqırmışdı. Zəmzəm quyusu bu gün də Məkkə əhalisini, milyonlarla zəvvarı su ilə təmin edir. Bu quyunun suyu qablaşdırılaraq dünyanın müxtəlif yerlərinə göndərilir. Zəmzəm bulağı Məkkənin "haram" ərazisinə aid möcüzələrdən biridir.

Allahın elçilərinə gəlincə, gördükləri yuxular peyğəmbərlikləri ilə təsdiqlənir. Çünki peyğəmbərlik verildikdən

sonra yuxu vəhyalma vasitələrindən sayılır. Rəvayət olunur ki, Möminlərin anası Həzrət Aişə *(Allah ondan razı qalsın!)* deyibmiş: "Allahın elçisinə gələn ilk vəhy gerçək yuxularla olmuşdu. Onun gördüyü elə yuxu yox idi ki, sübh aydınlığı kimi gerçək olmasın"[1].

Rəmzi yuxular: yuxu, yoxsa danışıq?

Quranda deyilir ki, Allah Yusifə danışıqları yozmaq bacarığı bəxş etmişdir. Amma "Yusif" surəsində təkcə yuxuların yozulmasından danışılır. Quranda bu hal nə üçün yuxuların deyil, danışıqların yozulması (***tə`vil əl-hədis***) adlandırılır? Rəmzi yuxuları (başında çörək daşıdığını və quşların ondan yediyini görən gəncin yuxusu buna misaldır) yozmaq üçün Allahın bəsirət bəxş etdiyi şəxsə ehtiyac vardır. Belə kimsə bəsirəti ilə rəmzi yuxunun "özün danışığı"mı, şeytandan gələn qorxuducu, yoxsa sevinc aşılayan, müjdələyən, yuxu olduğunu müəyyənləşdirir.

Bir yuxuda hər üç yuxunun elementləri ola bilir. Aparılmış təcrübələr isbatlamışdır ki, əgər biz oyandıqda yuxu gördüyümüzü xatırlamırıqsa, onda hafizəmiz və yuxu ilə əlaqəli hadisələrin yaddaşımıza həkk olunması zaman keçdikcə yuxumuzu bizə xatırladacaq şeylərin yenidən formalaşmasına bu və ya digər şəkildə təsir göstərir. Həmçinin bəzi şəxslərin yaddaşı zəif olduğundan gördükləri yuxunu xatırlamırlar. Ya da əvvəlki günün hadisələri yuxularımıza təsir edir. Deməli, bəzi yuxular özün danışığı və bununla əlaqəli xatirələrdən ibarətdir. Belə yuxulara yuxuda ikən gündəlik hadisələrin meydana gətirdiyi təsəvvürlər də qarışır. Belə yuxular həqiqi yuxulara daha yaxındır.

---

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3, səh. 21.

Yozulmanı çətinləşdirən və yuxunu özün danışığına çevirən amillərdən biri budur ki, yuxuda gördüyümüz bəzi şeylər yatdığımızda Allahın vəfat etdirdiyi canımızın ətrafında uçuşan ruhlarla əlaqəlidir. Allah Quranda bildirir ki, yuxu ölümü xatırladan vəziyyətdir. Bu səbəbdən yuxunu "kiçik ölüm" adlandırırlar. Çünki yuxu müvəqqəti ölümdür, bu zaman yuxularımız təşəkkül tapır:

"Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar (çünki yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruh bədəni tərk edər). Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz, beləliklə də bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatıncaya qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın hər şeyə qadir olmasına, qiyamət günü ölüləri dirildəcəyinə dəlalət edən) əlamətlər vardır!" (əz-Zümər, 42).

Yuxu görən şəxsin ruhunun daxil olduğu aləm mücərrəd varlıqlar aləmidir. Burada mələklər, peyğəmbərlərin, vəfat etmiş yaxşı və pis insanların, şeytanların ruhları, eləcə də Allaha məlum digər varlıqlar mövcuddur. Aşağıdakı hədisdə deyildiyi kimi yatmış şəxslərin ruhları digər ruhlarla görüşür: "Ümarə ibn Xüzeymə ibn Sabit danışır ki, atası deyibmiş: "Yuxuda gördüm ki, Peyğəmbərin alını üzərinə səcdə edirəm". Bunu Peyğəmbərə danışdığımda dedi: "Şübhə yox ki, ruh ruhla görüşür". (Bu vaxt) Peyğəmbər başını arxaya tərəf boynu üstündə alnı yuxarı olmaqla əydi"[1].

[1] Əbdürrəhman Əhməd ibn Şüeyb ən-Nəsai. Əs-Sünən əl-kübra / araşdırıb çap edən: Həsən Əbdülmünim Şələbi. Beyrut: "Müəssisə ər-Risalə", 2001, hədis № 7584.

İbn əl-Qəyyim özünün qiymətli "Ruh" kitabında yazır: "Bəzən yuxular yatmış şəxslə ruhlar və digər mücərrəd varlıqlar arasındakı bu cür mənəvi əlaqə nəticəsində yaranır"[1].

Şəxs oyandıqda ruhu ona bir göz qırpımından da az müddətə qaytarılır; yox, həmin şəxs (yuxuda ikən) vəfat edərsə, ruhu bərzəxə gedir.

Yusifə yuxuları yozmaq bacarığı bəxş edilmişdi. Bu bacarıq ona imkan verirdi ki, yuxudakı simvolları xatirələrdən, özün danışığından, ruhlar aləmində simvollarla əlaqəli dəyişikliklərdən, şəxsin psixikasına təsir göstərən amillərdən, ya qorxduğu, ya da utandığı üçün danışmadığı şeylərdən ayıra bilsin. Yuxusunu danışarkən şəxsin düşdüyü mənəvi-psixoloji vəziyyət və yuxunu yozan şəxsin yuxunu dinləyərkən keçirdiyi hisslər – bütün bunların yuxunun yozulması və rəmzi mənasının açılmasında mühüm rolu vardır. Bu ona görədir ki, yuxu görərkən emosional vəziyyətə düşürük. Ayıldığımızda qorxu, yaxud sevinc doğuran emosional vəziyyət aradan qalxır, gördüyümüz yuxu isə hekayə və ya danışılan söhbət olaraq qalır. Bu, xüsusən qorxulu yuxular üçün doğrudur. Qorxulu yuxu gördükdən sonra ifrat emosionallığın yaratdığı vəziyyətdən xilas olub sakitləşmək üçün yuxudan ayılırıq. Bundan sonra yuxu danışıq və hekayəyə çevrilir.

Fikrimizcə, rəmzi yuxular ruhlar və digər mücərrəd varlıqlarla qarşılıqlı əlaqə nəticəsində yarandıqda ruhlar spiritual mübarizəyə başlayır; bir hissəsi yuxunun "ərazi"sinə girməyə çalışır, bir hissəsi də uyğun olduğundan yuxu öz qapılarını onların üzünə açar. Belə mübarizənin nəticəsində yuxu yaranır. Aşağıdakı hədisin ümumi məzmunu iddiamızı təsdiqləyir: "Ruhlar səfərbər edilmiş əs-

[1] Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə. Ruh. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1975, səh. 180.

gərlər kimidir. Onların bir-biri ilə tanış olanları dostlaşar, biganə qalanları isə bir-biri ilə ixtilafa düşər"[1].

Belə mübarizə bəsit və aydın yuxunu mürəkkəb və rəmzi yuxuya çevirə bilir. Yox, əgər pis ruhlar, yaxud şeytanlar qalib gələrsə, yuxu qorxulu, narahatedici olur. Amma yuxu Allahdan olarsa və Allah onu qorumaq istəyərsə, heç bir şeytan, pis ruh ona yaxınlaşmağa cürət etmir. Məsələn, yuxuda şəxsə gələcəkdə baş verəcək şey haqqında mesaj ötürülmək istənirsə, həmin şəxsin yuxusu olduqca aydın və birmənalı olur. Əgər Allah yuxudakı hadisələrin aydın olmasını istəyirsə, bu hadisələr olduğu kimi həyatda təkrarlanır.

Özünü müdafiə edə bilmədikdə yuxuya ruhlar sızaraq onu özlərinə uyğun şəkildə "yenidən formalaşdırırlar". Nəticədə rəmzi yuxu yaranır və onu yozmaq lazım gəlir. Əgər Allahdan gələn gerçək yuxuları aydın video-fraqmentə oxşatmaq mümkündürsə, rəmzi yuxular isə Pikassonun çəkdiyi sürrealist tabloları xatırladır. Sürrealist tablolarda mənasını ancaq mütəxəssisin bildiyi xüsusi rəmzlər olur.

Mahir yozucu bəsirəti sayəsində yuxunun əsas məzmununu kənar spiritual təsirlərdən fərqləndirməyi bacarır. "Yusif" surəsindəki sonuncu yuxu hadisəsi bu növ yuxulara aiddir. Misir hökmdarı yuxusunda yeddi kök inəyi yeyən yeddi arıq inək, yeddi yaşıl sünbül və yeddi quru sünbül görmüşdü. Bu, Yusifin zindandan yozduğu gerçək yuxu idi.

Cadugərlər və əyanlar hökmdarın yuxusunu yoza bilməmişdilər. Zindanda Yusifə yoldaş olmuş şərabpaylayan onun yuxuları yozmağı haqqında hökmdara danışır. Yuxunu gedib danışdıqlarında Yusif Misirin hakim tə-

[1] Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 3336, səh. 636.

bəqəsinin onu zalımcasına zindana atdırmasına baxmayaraq, xalqı labüd aclıqdan xilas etmək üçün yuxunu yozur. Mərhəmət və şəfqət Yusifin çəkdiyi ağrı-acıya qalib gəlmişdi. Yusif inəkləri il olaraq yozub bildirdi ki, yeddi yaşıl sünbül yeddi məhsuldar il deməkdir, daha sonra yeddi quraq il gələcəkdir. Yəni, yeddi quru sünbül yeddi quraq ili ifadə edir. Bütün bunlardan sonra bol yağışların yağacağı bir il gələcəkdir.

Yusifin yozumu hökmdarın xoşuna gəlmişdi. Çox güman ki, şərabpaylayan, hökmdara vəzirin xanımı və digər xanımların Yusifi yoldan çıxarmaq istəmələri, Yusifin isməti və abidliyi haqqında danışıbmış. Məhz buna görə hökmdarın onun çağırışını qəbul etməyən, bəraət almadıqca zindandan çıxmayacağını deyən Yusifə acığı tutmamışdı. Hökmdar padşahlara xas zəhmlə, hər şeyi bildiyindən xəbər verən əda ilə həmin qadınlara səslənmişdi:

"Yusifi tovlayıb yoldan çıxartmaq istəməkdə məqsədiniz (qəsdiniz) nə idi?" (Yusif, 51).

Qadınların, o cümlədən vəzirin xanımının həqiqəti deməkdən başqa çarələri qalmamışdı. Onlar Yusifin təmiz və təqsirsiz olduğunu etiraf etmişdilər.

"(Padşah həmin qadınları çağırtdırıb) soruşdu: "Yusifi tovlayıb yoldan çıxartmaq istəməkdə məqsədiniz (qəsdiniz) nə idi? (Qadınlar:) "Allah eləməsin! Biz onun barəsində pis bir şey bilmirik!" – deyə cavab verdilər. Vəzirin övrəti (Züleyxa) dedi: "Artıq indi həqiqət bəlli oldu. Yusifi tovlayıb yoldan çıxartmaq istəyən mən idim. O, şübhəsiz, doğru danışanlardandır!" (Yusif, 51).

Yusifin yozuculuq təcrübəsi, məsələn, inəyin il olduğunu deməsi keçmişdə və indi yuxu yozucularını şirniləndirmişdir. Onlar yuxuda görülən şeylərin nəyi bildirdiyinə dair cədvəl və siyahılar hazırlamışlar. Bu yozuculara görə, yuxuda gördüklərimiz müəyyən xəstəliyin simptomları,

yuxu yozan da simptomlara görə xəstəliyə diaqnoz qoyan həkimdir.

Məsələn, yuxu yozumu kitablarında oxuyuruq ki, kim yuxuda tacir olduğunu və dükanının dağıldığını görərsə, arvadını boşayacaq, kim də ki xəstə olduğunu görərsə, tezliklə öləcəkdir. Yox, görsə ki, dükanı gözəldir və mallarla doludur, sevinsin: subaydırsa, evlənəcək və çoxlu var-dövlətə sahib olacaqdır. Yuxuda evlənib, amma gəlini görməyən şəxs vəfat edəcəkdir. Yuxuda əqrəb görmək o deməkdir ki, hansı isə qohum yamanlıq üçün tədbir tökür. Kimsə yuxuda dişlərindən birinin düşdüyünü görübsə, deməli, qohumlarından biri dünyasını dəyişəcəkdir. Ümumiyyətlə, yuxu yozumu kitablarına ürəyədamma hisslər əsasında yuxuların yozulması təmayülü hakimdir.

Bacarıqlı yozucunun yuxuları düzgün şəkildə yozması müxtəlif məsələlərdən asılıdır. Bu məsələdə yuxu görənin də kimliyi mühüm rol oynayır. Bəzən yozucu eyni yuxunu görmüş iki nəfərin yuxusunu fərqli mənalarda yozur. Məsələn, bir nəfər gələrək İbn Sirinə deyir ki, yuxuda uca səslə azan oxuduğunu görüb. İbn Sirin deyir ki, həccə gedəcəkdir. Eyni yuxunu danışan başqasına isə bildirir ki, oğurluq edəcək və əli kəsiləcəkdir. Həmçinin Həzrət Yusif hökmdarın yuxuda gördüyü inəyi il kimi, Həzrət Məhəmməd isə Uhud döyüşündən azacıq əvvəl yuxuda gördüyü kəsilmiş inəyi səhabələrindən bəzilərinin döyüşdə öldürüləcəyi kimi yozmuşdu. Bəlkə də, Allah Təala Uhud döyüşündə yetmiş səhabənin şəhid düşməsindən sarsılmasın deyə Həzrət Məhəmmədə rəmzi yuxu ilə səhabələrinin öldürüləcəyini xəbər vermək istəmişdir[1]. Göründüyü kimi, "inək" rəmzi iki fərqli formada yozulmuşdur. Yuxulara

[1] Hədis üçün bax: Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 7035, səh. 1344.

dair mülahizələrlə kifayətlənir, bu böyük surədə psixoloqların ilham və parapsixologiya ilə əlaqədar öyrəndiyi digər mövzulara keçirik.

Nə üçün Yusif özünün kim olduğunu qardaşları və atasına gec bildirmişdi?

Yusif zindandan buraxılmış, Misirin yeni vəziri olmuşdu. Bilirdi ki, növbəti yeddi il bərəkətli və yağışlı olacaqdır; bu illər ərzində sonrakı quraqlıq illərdə Misir əhalisi ac qalmasın deyə buğdanı ehtiyata yığmaq lazımdır. Həmçinin hiksoslar Misirində yaşadığı illər ərzində qazandığı təcrübədən onu da öyrənmişdi ki, korrupsiya, qohumbazlıq və yarıtmaz idarəetmə qıtlıq illərində taxılın misirlilər arasında ədalətlə bölünməsinə mane olacaqdır. Bu işə özü əl qoymalı idi, odur ki Misir hökmdarından onu məhsulun toplanması və aclıq illərində xalq arasında bölüşdürülməsi işinə nəzarətçi təyin etməsini istəyir:

"(Yusif) dedi: "Məni bu yerin (Misirin) xəzinələrinə məmur təyin et (Misir xəzinələrini mənə tapşır), çünki mən (özümə etibar edilən mal-dövləti) qoruyanam, (işləri idarə etməyi) bilənəm!" (Yusif, 55).

Məhsuldar illər ötüb keçdikdə quraqlıq və aclıq illəri başlandı. Yusifin qardaşları da taxıldan onlara düşən payı götürmək üçün gəlmişdilər. İllər və səhra həyatının sərtliyi onları dəyişdirsə də, uzun səfərdən üzləri yanıb qaralsa da, Yusif qardaşlarını tanımışdı. Yusif özü də böyümüş, daha da gözəlləşmişdi; dünyaya meyl etməməsinə, axirəti düşünməsinə baxmayaraq, saray həyatı, krallara xas süfrələr onu sağlamlaşdırmışdı. Bununla yanaşı, Yusif Misirin vəziri idi. Odur ki qardaşlarının onunla göz yaşı və yalvarışlarına baxmayaraq, quyuya atdıqları uşaq arasında bir əlaqə tapmaları qeyri-mümkün idi. Yusif bacarığı və

zəkası ilə onlara balaca qardaşlarını gətizdirə bilmiş, atalarına oğlunu geri qaytarmaq sözü vermələrinə baxmayaraq onu yanında saxlamışdı.

"(Yaqub) dedi: "Başınıza bir bəla (ölüm, fəlakət) gəlməyəcəyi təqdirdə Bin Yamini (sağ-salamat) qaytarıb yanıma gətirəcəyinizə dair Allaha ürəkdən and içib mənə söz verməyincə onu sizinlə (Misirə) göndərməyəcəyəm!" Onlar and içib söz verdikdə (Yaqub): "Allah dediyimizə şahiddir!" – dedi" (Yusif, 66).

"Yusif" surəsini oxuduğumda özümə sual verirdim ki, nə üçün Yusif atası və qardaşlarına sağ-salamat olduğunu, Misirdə, vəzirin sarayında yaşadığını, vəzir təyin edildiyini gec xəbər vermişdi? Tutaq ki, həmin dövrdə kommunikasiya problemi vardı: o, Misirdə, ailəsi isə kənanilər diyarında, yaxud Hərranda yaşayırdılar. Belədirsə, qardaşları Misirə taxıl paylarını almağa gəldikdə özünü nə üçün onlara tanıtmamışdı?! Halbuki ayrılıq əzabı çəkən və gözləri kor olmuş atasını ovundurmaq üçün özünü tanıda bilərdi. O bunu nə üçün axıra saxlamışdı?

Yusif Allahın icazəsi ilə hərəkət edən peyğəmbər idi. Allah icazə verməsəydi, özünü onlara tanıda bilməzdi. Elə isə bundakı ilahi hikmət nədən ibarətdir? Rəvayət olunur ki, İmam Şafii demişdir: "Mömin başqasına möhkəmcə bağlanarsa, Allah ona bu bağlılığın acısını daddırar. Çünki Allah Özündən başqasına bağlanmış qəlbdən xoşlanmaz; onu Özünə qaytarmaq üçün bağlandığını ondan uzaqlaşdırar"[1]. Əgər Şafiinin bu sözü adi müsəlmanlara aiddirsə, onda peyğəmbərlərə nə deyəsən?!

[1] Eyni məzmunda başqa deyimlər də mövcuddur. Məsələn, İbn əl-Cövzi demişdir: "Allah öz bəndəsi üçün xeyir diləyərsə, Ondan üz çevirən, Ondan qeyrisini sevən qəlbinə Özünə qayıdanadək cürbəcür əzab-əziyyət verər; onun bədən üzvləri Allaha asi işlərlə məşğul olarsa, onları müxtəlif sınaqlara düçar edər. Bu, Pak və Uca Allahın

Yaqubun Yusifə olan sevgisi bir atanın oğluna bəslədiyi sevginin fövqündə idi. Bu sevgini illərin ayrılığı daha da artırmışdı. Misir vəzirinin Bin Yamini öz yanında saxlamağı xəbərini gətirən oğullarına Yaqubun necə reaksiya verməsinə baxın. O onlara Yusifi canavarın yeməsi xəbərini gətirdikləri vaxt dediyi sözlərin eynisini demişdi: "Sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir" (Yusif, 18).

Yaqub bunu deməklə kifayətlənmiş, qardaşlarının su-i-qəsd ehtimalına baxmayaraq, Bin Yaminin başına gələnlərə görə mütəəssir olduğunu hiss etdirməmişdi. Görünür, Yaqub oğullarının sözünə inanmırdı, bu səbəbdən iztirabını açığa vurmamışdı. Həmçinin qocalar adətən ailədə kiçiklərə daha çox bağlı olurlar, amma uzun illərin ötməsinə rəğmən, Yaqub Yusifin həsrəti ilə yanmış, onlardan üz çevirmişdi. Bin Yaminin başına gələnlər Yaqubda Yusif həsrətini daha da artırmışdı:

"(Bu sözlərdən sonra Yaqub) onlardan (oğlanlarından) üz döndərdi. (Bin Yaminin başına gələn bu iş onun yadına sevimli oğlu Yusifin müsibətini saldı) və: "(Heyf sənə) yazıq Yusif!" – dedi. Dərd-qəmdən (həmişə ağlamaqdan Yaqubun) gözlərinə ağ gəldi. O, (bütün dərdini) içində çəkirdi (oğlanlarına bildirmirdi).

(Oğlanları Yaquba) dedilər: "Allaha and olsun ki, sən Yusif deyə-deyə xəstələnib əldən düşəcək, ya da öləcəksən!" (Yusif, 84-85).

Bu, oğluna bəslədiyi sevginin könlünü əsir etdiyi bir peyğəmbər idi. Bu səbəbdən Uca və Pak Allah atanı oğuldan məhrum etmişdi. Allah istəyirdi ki, dünya sevgisinin qarışdığı bu hisslər hörmətli peyğəmbərinin könlünü bulandırmasın. Yaqubun babası İbrahim, İbn Üceybənin

bəndəsini qısqanmasına görədir". Bax: Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə əd-Diməşqi. Rövzət əl-mühibbin və nüzhət əl-müştaqin. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1992, səh. 216.

“əl-Bəhr əl-mədid fi təfsir əl-Quran əl-məcid” kitabında dediyi kimi, “daha böyük sınağa tuş gəlmişdi: ahıl yaşına çatdığında Allahın bəxş etdiyi və qəlbi sevgisinin əsirinə çevrilən oğlunu kəsmək əmri almışdı”[1].

Yusifin özünü qardaşları və atasına gec tanıtmasında ilahi hikmət vardır. Əgər gözəllik, qadınların eşqi, yamanlıq edənlərə səbir göstərmək, onlarla xoş davranmaq Yusifin imtahanı idisə, ən çox sevdiyi oğlundan məhrum buraxılmaq isə Yaqubun başına gələn sınaqlardan idi. Məhrumiyyət çox çəkməli idi ki, bu hörmətli elçi qismətinə Allahın yazdığı məşəqqət “badə”sini içməklə peyğəmbərlik məqamına layiq olsun. Bununla yanaşı, kiçik oğlunun kölə edilməsi və böyük oğlunun “itkin” düşməsi onun üçün ən dözülməz möhnət halı idi; adətən belə haldan sonra qurtuluş gəlir.

Digər tərəfdən, Yusifin kimliyinin gec açıqlanmasında etdikləri yamanlıqlara baxmayaraq, qardaşlarına Allahın mərhəmətini üzə çıxaran ilahi hikmət vardır. Əməllərinə görə bağışlanmazdan qabaq peşman olub, Allahdan, Yusif və atalarından utanmalı idilər. İlahi plan Bin Yamini yanında saxlamaq üçün Yusifin əl atdığı hiylədən sonra başlanmışdı. Həmin vaxt qardaşları müxtəlif vasitələrlə Yusifi – onun tanımamışdılar – Bin Yamini öz yanında saxlamamaq üçün razı salmağa çalışırdılar. Görəndə ki, istəkləri baş tutmur, təklif etmişdilər ki, Bin Yaminin əvəzinə onlardan birini yanında saxlasın, çünki ataları yaşlı və qocadır. Fikir verin: Allah elə edir ki, onların hissləri, davranışları, Yusiflə bağlı xatirələri dəyişilsin; bu ona görə idi ki, peşman olsunlar, O da onları bağışlasın. Onlara daha çox diqqət ayırsın deyə atalarını Yusifdən məhrum

[1] Bax: Əbülabbas Əhməd ibn Məhəmməd ibn Üceybə. Əl-Bəhr əl-mədid fi təfsir əl-Quran əl-məcid // araşdırıb çapa hazırlayan: Əhməd Abdullah əl-Qürəşi. Qahirə: 1999, “Yusif” surəsinin təfsiri, 84-cü ayə.

etmiş, onu quyuya ataraq canavarın qurbanı olduğunu demişdilər. İndi isə əksini görürük: vəzirə dil-ağız olurlar ki, Bin Yaminin təqsirindən keçsin; buna "yox" cavabı aldıqda yalvarırlar ki, onun əvəzində onlardan birini yanında saxlasın; bununla da Bin Yamini atalarının yanına sağ-salim qaytara biləcəkdilər. Bu dəyişiklik onlarda Yusifə etdiklərinə görə peşmanlıq duyğusu yaratmış olmalı idi. Nə də olsa bir peyğəmbərin evində böyümüşdülər; bilirdilər ki, yaman əməllərin dünya və axirətdə cəzası vardır.

Vəzirin razılaşmadığını gördüklərində nə edəcəklərini öz aralarında məsləhətləşmək üçün yanından çıxdılar. Quranda deyilir ki, Yusifə etdikləri, illərin keçməsinə baxmayaraq, gözlərinin önünə gəlmişdi. Aralarında əməllərinə görə peşman olan, amma bunu üzə vurmayanı da vardı. Ən böyük qardaş isə Yusifə etdiklərinə görə açıq şəkildə peşman olduğunu bildirdi və atası ilə yenidən üz-göz olmamaq üçün onlarla qayıtmaqdan imtina etdi.

Əziz oxucu, ilahi planın əzəməti və dəqiqliyinə fikir ver! Vaxtı ilə Yusifi aradan götürdüklərinə görə yaranmış sevinc hissini gizlədərək atalarının hüzurunda qanlı köynəklə dayanmışdılar. İllər sonra səhnə təkrarlanırdı: qardaşlar Bin Yaminin və onlarla gəlməkdən imtina edən böyük qardaşın başına gələnləri danışmaq üçün atalarının yanına qayıtmışdılar, amma bu dəfə qəm-qüssə və peşmanlıqlarında səmimi idilər. Buna baxmayaraq, ataları onlara inanmadı. Canavarın Yusifi yeməsinə inanmayan bir ata Bin Yaminin oğurluq üstündə köləyə çevrildiyinə inanardımı?! Qardaşlar and içməyə başladılar, bu hadisəni gözləri ilə görmüş şəxsləri şahid gətirdilər:

"Olduğumuz şəhərdən (Misir əhalisindən) də, birlikdə gəldiyimiz karvandan da soruş. Biz, həqiqətən, doğru danışanlarıq!" (Yusif, 82).

Allah istəyirdi ki, onlar Yusifə etdikləri hər şeyə görə peşman olsunlar. Sonrakı günlər onların ataları ilə keçirdikləri ən kədərli günlər idi. Qəm-qüssəyə batmış kor ata, yoxsulluq, ağır həyat, Bin Yaminin qışqırıqları və böyük oğulun göstərişlərinin eşidilmədiyi bir ev... Məhsul üçün Misirə getmək vaxtı çatmışdı. Amma üz verən müsibət səbəbindən malları bu dəfə yaxşı deyildi; çöhrələrində çəkdikləri iztirabın izləri vardı, əməllərinə görə peşman olub qəm-qüssəyə batdıqları üzlərindən hiss olunurdu. Yusifin yanına keyfiyyətsiz malla gəlmişdilər, miskin və alçalmış vəziyyətdə idilər, ondan sədəqə diləyirdilər. Arıqlamışdılar, ac, yorğun, yoxsul və kədərli olduqları üstlərindən bəlli idi. Düşdükləri bu vəziyyət Yusifə bərk təsir etmişdi, qərara gəlir ki, kim olduğunu onlara desin. Bəlkə də, bu qərarı Səma da bəyənmişdi; ola bilsin, vəhylə Yusifə deyilmişdi ki, onlar peşmandırlar, iztirab çəkirlər, bağışlanmağa layiq haldadırlar. Vaxt yetişmişdi, Yusif kim olduğunu qardaşlarına nəzakətlə bildirdi:

"(Yusif) onlardan: "Siz cahil olduğunuz zaman Yusifə və qardaşına nələr etdiklərinizi bilirsinizmi?" – deyə soruşdu" (Yusif, 89).

Onu uşaq ikən quyuya atan qardaşları ilə necə də nəzakətlə danışdığına fikir verin: "Siz cahil olduğunuz zaman"... O bu sözlərlə məsuliyyəti cahilliklərinin, yaşlarının az olmağının üstünə atırdı. Onun yerində başqası olsaydı, deyərdi: "Siz cani olduğunuz vaxt; qaniçən olduğunuz vaxt; yalançı olduğunuz vaxt". Amma Yusif edilən zülm və yamanlıqlar qarşısında mülayim və nəzakətli idi. Eləcə də Yusifin atası və ailəsinə qovuşmasına, münasibətlərin düzəlməsinə görə Allaha hansı tərzə şükür etməsinə fikir verin:

"O mənə yaxşılıq etdi, çünki məni zindandan qurtardı, Şeytan mənimlə qardaşlarımın arasını vurduqdan sonra

sizi çöldən (yanıma) gətirdi (bizi bir-birimizə qovuşdurdu). Həqiqətən, rəbbim istədiyinə qarşı lütfkardır (istədiyi şəxs və ya iş barəsində incə tədbir sahibidir). O, doğrudan da, (hər şeyi) biləndir, hikmət sahibidir!" (Yusif, 100).

Yusif olanlara görə Şeytanı qınamış, özündən başlamış, özünü qardaşları ilə bir tutmuşdu: "mənimlə qardaşlarımın arasını...".

Yusifin öz kimliyini açıqlaması ilə bir neçə problem həll olunmuşdu. Əvvəla, etdiklərinin ağrısını yaşadıqdan, səhvlərini etiraf etdikdən sonra Yusifin qardaşlarına müjdə verilmişdi ki, yamanlıqları bağışlanıb. Qardaşları biləndə ki, Yusif Misirin vəziridir, demişdilər:

"Onlar: "Allaha and olsun ki, Allah səni bizdən üstün etmişdir. Biz isə (sənin barəndə), sözsüz ki, günah etmişik!" – dedilər.

(Yusif) dedi: "Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir!" (Yusif, 91-92).

Yaqub peyğəmbər də iztirab və ağrı-acıdan xilas olmuşdu. Çünki möhnətin son günlərində iztirabı son dərəcə artmışdı. Həm Yusifə, həm Bin Yaminə, həm də böyük oğluna görə qüssələnib iztirab çəkirdi. Bununla yanaşı, xəstə və yaşlı idi, gözünün nuru çəkilmişdi, səhrada yoxsul və ağır vəziyyətdə yaşayırdı. Allah ona görmək qabiliyyətini, bütün oğullarını, o cümlədən Yusifi Misirin vəziri olaraq qaytarmışdı. O Yusifi ki, onu və bütün ailəsini səhra həyatının məşəqqətindən xilas olmaq üçün yanına – Misirə çağırmışdı.

Yusifin də möhnəti başa çatmışdı; axı uzun illər ailəsindən, xüsusilə atasından ayrı düşmüş, hicran ağrısı çəkmişdi. Bəlkə də, Yusifin atasını görmək şövqü atasınınkından az deyildi. Yusif ailəsindən ayrı salındıqda yaşı az, iztirabı

çox idi. Az sayda müfəssir Yusifin iztirabından söz açmışdır, çünki Quranda bu barədə təfsilatı ilə danışılmır.

Şübhə yox ki, Bin Yaminin təqsirindən keçməsi üçün yalvaran, yaşlı atalarının olduğunu deyən qardaşlarına (həmin vaxt qardaşları onun Yusif olduğunu hələ bilmirdilər) qulaq asarkən ağrı-acı Yusifin qəlbini sıxmışdır. Quran bu məqamda "çox yaşlı" sözündən istifadə etməklə kifayətlənir. Çox güman ki, onlar atalarının acınacaqlı vəziyyəti, gözünün nurunun getməsi və xəstəliyi haqqında vəziri rəhmə gətirmək üçün danışıblarmış. Əlbəttə ki, onların sözləri Yusifin ürəyini hüznlə, atasını görmək şövqü ilə doldurmuşdu. Əgər Allahın qadağası olmasaydı, bu məqamda kim olduğunu onlardan gizlətməz, bəlkə də, atasının yanına gedərdi. Amma o, ona və ailəsinə xeyir gətirəcək İlahi Hikmətin göstərişinə uyaraq səbir göstərəcəkdi.

Yusif hisslərinə aldanıb elə ilk görüşdə kim olduğunu qardaşlarına desəydi, nə baş verərdi? Quraq günlər yenicə başlanmışdı, Yusifin qardaşları güclü və qürurlu idilər. Həmin vaxt Yusif onlara Misirin vəziri olduğunu desəydi, ona daha çox paxıllıq bəsləyərdilər; görsəydilər ki, ataları Yusiflə Misirin vəziri olaraq daha çox fəxr edir, onu daha çox sevməyə, onlardan daha çox üstün tutmağa başlayıb, kinləri, həsədləri iki qat artardı. Amma İlahi Hikmətə uyğun olaraq, Yusif balaca qardaşının oğurluq etməsi hiyləsini işlətdi ki, hadisələr özü, atası və qardaşlarının xeyrinə dəyişsin. Surə Yusifin uşaq ikən gördüyü yuxunun yozulması ilə başa çatır. Xatırladaq ki, Yusif yuxusunda on bir ulduz, Günəş və Ayın ona səcdə etdiyini görmüşdü. Ulduzlar qardaşlarını, Günəş atasını, Ay isə anasını simvolizə edirdi.

"(Yusif) ata-anasını taxt (öz taxtının) üstünə qaldırdı. Onlar (ata-ana və on bir qardaş) hamısı (hörmət əlaməti

olaraq) onun qarşısında səcdəyə qapandılar. (Allah onları bir-birinə qovuşdurduğu üçün şükür səcdəsi etdilər). (Yusif) dedi: "Atacan! Bu əvvəl gördüyüm yuxunun yozumudur. Rəbbim onu (yuxunu) həqiqətə çevirdi" (Yusif, 100).

Göründüyü kimi, bu əzəmətli surə yuxunun görülməsi ilə başlanmış, yozulması ilə başa çatmışdı.

Bununla da, Yusifə dair düşüncələrimi tamamlayıram. Amma bu surədə üç mənəvi-psixoloji fenomenə müxtəsər şəkildə toxunmadan qələmi əlimizdən qoymaq istəmirik. Bu fenomenlərin psixosomatika və parapsixologiyada, xüsusən islam psixologiyası prizmasından əhəmiyyəti böyükdür.

"Yusif" surəsində telepatiya, psixosomatik xəstəliklər və nəzər məsələsi

Hələ keçən əsrin 50-ci illərində Beyrutdakı Amerika Universitetində oxuyarkən görmüşdüm ki, ümumi psixologiya dərsliyində dəqiq müşahidəyə əsaslanan təcrübi biliklərlə geridə qalmış cəmiyyətlərin təsəvvürləri və dini mövhumata söykənən düşüncələr müqayisə olunur. Kitabın müəllifi qeyri-elmi məsələlər arasında bugün parapsixologiyanın öyrəndiyi telepatiya, bəsirət (clairvioance) və bədnəzərin adını çəkirdi. O, "xurafatlar" siyahısına ruhun ölməzliyi, dirilmə kimi bütün dini inancları daxil etmişdi. Müəllif qeyd edirdi ki, apardığı araşdırma amerikalı psixologiya professorlarının cəmi bir faizinin parapsixoloji hallara inandığını ortaya çıxarıb.

Bu gün – düz altmış il sonra Avropa və Amerika universitetlərinin çoxunda tələbələrə parapsixologiya fənni keçilir. Bəzi universitetlərdə bu sahəyə aid istiqamətlərin birində ixtisaslaşmış professorlara imkanlar yaradılır. Halbuki bu sahə dinin metafizik (qeyb) məsələləri ilə əlaqəli-

dir. Buraya ölməkdə olan şəxsin fərdi mənəvi təcrübələri, şəxsin psixoloji axın yolu ilə əşyaları hərəkət etdirməsi və s. daxildir. Onu da müşahidə edirik ki, bu gün Qərbdə bəzi universitetlərdə bu ixtisas üzrə ən yüksək universitet dərəcələri verilir. Vəziyyəti dəyişdirən Allah necə də pakdır! Bizi qeybə imanla, qeyri-təcrübi olan hallar haqqında sağlam təsəvvürlə təmin edən dinimizə görə Allaha şükür olsun! "Yusif" surəsi bu mövzuda mühüm məsələləri özündə ehtiva edir. Söhbət telepatiya, gələcəkdən xəbər verən yuxular, bədnəzər və psixosomatik pozğunluq hallarından gedir.

Telepatiya

Bundan əvvəl demişdik ki, telepatiya hisslər, düşüncə və təsəvvürlərin duyğu orqanları vasitəsilə təmas yaratmadan başqa şəxsə ötürülməsini ifadə edən mənəvi-psixoloji bacarıqdır. Xəlifə Ömərin sərkərdə Sariyə ilə əhvalatından danışarkən bu məsələyə toxunmuşduq. Xəlifə Ömər Mədinədən: "Sariyə, dağa tərəf!" – deyə qışqırmış, 1500 mil aralıda sasani ordusu ilə vuruşan Sariyə bu deyilənləri eşidərək ordunu dağa tərəf çəkmiş, düşmənə qalib gəlmişdi. Araşdırmalar göstərir ki, "alıcılar"a zehni ismarışlar göndərməyi bacaran "vergili" insanlar vardır. O da sübut olunub ki, sevgi hissinin birləşdirdiyi insanlarda (valideyn-uşaq, sevgililər) telepatiya daha güclüdür.

"Yusif" surəsində telepatiyanı xatırladan hala Yaqubla əlaqədar ayələrdə rast gəlirik. Müsibət və bəlalara düçar olduqdan sonra Yaqubun iztirabı artmış, Yusifi itirdiyinə görə daha da sarsılmışdı. Bu azmış kimi, dərdinin üstünə yenisi əlavə olunmuşdu: evin sonbeşiyi Bin Yamini də itirmişdi. O dərəcədə qüssələnmişdi ki, gözləri kor olmuşdu.

Bu kədər və Yusif nisgilinə görə ailəsinin Yaquba ürəkləri yanmışdı:

"(Oğlanları Yaquba) dedilər: "Allaha and olsun ki, sən Yusif deyə-deyə xəstələnib əldən düşəcək, ya da öləcəksən!" (Yusif, 85).

Həmin vaxt Yusif Allahın icazəsi ilə özünü qardaşlarına tanıtmış, qayıdarkən atalarının üzünə sürtsünlər deyə köynəyini onlara vermişdi. Bununla da, Yaqubun gözləri Allahın Yusifə bəxş etdiyi möcüzə sayəsində yenidən görəcəkdi. Karvan Misirdən ayrılıb səhraya doğru hərəkətə başladıqda Yaqub səkkizgünlük məsafədən hiss etmişdi ki, Yusif sağdır və onlar qovuşacaqlar:

"Karvan (vətənə qayıtmaq üçün Misirdən) ayrılanda ataları (Yaqub yanındakı övladlarına) dedi: "Əgər məni səfeh hesab etməsəydiniz (və ya yalançı hesab edib danlamasaydınız), deyirdim ki, Yusifin ətrini alıram!" (Yusif, 94).

Yaqub düz fikirləşirdi, amma yanındakılar onu təkzib edərək dedilər:

"Onlar: "Allaha and olsun ki, sən yenə öz köhnə yanlışlığında (şaşqınlığında) qalmaqdasan!" dedilər" (Yusif, 95).

Yaqub Yusifin ətrini necə hiss etmişdi? Klassik təfsir kitablarında "ətir" sözü "külək tərəfindən Yusifin köynəyinin Yaquba daşınıb-gətirilən qoxusu" kimi izah olunur. Məsələn, İbn Kəsirə görə, şiddətli külək qopmuş, köynəyin qoxusunu Yaquba gətirmişdi. Bəzi müasir təfsirçilər də bu fikrə tərəfdar çıxır, Yaqubun köynəyin qoxusunu hiss etdiyini deyirlər. Amma onlar Misirlə Kənanilər ölkəsi arasındakı məsafəni nəzərdən qaçırırlar. Seyyid Qütb isə qeyd edir ki, köynəyin qoxusu Yaquba az məsafədən – karvan Kənanilər ölkəsində olarkən küləklə gəlib çatmışdı. Bütün bu təfsirçilər duyğu orqanlarına aid olmayan mənəvi-spiritual bir məsələni fiziki mənada izah etməyə cəhd göstə-

rirlər. Bir qoxu Misirlə Kənanilər ölkəsini ayıran böyük məsafədə, hətta Kənanilər torpağı daxilində necə daşına bilər axı?! Bir qoxu bir mil məsafədə daşınarsa, bunu möcüzə adlandırmaq mümkündür, amma böyük məsafələri necə başa düşək? Yox, desələr ki, bu bir peyğəmbərin göstərdiyi möcüzədir, onda həm özləri rahatlayar, həm də başqalarını rahatladarlar.

Fikrimizcə, Yaqub "Yusifin qoxusunu alıram" sözlərini ya məcazi mənada demişdir, ya da "rih" sözünü "köynəyin qoxusu" mənasında işlətməmişdir. Ərəb dilində "rih" sözünün müxtəlif mənaları (qələbə, üstünlük) vardır. Məsələn, izahlı "əl-Came" lüğətində oxuyuruq: "innə fulənən həbbət rihuhu" (hərf. filankəsin küləyi coşdu); bu frazeoloji birləşmə olub, "filankəsin işi istənilən kimi getdi" deməkdir. Bəlkə də, Yaqub belə demək istəyib: "Yusifin sağ olduğunu, uzaqda olmadığını, nəfəsi və bədənini hiss edirəm". Amma Misirdən karvanın çıxdığı bir vaxtda o bunu necə hiss edib?

"Karvan (vətənə qayıtmaq üçün Misirdən) ayrılanda ataları (Yaqub yanındakı övladlarına) dedi: "Yusifin ətrini alıram!" (Yusif, 94).

Ola bilsin ki, Yaqub bunu Yusifin ona uzaqdan göndərdiyi mənəvi-spiritual ismarışa görə hiss etmişdir. Bu ehtimalı xəlifə Ömərin sərkərdə Sariyəyə göndərdiyi telepatik ismarışla müqayisə etmək mümkündür. Yəni, bu hiss telepatiyanın bir formasıdır.

Bizə elə gəlir ki, kim olduğunu qardaşlarına dedikdən, köynəyini verib onları yola saldıqdan sonra Yusifdə atasını görmək istəyi son dərəcə güclənibmiş. Çünki bir-birindən uzun müddət ayrı qalmış sevgililərdə görüş anı yaxınlaşdıqca həyəcanlanma son həddə çatır; sevgililər görüş yerinə çatmaq üçün addımlarını yeyinlədirlər. Yaqubu bürümüş bu hiss Yusifdən ona, yaxud ondan Yusifə tele-

patik ismarış deyildirsə, bəs nədir? Bəlkə də, bu, Allahın Yusifə, yaxud atasına göndərdiyi möcüzədir; amma bu, Allahdan gələn vəhy olsaydı, Yaqub onu aşağıdakı zəif formulla ifadə etməzdi:

"Əgər məni səfeh hesab etməsəydiniz (və ya yalançı hesab edib danlamasaydınız), deyirdim ki, Yusifin ətrini alıram!" (Yusif, 94).

Əksinə, ailəsinə əminliklə, qəti surətdə belə deyərdi: "Mənə vəhy olundu ki, Yusif sağdır və mən onu bir neçə gündən sonra görəcəyəm!"

Psixosomatik pozğunluqlar

Yusifin köynəyinin üzünə toxunması ilə Yaqubun gözlərinin açılması, şübhə yox ki, psixoloji izahını verməyə cəsarət etmədiyimiz peyğəmbərlik möcüzəsidir. Amma biz Yaqubun kor olma səbəbindən bəhs edən ayə üzərində dayanmaq istəyirik. Ayədən öyrənirik ki, psixoloji-emosional gərginlik fiziki zədələnməyə (bədən xəsarətinə) səbəb olur:

"(Bu sözlərdən sonra Yaqub) onlardan (oğlanlarından) üz döndərdi. (Bin Yaminin başına gələn bu iş onun yadına sevimli oğlu Yusifin müsibətini saldı) və: "(Heyf sənə) yazıq Yusif!" – dedi. Dərd-qəmdən (Yaqubun) gözlərinə ağ gəldi. O, (bütün dərdini) içində çəkirdi" (Yusif, 84).

Bədəndə üzvi xəstəliklərin yaranmasında psixoloji-emosional amillərin rolunun öyrənilməsi müasir psixosomatik tibbin vəzifəsidir. Təbabət tarixindən məlumdur ki, əsrlər boyu həkimlər üzvi xəstəliklərin yaranmasında psixoloji amillərin roluna əhəmiyyət verməmiş, hətta bu məsələyə istehza ilə yanaşmışdılar. Müasir psixosomatik tibbin nəhəng təmsilçiləri, o cümlədən Benson özünün "Timeless healing" kitabında göstərir ki, bu gün həkimlər psixoloji

aspekti nəzərə almır, diaqnoz qoyarkən əsas diqqəti üzvi simptomlara, dərman və cərrahiyyə müalicəsinə və digər fiziki üsullara verirlər. Bensonun dedikləri on iki əsr əvvəl müsəlman alimi və həkimi Əbu Zeyd əl-Bəlxinin "Bədən və ruh üçün nə lazımdır?" ***(Məsaleh əl-əbdan və-l-ənfus)*** traktatında yazdıqları ilə üst-üstə düşür. Hər iki alimin narahatlığını belə ümumiləşdirmək olar: tibbi öyrətmə üsulları və təbabət tələbələrinin imtahana çəkilməsi yolları üzvi xəstəlikləri tanıma, dərman və cərrahiyyə müalicəsinə əsaslanır. Sanki insan, Bəlxinin dediyi kimi, ruhsuz bədəndən ibarətdir.

Dövrümüzdə də həkimlər xəstəliklərin yaranmasında psixoloji-emosional aspektin rolunu qiymətləndirərkən onun təsirini müəyyən xəstəliklərlə məhdudlaşdırmışlar. Keçən əsrin 60-cı illərinədək universitetlərdə öyrəndiyimiz patoloji psixologiya dərsliklərində ancaq mədə və bağırsaq xorası, qan təzyiqinin yüksəlməsi, həzm pozğunluqları və digər xəstəliklərdən danışılırdı. İndi isə bütün üzvi xəstəliklərin, haradasa, psixoloji aspektləri, yaxud səbəbləri olduğu deyilir. O da məlum olub ki, psixoloji-emosional amillərin təsiri daha şaxəlidir; nəticədə orqanizmin viruslara müqavimət gücü zəifləyir, bədənin xərçəng kimi xəstəliklərə tutulma riski artır. Bu ümumiləşdirmə tibdə üçüncü inqilab kimi təqdim olunur. Cərrahiyyə yolu ilə müalicənin kəşfi birinci, penisillin kimi antibiotiklərin kəşfi ikinci, psixika və intellektin orqanizmə təsirinin kəşfi isə üçüncü inqilab sayılır.

Bu səbəbdən ayədə deyilənlər Quranın möcüzələrindən sayıla bilər. Hədsiz kədər Yaqubun gözlərinin tutulmasına səbəb olmuşdu. Yeri gəlmişkən, son tədqiqatlar fərdin psixosomatik xəstəliklərə tutulmasını sürətləndirən amilləri aşkara çıxarmışdır. Bu amillərin ən mühümü bərk həyəcanlanma zamanı həyəcanın boğulması, yaxud qəzəb

və digər emosiyalarla "bədəndən xaric" edilməməsidir. Aşağıdakı ayəyə fikir verin:

"Dərd-qəmdən (Yaqubun) gözlərinə ağ gəldi. O, (bütün dərdini) içində çəkirdi" (Yusif, 84).

Yusif üzündən Yaqubun heyfsilənməsi, dərd-qəmə batması o dərəcədə şiddətli idi ki, xəstə qocanın bu vəziyyətə dözməsi mümkün deyildi, odur ki gözləri kor olmuşdu. Buna baxmayaraq, Yaqub səbir edirdi. Amma kədərini üzə vurmadığı üçün iztirabı ağır idi. Üstəlik, yaşı çox olduğuna və gözlərinə ağ gəldiyinə görə sıxıntısını yüngülləşdirə bilmirdi. Yaqub onu Yusifdən məhrum etmiş övladları arasında girov idi. Bu səbəbdən onlara aşağıdakı təsirli sözləri demişdi:

"Sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir (çirkin əməlinizi sizə gözəl göstərmişdir). Mənə yalnız gözəl (tükənməz, dözümlü) səbir gərəkdir" (Yusif, 18).

Bütün bunlar gözünə ağın gəlməsinə və görmə qabiliyyətini itirməsinə zəmin hazırlayacaqdı.

Bədnəzər

"Yusif" surəsində oxuyuruq ki, Yaqub Misirə səfərə getmək istəyən oğullarına eyni qapıdan deyil, ayrı-ayrı qapılardan şəhərə daxil olmağı tövsiyə etmişdi. Müfəssirlərə görə, Yaqub onlara bədnəzərin dəyməsindən ehtiyatlanırdı. Çünki oğlanları bir atanın on bir oğlu olub, görünüş, gözəllik və qüvvət baxımından gözəgəlimli idilər. Bədnəzər haqqında Peyğəmbər buyurmuşdur: "Bədnəzər gerçəkdir, qisməti qabaqlayacaq bir şey olsaydı, bu, bədnəzər olardı"[1]. Bədnəzərin mahiyyətini, həsəd və sehrlə əlaqəsi-

[1] Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998, hədis № 2188, səh. 900.

ni açmağa çalışaq. “Fələq” surəsində bu barədə məlumat vardır.

Həsəd pis və zərərli emosiyadır; paxıl (həsəd edən) insanda başqalarına Allahın bəxş etdiyi nemətlərin (zənginlik, var-dövlət, sağlamlıq, gözəllik, biliklilik, kəskin hafizə) yox olması istəyi güclüdür. O, pis emosiyanın, duyğunun əsir etdiyi kimsədir. Buna baxmayaraq, ondakı həsəd ətrafdakılara zərər toxundura bilmir. Amma həsəd Allahın bu şəxsə bəxş etdiyi mənəvi-psixoloji enerji ilə güclənərsə, onun bədxah istəkləri qarşı tərəfə zərər yetirmək, yaxud maddi və mənəvi nailiyyətlərini yox etmək üçün gerçəkləşəcəkdir. Təbii ki, bütün bunlar Allahın icazəsi olmadan baş vermir.

Bədnəzəri olan şəxs psixoloji-spiritual bacarığı olan şəxsdir; bəzən o belə bir bacarığının olduğunu bilmir, odur ki qeyri-iradi formada yaxınları və doğmalarına nəzər toxundurur. Yox, bu bacarığından, bədxah istəklərinin gerçəkləşməsi üçün şeytani ruhlarla iç-içə olmağından xəbəri varsa və sonuncularla “əməkdaşlıq” edirsə, bədnəzər sahibi olmaqdan çıxıb sehrkarlığa yüksəlir. Bu, bədnəzər, həsəd və sehrlə əlaqəsi haqqında yığcam və sadə məlumatdır.

Sual yaranır: psixoloji-spiritual qüvvə uzaqdan canlı, yaxud cansız orqanizmə təsir göstərə bilərmi? Yuxuların yaranması haqqında danışarkən qeyd etmişdik ki, bədən yatdıqda ruhun psixoloji-spiritual gücü artır, dünyamızdakı yaxşı və pis mücərrəd varlıqlarla əlaqəyə girir; belə əlaqə nəticəsində yuxuların müxtəlif növləri yaranır.

Qeyd edək ki, insan ruhu ilə onu cəlb edən yaxşı və pis ruhlar arasındakı qarşılıqlı əlaqənin intensivliyi şüur ayıq ikən aşağı olur. Biz bunu Şeytanın tovlamaları, pisliyi əmr edən nəfsimizin istəkləri zamanı hiss edirik. Eləcə də biz onun xoş təsirini bizə özünü qınayan nəfs hakim olduqda,

yaxud yaxşı ruhların gücləndirdiyi mənəvi sevinc anında duya bilirik. Belə qarşılıqlı əlaqə təkcə psixoloji-spiritual deyil, həm də fiziki aspektlərdə özünü göstərir. Bu ona görədir ki, ruhla bədən arasındakı fundamental fərq fizika, təbabət və psixologiya elmlərinin öyrəndiyi məsələlərdən birinə çevrilib.

Həyəcan və psixoloji vəziyyətin bədənə təsiri nəticəsində, yuxarıda dediyimiz kimi, psixosomatik xəstəliklər yaranır. Tibdə danılmaz gerçəklik hesab olunan bu təsir psixoloji aspektlərin fiziki orqanlara təsirini sübut edir. Yəni, bu, ruhun qeyri-fiziki potensialının canlı və cansız orqanizmlərdə dəyişiklik yaratma mümkünlüyünü təsdiqləyir. Amma bu, bədnəzərdə olduğu kimi psixoloji enerjinin kənar şəxslərə təsirini sübut etmir.

İnterneti "vərəqlədikdə" ruhun bədənə təsiri haqqında inandırıcı faktların şahidi oluruq. Məsələn, ABŞ-ın Harvard Universitetinin nəzdində fəaliyyət göstərən Ağıl və Bədən İnstitutunun rəhbəri Riçard Benson sübut etmişdi ki, Himalay dağlarında yoqa ilə məşğul olanlar bədənlərinin qeyri-iradi funksiyalarını tənzimləməyi bacarırlar. Belə ki bu insanlar ayaqlarının temperaturunu yüksəldir, ürək döyüntülərinin intensivliyini azaldırdılar. Yəni, onlar orqanizmin elmdə qeyri-iradi hesab olunan funksiyalarını tənzimləmək üçün psixoloji-mənəvi enerjidən istifadə edə bilirlər. Onlar buna psixoloji və mənəvi konsentrasiya və relaksasiya (gərginliyi azaltma, rahatlanma) sayəsində nail olurlar. Görəsən, onlar belə güclü psixoloji-mənəvi enerjini, bədnəzərdə olduğu kimi, ətrafdakı insanlarda fiziki dəyişiklik yaratmaq üçün istiqamətləndirə bilərlərmi?

Əgər bədnəzər psixoloji-spiritual enerjinin canlı orqanizmlərə və cansız təbiətə təsirindən ibarətdirsə, onda modern fizikada bu hadisəni dolayısı ilə təsdiqləyən bəzi ipucularına rast gəlirik. Eynşteyn Nisbilik nəzəriyyəsi ilə

sübut etmişdi ki, maddə (kütlə) və enerji dəmir pulun iki üzünü xatırladır. Subatom fizikasında[1] sübut olunub ki, atomu əmələ gətirən zərrəciklərin hərəkətini ölçən cihazın qarşısında hansı isə şəxsin dayanması onların hərəkətinin dəyişilməsinə səbəb olur. Yəni, insan şüuru hətta uzaq məsafədən elektronların və digər hissəciklərin hərəkətini dəyişdirə bilər[2]. Bütün bu tədqiqatlar isbatlayır ki, insan şüurunun nəyəsə köklənməsi istər şəxsin özündə, istərsə də ətrafdakılarda müəyyən dəyişikliyə səbəb olur.

Psixologiya elmi, o cümlədən parapsixologiya və telekinez (psixokinez[3]) araşdırmaları bizə tutarlı sübutlar təqdim edir. Bu tədqiqatlar göstərir ki, bəzi vergili şəxslər iradələrini toplamaqla bu və ya digər predmetə təsir göstərərək onu hərəkət etdirməyi bacarırlar. Bəziləri bu araşdırmaların mötəbərliyinə şübhə ilə yanaşsa da, son dövrdə münsiflərin nəzarəti altında aparılmış təcrübələr bu fenomenin doğruluğunu sübut etmişdir. Belə mühüm təcrübələrdən birini Prinston Universitetində Paranormal (parapsixoloji) Araşdırmalar Laboratoriyasının müdiri professor Robert Can aparmışdı. Onun araşdırmaları söz-söhbətə son qoymuşdu; Can bəzi şəxslərin psixoloji (həm də mənəvi) enerji ilə predmetləri uzaqdan hərəkət etdirmə bacarığını təsdiqləyən sübutlar təqdim edə bilmişdi. Alimin təcrübələrində yüzlərlə şəxs iştirak etmişdi. Onların üzərində minlərlə təcrübə aparılmış, Canın fərziyyəsi statistik təsdiqini tapmışdı. Amma dünyəviləri, ateizmi özlərinə din

[1] Subatom fizikası dedikdə atomun ölçüsündən kiçik məsafələrdə baş verən hadisələr fizikası, başqa sözlə, fizikanın ölçüləri atomun ölçüsündən kiçik olan obyektləri – atom nüvəsi və elementar zərrəcikləri öyrənən bölməsi başa düşülür – ***tərcüməçinin qeydi.***

[2] Capra, Fritjof, The Tao of physics (1992(. In his Forward to Valle, R. S. & Eckartsberg, R.(1981).The metaphors of consciousness. New York: Plenum Press

[3] Psixoloji enerji ilə əşyaları hərəkət etdirmə – ***tərcüməçinin qeydi.***

seçənləri inandırmaq mümkün deyildir, çünki onlar bu təcrübələri dini-mənəvi düşüncənin məhsulu hesab edərək materializmlə üst-üstə düşmədiyini bildirirlər.

Deməli, bədnəzər, Peyğəmbərin dediyi kimi, gerçəkdir, yeni araşdırmalar və faktlar da bunu təsdiqləyir. Əgər baxışları və psixoloji enerjilərini konsentrasiya etməklə əşyaları tərpədən şəxslərə rast gəliriksə, deməli, bu cür insanların nəzər və psixoloji-mənəvi enerjidən istifadə etməklə orqanizm və əşyalarda dəyişiklik yaratmaq bacarığını təəccüblə qarşılamamalıyıq. Bir müsəlman psixoloqun, bir tərəfdən, bədnəzər və təsirindən bəhs edən hədisə rişxəndlə ağız büzüb bunu qədim ərəblər və digər xalqlardan qalma xurafat sayması, digər tərəfdən isə Robert Canın telekinez və telepatiya ilə əlaqəli paranormal araşdırmalarına heyranlığını ifadə etməsi, doğrudan da, təəccüblü haldır.

Mülahizələrimə bədnəzər, telepatiya, bəsirət kimi psixoloji-mənəvi halların mövcudluğuna inamımı möhkəmləndirən şəxsi təcrübəmlə yekun vurmaq istəyirəm. Əlbəttə ki, bu qənaəti məndə, hər şeydən əvvəl, bədnəzərə dair hədislər, sehr və sehrbazlardan bəhs edən ayələr formalaşdırıb. Allaha and içirəm ki, keçən əsrin səksəninci illərində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən mənə Efiopiya və Sudanda ənənəvi psixoterapiya tədqiqatları aparmaq tapşırıldıqda bu cür halların şəxsən şahidi olmuşdum. Həmin vaxt görmüşdüm ki, ara həkimləri, şeyxlər, cadugərlər, şeytani ruhlarla əlaqədə olanlar ağıllarına materialist düşüncə qıfılı vurmuş kimsələrin inanmayacağı xüsusi üsullardan istifadə edirlər.

Son söz

İnsan oğlu ilk dövrlərdən məntiqə əsaslanan düşünmə bacarığını hisslər və emosiyalardan fərqləndirmişdir. Ağıl düşünməyə, rasionallığa çağırdığı halda, emosiyalar bizi, məsələn, qəzəbi yatırmaq üçün hansı isə işi tələsik görməyə təhrik edir. Bu iki cəhət arasındakı formal ziddiyyətə baxmayaraq, insanın xoşbəxtliyi və mənəviyyatca kamilləşməsi onların balansda götürülməsindən asılıdır. Emosiyalar, duyğular (sevgi, şəfqət, sevinc) olmadan həyatın dadı yoxdur. Qorxu və narahatlıq olmasaydı, təhlükələrdən xilas ola bilməzdik. Qəzəblənmədən toxunulmaz dəyərləri qorumaq mümkün olmazdı.

Lakin insan oğlunun duyğuları ifratçılığın qarşısını kəsən ağıl və düz yoldan sapmasına əngəl yaradan əxlaq tərəfindən tənzimlənmədikdə insan insanlığı itirərək heyvana çevrilir. Məsələn, qəzəb və qisasda, ehtiraslarında ifrata varsa, qəlbi daşlaşır, xarakterinin mərhəmət, şəfqət və sevgi çeşmələri quruyur. Əslində belə zərərli emosiyaların hakim kəsildiyi şəxs instinktiv formada öz istəklərinin arxasınca gedən heyvandan da pisdir. Aşağıdakı ayə belə şəxslərə aiddir:

"Onlar heyvan kimidirlər, bəlkə, ondan daha çox zəlalət yolundadırlar. (Heyvan heyvanlığı ilə öz mənfəətini bilib ona zərər gətirən bir işi görməz. Bunlar isə nə xeyirlərini, nə də zərərlərini anlayarlar)" (əl-Furqan, 44).

İslamın bu cür məsələlərini ixtisasca araşdıran psixoloq özünü iki ifrat nöqteyi-nəzər qarşısında tapır. Birinci nöqteyi-nəzər modern Qərb psixologiyasını islama düşmən

kəsilən yəhudi-xristian sivilizasiyası qalıqlarının əsasında yaradılmış ateist-dünyəvi ixtisas hesab edir. Deməli, nəinki peyğəmbərlərin həyatı və nəcib keyfiyyətləri, hətta adi dini mövzulardan danışarkən bu elmin tezislərinə istinad etmək olmaz. Bu nöqteyi-nəzərin tərəfdarlarının əksəriyyəti psixologiya ixtisası olmayan dindarlardan ibarətdir. Yuxarıdakı nöqteyi-nəzəri onların Freyd və anormal təlimi haqqında eşitdikləri formalaşdırmışdır; onlar səhvən elə zənn edirlər ki, psixologiya elminin bütün sahələrinə Freydin psixoanaliz təlimi hakimdir, başqa sözlə, psixologiya bu və ya digər şəkildə psixoanaliz təliminin özüdür. Bu səbəbdən düşünürlər ki, islamın ayrı-ayrı məsələlərini psixoloji cəhətdən təhlil etmək istiqamətində edilən istənilən cəhd dinin toxunulmazlığına xələl gətirmək cəhdidir.

İkinci ifrat nöqteyi-nəzəri isə psixologiya ixtisasına yiyələnmiş bir qrup şəxs təmsil edir. Onların elmi şöhrəti psixologiya elminə dair səthi dünyəvi təsəvvürlərə əsaslanır. Bu psixoloqlar bildirirlər ki, modern psixologiya fəlsəfə və dini düşüncəni bir kənara ataraq elmilik baxımından fizika və biologiya kimi dəqiq elmlərdən birinə çevrilib. Onlar psixologiyanı tutarlı-tutarsız, müsbət və zərərli nəzəriyyələri ilə birlikdə empirik elm sayırlar. Halbuki bu gün Qərb alimlərinin əksəriyyəti bu yanaşmanı qəbul etmir. Sözükeçən psixoloqlara görə, dini-mənəvi məsələləri və peyğəmbərlərin həyatını öyrənərkən bu elmin nəzəriyyələrindən, eləcə də elmi əsası olmayan tezislərindən istifadə etmək mümkündür.

Bu səbəbdən biz kitabda, xüsusən psixologiya ixtisası olmayan oxuculara psixologiyanın elmi baxımdan əsaslandırılan, peyğəmbərlərin həyatını öyrənmədə işə yarayan təlimləri ilə qeyri-obyektiv, dünyəviliyə söykənən tezisləri arasındakı fərqi açıb göstərmişik. Bu fərqi daha çox

izah etmək üçün peyğəmbərlərin həyatının psixoloji aspektlərindən yazan müəlliflərdən də danışmışıq. Həmin müəlliflərin bəzisi araşdırmalarında yoxlanılmış psixoloji tezislərə, etik qaydalara əməl etdikləri halda, digərləri Qərbdə əsassızlığı sübut olunmuş nəzəriyyələrdən çıxış etmiş, peyğəmbərlərə hörmət qoymayan üsluba üstünlük vermişlər. Biz bununla peyğəmbərlərin həyatı və emosiyaları haqqında danışarkən münasib üslubun seçilməsinin əhəmiyyətini göstərmişik.

Kitab peyğəmbərlərin həyatının psixoloji-emosional aspektləri mövzusuna həsr edildiyi üçün ayrıca fəsildə müasir psixoloji-nevroloji araşdırmalar baxımından emosiya və həyəcanlanma haqqında danışılır. Oxucunu bu mövzu ilə tanış etmədən kitab haqqında aydın təsəvvür yaratmaq mümkün deyildir. Həmçinin bu mövzuda təcrübi elmin isbatladığı məsələləri nəzəri müddəalar və dünyəvi psixoloqların iddialarından fərqləndirmişik. Bu psixoloqlar sadə insanları özlərinin materialist fikirlərinə inandırmaq üçün bioloji-empirik tədqiqatların nəticələrini istədikləri kimi izah edirlər. Onlar insanın formalaşmasında ruhun rolunu inkar edərək, davranışların formalaşmasında beynin rolunu qabardırlar. Biz bu fəsildə psixoloq olmayan oxucunun başa düşməsi üçün sadə üsluba müraciət etmişik. İlk iki fəsil kitabın ana mövzusunun öyrənildiyi sonrakı dörd fəsilə giriş məqsədi daşıyır.

Üçüncü fəsil ibadətdə və imanın kamilləşməsində emosiyaların rolu haqqındadır. Çünki emosional aspekt olmadan imanın "əriyib" zəifləməsi mümkündür. "Soyuq" biliklərə əsaslanan ibadət sevgi, qorxu və ümid duyğuları ilə "isindikdə" səmərə verir. Nəticədə qəlb mülayimləşir, göz yaşarır, nəsibə ilahi qəbul və sevgi düşür. Sırf psixoloji aspektdən emosiya insan davranışının üçüncü əsasını əmələ gətirir. Koqnitiv aspekt isə bizi maraqlandığımız mövzu-

ya dair mühüm məlumatlarla təmin edir. Bundan sonra məsələnin əməli tərəfi özünü göstərir. Yəni, əməllərimiz əldə etdiyimiz informasiyaya uyğun olur. Bundan sonra emosional aspekt gəlir. Fərd nailiyyətlərinə görə sevinir və onu özünəinam hissi bürüyür.

Biz problemi islam prizmasından müzakirə obyekti seçməklə emosiya ilə ruh arasındakı gizli sıx əlaqəni üzə çıxarmağa cəhd etmişik. Təəssüf ki, modern psixologiya bu əlaqənin mövcudluğuna müsbət yanaşmır.

Dördüncü fəsildə peyğəmbərlərin emosiyaları mövzusu öyrənilir. Qeyd etmişik ki, peyğəmbərlərin də sinir sistemi vardır. Onlar da baş verənlərə emosiyaları ilə münasibət bildirirlər. Biz bu fəsildə stimul və reaksiyaların da təsnifatını aparmışıq.

Birincisi tez və qeyri-iradi olaraq göstərdiyimiz reaksiyalardır. Bu reaksiyalar bizdən asılı deyildir və onu tənzimləyə bilmirik. Yırtıcı heyvanlardan, zəlzələdən qorxmağımız, ümumiyyətlə qorxulu hesab olunan hər şey, düşünmədən və anidən reaksiya verdiyimiz müəyyən situasiyalar buna misaldır. Neyrobioloqlar iddia edirlər ki, belə ani reaksiyaları amiqdala doğurur; çünki insan özünü ani müdaxilə tələb edən çətin vəziyyətdə tapır, düşdüyü hal ətrafındakı qəfil dəyişikliyə verdiyi reaksiyadan ibarət olur. Bu cür qeyri-iradi reaksiyalar bizə sinir sistemimizlə əlaqəli refleksləri xatırladır. Bərk qızmış səthə toxunduğumuzda əlimizi çəkməyimiz, qamaşdırıcı işıq düşdükdə gözlərimizi qırpmağımız buna misaldır.

İkinci növ reaksiyalar iradi formada baş verir; bu vaxt biz qərarlarımızın nəticələrinə görə məsuliyyət daşıyırıq. Yəni, həyəcan yaradan situasiyanı dərk edib qiymətləndirir və qərar veririk. Bu cür stimullara verilən reaksiyalar bir neçə amillə şərtləşir: stimulun dərəcəsi, qıcıqlanmış şəxsin psixoloji vəziyyəti, inancı və s. Qeyd etmişik ki,

belə vəziyyətlərdə peyğəmbərlərin reaksiyaları adi inanclı şəxslərinkindən fərqlənir. Həmçinin reaksiyalara görə məsuliyyət daşımada peyğəmbərlər adi insanlar kimi deyildir.

Beşinci fəsildə peyğəmbərlərin emosional, psixoloji və mənəvi keyfiyyətləri mövzusuna toxunmuşuq. Qeyd etmişik ki, Allah hər peyğəmbər üçün münasib mühit və irsiyyəti müəyyənləşdirib.

Son iki fəsildə Quranda öz əksini tapmış həyat hekayələri əsasında Həzrət Musa və Yusifin emosional və psixoloji tablosunu yaratmağa cəhd etmişik.

Beləliklə, kitabımızın sonuna çatdıq. Yazdıqlarımız psixologiya ixtisası üzrə təhsil alanlar, eləcə də oxucular üçün faydalıdırsa, Allaha şükür olsun; yox, yazdıqlarımın faydası yoxdursa, qələmimdən çıxanlara görə Allahdan bağışlanma diləyirəm! Bunlar, sadəcə mülahizələrdir, şəxsi təsəvvürlərdir... Diləyim budur ki, Uca Allah mənə ikinci kitabımı – Həzrət Məhəmmədin həyatının emosional aspektlərindən bəhs edən "Peyğəmbərlərin böyüyünün həyatında emosiya və şəfqət" adlı kitabımı başa çatdırmağa imkan versin.

İstifadə edilmiş ədəbiyyat

Ərəb dilində

1. Abdullah Kamal. Peyğəmbərlərin psixoloji təhlili. Qahirə: "Dar əl-xəyal", 1996.

2. Con Karl Flügel. İnsan, əxlaq və cəmiyyət: psixoanalitik araşdırma. Beyrut: "Dar əl-fikir əl-ərəbi", 1966.

3. Əbdülhadi əl-Fəqir. Psixoanaliz və ərəb kimliyi: nəzəriyyədən təcrübəyə // "Arabpsynet" jurnalı, 2008, № XIX. http//:elfakir-arab-nafs.blogspot.com/p/blog-page.25_html

4. Əbdürrəhman Əhməd ibn Şüeyb ən-Nəsai. Əs-Sünən əl-kübra / araşdırıb çap edən: Həsən Əbdülmünim Şələbi. Beyrut: "Müəssisə ər-Risalə", 2001.

5. Əbdüssəttar İbrahim. İnsan və psixologiya. Küveyt: "Bilik dünyası", 1985.

6. Əbu Abdullah Əhməd ibn Məhəmməd ibn Hənbəl. Müsnəd əl-İmam Əhməd / araşdırıb çapa hazırlayan: Şüeyb əl-Ərnəut və digərləri. Beyrut: "ər-Risalə", 2001, XXIX cild.

7. Əbu Abdullah Məhəmməd ibn Abdullah əl-Hakim ən-Nisaburi. Əl-Müstədrək əla əs-səhiheyn / araşdırıb çapa hazırlayan: Mustafa Əbdülqadir Əta. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1990, IV cild.

8. Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə əd-Diməşqi. Rövzət əl-mühibbin və nüzhət əl-müştaqin. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1992.

9. Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə əd-Diməşqi. Əl-Mənar əl-münif fi-səhih vəz-

zəif / araşdırıb çapa hazırlayan: Əbdülfəttah Əbu Qüddə. Hələb, 1403 (hicri).

10. Əbu Abdullah Məhəmməd ibn Əbubəkr ibn Qəyyim əl-Cövziyyə. Ruh. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1975.

11. Əbu Abdullah Məhəmməd ibn Əhməd əl-Qurtubi. Əl-Came li əhkam əl-Quran // araşdırıb çapa hazırlayan: Səmir əl-Buxari. Ər-Riyad: "Dar aləm əl-kutub", 2003, XII cild.

12. Əbu Abdullah Məhəmməd ibn Əli ibn əl-Həsən ibn Bişr ət-Tirmizi. Ədəb ən-nəfs // araşdırıb çapa hazırlayan: Əhməd Əbdürrəhim əs-Saih. Misir: "Əd-Dar əl-misriyyə əl-lübnaniyyə", 1993.

13. Əbu Abdullah Məhəmməd ibn İsmayıl əl-Buxari. Səhih əl-Buxari. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998.

14. Əbu Abdullah Məhəmməd ibn Yezid ibn Macə. Sünən İbn Macə. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999.

15. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Came əl-bəyan fi təfsir əl-Quran. "Dar əl-hicr" nəşriyyatı.

16. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Peyğəmbərlər və hökmdarların tarixi / araşdırıb çapa hazırlayan: Məhəmməd Əbülfəzl İbrahim. Misir: "Dar əl-məarif", II cild.

17. Əbu İsa ibn Məhəmməd ibn İsa ibn Sövrə ət-Tirmizi. Came ət-Tirmizi. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1999.

18. Əbubəkr Əhməd ibn əl-Hüseyn əl-Beyhəqi. Peyğəmbərliyin sübutları // araşdırıb çapa hazırlayan: Əbdülmö`ti Qələci. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1988, VII cild.

19. Əbubəkr Əhməd ibn əl-Hüseyn ibn Əli əl-Beyhəqi. Əs-Sünən əl-kübra / araşdırıb çapa hazırlayan: Abdullah

Əbdülmühsin ət-Türki. "Həcər" Ərəb Tədqiqatları Mərkəzi"nin nəşrləri, 2011.

20. Əbubəkr Əhməd ibn Əli ibn Sabit əl-Xətib əl-Bağdadi. Əl-Came li-əxlaq ər-ravi və adab əs-same / araşdırıb çapa hazırlayan: Məhəmməd Üccac əl-Xətib. Beyrut: "Risalə", 1989, II cild.

21. Əbülabbas Əhməd ibn Məhəmməd ibn Üceybə. Əl-Bəhr əl-mədid fi təfsir əl-Quran əl-məcid // araşdırıb çapa hazırlayan: Əhməd Abdullah əl-Qürəşi. Qahirə: 1999.

22. Əbülfəzl Cəmaləddin Məhəmməd Mükərrəm ibn Mənzur. Lisan əl-ərəb. Beyrut: "Dar sadir", (çap tarixi göstərilməyib).

23. Əbülfəzl Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani. Əl-İsabə fi təmyiz əs-səhabə / araşdırıb çapa hazırlayan: Əli Məhəmməd əl-Bəcavi. Beyrut: "Dar əl-cil", 1412 (hicri), II cild.

24. Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əl-Bidayə vən-nihayə. Beyrut: "Dar əl-mərifət", 1997.

25. Əbülfida İsmayıl ibn Kəsir əl-Qürəşi. Əs-Sirə ən-nəbəviyyə. Beyrut: "Dar əl-mərifət", 1976.

26. Əbülhüseyn Müslim ibn əl-Həccac əl-Qüşeyri. Səhihi-Müslim. Ər-Riyad: "Beyt əl-əfkar əd-düvəliyyə", 1998.

27. Əbülqasim Süleyman ibn Əhməd ət-Təbərani. Əl-Möcəm əl-kəbir / araşdırıb çapa hazırlayan: Həmdi ibn Əbdülməcid. Qahirə: "Məktəbə İbn Teymiyyə", çap ili göstərilməyib, V cild.

28. Əbülqasim Süleyman ibn Əhməd ət-Təbərani. Əl-Möcəm əl-övsət / araşdırıb çapa hazırlayan: Tariq Əvəzullah. Qahirə: "Dar əl-hərəmeyn", çap ili göstərilməyib.

29. Əhməd ibn Hamid əl-Qamidi. Alimlərin gördükləri yuxuların izahı // Ərəb Elmi Cəmiyyəti Assosiasiyasının rəsmi saytı: 0- 8- .https://arsco.org/article-detail-688

30. İbrahim Əbdürrəhim Mustafa. Qurani-Kərimdə peyğəmbərlərin psixoloji həyəcanları // doktorluq dissertasiyası, Milli Nəcah Universiteti, Nablus, Fələstin, 2009.

31. Qazi Əbubəkr Məhəmməd ibn Abdullah ibn əl-Ərəbi əl-İşbili əl-Maliki. Əhkam əl-Quran / şərhçi: Məhəmməd Əbdülqadir Əta. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 2003, III cild.

32. Malik Bədri. İslam universitetlərində psixologiya üsullarının islamcasına əsaslandırılması məsələləri və Əbu Zeyd Bəlxi ilə düşünərkən // "Təcdid" jurnalı, XXXIX cild, 2016.

33. Malik Bədri. Təfəkkür: idrakdan qavrayışa doğru. Beynəlxalq İslam Fikri İnstitutunun nəşrləri, 1995.

34. Məhəmməd ibn Aydəmir əl-Müstə`səmi. Əd-Dürr əl-fərid və beyt əl-qəsid \\ araşdırıb çapa hazırlayan: Kamil Salman əl-Cəburi. Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 2015, IV cild.

35. Məhəmməd ibn İshaq ibn Yəsar ibn İshaq. Sirət İbn İshaq // araşdırıb çapa hazırlayan: Məhəmməd Həmidullah. Məğrib: "Mə`həd əd-dirasat vəl-əbhas vət-tə`rib", 1976, V cild.

36. Məhəmməd Qəzali. İslamın emosional tərəfi: əxlaq, davranış və təsəvvüfə dair araşdırma. İsgəndəriyyə, 1990.

37. Ser Əhməd Süleyman. Qurani-Kərimdə mimikanın psixoloji aspektləri. Ər-Riyad: "Məktəbə ər-rüşd", 2017.

38. Seyyid Qütb. İslam təsəvvürünün xüsusiyyətləri. Beyrut: "Dar əş-şüruq", 2000.

39. Seyyid Qütb. Quranın kölgəsində. Qahirə: "Dar əş-şüruq", V cild.

40. Süleyman ibn əl-Əş`əs əbu Davud əs-Sicistani. Sünən Əbu Davud. Ər-Riyad: "Beyt əl-əfkar əd-duvəliyyə", 1999.

41. Şəmsəddin Məhəmməd ibn Əhməd ibn Osman əz-Zəhəbi. Siyər ə`lam ən-nübəla // araşdırıb çap edən: Şüeyb əl-Ərnəut. Beyrut: "Müəssisə ər-risalə", 1982, I cild.

42. Təqiyyəddin Əbülabbas Əhməd ibn Əbdülhəlim ibn Teymiyyə əl-Hərrani. Fitvalar külliyyatı / araşdırıb çap edən: Ənvər əl-Baz və Amir əl-Cəzzar. "Dar əl-vəfa" nəşriyyatı, 2005, X cild.

Qərb dillərində

1. Benson, H. Timeless Healing. London: Simon & and Schuster, 1996.

2. Brown, S.C. (ed.). Philosophy of psychology. London: The Macmillan Press Ltd., 1979.

3. Capra, Fritjof. The Tao of physics. Boulder CO: Shambhala Publications, 5th edition 2010.

4. Darwin, Charles. The Expression of the Emotions in Man and Animals. Oxford: Oxford University Press, 2013.

5. Driscoll, David Matthew. The effects of prefrontal cortex damage on the regulation of emotion, Iowa City, IA: University of Iowa, 2009.

6. Eagleman, David. Incognito: The secret lives of the brain. Amazon.com, 2012.

7. Eccles, J. Evolution of the brain: Creation of the self. London: Routledge Publishers, 1991.

8. Eysenck, H. J. "The effects of psychotherapy: an evaluation", Journal of Consult, Psychol, 1952.

9. James, William. The Varieties of Religious Experience: a study in Human Nature, London: Penguin Classics, 1982.

10. Ottoson, David & Others. Challenges and Perspectives in Neuroscience. Oxford: Pergamon Press, 1st edition, 1995.

11. Schmiderberg, Melitta. “Psychotherapy with failures of psychoanalysis”. British Journal of psychiatry, 1970.

12. Thornton, Elizabeth M. Freud and Cocaine: The Freudian Fallacy. London: Blond & Briggs Publishers, 1983.

13. Valle, R. S. & Eckartsberg, R. The metaphors of consciousness. New York: Plenum Press, 1992.

14. Vitz, P. Psychology as a religion: The cult of self worship. London: William Eerdmans Publishing, 1977.

15. Watson, J. B. Behaviorism. Chicago, IL: University of Chicago Press, 1930 .

16. Wolpe, J. Psychotherapy by reciprocal inhibition. Stanford: Stanford Univ. Press, 1958.

Malik Bədri (*1932-2021*)

Sudanlı psixoloq və mütəfəkkir, müasir islam psixologiyasının banisi, pedaqoji psixologiya və psixoterapiya üzrə beynəlxalq dərəcəli mütəxəssis.

1961-ci ildə İngiltərənin Lester universitetində psixologiyası ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmiş, 1967-ci ildə elmlər doktoru adına layiq görülmüşdür.

1977-ci ildə Britaniya Psixoloqlar Cəmiyyəti və Templ Universiteti Tədqiqatlar və Davranış Terapiyası Cəmiyyətinin (ABŞ) üzvü seçilmişdir.

Sudan Psixologiya Cəmiyyəti və Müsəlman Psixoloqları Beynəlxalq Cəmiyyətinin qurucusu olmuş, Beyrut Amerika Universiteti, İordaniya Universiteti, İmam Məhəmməd ibn Səud Universiteti, Xartum və Ümmi-Dərman Universiteti, Malayziya Beynəlxalq İslam Universiteti və İstanbul Səbahəddin Zəim Universitetində dərs demiş, mühazirələr oxumuşdur.

Bəzi əsərləri:

Pedaqoji psixologiya
İslam prizmasından psixologiya elmi
İslam və alkoqolizm
İslam və psixoanaliz
Müsəlman psixoloqlarını böhranı
QİÇS böhranı: modernizmin seksual inqilabının təbii nəticəsi
Təfəkkür: idrakdan qavrayışa doğru
İslama görə alkoqolun qadağan edilməsinin hikməti və s.

Mündəricat

Giriş 3
Ön söz 7
Kitabın üslubu: ciddi akademik üslub,
yoxsa emosional düşüncə tərzi? 9

Birinci fəsil
Müasir psixologiya peyğəmbərlərin
məziyyətlərinin öyrənilməsində işə yarayırmı?
- 11 -

Peyğəmbərlərin emosiyalarının öyrənilməsində
qeyri-məqbul sayılan, yaxud müəyyən redaktə
tələb edən ən mühüm psixoloji nəzəriyyələr 12
Psixoanaliz 14
Biheviorizm 16
İnsan təbiətinə dair ifrat biopsixoloji təsəvvürlər 23
Peyğəmbərlərin emosiyalarının öyrənilməsində istifadə
edilməsi mümkün psixoloji nəzəriyyə və təcrübələr 24

İkinci fəsil
Yeni psixonevroloji tədqiqatlarda
emosionallıq problemi
- 35 -

Həyəcan formaları hər yerdə eynidir 35
Yeni psixologiya elminin mühüm nailiyyətləri 36
Həyəcanlanma haqqında yeni nəzəriyyələr 37
Ağıl və beyin 40
Beyin və sinir sisteminin yaradılması möcüzəsi 48

Üçüncü fəsil
Allaha ibadətdə biliklərlə kifayətlənib emosiyaları sərf-nəzər etmək imanı kamilləşdirirmi?
- 59 -

Mənəvi istəyin yaranmasına emosionallığın təsiri 70

Dördüncü fəsil
Bəşərilik və məsumluq baxımından peyğəmbərlərin emosional reaksiyaları
- 76 -

Beşinci fəsil
Hər peyğəmbər üçün münasib mühit və irsiyyətin seçilməsi haqqında
- 104 -

Giriş 104
Peyğəmbərlərin xarakterinin formalaşmasında irsiyyət və mühitin rolu haqqında 106
Mənəvi varislik, yaxud irsiyyət. 108
Peyğəmbərlər və fiziki cəhətdən güclü olmağın əhəmiyyəti 113
Ağıl və yaradıcı təfəkkür 116
Əsilzadəlik və əsil-nəcabət 119

Altıncı fəsil
Allahın Musa peyğəmbər üçün münasib mühit və irsiyyət seçməsi haqqında
- 121 -

Tərbiyədə ananın rolu 124
Musanın əsilzadə nəsildən çıxması 126
Allahın Musaya qüvvətli bədən və emosionallıq bəxş etməsindəki sirr 127

Yeddinci fəsil
Allahın Yusif peyğəmbər üçün münasib mühit və irsiyyəti seçməsi haqqında
- 134 -

Yuxuya dair neyropsixoloji və təcrübi araşdırmalar 135
Yuxuların mənəvi və proqnozlaşdırıcı tərəfinin psixologiya elmi tərəfindən inkar edilməsi 136
Yuxular və təsnifatına dair islam nöqteyi-nəzəri 146
Allahın Yusif peyğəmbər üçün münasib irsiyyət və mühit seçməsi haqqında 150
Yusifin birinci yuxusuna dair mülahizələr 152
Yusifin paytaxta aparılmasındakı ilahi hikmət 154
Uşaqlığında Yusifin valideynlərindən məhrum edilməsindəki ilahi hikmət. 156
Analıq şəfqətindən cinsi zorakılığa doğru 157
Maqnit effekti. 158
Yusif zindanda 160
Çin çıxan yuxular 162
Rəmzi yuxular: yuxu, yoxsa danışıq? 163
Nə üçün Yusif özünün kim olduğunu qardaşları və atasına gec bildirmişdi? 169
"Yusif" surəsində telepatiya, psixosomatik xəstəliklər və nəzər məsələsi 177
Telepatiya 178
Psixosomatik pozğunluqlar. 181
Bədnəzər 183

Son söz 188
İstifadə edilmiş ədəbiyyat. 193
Müəllif haqqında. 199

Kitabda, xüsusən psixologiya ixtisası olmayan oxuculara psixologiyanın elmi baxımdan əsaslandırılan, peyğəmbərlərin həyatının öyrənilməsində işə yarayan təlimləri ilə qeyri-obyektiv, dünyəviliyə söykənən tezisləri arasındakı fərq izah olunur.

Kitab peyğəmbərlərin həyatının psixoloji-emosional aspektləri mövzusuna həsr edildiyi üçün ayrıca fəsildə müasir psixoloji-nevroloji araşdırmalar baxımından emosiya və həyəcanlanma haqqında danışılır. İlk iki fəsil kitabın ana mövzusunun öyrənildiyi sonrakı dörd fəsilə giriş məqsədi daşıyır.

Üçüncü fəsil ibadətdə və imanın kamilləşməsində emosiyaların rolu haqqındadır. Dördüncü fəsildə peyğəmbərlərin emosiyaları mövzusu öyrənilir. Beşinci fəsildə peyğəmbərlərin emosional, psixoloji və mənəvi keyfiyyətləri mövzusuna toxunulmuşdur.

Son iki fəsildə Quranda öz əksini tapmış həyat hekayələri əsasında Həzrət Musa və Yusifin emosional və psixoloji tablosunun yaradılmasına cəhd göstərilir.

Beynəlxalq İslam
Fikri İnstitutu